TARİXİN YADDAŞI



Feyruz Bağırov

Feyruz Bağırov

TARİXİN YADDAŞI

(təkmilləşmiş 2-ci nəşr)

And olsun ki, Biz onu (Hz. Nuhun gəmisini sonrakı nəsillərə) ibrət almaq üçün (dağda) saxladıq. Amma heç bir ibrət alan varmı?

(Quran, "Qəmər" surəsi, ayə 15)

Naxçıvan – 2016

Məsləhətçilər: Abutalıb Qasımov- tarix elmləri namizədi, dosent.

Fəxrəddin Cəfərov- tarix elmləri Doktoru.

Ön söz: Qadir Həsənov

- Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi TAMC Rəyasət heyətinin üzvü, Naxçıvan MR Tarixi Abidələri Mühafizə Cəmiyyətinin sədri.

Redaktor: Vəli (Qaraxan) Vəliyev

- Azərbaycan Yazıçılar Birliyinin üzvü.

Kompüter dizaynı: Hafiz Bağırov

Feyruz Bağırov, TARİXİN YADDAŞI.

Təkmilləşmiş ikinci nəşr Naxçıvan- 2016. 207 səh., şəkilli.

Müəllifin Web saytı: www.nuhyurdu.com

E-mail ünvanı: info@nuhyurdu.com

ANNOTASİYA

Kitabda Nuh yurdu-Naxçıvan ərazilərində eranın əvvəlindən başlayaraq sosial-tarixi hadisələr xronoloji ardıcıllıqla göstərilərək, müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi vəziyyəti məlumat şəklində şərh olunmuşdur

Naxçıvan Muxtar Respublikasının 95 illiyinə

“Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir.”

(Heydər Əliyev)

MÜNDƏRİCAT

Ön söz 7

Naxçıvan qədim tarixdə 10

Naxçıvan orta əsr tarixində 20

Naxçıvan yeni tarixdə 39

Naxçıvan ən yeni tarixdə 97

Naxçıvan müasir tarixdə 153

Naxçıvan yeni əsrdə 180

Naxçıvan Muxtar Respublikası barədə 194

Naxçıvan şəhəri 195

Babək rayonu 197

Culfa rayonu 199

Ordubad rayonu 202

Şahbuz rayonu 204

Kəngərli rayonu 206

Şərur rayonu 208

Sədərək rayonu 210

Tarixi Qars müqaviləsi 211

Qars müqaviləsinə erməni narazılıqları 219

Kitabın yazılmasına səbəb 221

Xəritə və şəkillər 223

20-ci əsr və 21-ci əsrin əvvəllərində Naxçıvan yetirmələri 244

Tarixi abidələrin mühafizəsi üçün telefon əlaqəsi 266

Tarixi ölçü və çəki vahidləri 268

Ədəbiyyat 270

“Bir xalqın məhvinə çalışan qüvvələr, insanların mənəvi və tarixi dəyərlərini əllərindən alarlar. Bir xalqın ki qayğısını çəkən müdrik rəhbər varsa, o xalqa zaval yoxdur.”

(F. A. Bağırov)

Ön söz

Feyruz Abdulla oğlu Bağırov 1946-cı ildə Naxçıvan şəhərinin "Əlixan məhəlləsi"ndə ziyalı ailəsində anadan olmuşdur. Orta ümumtəhsil məktəbini başa vurduqdan sonra orta ixtisas məktəbində təhsilini davam etdirmiş, sonra həm Ali İncəsənət Universiteti və həm də Pedaqoji İnstitutunu bitirmişdir. Tələbəlik və sonrakı illərdə F.Bağırov təhsil və mədəniyyət sahəsində çalışmışdır. Uzun illər o, Naxçıvan MR Tarixi Abidələri Mühafizə Cəmiyyətinin üzvü kimi dövrü mətbuatda bir sıra elmi-publisistik məqalələrlə çıxış etmişdir. Vətənə, elə, torpağa, onların tarixinə və təbliğinə aid yazdığı çox maraqlı və səciyyəvi məqalə və kitabları müəllifinə şöhrət gətirmişdir.

Feyruz müəllim tədris sahəsində işlədiyi illərdə ədəbi yaradıcılıqla da məşğul olmuş və bu diyarın təbliğinə aid bir-birindən maraqlı yaddaqalan əsərlər yazmışdır. "Ziyarətnamə" (1996), "Nuh yurdu-Naxçıvan" (1999), "Əzablı günlər" (2006), "Naxçıvanın təbii sərvətləri" (2007), "Nuh yurduna ziyarət" (2008), "Axirət fədaisi" (2009) kitablarında o, toxunduğu mövzuların tarixi-fəlsəfi və ictimai turizm cəhətlərini oxuculara təbliğ etməklə, xalqımızın bir sıra mənəvi və bəşəri dəyərlərini səciyyəvi şəkildə canlandırmışdır. Bu əsərlərdə müəllif tərəfindən irəli sürülən, təhlil edilib, analiz və sintez süzgəcindən keçirilən vətənpərvərlik ideyaları, oxucuların rəğbətini qazanmışdır. Göstərilən kitablar kiçik həcmli olsa belə, Naxçıvandakı tarixi-mənəvi və tarixi abidələrin mühafizəsi və ziyarətgahların bərpa işləri sahəsində geniş təbliğat nümunəsi kimi olduqca əhəmiyyətlidir.

Erməni təcavüzkarlarının vəhşi əməllərini arxiv sənədləri əsasında öyrənən müəllif, tarixi ictimai-siyasi hadisələri, bədii obrazların dili ilə də oxuculara çatdırmışdır. Ermənilərin Azərbaycan türklərinə qarşı etdikləri vəhşiliklər onun realist rəssam B.Kəngərlinin həyatının son illərindən bəhs edən "Əzablı günlər" tarixi-psixoloji mənzum pyesində daha qabarıq, həyat gerçəklikləri ilə göstərilir.

Təkmilləşdirilmiş formada yazılmış Tarixin yaddaşı kitabı, müəllifin uzun illər çəkdiyi zəhmətinin bəhrəsidir. Doğma yurdu Naxçıvan şəhərinin yarandığı dövrdən bu günə kimi tarixini məlumat şəklində göstərdiyi bu kitab müəllifin ən uğurlu əsərlərindən sayılmalıdır. Sosial-tarixi hadisələr xronoloji ardıcıllıqla yazılmış bu əsər müstəqil Azərbaycanın və onun tərkibindəki Naxçıvan Muxtar Respublikasının ərazi bütövlüyünü göz bəbəyi kimi qoruyub saxlamağı geniş təbliğ etməklə yanaşı, oxucuya vətənpərvərlik ideyalarını da geniş təlqin edir.

Kitabda Cənubi Qafqazda yerləşmiş Naxçıvan diyarının sosial-tarixi məqamları ardıcıllıqla izlənmiş, son illərin ictimai-siyasi hadisələri geniş şərh edilərək və Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra onun dünya dövlətləri arasında nüfuzunun səbəbləri aşkarlanmışdır. Bütün bunlarda Heydər Əlirza oğlu Əliyevin siyasi uzaqgörənliyinin rolu yüksək səviyyədə şərh edilərək dəyərləndirilmişdir.

Kitabın "Naxçıvan yeni əsrdə" bölməsində Azərbaycan dövləti və xalqının inkişafı üçün H.Ə.Əliyev siyasətinin davamçıları olan Azərbaycan prezidenti İlham Heydər oğlu Əliyev və Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun dövlətçiliyimizin inkişafında Azərbaycanın və ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarının yenidən qurulmasındakı fədakarlıqlar ardıcıllıqla göstərilmişdir. "Naxçıvanın tarixi şəxsiyyətləri" bölməsində Nuh yurdu-Naxçıvan diyarındakı tarix boyu inkişaf edib xalqına ləyaqətlə xidmət göstərmiş insanlar haqqındakı qıssa xronoloji məlumat, tələbkar oxucuda maraq doğuracaqdır.

Kitabda həm tarixi xronoloji baxımdan, həm də diyarın qəbaləsi kimi, tale yükünü müəyyənləşdirən bir sıra rəsmi sənədlərin surətləri öz yerlini tapmışdır. Belə ki, 1918-20-ci illərin Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvandakı Araz (Türk) Respublikasının hökumət strukturu, Naxçıvanın müstəqilliyini tanıyan rəsmi hüquqi sənəd kimi qəbul edilmiş 1921-ci ilin tarixi Qars müqaviləsinin mətni, 1991-ci ilin Naxçıvan MSSR Ali Soveti Sədrinin bəyanatı və habelə oxucuların marağına səbəb olacaq bir sıra tarixi xəritə və sənədli foto şəkillər kitaba dəyər gətirmişdir.

Muxtar respublikadakı mövcud tarixi və təbii abidələri mühafizə məqsədi ilə vətənpərvərlərin təcili əlaqəsi üçün kitabın sonunda Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi tabeçiliyindəki müəssisələr, habelə Ali Məclis və Nazirlər Kabinetinin xidmət telefon nömrələri də göstərilmişdir.

Müəllif təkmilləşdirilmiş formada yazdığı Tarixin yaddaşı kitabını, Naxçıvan Muxtar Respublikası yaradılmasının 95 illiyinə töhfə kimi qələmə almışdır. Kitab, Heydər Əliyevin "Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir" kimi dəyərli sözləri ilə başlayır.

Naxçıvan Diyarının ictimai-siyasi və sosial-mədəni tarixi məqamlarından məlumat verən, onun ən azı dörd minillik tarixini qısa da olsa qaynaq və mənbələrdən istifadə etməklə, yeni vəsait müəllifin uzunmüddətli zəhmətinin, gərgin elmi axtarışlarının və heç şübhəsiz ki, öz torpağına olan vətənpərvər məhəbbətinin bəhrəsidir.

“Tarixin yaddaşı” kitabı (təkmilləşdirilmiş formada) Muxtar Respublikanın tarixi inkişafı, sosial-mənəvi və turizm sahələri ilə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur. Müəllif ayrı-ayrı bölmə və məlumatlara uyğun, mənəviyyatla maraqlanan oxucuya Qurandan məqsədli ayələr, müasir və klassik şairlərin ibrətamiz şerlərindən isə misralar yazıb bildirir. Bundan başqa müəllifin Xalq teatrları və özfəaliyyət dram kollektivləri üçün, əvvəllər qələmə aldığı “Əzablı günlər” adlı tarixi-psixoloji mənzum pyes də kitaba əlavə olunmuşdur.

Feyruz Bağırov Muxtar Respublika mədəniyyətinin yorulmaz təbliğatçısıdır. Ürəkdən sevib uzun illər xidmət etdiyi bu sahədəki fəaliyyətində müəllifə uğurlar diləyir, yeni əlçatmaz yaradıcılıq zirvələrinin fəthini arzu edirəm.

Qadir Həsənov

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

TAMC Rəyasət heyətinin üzvü, Naxçıvan MR Tarixi Abidələri Mühafizə Cəmiyyətinin sədri.

“Kim bilir neçədir dünyanın yaşı,
Tarixin nə qədər yazısı vardır.
Hər saxsı parçası, hər məzar daşı,
nəsildən-nəslə bir yadigardır.”

(S. Vurğun).

BÖLMƏ

Naxçıvan qədim tarixdə

Nuh yurdu adlanan Naxçıvan ölkəsi ən qədim insanların məskunlaşdığı ərazilərdən biridir. Azərbaycan MEA-nın və Akademiyanın Naxçıvan Bölməsinin etnoqrafiya üzrə mütəxəssisləri qazıntılar apararaq əldə olunmuş tapıntılarla sübut etmişlər ki, Naxçıvan ərazisi ən qədim insanların yaşayış məskənləri ilə zəngindir.

XX əsrin birinci yarısında Naxçıvanın arxeoloji abidələrini öyrənmək məqsədi ilə təşkil edilən ekspedisiyaların İ.İ.Meşşaninov, A.A.Miller, Ə.K.Ələkbərov və O.H.Həbibullayevin rəhbərliyi ilə aparılan araşdırmalar nəticəsində zəngin maddi-mədəniyyət nümunələri (boyalı saxsı qablar və s.) tapılmışdır. Daha sonra müxtəlif illərdə Q.M.Aslanov, S.M.Qaşqay, B.İ.İbrahimov, M.M.Seyidov, M.M.Hüseynov, Ə.Q.Cəfərov, A.Q.Seyidov, Q.H.Ağayev, V.B.Baxşəliyev, S.H.Aşurov, Ə.H.Bədəlov və başqa tədqiqatçılar tərəfindən arxeoloji abidə və tarixi mədəniyyət nümunələri aşkar olunmuşdur.

Belə ki, I Kültəpə ilə Sirab kəndi ərazilərində neolit (daş) dövrünə aid bir çox elmi məlumatlar əldə olunmuş, enolit (mis) və tunc dövrlərinə aid isə çoxlu maddi-mədəniyyət əşyaları aşkar edilmişdir. (V.Baxşəliyev, A.Seyidov, “Naxçıvanın qədim tarixi” Bakı- 1995; V.Baxşəliyev, “Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti” Bakı- 2004).

Mərhum professor Əziz Şərifin (1895-1998) sözü ilə desək; “Naxçıvan ərazicə kiçik, mənəviyyatca böyük məmləkətdir.” Naxçıvanın özünə gəldikdə isə o, təkcə Azərbaycanın və Qafqazın deyil, həmçinin dünyanın ən qədim şəhərlərindən biridir.

Bir sıra dünya tarixçiləri Ptolomey (“Coğrafi təlimnamə” (rusca), 5-ci kitab), Herodot (“Tarix” (rusca), 5-9-cu kitablar), Əl-Əşrəfi, M.Xorenski, A.Yampolski, K.Nikitin, M.Dyakonov və başqaları, türk ləhcəsində danışan oğuzların Qafqaza ilk dəfə bizim eradan əvvəl 7-ci əsrdə gəldiklərini bildirirlər. Bundan öncə isə türkdilli qəbilələr, Amur-Yenisey çayları ətrafında məskunlaşmışdılar. Qafqaz bölgəsində ayrı-ayrı dövrlərdə digər qəbilədən olan millətlər də burada, oğuzlarla birgə yaşamışlar.

Bir sıra tədqiqatçılara görə, (V.M.Mosson, “Srednyaya Aziya i Drevniy Vostok” Mos.-Len.-1964; İ.M.Dyakonov, ”Şumerskiy qeroiçeskiy epos” (Vestnik Drevn. Istor. № 3), Moskva-1964; S.N.Kramer, “İstoriya naçinaetsya v Şumere” Moskva-1965; A.A.Miller, “Arxeoloqiçeskie issledovaniya v Naxiçevanskoy Resp.” (soobş. QAİMK), Leninqrad-1926; K.A.Nikitin, “Qorod Naxiçevan i Naxiçevanskiy uezd” (SMOMPK), Tiflis- 1882; V.H.Əliyev, ”Qədim Naxçıvan” Bakı-1979; H.F.Cəfərov, “Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində” Bakı-2000; V.B.Baxşəliyev, “Naxçıvanın qədim yazı nümunələri haqqında” Naxçıvan-1999) bu ərazilərdə hələ 35 min il bundan əvvəl Mustye mədəniyyəti dövrünün insanlarının da izlərinə rast gəlinir.

Qədim insanların bütün bu mədəniyyət etaplarına Kiçik Qafqazın Naxçıvan çuxurundakı böyük yaşayış yerləri olmuş Tərsus və Yafəsdə (Rəqimdə) (I-XI əsrlərdəki “Ocaqtəpə” yaşayış yeri) rast gəlinir. (Quran, Əl-Kəhf 18/9-21). Tərsus şəhərinin xarabalıqları indi Babək rayonundakı “Qızılburun” dəmir yolu stansiyası yaxınlığındakı “Ölən şəhər” adlanaraq, həmin rayondakı Məzrə kəndi yaxınlığındakı qədim yaşayış yeri olmuş “Ocaqtəpə” tarixi arxeoloji ərazilərdədir. (Q.Qədirzadə, ”Əshabi Kəhf” Bakı-2002; F.Bağırov, “Nuh yurduna ziyarət” Bakı-2008, səhifə 22,).

Naxçıvanın adının çəkildiyi ən qədim yazılı qaynaq Yunan coğrafiyaçısı Ptolomeyin (e.ə. 87-165) “Coğrafiya” (5-ci kitab, 11-ci fəsil) əsəridir. O, Naxçıvanın adını “Naxsuana” kimi qeyd edir. Digər Yunan tarixi mənbələrində bizim bu yer “Vospurkan”, yəni müqəddəs məkan adlandırılır. (Axı uzaq yunan bu şəhərə niyə “müqəddəs məkan” deməliydi ? Bu sualın cavabını sonra, yəni şəhərin adının deşifrəsini oxuyandan sonra tapacağıq).

Bizim Eranın I əsrində ərazidəki əhali heyvandarlıq, əkinçilik və sənətkarlıqla məşğul olmuşdur. Naxçıvana həmin mədəniyyət Şimali Mesopatomiyadan gətirilməsi ehtimal olunur. (B.M.Mosson, “Srednyaya Aziya i Drevniy Vostok” Mosk.-Len.-1964; İ.H.Nərimanov, “Naxçıvanın erkən əkinçi-maldarlıq əhalisinin tarixindən” Bakı-2003). Digər bir məlumata görə, şəhərin adına “Naxçirov” (ovu sevən) deyilmişdir ki, bu da Sasani şahı Bəhram Çubinin (...?-592) ərazilərdə ov ovlaması ilə bağlıdır.

Tədqiqatçı K.Allahyarov qədim Parfiya dilindəki sözlərə görə araşdıraraq, İran alimi Məhəmməd Müinin “Fərhəngi-Farsi” adlı lüğətinin 4-cü cildində yazılmış “nəxcir” sözü “dağ keçisi” mənasında olduğunu göstərmişdir. (K.Allahyarov, “Naxçıvan sözünün mənşəyi və mənası” NDU Elmi əsərləri-2002). (Ordubad ərazilərindəki “Gəmiqaya” yaylasındakı qayalar üzərində çəkilmiş dağ keçisi petroqliflərinə işarə edilir).

Məşhur Alban tarixçisi Moisey Xorenski Qafqazda yaşamış qəbilələr barədə yazarkən, qədim "Naxçamasen" qəbiləsinin də adını çəkir. (Onun harada məskun olduğunu müəllif özü göstərməsə də (?), bizə elə gəlir ki, bu tayfanın Naxçıvanla əlaqəsi mütləq olmalıdır. Əks təqdirdə, az qala Naxçıvanla eyni səslənməzdi). Ümumiyyətlə, şəhərin adı barəsindəki mülahizələr çoxdur. Lakin Azərbaycan tarixçisi A.Yampolskinin vaxtında irəli sürdüyü ideya maraqlılığı ilə fərqlənir. Onun fikrincə, qədim Midiya dilində Nuh peyğəmbərin adı "Nəx" idi, "van" isə yer, məkan deməkdir. Bu fikir bu gün aşkar olunan həyati gerçəkliklə, yəni Nuh peyğəmbərin qəbrinin məhz bu yerdə olduğu faktı ilə tam üst-üstə düşür və həyat həqiqətini özündə əks etdirir.

Tədqiqatçı Ə.Eyvazlı isə yazdığı kitabınada Nuh yurdu Naxçıvan xalqının əcdadını, Türk mənşəli Saklara məxsus olduğunu qədim yer (məkan) adları əsasında sübuta çatdırmışdır. O, toponimləri açıqlayaraq, "Kitabi Dədə Qorqud" dastanı deyimləri ilə Naxçıvandakı ərazi adlarını qədim türklərə məxsusluğunu vurğulamış. (Ə.Eyvazlı, "Naxçıvan qədim türk torpağıdır" Bakı-2006).

Rus tədqiqatçısı K.A.Nikitinin 1882-ci ildə Tiflisdə rusca nəşr olunmuş "Qafqaz ölkəsi və tayfaların təsviri üçün materiallar" jurnalındakı "Naxçıvan mahalı və Naxçıvan şəhəri" adlı yazısında deyilir: "Dünya tufanından sonra Noy (Nuh peyğəmbər) Qafqazdakı Naxçıvan şəhərinin yerləşdiyi ərazilərdə məskunlaşmışdır. O, gəmidəkilərlə bərabər elə orada da qalıb. Onun məskunlaşdığı ərazi də "Nəh" adlanmışdır". Məqalə müəllifi yazır ki, Hz.Nuh (ə) peyğəmbər yerli əhaliyə ərazidəki təpəlikdən duz çıxarmağı da öyrətmişdir.

Naxçıvandakı duz mağarasında 19-cu əsrin axırlarında nəzarətçi işləyən İqnat Beyer tərəfindən müəllifin təsvir etdiyi alətlər-daş baltalar tapılmışdır. Beyer tapdığı qədim alətlərdən ikisini şəhərdəki Rus-tatar məktəbinə vermiş, qalanlarını isə Tiflis və Peterburqdakı muzeylərə göndərmişdir. Sonrakı illərdə həmin baltalardan biri, (1925-ci ildə) Naxçıvan şəhər sakini mülkədar Balabəy Əlibəyovun (1855-1930) şəxsi evindəki ölkəşünaslıq muzeyində saxlanılmışdır. Naxçıvandakı Duzdağ mağarasından tapılmış daş baltaların işlədilməsi tarixi eradan əvvəl V-I minilliyə aid xəbər verir. Həmin alətlərə əsasən Naxçıvan şəhərinin yaranma tarixi də 5.000-5.300 il əvvəllərə gedib çıxır. (K.A.Nikitin "Qorod Naxiçevan i Naxiçevanskiy uezd" (rusca) Tiflis-1882).

Türk səyyahı Övliya Çələbi mülahizə edir ki, Naxçıvan şəhəri Turan hökmdarı Əfrasiyab tərəfindən salınmışdır. Orta əsrlərin ərəb qaynaqlarında isə, şəhərin adı "Nəşava" kimi yazılsa da, Həmdullah Qəzvini, Katib Çələbi, Övliya Çələbi və başqaları bu yeri "Nəqşi-cahan" (dünyanın bəzəyi, naxışı) adlandırmışlar. Qədim Naxçıvan ərazilərində eramızdan əvvəl 4-1-ci minillikdə mədəni yaşayış yerləri olmuşdur. Həmin yerlər II Kültəpə, Govurqala, Qarabağlar, Oğlanqala, Plovtəpə, Qazançıqala Ovçulartəpə və sairədir. Üzərində dövrün dini-mifoloji təsvirləri ilə zəngin bu ərazidən tapılmış boyalı saxsı qabların varlığı tunc dövründə mədəni-məişət işlərinin yüksək səviyyədə olduğuna şahidlik edir.

"Əgər siz həqiqətən Allaha iman gətirsəniz, əgər Ona təslim olmuş kimsəsiniz, artıq sadəcə Ona təvəkkül edin."

(Quran, Yunus 10/84)

Şərur rayonu ərazisindəki Ovçulartəpəsi yaşayış yerində aparılan tədqiqatlar zamanı burada məskunlaşan qədim insanların həyat tərzi ilə bağlı yeni faktlar aşkar olunub. AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin rəhbərliyi ilə aparılan arxeoloji qazıntılar zamanı müəyyən edilib ki, e.ə. V minilliyin sonunda burada məskunlaşan insanlar dördkünc formalı yarımqazma tipli evlərdə yaşamışlar. Qədim yaşayış yerində insanlar əkinçilik, maldarlıq, ovçuluqla məşğul olmuşlar. Qazıntı zamanı körük ucluğunun aşkarlanması bu yaşayış yerinin əsas metalişləmə mərkəzlərindən biri olduğunu deməyə imkan verir. (V.Baxşəliyev, "Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti" Bakı-2004).

"Keçmişin xəbərlərinin bir qismi sənə belə nəql edirik..."

(Quran, Taha 20/99-100)

Naxçıvan sözü əslində “Nuh yaşayan yer” kimi tərcümə edilir. Bu, sözün mənşəyinin Ulu Peyğəmbərlə bağlı olduğuna ən bariz sübutdur. Zənnimcə, bundan tutarlı dəlil söyləmək və ya buna qarşı hər hansı arqument qoymaq cəfəngiyatdır. Naxçıvanda yaşamış realist rəssam Bəhruz Kəngərlinin çəkdiyi “Nuhun qəbiri” tablosunda, məhz Naxçıvanın qədimliyindən xəbər verilir. Belə ki, istər Hz.Nuh (ə) peyğəmbərin Dünya tufanından sonrakı həyatı və istərsə də məzar türbəsinin Naxçıvan şəhərində olması həqiqətə uyğun gəlir. Lakin tarix boyu bu torpaqda gedən müharibələr nəinki yerli adamları ərazidən didərgin salmış, müqəddəs inanc yerlərini uçuraraq məhv edilmiş və tarixin yaddaşından silinmişdir.

Tiflis şəhərindəki arxiv sənədlərinin birində göstərilir ki, Hz.Nuh (Noy) (ə) peyğəmbərlə arvadı Əmirə (Namanın) qəbirləri Naxçıvan (Araz üstə) şəhərindədir. Həmin sənədə əsasən Gürcü arxeoloqu, Peterburq EA-nın müxbir üzvü V.V.Qriqoryev (1816-1881), Hz.Nuh (Noy) (ə) peyğəmbərin qəbiri şəhərin cənub qurtaracağında (“Köhnə qala”nın yanında) olduğu bildirir. (V.V.Qriqoryev, ”Rossiya i Aziya” (rusca) S.Peterburq-1876). Tarixçi alimlərin fikrincə peyğəmbərin kiçik oğlu Yafəs Araz çayı yaxınlığında, ortancıl oğlu Sam Azıx mağarasında, böyük oğlu Xam isə Ağrı dağı yaxınlığında məskunlaşır.

Hz.Nuh (ə) peyğəmbər, arvadı Əmirə (Nama) və oğlu Yafəslə bərabər indiki Naxçıvan ərazilərində olmuş və arvadı ilə oğlunun vəfatından yüz il sonra (ömrünün 950-ci yaşında) dünyadan köçmüşdür. Rəvayət olunur ki, Hz.Nuh (ə) peyğəmbər həyətindəki iplikləri boyayanda Əzrail mələk gəlmiş və ona salam vermişdir. Söylənilir ki, mələyin salamını alan peyğəmbər, əlindəki işini buraxaraq gəlib ağac kölgəsində oturur. Əzrail gülümsəyərək ondan soruşur: “Ya peyğəmbər Allah-təala sənə ən çox ömür verdi ki, çox şeyi görüb biləsən. De görək indi sən ömrün boyu nəyi yaxşı görüb və nəyi də pis bilmişsən ?” Peyğəmbər cavabında mələyə söyləyir: “Mən heç nə görüb bilməmişəm, indicə gün altında idim, gəlib ağac kölgəsində oturdum”. İnsan yer üzündə kosmik hesabla (A.Eyneşteynin zamanın nisbiliyi nəzəriyyəsinə görə- F.B.) heç bir gün də yaşamadan dünyadan köçməli olur. Çünki Quranda belə deyilir: “...Rəbbinin dərgahında bir gün, sizin saydığınız min il kimidir!” (Həcc surəsi ayə 47). ABŞ-ın Kaliforniya Universitetinin professoru B.Libertə görə Ahıl insan beyni müəyyən bir zaman müddətində keçmiş hissiyyatını itirir. Bu haqda Quranda belə deyilir: “Allah istəməsə, siz istəyə bilməzsiniz...” (İnsan surəsi ayə 30). (Ruh bədəndən xaric olarkən ən əvvəl yaddaşı pozularaq və Yaradan qarşısında aciz qalır. İnsan yalnız əməllərinə görə gələcək nəsillərə xatırlanar- F.B.).

Mələk cavabdan razı qalaraq peyğəmbərə belə söyləyir: “Ya peyğəmbər xoş sənin halına, duanı oxu, bu gün, sənin son günündür, qiyamətdən sonra Cənnətdə (Behiştdə) əbədi yaşayacaqsan. İzn ver Allahın bəxş etdiyi pak ruhunu mələklər Bərzəxə aparsın...” (Ə.Əhmədov, “Allahın hüccətləri” Bakı-1999; H.Yəhya, “Zamansızlıq və tale həqiqəti” İstanbul-2008).

“Nuh dedi: “Ey Rəbbim! Mən şeytanın vəsvəsəsindən Sənə sığınıram !”. (Quran, Muminun 23/97)

Dünya tufanından sonra insanlar Yer üzərində müxtəlif yerlərdə məskunlaşırlar. Hz.Nuh (ə) peyğəmbərin böyük oğlu Xam nəslindən olan Nəmrud Kanan oğlu, Fərat çayı sahillərində yaşayaraq oradakı ərazilərin hakimi olur. O, ilkin dini inancından üz döndərərək, bütpərəstliyi qəbul edir. Dünyanı yenidən su basacağından qorxan Nəmrud, uca bir qüllə tikdirir. Lakin çox çəkmir ki, qüllə uçub dağılır və əhali bir-birinin dilini başa düşməyərək müxtəlif ərazilərə dağılır.

Qədim Tarix bəhsində qeyd edildiyi kimi, Naxçıvan ərazisi qədim dünya sivilizasiyasının əsas yerlərindən bir olmuşdur. Aralıq dənizi, Qafqaz o cümlədən də Naxçıvan və İran körfəzi sahilləri, qədim Babil mədəniyyətinin Türk (Şumer-Akkad) və ümumiyyətlə bəşəriyyətin ilkin mədəni yaşayış yerlərindən biridir.

Dünyadakı insanlar ailə, tayfa, cəmiyyət arasındakı inkişaf sürətləndikcə, dövlətlərin yaranmasına səbəb olmuş. Cəmiyyətdəki millətlər şeytanın vəsvəsəsinə uyaraq, torpaq əraziləri üstündə qanlı müharibələr törədirlər. Qafqazda yaşayan millətlərdən biri də, türkdilli Azəri oğuzları olmuş. Onlar oda (atəşə), günəşə, ulduzlara və müxtəlif heyvan və quşlara sitayiş etmişlər. Atəşpərəstlərin mənəvi inancları Zərdüştün “Avesta” kitabı idi. Həmin “qanunları” Rum sərkərdəsi İsgəndər Zülqərneyn (e.ə. 356-323) tərəfindən yandırılaraq məhv edilmiş. (Quran, Rum və Kəf surələri; Plutarx, “İsgəndər Zülqərneyn” Bakı-1993).

Naxçıvan ərazilərindəki atəşpərəstlər, sonradan miqrasiya edərək, Dəclə və Fərat çayları mənsəbində (Mesopotamiyada) yaşamışlar. Qədim Şumer tayfalarının yazılı ədəbi dastanı “Gilqameş” də deyilir ki, Hz.Nuh (ə) peyğəmbərin gəmisi, Dünya tufanında üzərək gəlib Cudi (indiki Ağrı- F.B.) dağında dayanmışdır. (Cudi (cibal) sözü ərəbcə yüksək yeri bildirir- F.B.).

“And olsun ki, Biz onu (Hz. Nuhun gəmisini sonrakı nəsillərə) ibrət almaq üçün (dağda) saxladıq. Amma heç bir ibrət alan varmı?”

(Quran, Qəmər 54/15)

Həmin hadisənin (Dünya tufanının) müasir arxeoloqlar sübuta çatdırmışlar. Belə ki, ABŞ-ın Pensilvaniya Universitetinin arxeoloqu Leonard Uoley Bağdadla Bəsrə körfəzləri arasında (səhrada) qazıntı işləri aparmışdır. O, nəşr elətdiyi “Readers Digest” jurnalında belə yazır; “...Palçıq altında qalmış bir mədəniyyət üzə çıxdı. Bu isə bölgədə böyük bir subasmanın, yəni daşqının baş verdiyini göstərirdi. Bundan başqa, mikroskopik analiz təmiz gildən qalın bir təbəqənin qədim Şumer mədəniyyətini məhv edəcək qədər güclü və böyük bir tufan tərəfindən bura atıldığını göstərirdi. “Gilqameş” dastanı ilə Nuhun hekayəti Mesopotamiya səhrasında qazılan bir quyuda ortaq bir mənbədə birləşirdi.” (F.Warshofsky, “Ur of the Chaldees” “Readers Digest” jurnalı, (ABŞ) dekabr-1977).

Ordubadın Gəmiqaya yaylasında qədim insanların yaşayış məskənlərini bildirən petroqliflər (qaya rəsmləri) vardır. Son illərdə Naxçıvan MR Ali Məclisi sədri V.Talıbovun sərəncamı ilə Gəmiqaya petroqlifləri elmi şəkildə öyrənilmişdir. Azərbaycan MEA Naxçıvan Bölməsinin tarixçi mütəxəssisləri həmin qayaüstü petroqliflərin yazılma tarixini araşdırmışlar. Tədqiqatçılar (Y.Səfərov, Ə.Hüseyni və başqaları) göstərirlər ki, Naxçıvan diyarı qədim insanların yaşayış yerləri kimi, (e.ə. 1539-40-cı illər) ərazidə Hz.Nuh (ə) peyğəmbərin adı ilə bağlı coğrafi toponimlər vardır. Onlardan Nuhəcr, Nuhdabanı, Nuhyurt, Nuhçuxuru, Nus-nus və sairə. Bundan başqa Naxçıvan şəhərində peyğəmbərin məzarüstü sərdabə qalıqları da dövrümüzədək qalmışdır.

Ərəb coğrafiyaçısı Əl-Əşrəfinin fikrincə Naxçıvanda Hz. Nuhun özü ilə arvadı Əmirənin də qəbirlərinin olduğunu bildirmişdir. Hətta erməni tarixçisi V.Camçıyan da peyğəmbər Noy və arvadı Namanın qəbirlərinin Naxçıvan şəhərində olmasını bildirmişdir.

Keçən əsrin altmışıncı illərində Naxçıvan şəhərinin şimal-qərb hissəsindəki İ.Səfərli küçəsində torpaq qazılarkən içərisində qadın olan daş sənduqə aşkar olmuşdur. Həmin tarixi tapıntını arxeoloqlar qədim dövrlərin yadigarı kimi, Leninqraddakı Ermitaj muzeyinə apararaq və mətbuatda isə "Yatmış gözəlin sirri" sərlövhəli elmi məqalə dərc etmişlər. (Y.Səfərov, "Bir əfsanənin mənşəyi" "Azərbaycan" jur. 1966 № 3; V.Baxşəliyev, "Naxçıvanın qədim yazı nümunələri haqqında" Nax. DU-nin elmi əsərləri 1999 № 4; B.Q.Aliyev, "Petroqlifi Qemiqaya"(rusca) Bakı-1985; N.Ə.Müseyibov, "Gəmiqaya rəsmləri" Bakı-2002; "Naxçıvan Ensiklopediyası", Bakı-2002).

Naxçıvan MR Ali Məclisin sədri V.Talıbov tərəfindən "Nuh peyğəmbərin Naxçıvandakı məzarüstü türbəsinin bərpası haqqında" sərəncam imzalanmışdır. Peyğəmbərin məzarüstü türbəsi Sovetlər dövründə vəhşiliklə sökülmüş. Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin etnoqraf alimlərinin məsləhəti ilə vaxtilə sökülmüş abidə, bu yaxınlarda yenidən bərpa edilərək ən ulu, ən müqəddəs ərməğan kimi xalqımıza qaytarılmışdır. (Q.Qədirzadə "Nuh peyğəmbər, Dünya Tufanı və Naxçıvan" Naxçıvan-2008).

I əsrdə Qafqazdakı sonralar "Odlar ölkəsi" adı ilə Azərbaycan iki yerə bölünərək, Kür çayından şimal ərazilər Albaniya və cənub ərazilər isə Atropatena adlanır. Bizim eranın əvvəllərində Naxsuana (Vospurkan) adlanan ərazilər Bizans hakimlərinin göndərdikləri legionlar tərəfindən dağıdılaraq əhalisi isə talanır. Tezliklə Persiya (İran) ilə Bizans arasında baş verən qanlı savaşlardan sonra, Naxçıvan, Midiya hakimiyyətinə tabe etdirilir. Beləliklə Naxçıvanla Qoqtən (Ordubad) əraziləri, Persiya (İran) Sasani şahlığının ixtiyarında qalır.

"İran əgər bir can olsa, ona başdı Azərbaycan,
Tarix boyu millətlərə arxadaşdı Azərbaycan.
Bəlalıdır "Qurban" daşı, ayrı düşüb dost, qardaşı,
Kimsə bilməz nədir yaşı, daş yaddaşdır Azərbaycan."

(Qurban Cəlaloğlu).

II əsrdə Naxçıvan ərazisində xüsusi mülkiyyət güclənir. Burada Sasani şahı I Şapura (224-241) aid sikkələr kəsilir və ticarət inkişaf etdirilir. Naxçıvan əraziləri əlverişli mövqedə olduğundan, dəfələrlə Roma-Persiya, Persiya-Bizans müharibələrinin qanlı meydanına çevrilmişdir.

III əsrin ortalarında Naxçıvan ərazilərini şah II Şapurun (309-379) başçılığı ilə Sasanilər ələ keçirib və məbədləri də uçurub dağıdırlar. (Tezliklə Sasani şahı bütün Qafqazı ələ keçirərək, 300 il Persiyadan asılı salır)...

Eranın IV əsrində Naxçıvan ölkəsi nisbətən tərəqqi etmişdir. Burada mənəvi, sosial və mədəni quruculuq inkişaf edərək, üzərində "Nəxç" yazılmış gümüş sikkələr kəsilmiş və ticarət gücləndirilmişdir. (Sonrakı əsrlərdə Naxçıvan ərazilərini Ərəb xilafəti tutaraq, onlar da öz sikkələrini kəsdirmişlər)...

Tarixin yaddaşına nəzər salaq: Naxçıvan şəhəri dörd dəfə öz yerini dəyişməli olmuşdur. Əvvəlinci şəhər yeri Naxçıvan çayı ərazisinin sağ tərəfində geniş bir sahədə olmuşdur. Yadelli düşmənlər gəlib həmin şəhər yerini dağıdaraq və əhalisini də tutub qul kimi aparmışlar. Neçə yüz illər keçəndən sonra dağılmış şəhər yerinin yan tərəfində, indi ora xalq arasında "Qurdlar məhəlləsi" deyilir ki, kənardan gəlmə əhali tərəfindən orada şəhər salınmışdır. Çox çəkmir ki, həmin əraziyə də yadelli basqınçılar gəlib və şəhər yerini dağıtmış, kişiləri öldürərək qadınlarını isə qul-qaravaş kimi aparmışlar.

Üçüncü şəhər yeri isə bir azca cənub tərəfdə bir tərəfi Naxçıvan çayı, digər tərəfi isə uca təpəlik ərazi olmuşdur. Həmin təpəlik ərazidə möhrə palçıqla qalın divarı olan kiçik bir müdafiə qalası tikmişlər. "Narınqala" deyilən həmin qala yerində şəhərin varlı adamları ev tikdirmiş, kəhriz quyuları və yerin altı ilə Araz çayınadək çıxış yolu qazdırmışlar. Dördüncü şəhər yeri də indiki "Dəmirçilər məhəlləsi", "Anbar məhəlləsi", "Pirqəmiş məhəlləsi", "Şahab məhəlləsi" və "Atabəylər məhəlləsi" olmuşdur. Tezliklə şəhər böyüyərək və qədimdən qalma "Cığatay məhəlləsi" ilə "Zaviyə məhəlləsi" də şəhərə birləşmişdir.

Naxçıvan şəhəri əldən-ələ keçməklə əhalisi də kənar yerlərdən gəlmələr olmuşlar. Tarixin yaddaşına görə Dünya tufanından sonra Nuh peyğəmbər düzəltdiyi taxta gəmisi ilə , gəmidəki heyvanlardan cüt-cüt və peyğəmbərin ailə-uşaqları üzərək və gəlib indiki Ağrı dağında dayanmışlar. (Ağrı dağında vulkan külü altında donmuş vəziyyətdə Nuhun gəmisi indi də qalmaqdadır- F.B.). Nuh peyğəmbər arvadı Əmirə (Nama) və kiçik oğlu Yafəs ilə bərabər Mesopatomiya ərazilərindən Araz sahillərinə gəlmiş və "Nuh yeri" deyilən (sonradan bura Naxçıvan adlandırılmışdır- F.B.) ərazidə məskunlaşaraq yaşamışlar...

Müasir Naxçıvan şəhəri Müstəqil Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biridir. Belə ki, Naxçıvan xalqı əzmkarlıq göstərərək qurub-yaradır, texniki tərəqqini, elm, təhsil və mədəniyyəti inkişaf etdirir, səhiyyə, bədən tərbiyəsi və idman, sosial təminat və kənd təsərrüfatı sahələri durmadan inkişafdadır. Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev Naxçıvanda olarkən fəxrlə bu sözləri demişdir: "O Naxçıvan ki, əvvəllər qaranlıq və zülmət içində yaşayırdı. Bu gün Naxçıvan nurlu, işıqlı şəhərdir..."

> *"Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxar."*
>
> **(Quran, Fatir 35/28)**

BÖLMƏ

Naxçıvan orta əsr tarixində

V əsrin əvvəllərində Sasani şahı I Qubad (..?-531) siyasət işlədərək tabeliyindəki vilayətlərdə vergiyığanlara qarşı çıxan əhaliyə bir sıra güzəştlərə gedir. Əsrin sonlarında Vətən tarixində ilk dəfə bərabərhüquqlu dövlət yaratmaq istəyən Alban pəhləvanı Məzdəki (460-529) Sasanilərə qarşı üsyana qalxır. Lakin tezliklə I Qubadın oğlu I Xosrov (..?-579) tərəfindən Məzdəki hərəkatına son qoyulur. (M.Dyakonov, "Oçerki istorii drevnoqo İrana"(rusca) Moskva-1961).

VI əsrin ortalarında Azərbaycana türkdilli sabirlər, daha sonra isə xəzərlər gəlib məskunlaşırlar. Sabir tayfalarından mehranilər Partav (Bərdə) şəhərinə və ətraf bölgələrə köçərək (570-590) indiki Qarabağda yerləşirlər. Az sonra onlar Naxçıvanla da ticarət əlaqələri yaradırlar.

VII əsrin 2-ci yarısından başlayaraq Ərəblər Naxçıvan ərazilərində at oynadıb qılınc çalmış və bu qədim diyarı xilafətin tərkibinə qatmışlar. Az sonra Vospurkanı "Basfurcan" (Qəribə məkan) adı ilə əvəz etmişlər. Nəticədə Naxçıvan əraziləri Ərəb xilafətinin Qafqazdakı əlverişli məntəqəsinə çevrilir.

Naxçıvan ərazilərini ələ keçirən Ərəb sərkərdəsi Həbib ibn Məsləmə siyasət işlədərək qədim alban və atəşpərəstlik məbədlərini uçurmayaraq yerli əhalinin vergilərini artırır. Ərəblər Araz çayının üzərindəki Cuğa və Xudafərin körpülərindən keçərək, dəvə karvanları ilə ölkəmizin daşduz, mahlıc və başqa varidatını Dəməşqə daşıyırlar. (Balazuri, "Kniqa zavoevaniya stran" (rusca) Bakı-1927).

Ərəblər Naxçıvandakı əhalini ağır vergilərə cəlb edirlər. Əkinçilərdən "xərac", dindar müsəlmanlardan "xüms" və "zəkat", müsəlmançılığı qəbul etməyənlərdən isə "cizyə" adlı ağır vergilər alınır. (725-ci ildə Ərəblər ilk dəfə olaraq ərazilərdə əhalini siyahıya almış və 15 yaşına çatmayanları vergilərdən azad etmişlər).

VII- VIII əsrlərdə Naxçıvanda İslam dini geniş yayılaraq, digər inanclar aradan götürülür. Lakin bütün bunlarla baxmayaraq atəşpərəstliyin izləri hələ də qalmışdır. Zərdüşt qanunlarından bəhrələnən xalqımız ildə bir dəfə "Novruz" bayramı kimi unikal bir adəti atəşpərəstliyin ənənəsi kimi indi də yaşatmaqdadır. Zərdüştün "mələklərindən" olan Novruz, insanlara bərəkət tövhəsi gətirir.

Novruzu hər evdə (ocaqda) görmək istəyənlər isə buğda göyərdərək "səməni halvası" bişirməklə atəşfəşanlıq edərlər. Bütün bu od-atəş bayramı deyilən Novruz ənənələri xalqımızın milli deyimlərinə (folkloruna) bağlanmışdır. Zərdüştün "Avesta" kitabında gecə ilə gündüzün bərabərləşdiyi anlarda (mart ayının 20-dən 21-nə keçən ərəfədə- F.B.) "Xeyir"lə "Şər" mələkləri barışırlar. İnsanlar su, yel, od və torpaq çərşənbələrini təntənə ilə keçirib, qız-gəlinlər bulaq suyu ilə doqqazlarını (darvaza qapısını) sulayıb-süpürərlər...

İslam dini yayılana qədər Naxçıvanda yüzlərcə məbəd və inanc yerləri olmuşdur. Onlardan bir çoxu İsgəndər Zülqərneynin əsgərləri tərəfindən (Quran, Əl-Kəhf 18/91-98), qalanını isə, 654-cü ildə Ərəb Xilafətinin süvari qoşun dəstələri tərəfindən dağıdılır. Bütün Azərbaycanda olduğu kimi Ərəb xəlifləri, Naxçıvan diyarında İslam bayrağı altında çoxlu haqsızlıqlar etmişlər. Belə ki, 705-ci ildə Əmir Qasimin əmri ilə yüzlərcə naxçıvanlı igidlər diri-diri qala divarlarına hördürülmüşlər. (S.Babayev, "Qədim diyarın təbiəti" Bakı-1970).

Hicri tarixi ilə 61-ci ildə (m. 640) Ərəb xilafəti Yezid ibn Müaviyənin əsgərləri tərəfindən Həzrəti Muhəmməd (s) peyğəmbərin varislərinə də qanlı divanlar tutulmuş. Buna misal olaraq Kərbibəla tarixi hadisələrini göstərmək olar. Xilafətin haqsızlıqlarından Azərbaycana pənah gətirən peyğəmbər varisləri, Naxçıvanı özlərinə ikinci "vətən" seçmişlər. Peyğəmbərin xəlifləri Azərbaycan ölkəsində toxunulmadan və indi də həmin şəcərədən olan səyyidlər hörmətlə yaşayırlar. (IX əsrdə Naxçıvan əraziləri Sacilər dövlətinin tərkibinə qatılır və hakimiyyət X əsrin 30-cu illərinədək davam edir). 942-ci ildə Sacilər hakimiyyəti dağıldıqdan sonra Deyşəm ibn İbrahimin başçılığı ilə Nəşəvi, Salairlər hakimiyyətinə tabe olur.

VIII- IX əsrlərdə Naxçıvan çuxuruna soxulmuş Ərəblər İslam bayrağı altında yerli əhaliyə divan tuturlar. Xalq öz azadlığı uğrunda ayağa qalxır. Azərbaycan xalqı İslam dininin yaranmasından əvvəl Zərdüşt (atəşpərəst) dini ilə məşğul olub, ərazilərdəki məbədlərdə kahin maqlar tərəfindən uydurma təriqətlərə meyl etmişlər.

İndiki Ordubad şəhərinin şərq hissəsində Araz çayının cənubunda, Əhərlə Bilalabad yaxınlığında (İran İR-nın Qaradağ vilayətində- F.B.) tarixi Bəzz qalası olmuşdur ki, 837-ci ildə xilafətin qoşun başçısı Afşinin əmri ilə uçurdulub dağıdılmışdır. Bəzz qalasında qəbilə başçısı Cavidan ibn Sührək (Səhl) (..?-816) xürrəmilərin hakimi idi. Cavidan Zəncandan qayıdarkən təsadüf nəticəsində Bilalabadda əvvəllər naxırçılıq etmiş Babəkin (Həsənin) (798-838) dul qalmış anasının evində gecələməli olur. O, tezliklə Həsəni anasının razılığı ilə öz dəstəsinə götürüb və ertəsi günü Bəzz qalasına gəlirlər. Qalada Cavidanın arvadı Həsənə aşiq olaraq ona rəğbət bəsləyir.

816-cı ildə Cavidan digər qəbilə başçısı Əbu İmranla döyüşərkən həlak olur. Mərhumun arvadı ərinin öldüyünü görərək, ertəsi günü qaladakılara ərinin "vəsiyyətini" belə deyir: "Qala camaatı bilsin ki, Cavidanın ruhu cismindən çıxaraq Həsənin (Babəkin) bədəninə keçmiş". Arvadın əmri ilə bir öküz kəsilir dərisi soyulduqdan sonra üzərinə çörək tikələri ilə bir qabda da şərab qoyulur. Adamlar razılıq əlaməti olaraq bir-bir gəlib çörəkdən kəsib və şərab ilə isladıb yeməklə "biz razıyıq" sözlərini deyirlər. Cavidanın dul qadını Babəki xürrəmilərə başçı seçilməsi münasibəti ilə təbrik edib və onu yataq otağına tərəf aparır... (Ərəb tarixçisi Məhəmməd ibn İshaqın "Tarix" kitabından- F.B.).

Xürrəmi təriqəti Zərdüşt dinində məzdəkilərin ehkamları üzərində qurularaq, qaranlıq və işıq, xeyir və şər arasında əbədi mübarizə simvoludur. Xürrəmilər (keçmişdə onlara "tuman tökənlər" də deyirdilər) bir-birləri ilə (zinakarlıqla) evlənərək, qadın cinsindən ümumi şəkildə istifadəni sevirdilər. Onlar boş vaxtlarını şənlik edib, musiqi ilə yemək-içmək və bir-birləri ilə rəqs etməklə keçirərdilər.

Xürrəmilər ildə bir gecə məbədlərinə yığışaraq çılpaq halda şən musiqi ilə mey məclisinə aludə olub və çıraqları söndürməklə "bəxtinə düşən" (əlinə keçən) qadınlarla pozğun işlər görərdilər. (Ərəb tarixçisi Əbu Müzəffər İsfərainin "Tarix" kitabından- F.B.). Akademik Ziya Bünyadovun sözü ilə desək; "Babək xilafətə qarşı vuruşaraq Azərbaycanda İslama qədərki dövrdə mövcud olmuş, bu və ya digər şəkildə zərdüştçülük və məzdəkiliklə əlaqədar qanunların bərpasına çalışmışdır. İyirmi ildən artıq xilafətə qarşı kəskin azadlıq mübarizəsi aparmış xürrəmiləri, şən və qayğısız ömür sürən başıpozuq bir kütlə kimi bildirməmək mümkün deyil." ("Azərbaycan tarixi", 7 cilddə (2-ci cild) Bakı-1998).

Ərəb xəlifə başçısı Harun-ər-Rəşid öldükdən sonra arvadı Zibeydədən olan oğlu Əmin xəlifəliyi ələ keçirir. Xilafətin şərq əyalətləri isə xəlifənin anası fars mənşəli digər oğlu olan Əl-Məmunun ixtiyarına verilir. Tezliklə Məmun qardaşını öldürüb və xilafəti öz ixtiyarına keçirir.

819-cu ildə Ərəblərin təkidi ilə Xilafətin paytaxtı Xorasandan Bağdada köçürülür. Məmun Azərbaycana-Babəkin üstünə Yəhya ibn Məaz ibn Müslümün başçılığı ilə qoşun göndərir. Həmin döyüşlərdə Ərəblər məğlub olaraq geri çəkilməli olurlar. Daha sonra isə Züreyk ibn Əli ibn Sədəq əl-Əzdinin başçılığı ilə Ərəb qoşunları məğlub olmuşlar...

829-cu ildə Xəlifə Məmun təcrübəli sərkərdə Məhəmməd ibn Hüməyd ət-Tusinin başçılığı ilə seçmə qoşun dəstələri göndərir. Tezliklə qoşun başçısı öldürülərək döyüş xürrəmilərin qələbəsi ilə başa çatır.

833-cü ildə xəlifə Əl-Məmun öldükdən sonra xilafətin taxtında qardaşı Əl-Mütəsim oturur. O, xilafətin paytaxtını Bağdaddan Samirəyə köçürür. Həmədan yaxınlığında Mötəsimin qoşunları Babəklə döyüşə girir. Həmin döyüşlərə Ərəb sərkərdəsi Əl-Cibəl hakimi İshaq ibn İbrahim ibn Müsab başçılıq edirdi. Döyüşlərdə xürrəmilərdən əlli mindən artıq "əsgərlər" Ərəb süvariləri tərəfindən öldürülür. Tezliklə xəlifə fars mənşəli sərkərdə Heydər ibn Kavus əl Afşini (..?-841) Babəkin üzərinə-Bəzz qalasına göndərir.

836-cı ildə Ərəb xilafətinin sərkərdəsi Afşinin tabeliyində olan Buğa əl-Kəbirənin (Buğanın) başçılığı ilə Qafan-Meğri-Naxçıvan ərazilərinə qoşun göndərilir. Tarixçi Həmzə Vəlinin tədqiqatlarına görə Meğrinin Buğakar kəndində ziyarət kimi yüz illərlə müsəlmanları özünə cəlb etmiş qəbirlər məhz Buğanın və digər sərkərdənin olmuşdur. (Kəndin yaranması toponimi də Buğakəbirin (Buğakar) adı ilə bağlı olmuşdur- F.B.). Qoşun dəstələri birlikdə Bəzz qalasını mühasirəyə alırlar. Həmin döyüşlərdə Afşin ağır yaralanaraq və Buğa isə digər sərkərdə ilə bərabər Mehri yaxınlığında öldürülür. Bundan sonra Xəlifə Mötəsim Cəfər ibn Dinarın başçılığı ilə Afşinə kömək məqsədli əlavə 9 min muzdlu qoşun dəstəsi göndərir.

837-ci ilin 26 avqust tarixində xilafətin qoşunları Bəzz qalasına daxil olurlar. Babək yaxınları ilə qaladakı gizli yeraltı yolla (kan- kəhriz lağımından) qaçaraq canın qurtarır. Babək, Sisiyanın Şahı qalasında (Ak. Z.Bünyadov və tədqiqatçı Həmzə Vəliyə görə) Mehrinin Astazur qalasında erməni Səhl ibn Sumbata (...?-854) pənah gətirməli olur. Özünə "dost" saydığı feodal Səhlə sığınmaqla Babək, onun köməkliyi ilə Bizans imperatoru Feofilin yanına getmək istəyirdi. Ona vəd edilən yeni qüvvə ilə ərəblərə qarşı yenidən döyüşlərə atılmaq istəyirdi. Səhl ibn Sumbat Afşinə çapar göndərib Babəkin onun evində gizlənməsini bildirir. Afşinin 2 min qoşun dəstəsi ilə Babəki tutaraq əsir edir. (Həmzə Vəli, "Babəkin son taleyi" Bakı-1998).

Xəlifə Mütəsim Babəkə xəyanət etdiyinə görə erməni Səhli Fəxri libas və qızıl tacla "mükafatlandıraraq" və onu bütün vergilərdən azad edir. Lakin bir ildən sonra xilafətin gizli sərkərdə başçısı Buğa əl-Kəbir tərəfindən tutularaq və 854-cü ildə əlləri qandallı Samirəyə gətirilir və zindanda öldürülərək cəsədi itlərə yem olur... (Z.Bünyadov, "Azərbaycan VII-IX əsrlərdə" (rusca) Bakı-1965).

838-ci il 14 mart tarixində Babək Samirə şəhərində işgəncə ilə (əzaları kəsilərək) öldürülür. Erməni Səhl ibn Sumbatın cavan-göyçək arvadı isə xəlifə Mütəsimin hərəmxanasına verilir. Tezliklə xəlifə Mütəsim Afşini Babəklə gizli danışıqlarına görə ittiham edib və həbsxanada 841-ci ildə zindanda öldürtdürür. ("ASE"-sı 10 cilddə (1-ci cild) Bakı-1976); "İslam", (ASE-nın qısa məlumat kitabı) Bakı-1989; "Azərbaycan tarixi", 7 cilddə (2-ci cild) Bakı-1998).

Bununla belə Babək hərəkatı tarixin yaddaşında Azərbaycan xalqının ən şərəfli hadisəsidir. Babəkin edamından az sonra Azərbaycan xalqı Ərəb qaniçənlərinə qarşı nifrət əlaməti olaraq yeni doğulmuş körpələrə Babək adını fəxrlə qoymaqdadır. (1979-cu ildə əhalisi 2840 nəfər olan Naxçıvan MSSR-nin "Naxçıvan" rayon inzibati ərazisi, xalq qəhrəmanı Babəkin adına oldu- F.B.).

IX əsrdə Babək Abdulla oğlu Xürrəminin (798-838) başçılığı ilə ərəblərə qarşı xalq üsyanları nəticəsində tarixdə ilk dəfə olaraq Atropatenlə Albaniyada vahid Azərbaycan dövləti üçün, Ərəb xilafətinə qarşı 20 ilə yaxın (816-837) ədalətli mübarizə aparmışdır. Ərəb tarixçilərinin məlumatına görə, bütün bu illər ərzində Babək ordusu Ərəb istilaçılarının 225 mindən çox əsgərlərini məhv etmişdir. Onun apardığı məhəlli döyüşləri təkcə Kəleybər yaxınlığındakı Bəzz qalası ilə məhdudlaşmırdı. Şərqdə Bərgüşad çayından başlayan qanlı hərəkat, qərbdə Gilan, Ordubadın "Babək qalası", şimalda Urudun "Babək qalası"nda davam edir, cənubda Təbriz ətəklərinə kimi uzanan böyük bir ərazini əhatə edirdi.

Xilafət ərazidəki etirazlara son qoymaq məqsədi ilə Suriyadan vergiyığan erməni məmurlarını da göndərir. Daha sonra xilafətin fərmanı ilə Suriyalı qəddar kürd mənşəli Əmir İbrahim Naxçıvana canişin təyin edilir. Həmin illərdə Mərkəzi Asiyadan (Sır-Dərya çayı hövzəsindən- F.B.) türk dilli Kanqlı (arabaçı) tayfaları da Naxçıvana gəlirlər. (İ.Hacıyev, "Naxçıvan və naxçıvanlılar" Bakı-2001). Kanqlı (Kəngərli) tayfaları Naxçıvana gələrkən özləri ilə bərabər müxtəlif mədəni bitki toxumları və əhliləşdirilmiş heyvanlar da gətirmişlər. (F.Bağırov, "Naxçıvanın təbi sərvətləri" Bakı-2008).

X əsrdə Naxçıvan diyarında əmin-amanlıq dövrü başlanmış, həmin vaxtlarda "Naxçıvan şahlığı" adlı feodal dövlətçiliyinin əsası qoyulmuşdur. Naxçıvan ölkəsi orta əsirlərdə ticarət yollarının üstündə olduğundan Yaxın Şərqdə öz məhsulları ilə şöhrət tapmış və Qərblə Şərqi birləşdirən "Böyük ipək yolu"nun tranzit dayaq nöqtəsinə çevrilmişdir. (Avropalı tacir və səyyahlar Azərbaycandan (Naxçıvan yolları ilə) gedərək Çinlə Hindistana ayaq açırlar- F.B.).

XI əsrdə Azərbaycanın bir çox yerləri Səlçuq türkləri tərəfindən tutulur. Naxçıvan şəhərində (Nəşəvidə) türk hökmdarları Toğrul bəyin (1038-1063), daha sonra Səlçuq türk Sultanı Alp Arslanın (1063-1072) iqamətgahı tikilir.

XII əsrdə Naxçıvan diyarını Atabəy sülalələri idarə edir. Ərazilər Eldəgizlərin hakimiyyətinə çevrilir. 1136-cı ildən 1225-ci ilədək Nəşəvi (Naxçıvan) paytaxt şəhəri olur. Nuh yurdunda İslam mədəniyyəti inkişaf edir. Ərazilərdə feodal Azərbaycan Atabəylər dövləti (1136-1225) yaradılır. Nəşəvi ölkəsi İraq Sultanı II Toğrulun (1132-1135) kiçik oğlu Alp Arslanın hərbi təlimçisi Şəmsəddin Eldənizin (1136-1175) ixtiyarına keçir. Nəşəvi şəhərində məscid, mədrəsə və qəbirüstü sərdabələr tikilir. Çaylar üzərindən körpülər salınır, yollar abadlaşır, əhali üçün hamamlar, buzxanalar, zorxanalar, kəhrizlər tikilərək sənətkarlıqla memarlıq işlərinin vəhdəti baş verir. (Ə.Salamzadə, "Arazboyu abidələr" Bakı-1979).

Tarixin yaddaşına nəzər salaq: XII yüz ildə Naxçıvanda (Nəşəvidə) 200 min əhali yaşamışdır. Burada ticarətlə sənətkarlıq inkişaf edərək, dulusçular, zərgərlər və şüşəçilər şöhrət tapmışlar. Naxçıvan şəhəri 12-ci yüzilliyin 70-ci illərindən Azərbaycan Atabəylər dövlətinin paytaxt şəhərinə çevrilir. Həmin dövr Naxçıvanın intibah dövrü kimi tarixə düşmüşdür.

Naxçıvanda memarlıq və sənətkarlıq işləri güclənir. Naxçıvanlı memar Əcəmi Əbubəkr oğlu (1120-1196) tərəfindən qəbir üstü türbələr inşa olunur. Onlardan dövrümüzədək qalmış 1162-ci ildə tikilmiş Yusif Küseyir oğlunun türbəsi ilə 1186-cı ildə tikilmiş Atabəy Məhəmməd Cahan Pəhləvanın (1175-1186) arvadı Mömünə Xatun məqbərəsidir. Naxçıvana gələn tacir və səyyahlar şəhərdəki inkişaf işlərindən heyran olurlar. Yazılı qaynaqlara görə o zamankı Naxçıvan şəhərində 20 min ev, 70 məscid və mədrəsə, 20 karvansara, 7 hamam və 2 bazar olmuşdur.

Fransız səyyahları Pyer Şarden, Dübua de Monper və ingilis səyyahı Porter qeydlərində yazırlar ki, Naxçıvan, qədim memarlıq abidələri ilə zəngin və gözəl şəhərdir. Türk səyyahı Övliya Çələbi Naxçıvandakı hamamların su hovuzlarına hər gün bir səbət ətirli gül ləçəklərinin töküldüyünü bildirir.

Naxçıvan şəhərinin içərisindən çəkilmiş arxa ilk dəfə su həftənin Bazar günü buraxıldığından "Bazar çayı" adlanmış. Həmin çaydan şəhərin məhəllələrinə də su arxları çəkilmişdir. Əhali su arxları kənarına yaşıllıq üçün meyvə və bəzək ağacları da əkmiş. Bundan başqa şəhər ətrafındakı əkinləri suvarmaq məqsədi ilə çoxlu kəhrizlər də qazmışlar. Həmin kəhrizlərin əksəriyyəti Naxçıvan çayın qrunt suları ilə qidalanırdı.

Kəhrizləri xeyirxah insanlar öz vəsaitləri hesabına kankanlara tikdirmişlər. "Kəlba Musa", "Canan bəy", "Ağam Əli", "Mirzə Bədəl", "Mahmud ağa", "Miriş ağa", "Qələndər ağa", "Heydər ağa", "İsmayıl ağa" və başqalarının adını daşıyan kəhrizlər, dövrümüzədək gəlib çatmışdır. (F.Bağırov, "Naxçıvanın təbii sərvətləri" Bakı-2008; Ə.Quliyev, "Naxçıvan kəhrizləri" Bakı-2008).

Nuh yurdu-Naxçıvan, tərəqqi etdiyi dövrlərdə Xarəzmşah II Məhəmməd Ələddin oğlu Cəlaləddin Manqburnun (...?-1231) əlinə keçir. Belə ki, Naxçıvan hakimi Məhəmməd Cahan Pəhləvanın Zahidə Xatından olan qızı Cəlaliyənin ixtiyarında qalır. Daha sonra Hulakuların, Çobanilərin, Cəlairlərin əlinə keçən ərazilər mədəni və iqtisadi cəhətdən tədricən geriləyir.

XIII əsrdə (1220-ci ildə) monqol-tatar köçəriləri Çingiz xanın (Temuçin) (1155-1227) qoşunları gəlib və Naxçıvan diyarını dağıdaraq viranə qoyurlar. Ərazidəki Azad, Gilan, Naxçıvan, Qarabağlar, Sədərək şəhərləri xarabalığa çevrilir. (V.Yan, "Çinqiz xan" (rusca) Moskva-1973; "Tataro-monqolı v Azii i Yevrope", (rusca) Moskva-1973). Əhali qorxu içərisində yaşasa da, yenidən quruculuq işləri aparır, uçurulmuş körpüləri, dəyirman və məscidləri bərpa edir.

XIV əsrin axırlarında Naxçıvan əraziləri Özbək mənşəli Orta Asiya hakimi Əmir Teymur (1336-1405) tərəfindən ələ keçirilir. Naxçıvanlılar yadelli özbəklərə qarşı mərdlik və cəsarətlə vuruşurlar. Naxçıvan şəhərinin cənub hissəsində Sasani hökmdarı III Yezdəgird (632-651) tərəfindən tikdirilmiş Yezdabad qalasında teymurilərə qarşı qanlı döyüşlər başlayır. Teymur qoşunları daşatan mancanaqlarla Yezdabad ("Köhnə qala"nın qədim adıdır- F.B.) qalasının bürclərini, Möminə Xatun məqbərəsinin yaxınlığındakı Alaqapının portal qüllələrini və digər yerləri darmadağın edirlər. Teymurun qoşunlarına qarşı mərdliklə döyüşən naxçıvanlılar Əlincə qalasında da düşmənə təslim olmurlar.

1386-cı ildə Naxçıvan qalası nəhayət təslim edildikdən sonra, yerli əhali teymurilərin əlində oyuncağa çevrilir. Əmir Teymurun əmri ilə minlərlə sənətkarlar, yüz minlərlə igid oğlan və qız-gəlinlərimiz pay-piyada at döşündə Orta Asiyaya, Səmərqəndə əsir aparılır. Monqollarla özbək teymurilər məscidlərdən başqa Naxçıvandakı bütün ziyarətgahları dağıdaraq, şəhəri xarabazara çevirirlər.

Yadellilərə qarşı uzun illər aparılan bu cür döyüşlər Oğlanqala ilə Çalxanqalada da olmuşdur. Lakin hər iki qalanın gərgin müqavimət göstərməsinə baxmayaraq düşmən qüvvələri tərəfindən tutulandan sonra viranə qoyulmuşdur. Əmir Teymurun oğlu Miranşah bütün Azərbaycanı ələ keçirsə də Naxçıvandakı Əlincə qalasını 10 il müddətində təslim edə bilməmişdir.

1390-cı ildə Altunbəy (..?-1393) Teymurun Naxçıvanda olmamağından istifadə edərək, qoşun dəstəsi ilə Miranşaha qarşı vuruşaraq Təbriz şəhərini ələ keçirmişdir. Lakin Əlincə qalasının daxilindəki çəkişmələr nəticəsində, qala mühafizi Sultan Tahir tərəfindən qalaya girə bilməyən Altunbəy, Mərəndə getməli olur. Mərəndin hakimi Miranşahın tərəfini saxladığından, qonağını öldürtdürərək başını Teymura göndərir. Əmir Teymur bu "hədiyyənin" əvəzində isə, igid Altunbəyi öldürən Mərənd hakimini şərəfsiz hakim kimi edam etdirir. Bundan sonra Teymurun qoşun dəstələri, müqavimətsiz halda Əlincə qalasını tutaraq dağıdırlar.

XV əsrdə Naxçıvan əraziləri Qaraqoyunlu və Ağqoyunlu feodal tayfalarının əlinə keçir. 1410-cu ildən Azərbaycan dövlətinin hakimi Qaraqoyunlu feodal tayfa başçısı Məhəmmədin oğlu Qara Yusifdən olan nəvəsi yeddi yaşlı Pir Budaq olmuşdur. (Sultan Əhməd Cəlayirin 11 Temmuz 813-cü il Hicri tarixli fərmanına əsasən). (M.İsmayılov, "Qara Yusif" (tarixi-sənədli roman) Bakı-1991).

1435-67-ci illərdə Azərbaycana Qaraqoyunlu hökmdarı Cahanşah (1397-1467) hakim olmuşdur. O, bu illər ərzində dövlət ərazilərini qəsbkarlıqla genişləndirməklə bərabər Teymurilərin paytaxt şəhəri olan Heratı da ələ keçirir. Cahanşah "həqiqi" təxəllüsü ilə bir sıra lirik şerlər yazmış və Nəsiminin təsiri ilə humanistliyə meyl göstərmişdir. Yazdığı "Divan"ının əlyazması İngiltərənin Kral muzeyində, sonradan da Matendaran kitabxanasında saxlanılır.

1467-ci ildə Muş yaxınlığında Ağqoyunlu feodal tayfa başçısı Uzun Həsən Bayandur (1423-1478), Qaraqoyunlu hakimi Cahanşaha qalib gələrək (1468-1478) Azərbaycan hakimiyyətini əlinə keçirmişdir. İstər Qaraqoyunlu və istərsə də Ağqoyunlu hakim dairələri əhaliyə qarşı amansız olduğundan, xalq kütləsi əzab-əziyyət içərisində yaşamışdır. Nəticədə bir tərəfdən vergi yığanlar camaatı talayıb əlində olanı alır, digər tərəfdən də İslam dinində parçalanma gedərək təriqətlər yaranırdı. (Azərbaycanın paytaxt şəhəri Təbriz olmaqla, Uzun Həsən xalqdan vergi toplamaq niyyəti ilə "Qanunnamə" adlı fərman da vermişdir).

1501-ci ildə Şərur düzündə Ağqoyunlu hakimiyyətinin döyüşçülərini məğlub edib dövləti ələ alan "Qızılbaşlar" Azərbaycan Səfəvi hakimiyyətinin əsasını qoydular. Uzun Həsən bacısını Səfəvi Şeyx Cüneydə ərə verməklə hakimiyyətini və Şiəlik təriqətini möhkəmlətmək istəmişdir. Bundan sonra Naxçıvan əraziləri də Səfəvilər dövlətinin tərkibinə daxil edildi.

Tarixin yaddaşına nəzər salaq: Ağqoyunlu hakimi Uzun Həsən Bayandurun üçüncü arvadı, Trabzon (Trapezund) imperatoru IV İoahan Komenakosun (1429-1458) kiçik qızı Feodora (Katerina) (Dəspinə xatın- F.B.) idi. Uzun Həsənin arvadı Dəspinə Xatundan olan qızı Martanı (Aləmşahbəyimi), ərazilərdə İslam dinindəki Şiə təriqətini təbliğ edən fars mənşəli Şeyx Heydərə ərə vermiş. Şeyx Heydərin oğlu 15 yaşlı İsmayıl yaxın qohumu Əlvənd Mirzəni Təbrizdə məğlub edərək, Azərbaycan və Persiyaya (İrana) hakim olur.

Əsasən qılınc gücünə müsəlmançılığı (Şiə təriqətini) yayan və özünü İmam Əlinin varisi bilən Şah İsmayılın və onun sülaləsinin hakimiyyəti dövründə (1501-1772) Naxçıvan xalqı nisbətən dinc həyat tərzi yaşayır. Həmin illərdə şəhərdə məscid və mədrəsələr tikilərək İslam mənəviyyatı 12 imam (Əhli beyt) əsasında təbliğ olunmağa başlayır.

Şah İsmayıl Xətainin (1487-1524) hakimiyyəti illərində Azərbaycanın hüdudları şimalda Dərbənd, cənubda Bağdad, şərqdə Tusla Mərv və qərbdə Sürəməli ilə Xoy şəhərləri genişliyini əhatə etdirdi. Həmin illərdə Azərbaycan dövləti xarici dövlətlərdən asılı olmamışdır. Şah İsmayıl gənc olsa da, elmə və sənətə qiymət vermiş, haqsızlığa qarşı amansız olmuş və İslam mənəviyyatını hər şeydən uca tutmuşdur.

Saysız müharibələr aparmasına baxmayaraq onun dövründə xalqın mədəni səviyyəsi yüksəlmiş, ana dili dövlət səviyyəsində rəsmi dilə çevrilmişdir. Şahın şərəsənətə, rəssamlığa xüsusi qayğısı hər yerdə öz bəhrəsini verərək, millətin yazıb-yaratması üçün öz əlifbası yaradılmışdır. Ədalətli Şah ölkənin qərb əyalətlərindən Osmanlı türkləri tərəfindən qovulmuş Sürəməli valisini şəriət hökmü ilə cəzalandırmışdır. Satqınlıq və qorxaqlıq göstərərək öz ata-baba yurdlarını atıb Təbrizə qaçanları şəhər darvazalarından asdıraraq demişdir: “Hər kəs öz doğma yurdunu qoyub qaçarsa xalqını məhv edər, qoruyaraq şəhid olarsa, qaçqınlıq xalqımıza yad olar...” (F.Kərimzadə, “Xudafərin” Bakı-1982; F.Kərimzadə, “Çaldıran döyüşü” Bakı-1987).

1554-cü ildə atasının qatili Osmanlı Sultanı Səlim Yavuz (1470-1520) qəflətən Azərbaycana qoşun yeridir. Xoy yaxınlığındakı Çaldıran düzündə gedən müharibədə Şah İsmayılın qoşunları məğlubiyyətə uğrayır. Sultan Səlim öz müttəfiqləri olan bəzi Avropa dövlətlərinin hakimləri ilə birləşərək onlardan əldə etdiyi odlu silahların (kəlb çaxmaq tüfəng ilə dəvə üstündə gəzdirilən qısa lüləli zəmbürək topların) köməyi ilə ağır döyüşdə qələbə çala bilir. Həmin müharibədə Şah İsmayıl yaralanır, hökmdarın oxşarı Xızır Məhəmməd ilə şahın arvadı da türklərə əsir düşürlər. (F.Bağırov, ”Nuh yurduna ziyarət” Bakı-2008).

Tezliklə Naxçıvan, Təbriz və başqa şəhərlər Osmanlı türk sultanlığının əlinə keçir. Naxçıvan şəhər məscidlərində Şiə təriqəti, Sünni təriqəti ilə əvəz olunur. Çox çəkmir ki, Azərbaycanın cənub əyalətlərinə- Təbrizlə Naxçıvan şəhərlərinə Şah İsmayılın qızılbaş qoşunları hücum edib, Osmanlı türklərini ərazidən çıxarırlar. (Naxçıvan diyarı əldən-ələ keçdiyindən xalq ən çətin günlərini yaşamalı olur. Nuh yurdu Naxçıvan tezliklə öz müstəqilliyini itirir- F.B.). Ölkədə yenidən özbaşınalıq tüğyan etdiyindən iqtisadi inkişaf tənəzzülə uğrayır.

Səfəvi-Osmanlı dövlətləri arasında gedən müharibələr nəticəsində Naxçıvan diyarı ciddi dağıntılara məruz qalır. Xüsusi ilə I Şah Abbas Mirzənin (1587-1629) hakimiyyəti illərində naxçıvanlılar ata-baba yurd yerlərindən sürgün edilərək Azərbaycanın cənub ərazilərinə köçürülürlər. "Böyük ipək yolu" üstündə olan Naxçıvan diyarında tez-tez gedən qanlı müharibələr nəticəsində avropalı tacirlər yollarını dəyişərək uzaq dəniz səfərini seçirlər. Nəticədə Naxçıvanın (bütövlükdə isə Azərbaycanın) iqtisadiyyatı zəifləyir. (Y.Mahmudov, "Səyyahlar Azərbaycana gəlir" Bakı-1977).

XVI əsrdə Naxçıvanın kəndli və sənətkarları bir sıra çətinliklərlə qarşılaşır. Yerli feodallar tərəfindən kəndli və sənətkarlar talayaraq və onlara qarşı ağır vergilər tətbiq edilir. Zəhmətkeş xalq kütləsi talanaraq onlara qarşı işgəncələr tətbiq olunur, çoxlarının ailə başçıları tutularaq zindanlara salınır. Qəzəblənən xalq kütləsi feodal hakimlərə qarşı ayrı-ayrı ərazilərdə üsyana qalxırlar.

"...Çal qılıncı, qoç Koroğlu!
At üstəsən, at üstəyik,
Oğuzlara at üstündə ölüm yoxdur!
Çal qılıncı, qoç Koroğlu!
İşıqlığa, aydınlığa, doğmalığa
Gedən yollar
Qılınclardan keçib gedər."

Xalq qəhrəmanı (qisasçı) Rövşən Alı oğlunun (Koroğlunun) (..?-..?) başçılığı ilə üsyançılar birləşərək, feodal hakimlərə qarşı mübarizə aparır. (M.Təhmasib, "Koroğlu" Bakı-1977). Həmin çəkişmələrdən məharətlə istifadə edən Rus çarı Qafqaza qoşun dəstələrini göndərir.

XVII əsrdə Naxçıvan, Çuxur Səəd Bəylərbəyiliyinin tərkibinə qatılaraq, Kəngərli türk tayfa başçıları tərəfindən idarə olunur. Naxçıvan ölkəsi, Mərkəzi Asiyadan gəlmiş Ustaclar tayfasındakı "kanqlı"(arabaçı) kəngərlilərinin əlinə keçərək ərazidə xanlıq idarəçiliyi yaradılır. (İ.Hacıyev, "Naxçıvan və naxçıvanlılar" Bakı-2001).

XVIII əsrin əvvəllərində Rus çarı I Pyotr (1672-1725) Azərbaycanı ələ keçirmək istəyir. 1722-ci ildə rusların yüzminlik qoşun dəstəsi Dərbəndə kimi gəlib xəzəryanı torpaq ərazilərini tutur. İki ildən sonra isə Osmanlı Türkləri də Naxçıvan ərazilərini tuturlar. Türklər Naxçıvana gəldikdən sonra 14 nahiyədən ibarət "Naxçıvan sancağı" adlı inzibati ərazi xəritəsi yaradırlar. Həmin əraziyə Naxçıvan, Əlincə, Sair Məvazi, Dərə Şahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisyan və Dərələyəz nahiyələri daxil edilmişdir.

Naxçıvan sancağının 9.788 vergi verəni olmuş, xəzinəyə hər il 2.629.059 axca miqdarında vergi verilmişdir. Naxçıvan sancağı geniş bir ərazini əhatə edirdi ki, bura 315 yaşayış məntəqəsi daxil idi. Naxçıvan sancağı 1735-ci ilədək Osmanlı türklərinin ixtiyarında olsa da, sonrakı illərdə səfəvilər tərəfindən inzibati dəyişikliklərə məruz qalmışdır... (Z.Bünyadov, "Naxçıvan sancağının müfəssəl dəftəri" Bakı-1997; İ.Kazımov, "Naxçıvan; əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair" Bakı-2007).

1735-ci ildə Səfəvi şahı II Təhmasibin (1722-1732) qoşun başçısı Nadirqulu Əfşar (1688-1747), Azərbaycanı, o cümlədən də Nuh yurdu-Naxçıvan ərazilərini tutub, onu Osmanlı imperiyasından geri qoparır. Bir ildən sonra Muğanda özünü Persiyanın şahı elan edən Nadir qoşunlarını yenidən Naxçıvana yeridir. Bu dəfə ki hücumda o, Kəngərli tayfa başçılarını əsir edib uzaq Əfqanıstan çöllərinə sürgünə göndərir. (Naxçıvanı iki nəfər türkmən mənşəli qoşun başçısı ilə xəzinədara tapşıran Nadir Şah, Təbrizə də qardaşı İbrahim xanı hakim təyin edir- F.B.).

1747-ci ildə Nadir Şaha qarşı törədilən sui-qəsddən sonra, Naxçıvanda gizlənib qalmış Kəngərli tayfa başçısı Heydərqulu Xan (...?-1763), özünü bütün əraziyə hakim elan edir. Həmin dövrdə Naxçıvan xanlığının inzibati ərazisi Əlincə, Xoy, Dərələyəz, Ordubad (Qoqten), Əylis, Dəstə, Çənnəb və Biləv mahallarından ibarət idi. Tezliklə Nuh yurdu Naxçıvan çuxurunda başlayan Rusiya- Persiya müharibələrinin təsiri ilə Naxçıvan xalqı yenidən dözülməz çətinliklərlə üzləşməli olur. (F.Əliyev, "Naxçıvan xanlığı" Bakı-1996).

1805-13-cü illərdə baş verən həmin müharibə Xankəndi yaxınlığındakı “Gülüstan sülh müqaviləsi” ilə başa çatsa da, Naxçıvan ölkəsi İran tabeliyində qalır. Ölkədəki fars mənşəli hakim məmurlar Naxçıvan xalqına zülm edərək ən müxtəlif formada vergiləri artırırlar. Naxçıvanda bütün işlər fars qanunları ilə tənzimlənir. Fars dili rəsmi dövlət dili elan edilir, məscidlərdə İslam xütbələri farsca oxunur, xalqı Allah xofu ilə qorxu altında saxlayırlar.

1813-cü ilin “Gülüstan müqaviləsi”ndən sonra Naxçıvan xalqı çətin günlərini yaşamalı olmuşdur. Belə ki, 1816-cı ildə rus çarı I Aleksandr (1777-1825) general P.N.Yermolovu (1777-1861) Qafqaz üzrə baş hərbi komandan təyin etmiş. P.Yermolov 1818-ci ildə Şəkidə, 1819-cu ildə Qazax-Şəmsəddində, 1820-ci ildə Qarabağ-Naxçıvan və Talışda yerli feodal hakimiyyəti ləğv etmişdi. Yerli hakimlər 1817-ci ilin 30 aprelində P.Yermolovu İrəvanda və may ayının 11-də isə Naxçıvanda qarşılamışlar. (F.Əliyev, M.Əliyev, “Naxçıvan xanlığı” Bakı-2008).

1825-ci ildə general P.N.Yermolov İran ərazilərindən Peterburqa geri qayıdarkən Naxçıvanda I Kalbalı xan Kəngərlinin (...?-1823) qonağı olanda yanında müşavir P.İ.Moqilevski, polkovnik Ağabəy Sadıqov və ştabs-kapitan Abbasquluağa Bakıxanov da var idi. Bundan başqa xanın əvvəlcədən (Tiflisdən) tanıdığı Qabardin knyazı Canxotovun oğlu, Canpoladla bərabər Kort və Maşkov adlarında iki əcnəbi rəssam da olmuşdur.

Rəssamlar xanın qonaqpərvərliyini qiymətləndirərək, Canpoladın xahişi ilə çəkdikləri xanın və “Atababa türbəsi”nin (Möminə Xatın türbəsinin- F.B.) rəsmlərini özləri ilə Nalçikə aparmışlar. Abbasquluağa Bakıxanov Naxçıvandan Təbrizə gedəndən sonra da Nuh yurdu- Naxçıvanda 5 aya yaxın qalmış və buradakı tarixi memarlıq abidələri ilə tanış olmuşdur. (Q.Bakıxanova, “Qüdsi haqqındakı etüdlər” (rusca) Bakı-1984; Ə.M.Əhmədov, “A.Bakıxanov; dövrü, həyatı və fəaliyyəti” (rusca) Bakı-1966).

1826-cı ilin 26 iyun tarixində Rus qoşunları Zəngəzurun “Ərikli gədiyi” aşırımından keçərək Naxçıvana gəlirlər O zamanın yolsuz-izsiz dağ aşırımları gərginlik, ağır zəhmət tələb etdiyindən, ruslar hərbi silah-sursatlarını Araz çayının Şahtaxtı kəndindən ağac sallar üzərində keçirib və Xoy, Maku və Təbriz şəhərlərini də ələ keçirirlər.

Ruslar general İ.F.Paskeviçin (1782-1856) komandanlığı altında Naxçıvanın Xok və Şahtaxtı kəndləri yaxınlığında İran şahzadəsi Abbas Mirzənin döyüşçüləri ilə ilk döyüşlərə başlamışlar. Bundan sonra ruslar Araz çayı ilə şərqə tərəf gedərək Abasabad qalasına çatırlar. Qraf Paskeviçin ordusunda 4.800 nəfər piyada, 3.800 nəfər süvari və 42 çuğun top var idi. (V.A.Potton, "Qafqaz müharibəsi ayrı-ayrı oçerklərdə, epizodlarda, əfsanə və bioqrafiyalarda" (rusca, I-V cild) Tiflis-1885-91). (Abasabad qalasının baş rəisi Məmmədəmin xan görür ki, ruslar qüvvətlidir və İrandan da lazımi kömək gözlənilmədiyi halda məcbur olur ki, qalanı döyüşsüz təslim etsin- F.B.).

1828-ci ilin 6 mart tarixində Abasabad qalası rusların əlinə keçir və I Ehsan xan Kəngərli (...?-1846) Rus çarının tərəfini saxlayır. Bundan sonra ona Rus dövləti tərəfindən general-mayor hərbi rütbəsi verilərək ərazinin naibi (qubernatoru- F.B.) olur. Naxçıvan hakimi Ehsan xan 1853-56-cı illərdə naiblikdən imtina edərək, Krımdakı Rus-Türk müharibəsinin iştirakçısı kimi, General-mayor rütbəsi ilə 2-ci dərəcəli "Müqəddəs Anna" ordeni də almışdır. (Ş.Nəzirli, "Arxivlərin sirri açılır" Bakı-1999).

1828-ci ildə Azərbaycanın görkəmli yazıçısı və diplomatı Abbasquluağa Bakıxanov (1794-1846) Naxçıvandan (hicri 1243-cü ilin səfər ayının 9-da Qarabağlar kəndində də olmuş- F.B.) Təbrizə gedəndə hətta həyat yoldaşı Səkinə xanıma belə bir məktub yazıb göndərmişdir;

"Əgər mənim vəziyyətimi soruşsan, Allaha şükür ki, gümrah və sağlamam. Baş komandan mənə olduqca çox hörmət və ehtiram göstərir. Bu günlərdə o, mənə kapitan hərbi rütbəsinin verilməsini tələb etdi. Mənə ayda 40 tümən rus gümüşü ilə əməkhaqqı da təyin etdi. Bundan başqa o, dəftərxanaya əmr etdi ki, mənə rublla 60 tümən versinlər. Yürüşdən qayıdan kimi mənə ildə 1.050 rubl əməkhaqqı verəcəklər. Qorxma, səbr etmək lazımdır. Ümidim var ki, bu qış görüşə biləcəyik.

Vətəndən çox uzaqdakı qərib Abbasqulu."

Abbasqulu ağanın arvadına yazdığı məktubdan bilinir ki, həmin dövrdəki Naxçıvan ətrafında olan Rusiya- Persiya müharibələrində iştirak etmişdir. Ona Naxçıvandakı Abasabad qalasının alınmasından sonra, ştabs-kapitan hərbi rütbəsi vermişlər. (Bundan başqa A.Bakıxanova İrəvandakı tarixi Sərdərabad qalasının da ruslar tərəfindən alınmasında (1828-ci il 12 yanvar) da "Müqəddəs Anna" ordeni verilmişdir). ("Sankt- Peterburqskiye vedomosti" qəzeti, 2 mart 1828-ci il № 18; "Şərq qapısı" qəzeti, 22 oktyabr 2009 № 199).

1828-ci ilin 10 fevral tarixində Təbriz şəhəri yaxınlığındakı Türkmənçay kəndində bağlanılan digər bir sazişlə Rus-İran müharibəsinə ikinci dəfə son qoyulur. Fəqət tarixi "Türkmənçay sülh müqaviləsi"ndən sonra Naxçıvan çuxuru, Azərbaycanın cənub-qərb əraziləri ilə birgə Araz çayı sərhəd xətti olmaqla Rus çarlığına tabe etdirilir. Bundan başqa, o zaman Azərbaycanın cənub-şərq əyaləti olan Gilan vilayəti isə İran (Persiya) şahlığının tabeliyində qalır.

Tarixin yaddaşına nəzər salaq: Rus imperiyası Qafqazı tutduqdan sonra Rusiyadan məcburi köçkünləri də Azərbaycana göndərir. Onlardan biri də Rusiyanın Tambov quberniyasında yaşayan "mənəvi xristian təriqətli" molokanlar idi. Hazırda Naxçıvanda yaşayan rus dilli vətəndaşlar vaxtilə Zəngəzura köçürülmüş Tambovlu molokanların bu günkü törəmələridir.

Rusiyanın Tambov quberniyasında Semyon Ueykinin başçılığı ilə "molokan" deyilən təriqət yaradılmışdır ki, dini ehkam və əməlləri Rus pravoslav kilsəsindən fərqlənirdi. Onlar, rus dilli olsalar da xanım Məryəmi "müqəddəs" bilməyib və İsa peyğəmbərin çarmıxda ölməsinə də inanmırlar.

Molokan rusları şərab içmək əməlini dinlərində günah əməllərdən biri kimi qəbul etmişlər. Onlar İsa peyğəmbərin mövludu günü (22 dekabr) bayram etməklə evlərində süd xörəklərindən istifadə edirlər. Süd içməklə molokanlar xaç çevirmə əməllərinə zidd olaraq və İsa peyğəmbəri "Allahın oğlu" kimi qəbul etməmişlər. Molokanlar yalnız Davud peyğəmbərin "Zəbur" səhifələri və müsəlmanların "Quran" kitabına əməl edirlər. Molokanlar Zəngəzur bölgəsində (Sisyan əyalətində) bir müddət yaşadıqdan sonra, Naxçıvan şəhərinə axışıb gəlmiş və şəhərdəki "Mömінə xatın" türbəsi yaxınlığında məskunlaşmışlar.

Eyni zamanda Rusiyanın İrandakı səlahiyyətli səfiri A.S.Qriboyedovun (1795-1829) şəxsi təşəbbüsü ilə İrandan (əsasən Cənubi Azərbaycan ərazilərindən- F.B.) yüz minlərlə erməni ailələri Naxçıvana, Zəngəzura və Qarabağa, köçürülür. Naxçıvanın hər bir kəndində erməni əhalisi yerləşsə də, təkcə Nehrəm kəndində onlara yer verilmir. Səbəbkarı Nehrəm kattası Bağır bəy xalqın sözü ilə Xana yazılı surətdə bildirir ki, Nehrəm kəndindəki "Qumqala ərazisi"ndə müsəlmanların yeddinci imamı Musa Kazımın oğlu Aqilin məzarı vardır.

Nehrəm xalqı "İmamzadə" deyilən yeri özləri üçün müqəddəs bilmələrinə görə, kənddə xaçpərəst adamların məskunlaşmasına etiraz edirlər. Naxçıvan xanı da bununla əlaqədar İrəvan quberniyasına öz məktubunda nehrəmlilərin xahişini bildirməklə və ermənilərin bu kənddə yerləşməsi məsələsi ləğv edilir. (Nehrəm kattası Bağır bəyin Naxçıvan xanına yazdığı ərizəsi əsasında İrəvan qubernatorunun qərar sənədlərinin əsli, Tiflisdəki Dövlət Arxiv İdarəsində saxlanılır- F.B.).

1828-ci ilin mart ayında ruslar Cənubi Qafqazda özlərinə xaçpərəstlərdən ibarət dayaq məntəqəsinin layihəsini hazırlayırlar. XIX əsrin əvvəllərində Türkiyədə yaşayan ermənilər Osmanlı imperiyasına etdikləri xəyanətlərə görə Türklər tərəfindən ərazilərindən çıxarılır.

1828-29-cu illərin Rus-Türk müharibəsində Türkiyədəki ermənilərin Qafqaza köçürülməsində iştirak edən Admiral M.P.Lazarev (1788-1851) bu sözləri demişdir: "Tələsin, tez olun, biz sizi itkisiz, hər cür şərait yaradaraq köçürəcəyik... Biz burdan gedəndən sonra köçməniz çətinləşsə də, daimi vətən əldə edəcəksiniz..." Həmin illərdə ruslar tərəfindən Naxçıvana 500 erməni ailəsi köçürülmüşdür. Lakin erməniləri dədə-baba torpaqlarına yaxın qoymayan Naxçıvan xalqının mübarizəsini görən ruslar, onları Dərələyəzdə yerləşdirməyə məcbur olurlar.

1837-ci ildə Rusiya Daxili İşlər Nazirliyində Qafqaz üzrə Qubernatoru Skalon Aleksandr Antopoviç Naxçıvana göndərilir ki, I Nikolaya yazılmış gizli məlumatı araşdırsın. Məlumat I Ehsan xan Kəngərlinin qəza rəisi Serbinova qarşı çıxması və onun naiblik vəzifəsindən azad edilməsi haqqında idi. Yəhudi mənşəli S.A.Antipoviç hələ 1822-ci ildən Rusiyadakı "Birləşmiş dostlar" adlı gizli mason təşkilatının fəallarından olmaqla müsəlmanların qənimi idi. (Qafqaz canişini Yevgeni Aleksandroviç Qolovin (1782-1858) istəyirdi ki, I Ehsan xan Naxçıvanın naibliyindən uzaqlaşsın)...

S.A.Antipoviç Naxçıvanda olarkən I Nikolaya (1796-1855) məxfi məlumatla bildirir ki, I Ehsan xan ərazidə nüfuzlu şəxs olduğundan tezliklə Rusiyanın hakim dairələrinə ziyanı dəyəcək. Rus çarı məlumatla tanış olandan sonra I Ehsan xanı təcili olaraq Sankt-Peterburqa çağırtdırır.

1841-ci ilin yayında I Ehsan xan, yaxınları Mirzəkazım Əhmədbəy oğlu, Hacı Həsənağa və başqa adamları ilə Tiflis qubernatorunun icazəsi ilə uzaq səfərə çıxmalı olurlar. I Ehsan xan yolda əsas istiqaməti dəyişərək Varşavada hərbi qulluqda olan General-feldmarşal İ.F.Paskeviçin (1782-1856) yanına gedir. Məqsəd Varşavada hərbi qulluqda olan müsəlman süvari alayının komandiri və böyük oğlu İsmayılxan Naxçıvanskinin (1819-1918) görmək idi. Nəhayət ki, həmin ilin sentyabr ayında I Ehsan xan öz adamları ilə Sankt-Peterburqa gedib çatırlar. Orada çağırılanları hərbi nazir knyaz A.İ.Çernışev (1786-1857) qəbul edib və jandarm idarə rəisi Benkendorfun yanına göndərir.

Tarixin yaddaşına nəzər salaq: I Ehsan xan çara yazdığı məruzəsi ilə İ.F.Paskeviçin də məktubu hərbi nazirə çatdırır. Naxçıvan hakiminin Rus çarına yazdığı məruzə bu məzmunda idi; "1840-cı ildə Naxçıvandan sıxışdırılan köngərlilərin çoxu ailəliklə Persiyaya (İran şahlığına) qaçıblar. Əlahəzrətin 16 aprel manifestinə görə onlar bağışlanır. Bilirəm ki, onlar son damla qanlarınadək Rus hökumətinə qulluq etmək arzusundadırlar. Ancaq təəssüf ki, belə adamlar Persiyada qalmaqdadırlar. Müəyyən şərtlər daxilində öz öhdəmə götürərdim ki, onları geriyə bizim hakimiyyətimiz altına qaytarıb gətirim." Rus çarı Tiflisdəki canişin Y.A.Qolovinin məsləhəti ilə I Ehsan xanı naiblikdən uzaqlaşmaqla, ona 200 nəfərlik süvarilərin hərbi hazırlığına icazə verilir... (M.Quliyev, "I Ehsan xan Naxçıvanskinin Varşava və Sankt-Peterburqa səfəri" (AMEA Naxçıvan bölməsinin elmi məqalələri) Naxçıvan-2009).

Qədim Türk tayfalarından olan Köngərli tayfaları son əsrlərdə Azərbaycanın o cümlədən də, Naxçıvanın hərbi-siyasi tarixində mühüm rol oynamışlar. Muxtar respublika Dövlət Tarix Muzeyində saxlanılan nadir sənədlər içərisində XVIII əsrin sonu və XX əsrin ilk onilliklərinə aid Ərəb, Fars və Rus dillərində yazılmış qəbalə, hibənamə, iqrarnamə, vəkalətnamə və şəhadətnamələrin həmçinin Zaqafqaziya İdarəçiliyi dövrünə məxsus sənədlərin araşdırılması ilə Köngərlilər haqqında bir sıra maraqlı məlumatlara rast gəlmək mümkündür.

Sənədlərdən məlum olur ki, Köngərlilər hərbi-siyasi fəaliyyətləri ilə xüsusi nüfuz və mənsəb sahibi olmuşlar. Naxçıvan qəzası xanlıqlar dövründə İrəvan quberniyasına tabe olsa da, ərazinin hüquqlarını özləri idarə etmişlər. Buna görə də Köngərlilərin yüksək nüfuz qazanmasını görən çar Rusiyası və Tiflis idarəçiliyi, onlar üzərində nəzarəti gücləndirirlər. Bunun üçün Tiflis Canişin idarəsi vaxtaşırı Naxçıvan Köngərlilərinin pisliyindən Peterburqa məxfi məlumatlar göndərilmişdir.

Məxfi məlumatlardan birində belə deyilir; "Köngərlinski nəsli haqında məlumat toplamağı yuxarı komandanlıq hər adama tapşırmamalıdır." Muzeyin fondlarındakı sənədlərə görə Naxçıvandakı Köngərli tayfaları 1.403 ailə olaraq, onlardan 1.055 ailə kəndlərdə və 348 ailə isə Naxçıvan şəhərində yaşamışlar. (Naxçıvan MR Dövlət Tarix Muzeyi, fonddakı sənəd NDTM-27176 (v) s 4464 (v); N.Əsədova, "Naxçıvan qəzasının iqtisadi-mədəni həyatında Köngərlilərin rolu" (AMEA Naxçıvan bölməsinin elmi məqalələri) Naxçıvan-2005).

Tarixin yaddaşına nəzər salaq: 1840-cı ildə Naxçıvanda Ehsan xan Köngərlinin köməkliyi ilə ilk qəza məktəbi yaradılır ki, həmin məktəb 1879-cu ildən üç sinifli şəhər Rus-tatar "Tərbiyə" məktəbi adlanır. 1892-ci ildə Ordubadda maarifpərvər ziyalı Məmmədtağı Sidqi tərəfindən "Əxtər" məktəbi yaradılır. (Sonradan Sidqi Naxçıvana gələrək Rus-tatar məktəbində müəllimlik etmişdir- F.B.).

Məktəbin yetirmələri Əziz Şərif, Riza ilə Məmmədhüseyn Təhmasib qardaşları, Məmməd Xəlilov, Əsəd Şeyxov, Əli Xəlilov, Hüseyn Cavid, Rzaqulu Nəcəfov, qardaşı Əliqulu Qəmküsar (Nəcəfov), İbrahim Əbilov, Bəhruz Kəngərli və başqaları olmuşlar. Həmin ilin yayında Naxçıvanda "Qönçeyi-ülfət" adlı ədəbi məclis fəaliyyət göstərmişdir. Həmin məclisi Ehsan xan Kəngərlinin evində təşkil olunmuş və xanın sevimli qızı şairə Qönçəbəyimin (1827-...?) şərəfinə adlandırılır. Naxçıvanda qəza rəisinin köməkçisi işləmiş N.Barataşvili (1817-1845), Qönçəbəyimlə tanış olub və bəzi şeirlərini tərcümə edərək Tiflisə çap olmağa göndərmişdir.

1841-ci ilin 1 yanvardan Naxçıvan qəzasının inzibati sahəsi 4.378 km2, əhalisi isə 86.878 nəfər (1896-cı ilin statist. məlumatı) idi. Ərazinin (qəzanın) Naxçıvan, Ordubad, Dərələyəz, Culfa, Şahbuz kimi iri məntəqələri olmuşdur.

1849-cu ilin 9 iyun tarixindən Naxçıvan qəzası, İrəvan Quberniyası ilə birləşsə də müstəqilliyini itirməmişdir. Çar Rusiyası Qafqazda (o cümlədən də Cənubi Qafqazda- F.B.) əhəmiyyətli mövqedən yanaşaraq, ərazidəki mühüm şəhərlərarası poçt-teleqraf çapar yollarına diqqəti artırmışdır. 1850-69-cu illərdə İrəvandan Şuşaya, ordan da Gorusla Naxçıvan arasında bölgəyə çapar yolları çəkilmişdir. (F.Bağırov, "Naxçıvanın təbii sərvətləri" Bakı-2008).

1860-ci ildə Naxçıvan qəzasında kənd təsərrüfatı ilə yanaşı kustar sənaye sahələri də inkişaf etdirilir. Belə ki, həmin ildə Naxçıvan ərazisindəki daş duz mədəninin istehsal gücü 250 min puddan 300 min puda çatdırılmışdır. Həmin illərdə də Naxçıvanda (Şərurda) pambıqtəmizləmə zavodu və Culfada mahlıc əyirmə kustar istehsal sənaye sahələri də yaradılmışdır. ("Naxçıvan Ensiklopediyası", Bakı-2002).

1864-cü ildə Rus çarının icazəsi ilə ingilislər (Britaniya Krallığı) Tiflisdən (Batumdan) Naxçıvana Trans-Avroasiya (London-Kəraçi-Bombey) poçt-teleqraf rabitə xəttini çəkirlər. Naxçıvan şəhərində "Təbriz meydanı" məhəlləsindəki poçt-teleqraf binası, 1980-ci ilədək (Bazar çayının üstündə- F.B.) indiki 12 nömrəli məktəb binasının yerində qalırdı. Yerli əhalini maarifləndirmək məqsədi ilə Çar Rusiyası tərəfindən Qafqaz bölgələrində məktəblər açılır.

1870-ci ildən Şərur-Dərələyəz əraziləri İrəvan quberniyasının tabeliyinə verildiyindən ərazilərdə erməni icmalarının yerləşdirilməsi siyasəti rus imperiyası tərəfindən sürətləndirilir. Bunun da nəticəsində diyarda rus çar hökumətinə qarşı xalq üsyanları başlayır. Qubadlının Aşağı Mollu kəndindən olan (kürd qisasçısı- F.B.) Nəbi Alı oğlu (1854-1896) başına üsyankarlar toplayaraq Zəngəzurda 20 ildən artıq Rus çar mütləqiyyətinə qarşı mübarizə aparır.

1877-78-ci illərdə Rusiya ilə Osmanlı Türkiyəsi arasında müharibə olmuşdur. Türkiyənin Bəyazid qala-şəhərindəki döyüşlərdə Rus ordusunda xidmət göstərmiş naxçıvanlı İsmayıl xanla II Kalbalıxan (...?-1883) Naxçıvansklərin də iştirakı olmuşdur. Həmin döyüşlərdə Kalbalıxan 3-cü dərəcəli "Müqəddəs Stanislav" və "Müqəddəs Georgi" ordenləri ilə mükafatlanmışdır. Rus-Türk döyüşlərində İsmayıl xan Naxçıvanski (1819-1918) general-mayor rütbəsi almaqla "Müqəddəs Stanislav", "Müqəddəs Vladimir" və "Müqəddəs Georgi" ordenlərinə layiq görülmüşdür. (Ş.Nəzirli, "Arxivlərin sirri açılır" Bakı-1999; R.N.İvanov, "Bəyazidin müdafiəsi: həqiqət və yalan" (rusca) Moskva-2007).

Tarixin yaddaşına nəzər salaq: 1882-ci ildə Naxçıvanda maarifçi ziyalılardan ibarət "Ziyalı cəmiyyəti" yaradılır. Cəmiyyətin təşkilatçısı Naxçıvan Teatrının banisi Eynalıbəy Sultanov (1866-1935) idi. 1883-cü ildə Hacı Nəcəfbəy Zeynalovun şəxsi mənzilinə çağrılmlş qonaqlar qarşısında həvəskar aktyorların ifasında M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasından parçalar göstərilir.

Eynalıbəy Sultanovun Naxçıvandakı fəaliyyəti, Azərbaycan Teatr tarixində ən gözəl işlərdən biri olmuşdur. Naxçıvan ziyalıları arasında bilik və təşkilatçılığına görə Eynalıbəy Sultanov xüsusilə fərqlənmişdir. O, özünün şəxsi evində "Ziyalılar cəmiyyəti" təşkil edərək və savadlı gənclərlə əlaqə saxlayır.

Şəhərdəki maarifçi ziyalılardan Paşa ağa Sultanov, Mirzə Cəlil Mirzəyev (Sürbi), Mirzə Ələkbər Xəlilov, Əsəd ağa Kəngərli, Qurbanəli Şərifov, Baxşəli ağa Şahtaxtılı, Nəsirulla Şeyxov və başqalarını həmin cəmiyyətə cəlb etmişdir. Onun təşkilatçılığı ilə cəmiyyətdə dövrün ictimai-siyasi məsələləri müzakirə edilərək və yeni tipli məktəblər açmaq qərara alınır. Cəmiyyətin üzvləri, Rus yazıçı və şairlərinin, eləcə də Avropa yazıçılarının əsərlərini tərcümə etmək və xalqı maarifləndirmək məqsədilə işlər aparırlar. Həmin ildə Cəlil Məmmədquluzadə (1866-1932) Naxçıvandakı ibtidai məktəbi bitirərək, atasının ərizəsi ilə Gürcüstanda Qori Seminariyasına qəbul edilir. (1883-84-cü illərdə Cəlil Seminariyadakı hazırlıq sinfində oxuyur). Cəlil 1885-ci ildə Seminariyanın 1-ci sinfində naxçıvanlı Ə.Məmmədov və Ə.Sultanovla bərabər oxuyanda, müəllim A.O.Çernyayevskidən (1840-1894) dərs almışdır.

1887-ci ilin iyulun 7-də Qori Seminariyasını bitirən Cəlil, İrəvan Quberniyasının Uluxanlı kənd məktəbində müəllim təyin olunur. Həmin il Oktyabrın 13-dən onu Şərur-Dərələyəz qəzasının Baş Noraşen (Cəlilkənd) kənd məktəbinə göndərirlər. Əvvəlcə Şahtaxtı sonra isə Nehrəm kənd məktəbinə dəyişilmək məqsədi ilə Mirzə Cəlil, İrəvandakı Xalq Məktəbləri direktorluğuna ərizə yazmalı olmuşdur...

1887-ci ildə yerli hökumətin icazəsi ilə həmin həvəskarlar M.F.Axundovun “Molla İbrahim Xəlil kimyagər” komediyasını 30 qəpiklik bilet pulu ilə tamaşaçılara göstərirlər. Həmin ilin 25 sentyabr tarixində məktəb müəllimi Mirzəsadıq Qulubəyovun vasitəçiliyi ilə xeyriyyəçi Hacı Nəcəfbəy Zeynalovun evində (Hacının iki mərtəbəli evi, indiki 12 № -li şəhər məktəbinin yanında idi- F.B.) teatr tamaşaları olmuşdur. Naxçıvan ziyalılarından Əkbər Süleymanov, Əsgər Şeyxov, Məmmədtağı Səfərli, Almməmməd Xəlilov, Əhməd Hüseynov, Cəlil Məmmədquluzadə, Mirsadıq Qulubəyov və başqaları Naxçıvan teatrının əsil fədailəri olmuşlar. (Ə.Xəlilov, “Naxçıvan teatrının tarixi” Bakı-1964).

1889-ci ildə Naxçıvan MSSR-də başqa sahələr kimi səhiyyə işləri də inkişaf etdirilmişdir. Buna misal olaraq, Naxçıvan rayonundakı Cəhri kəndində 4 çarpayılıq xəstəxana (azarxana) tikilib istifadəyə verilir. (A.Məmmədov, “Nax. MSSR-də səhiyyənin tarixi və mərhələli inkişafı (1826-1966)” Bakı-2006).

“Bütün aləmə bəllidir qeyrəti Naxçıvanımın,
Aşıbdır kürreyi-ərzi cürəti Naxçıvanımın.
Adamları dağları tək sərtdir, əlçatmazdır onun,
Yayılıbdır hər bir yana şöhrəti Naxçıvanımın.
Duz-çörəkdir əlindəki, qəlbindəki saf ürəkdir,
Gündən-günə aşıb-daşıb sərvəti Naxçıvanımın.”

(Elman Həbib).

“Mömin olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik.”

(Quran, Nəhl 16/97)

BÖLMƏ

Naxçıvan yeni tarixdə

Tarixi “Türkmənçay müqaviləsi”ndən sonra Rus çar hökuməti İranla Türkiyə ərazilərindən 10 mindən çox erməni ailəsini Naxçıvan çuxuruna köçürmüş, bu ərazidə “erməni dövləti” yaratmaq niyyəti ilə əvvəlcə Naxçıvanı Gürcüstandakı İmeretiya quberniyası tərkibinə, sonra isə (1849-cu ildən) İrəvan quberniyası tərkibinə vermişdir.

XIX əsrin ikinci yarısından neft sənayesinin inkişaf etdiyi Bakı fəhlələrinin təşəkkül tapdığı vaxtlarda (1888-ci ildə) gizli siyasi dərnəklər yaradılır. Belə dərnəklərdən Gədəbəy, Şəki, Şuşa, Naxçıvan və Yelizavetpolda (Gəncədə) və digər məntəqələrdə də olmuşdur. Həmin dərnəklər Tiflis, Rostov, Həştərxan və başqa şəhərlərlə əlaqə saxlayaraq, Azərbaycanda fəhlə-kəndli sinfini siyasi cəhətdən maarifləndirməklə məşğul olur.

XX əsrin əvvəllərində Naxçıvandakı ziyalılar K.Camalbəyov, Ə.Yüzbaşov, Ə.Tağızadə, Ə.Kəngərli, M.Bəktaşi və başqaları “Hümmət” siyasi təşkilatının fəallarına çevrilirlər. Naxçıvanlı hümmətçilər sonradan Təbriz inqilabçılarına da yardım göstərərək, İran şahına qarşı mübarizəyə qoşulur. Həmin ildə Bakıdan Petrovsk (Mahaçqala) şəhərinə dəmir yolu çəkilib istifadəyə verilir. May ayının əvvəlindən “Cənubi Qafqazda kəndlilərin torpaqları haqqında“ çar Rusiyasının qanunu verilir.

1900-cü ilin dekabr ayında Bakıda “İskra” (Qığılcım) siyasi qəzeti nəşr olunur. Bakı və digər şəhərlərdə bolşevik “Hümmət” çi fəhlə-kəndli siyasi hərəkatı güclənməyə başlayır.

1901-ci ilin 18 mart tarixindən Azərbaycanın Mil və Muğan düzlərinə Rusiyadan 40 min nəfərlik rusdilli “molokan” təriqətindən olmuş kəndli köçürülür. Həmin ilin sentyabr ayından Bakıda neft milyonçusu H.Z.Tağıyevin (1838-1924) vəsaiti ilə bütöv Şərqdə ilk Qız pansionu yaradılır.

1902-ci ildə Bakıda M.Rəsulzadənin başçılığı ilə “Müsəlman gənclik təşkilatı” təsis edilərək, təşkilatın üzvləri tərəfindən siyasi nümayişlər keçirilir.

Tarixin yaddaşına nəzər salaq: Azərbaycan milli istiqlal mübarizəsinin banisi Məmmədəmin Ağa oğlu Rəsulzadə (1884-1955), 1884-cü il yanvar ayının 31-də Bakının Novxanı kəndində ziyalı ailəsində anadan olmuşdur. İbtidai təhsilini Bakıda S.M.Qənizadənin (1866-1937) "Rus-tatar" məktəbində aldıqdan sonra texniki məktəbdə davam etmişdir.

1902-ci ildə Məmmədəmin "Müsəlman gənclik təşkilatı"nı yaradır. XX əsrdə Azərbaycanda Rus müstəmləkə çarizminə qarşı olan ilk siyasi təşkilat idi. Daha sonra o, "Müsavat" cəmiyyəti adı ilə gizli fəaliyyət göstərərək "Hümmət" təşkilatına da daxil olur.

Bakıda həbs edilməsini bilən Məmmədəmin, 1908-ci ilin dekabr ayında İrana getməyə məcbur olur. O, Təbrizdə azadlıq fədaisi Səttərxanla (1867-1914) görüşüb və onunla yaxından tanış olur. 1910-cu ilin sentyabr ayında Məmmədəmin iranlı ziyalılar vasitəsi ilə İDP-nı yaradanlardan olur. Bundan sonra Məmmədəmin İrandan Türkiyəyə- İstanbula getməli olur. Türkiyədə Əlibəy Hüseynzadə və Əhmədbəy Ağayevlə görüşən Məmmədəmin, 1911-ci ilin oktyabr ayında "Müsavat" partiyasına daxil olur.

1913-cü ildə çar Rusiyasında Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar ümumi əfv elan olunduğundan Məmmədəmin vətənə qayıdır. 1917-ci ilin oktyabr ayında Məmmədəmin Bakıda "Müsavat" siyasi partiyasına Komitə sədri və Rusiya parlamentinə də ümum Türküstandan millət vəkili seçilir.

1918-ci il may ayının 26-da Bakıda Zaqafqaziya seymi daxili ziddiyyətlər nəticəsində ləğv olaraq, mayın 27-də Azərbaycan müxtəlif partiya üzvlərinin Milli Şurasına Məmmədəmin sədr seçilir. Bununla da mayın 28-də F.İ.Xoyskinin (1875-1920) başçılığı ilə Azərbaycan Demokratik Respublikası (ADR) hökuməti yaranır. 1920-ci il aprelin 28-də bolşeviklərin Bakını tutması nəticəsində ADR hökuməti ləğv olunur.

Həmin illərdə çar Rusiyası və o cümlədən də Qafqazda bolşeviklər axtarılaraq həbs olunurdular. Bu səbəbdən çar məmurları tərəfindən tutulmağa məruz qalan gürcü mənşəli Bakı bolşeviki İosif Stalin (1879-1953), "Koba" adı ilə hər tərəfdə axtarılırdı. Koba Bakı yaxınlığında Novxanı kəndindəki "Şah Sultan Hüseyn" məscidində Məmmədəmin tərəfindən gizlədilir. Bir həftə məscidin minbərdə gizlədilmiş Kobanı tuta bilmirlər.

Bundan sonra Koba (İ.Stalin) Məmmədəminlə bərabər kənddəki "Ağdaş piri"ndə Allaha dua etməklə niyyət edərək və oradakı "niyyət daşı"na bir mismar çalır. (Kobanın pirdəki daşa çaldığı mismar indi də qalır- F.B.). Bununla da İ.Stalin çar Rusiyasının axtarışından xilas ola bilmişdir. Bir vaxt Məmmədəminin elədiyi həmin yaxşılığın əvəzində isə, İ.Stalin köhnə dostunu özü ilə bərabər Moskvaya aparıb və ona dövlət idarəsində vəzifə verir.

Bütün bunlara baxmayaraq Leninqrada ezamiyyə adı ilə gedən Məmmədəmin, oradan da qayıqla həmişəlik olaraq xaricə qaçmalı olur. 1922-ci ildən mühacirətdə olan M.Rəsulzadə, 1955-ci ildə Türkiyədə vəfat etmişdir.

1903-cü ilin 21 aprel tarixində "Cənubi Qafqazın 5 quberniyasında pay torpaqların müəyyənləşməsi və torpaq quruluşu işləri haqqında" əsasnamə yaradılır. Həmin ilin iyul ayından Bakı fəhlələrinin sahibkarlara qarşı etiraz tətilləri olur.

1904-cü ildə Rəşidbəy İsmayılovun yazdığı "Müxtəsər Qafqaz tarixi" kitabı nəşr olunmuş, "Müsəlman artist cəmiyyəti" ilə sosial-demokrat "Hümmət" siyasi təşkilatı da yaradılmışdır. Həmin ilin 30 dekabr tarixində Bakı fəhlələrinin sahibkarlara qarşı tətili sayəsində, neft sənayesi sahibkarları ilə fəhlələr arasında "müştərək müqavilə" imzalanmışdır.

1905-ci ilin 6-9 fevral tarixində Bakıda erməni daşnakları tərəfindən Türk soyqırımları törədilmişdir. Həmin ilin 26 fevral tarixindən Qafqazda (Tiflisdə) Rusiyanın Canişinlik İdarəsi yenidən bərpa olunur. 24 may tarixində isə İrəvandakı ermənilər, müsəlmanlara qarşı soyqırımı törətmək istəyirlər. Ermənilər iyun və avqust aylarında Şuşa şəhərindəki müsəlmanlara qarşı törətdikləri cinayət aksiyalarından ifşa olurlar. Ermənilər tərəfindən Göyçə mahalında və Gəncə ətrafında azərbaycanlı türklərə qarşı soyqırımları törədilmişdir.

1905-06-cı illərdə qaçaq (kürd qisasçısı Dəli Alı- F.B.) Alı Məhərrəm oğlu tərəfindən silahlı dəstə, erməni daşnakları və onların havadarları olan Rus çarizminə qarşı mübarizəyə qalxır. Vətənpərvər Dəli Alının qoçaqlığını el nəğməkarı aşıq Ələsgər Almməməd oğlu (1821-1926), tərəfindən qoşmalarında tərifləmişdir. ("Aşıq Ələsgər", (2 cilddə) Bakı-1972). (1917-ci ildə S.Şaumyanın daşnak tərəfdarları, Dəli Alının öyrədilmiş nökəri tərəfindən evində qətlə yetirilir- F.B.).

1905-ci ilin 15 avqust tarixində Moskvada Müsəlmanların birinci Qurultayı keçirilir. Qurultaydan sonra "Müsəlman xeyriyyə cəmiyyəti" ilə "Müsəlman ziyalı cəmiyyəti" də yaradılır. Həmin ildə Naxçıvan şəhərində 14 çarpayılıq xəstəxana tikilib istifadəyə verilmişdir. Bundan başqa şəhərdə 2 əczaxana, 1 feldşer-baytarlıq xidməti məntəqəsi də açılır. (A.Məmmədov, "Nax. MSSR-də səhiyyənin tarixi və mərhələli inkişafı" Bakı-2006).

1906-cı ilin 15-23 yanvar tarixində Moskvada Müsəlmanların ikinci Qurultayı keçirilir. Həmin ilin 16-23 avqust tarixində isə Moskvada Müsəlmanların üçüncü və Bakıda Azərbaycan Müəllimlərinin birinci Qurultayı keçirilmiş, iki ildən sonra (12 yanvar) Ü.Ə.Hacıbəyovun (1985-1948) "Leyli və Məcnun" operası tamaşaya qoyulmuşdur.

1911-ci ildə Naxçıvan şəhərində tikinti-abadlıq işlərini sürətləndirmək üçün kərpic zavodu tikilərək istifadəyə verilir. Şəhərin cənubundakı "Qala məhəlləsi"ndə Cəfərquluxan Kəngərlinin (1880-1939) vəsaiti ilə tikilən nəhəng kərpic zavodunun sahəsi (ehtiyat torpaq örtüyü ilə birlikdə) 3.000 m2 , kərpicdən hörülmüş qülləsinin hündürlüyü 75 m, diametri isə 6 m olmuşdur.

Qüllə hər 5 m-dən bir dəmir kəmərlə bərkidilərək, aşağı tərəfdə isə 3 kürəsi olmuşdur. Kərpic zavodu sonrakı illərdə bir neçə dəfə təmir-bərpa edilərək, aylıq istehsal gücü 10.000 ədədə çatdırılmışdır. Naxçıvan şəhərinin mərkəzində dövrümüzədək qalan iki mərtəbəli kərpic binalar, zavodun istehsal etdiyi kərpiclə inşa olmuşdur.

Naxçıvan şəhərindəki qədim Cümə məscidi zəlzələdən zədələndiyindən, yeni məscidin tikilməsinə ehtiyac yaranır. (Həmin məscid XIII əsrin 20-ci illərində tikilmişdir- F.B.). Belə ki, 1890-cı (hicri 1311) ildə (şəhər qazısı Hacı Məmmədcəfərin razılığı ilə- F.B.) yeni tikilmiş Cümə məscidi Naxçıvanda dükan sahibi Təbrizli Məhəmməd Tağının xeyriyyəçiliyi ilə 1911-ci (hicri 1332) ildə Təbrizli bənna Məhəmməd Saleh tərəfindən bərpa edilmişdir (İ.Qiyasi, "Nizami dövrü memarlıq abidələri" Bakı-1991; F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı-2008).

1912-ci ilin 20 dekabr tarixində Rusiya hökuməti tərəfindən "Cənubi Qafqazda kəndli torpaqlarının məcburi satılması haqqında qanun" imzalanmışdır. XX əsrin əvvəllərində dünyanın siyasi meydanında böyük dəyişikliklər baş vermişdir. Bu dəyişikliklərə səbəb əsasən müharibələr olmuşdur. Avropanın kapitalist burjua ölkələri arasında gedən ziddiyyətlər 1914-cü ildə Birinci Dünya Müharibəsinə gətirib çıxarmışdır. Həmin savaşlarda Türkiyə sultanlığı da müttəfiq kimi iştirak etmişdir.

1914-cü ilin 4 dekabr tarixində Sarıqamış döyüşlərində Türk qoşunları ruslara məğlub olur. Daha sonra isə qarşıdakı ilin 20 yanvar tarixində yenidən ruslar türkləri məğlub edərək, Təbriz şəhərini də ələ keçirirlər. Türk Osmanlı dövlətinin əsgərləri bu savaşlarda ciddi müqavimətlə rastlaşdıqlarından ağır itkilər verirlər.

Bütün bunlara bir neçə səbəb olmuşdur ki, onlardan biri də Osmanlı Türk ordusunda casus yəhudi və xain xaçpərəstlərdən ibarət komandanların olması idi. Həmin komandanlardan biri də milliyətcə erməni general Andranik Ozanyan (1865-1927) olmuşdur. Andranik Osmanlı Türk dövlətinin hərbi sirlərini məxfi surətdə, düşmənə verərək xain çıxır. Buna görə də, hərbi səhra məhkəməsinin qərarı ilə onun qulağının biri kəsilməklə, rütbəsi endirilib və 24 saat ərzində ölkədən qovulur. (F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı-2008).

Andranik Türkiyədən qovulduqdan sonra Ermənistana gələrək, millətçi "Daşnaksütyün" siyasi partiyasına üzv olur. "Daşnaksütyün" siyasi partiyası xüsusilə masonçuluq burjua ideologiyasına xidmət etməklə, nəinki Ermənistanda yaranmış bolşevik partiyasının əleyhinə, o cümlədən də Türk müsəlmanlarına qarşı qəddar cinayətlər törətməklə məşğul idi...

1914-cü ildə Naxçıvan şəhərindəki köhnə qəbiristanlıq yerində, şəhər xeyriyyəçilərinin vəsaiti ilə (xüsusilə Şahbazağa Kəngərli, Kərbəlayi Musa və Miriş Ağanın təşəbbüsü ilə) "Padşahlıq bağı" salınaraq, Bazar çayından ora su arxı da çəkilir. (Sonrakı illərdə həmin parka "Böyük bağ" adı verilmişdir- F.B.).

1916-cı ildə Bakıda ilk dəfə yazıçı İ.M.Musabəyovun (1880-1942) yazdığı roman əsasında, "Neft və milyonlar səltənəti" adlı bədii kino əsəri lentə çəkilmiş. Həmin filmin rejissoru Boris Svetlov, baş rolun ifaçısı isə məşhur aktyor Hüseyn Ərəblinski (1881-1919) olmuşdur. (M.Qurbanov, "Sovet Azərbaycanının kinosu" Bakı-1989).

1917-ci ilin mart ayından Bakıda "Ədalət" adlı sosial-demokrat siyasi təşkilatı yaradılır. Həmin ilin aprel ayının 20-də Bakıda Qafqaz Müsəlmanlarının, may ayında isə Moskvada Ümumrusiya Müsəlmanlarının Qurultayları keçirilir. 1917-ci ilin oktyabr ayında Rəşidbəy Əfəndiyev Naxçıvanda yaradılmış "qız məktəbi"nin müdiri olur. Həmin məktəbin dərs müdiri Nazlıxanım Məmməd qızı Nəcəfova (1890-1977) və teatrın gənc rejissoru Riza Təhmasibin (1894-1980) köməyi ilə məktəbdə şagirdlərdən ibarət dram dərnəyi yaradılır. (Ə.Xəlilov, "Naxçıvan teatrının tarixi" Bakı-1964).

1917-ci ildə Rusiyada V.İ.Leninin (1870-1924) başçılığı ilə çar mütləqiyyətinə qarşı silahlı üsyan qaldırılır. Peterburqda çar hökuməti devrilərək bolşeviklərin əlinə keçir. Bununla da Rusiyanın ictimai-siyasi dövlət quruluşunda dəyişiklik baş verir. Nəticədə ölkədə "ağlar" və "qırmızılar" arasında illərlə davam edən və yüz minlərlə adamın həyatına son qoyan ciddi silahlı toqquşmalar baş alıb gedir.

Bütün belə "kim-kimə" siyasət oyunundan məharətlə istifadə edən Qərbi Avropanın Antanta hərbi blokuna üzv olmuş burjua kapitalist dövlətləri ilə Qafqazdakı menşeviklər birləşərək, yeni qurulmuş xalq hakimiyyətinin əleyhinə çıxırlar. Bakıdakı neft sənayesi fəhlələri yerli bolşeviklərin təbliğatı ilə sahibkarlara qarşı nümayişə qalxırlar.

1917-ci il fevral inqilabından sonra Zaqafqaziyanı idarə etmək üçün 9 mart tarixində Tiflisdə V.A.Xarlamovun sədrliyi ilə komitə yaradılır. Komitəyə A.İ.Çxenkeli, Knyaz Abaşidze, Y.Cəfərov və M.İ.Panacanov heyət üzvü olurlar. 1917-ci il 18 noyabr tarixdə Y.P.Gegeçkorinin sədrliyi ilə 11 nəfərdən ibarət "Zaqafkom" adı ilə Müvəqqəti Hökumət yaradılır. (Azərbaycandan Ə.Xasməmmədov, M.Cəfərov və X.Məlikaslanov Zaqafkomun üzvləri olmuşlar- F.B.).

Azərbaycanın sənaye şəhərlərində 1906-cı ildən 1917-ci ilədək "Nicat" adlı mədəni-maarif cəmiyyəti fəaliyyət göstərmişdir. Bakıda və ətraf bölgələrdə savadsızlığa qarşı axşam kursları açılmış və ümumi (vəqf) kitabxana yaradılmışdır. 1910-cu ildə Bakı milyonçusu İsabəy Aşurbəyovun vəsaiti ilə "Nicat" adlı həftəlik qəzet də nəşr olunmuşdur. Həmin illərdə Bakıda 30-a yaxın "Nicat" axşam ibtidai məktəbləri də yaradılaraq, 1.160 şagirddən 123 nəfəri qız uşaqları təhsil almışlar. Həmin məktəblərdən birində (Balaxanada) Azərbaycanın satirik şairi, M.Ə.Sabir (1862-1911) müəllimlik etmişdir. ("ASE-sı, 10 cilddə VII cild), Bakı-1983; "Azərbaycan tarixi", 2-ci cild Bakı-1964).

Tarixin yaddaşına nəzər salaq: 1917-1924-cü illərdə Naxçıvan şəhərində "Tərbiyə" (Rus-Tatar) (indiki "Ana dili" abidəsinin yerində- F.B.), "Tərbiyə" (Qız) (indiki şəhər 2 №-li məktəbin yerində- F.B.) və "Nicat" (Zəhmət) (sonrakı adı "Rüşdiyyə") (indiki "Kitab evi" binası yerində idi- F.B.) adında məktəblər fəaliyyət göstərmişdir. (1924-45-ci illərdə "Rüşdiyyə" məktəbi şəhər 4 №- li yeddiillik məktəbi (direktoru M.C.Mirişli (1899-1979) idi) kimi fəaliyyət göstərmişdir).

Naxçıvanda Şura hökuməti yarananadək, Cümə məscidinin həyətində Miriş Ağa (...?-1906) ilə Qazı Hacı Məhəmməd Cəfər ağanın xeyriyyəçiliyi ilə kasıb uşaqlar üçün pulsuz "Nicat" məktəbi açılır. Həmin məktəbin yetirmələri tanınmış maarifçi Mir Cəfər Seyidov (1899-1979), görkəmli torpaqşünas akademik Həsən Əliyev (1907-1993), Xalq rəssamı Hüseyn Əliyev (1911-1991), Əməkdar müəllim Rauf Bəktaşi (1910-1988), Xalq Maarifi xadimi, filoloq Lətif Hüseynzadə (1903-2007), tənqidçi ədəbiyyatşünas Məmmədcəfər Cəfərov (1909-1992), ədəbiyyatşünas Əli Sultanlı (1906-1960), Heydər Əliyev (1923-2003) və başqaları ibtidai təhsil almışlar.

"Bilik qazan, ey könül, yan, işıqlan biliklə,
Zülməti nurla öldür, düşməni bir çiçəklə."

(Nizami Gəncəvi)

1917-ci ilin dekabr və 1918-ci ilin yanvar aylarında Cənubi Azərbaycanın Xoy, Salmas, Soyuqbulaq və digər bölgələrindəki kəndlərdə azərbaycanlılara qarşı erməni, aysor və kürdlərdən ibarət birləşmiş quldur dəstələri soyqırımı törədirlər. Həmin soyqırımın əsas təşkilatçısı daşnak Andranik olmuşdur.

1918-ci ilin 10 (23) fevral tarixində Tiflisdə Cənubi Qafqaz Seymi yaradılsa da, 26 may tarixli iclasda Seretelinin elanı ilə seymin buraxılması bildirilir. Həmin ilin 30 mart-1 aprel tarixində Bakı və ətraf bölgələrdə erməni daşnakları rus bolşevik ordusu ilə birləşərək, yalnız Azərbaycan öz müstəqilliyinə qovuşandan sonra dövlət səviyyəsində "soyqırımı" kimi tanınmış azərbaycanlılara və digər müsəlman azlıqlarına qarşı qanlı soyqırımları törətmişlər...

1918-ci ilin 22 aprel tarixində Tiflisdə Cənubi Qafqaz Demokratik Federativ Respublikası (CQDFR) yaradılır. Həmin ilin 25 aprel tarixindən isə Bakıda Azərbaycan Xalq Komissarları Şurası yaradılaraq, erməni mənşəli bolşevik (həm də quldur Daşnaksutyun partiyasının Bakı təşkilatının sədri) S.Şaumyan (1878-1918 (?)) sədr seçilir. 1918-ci ilin 2 may tarixində Bakı bolşeviklərinin gizli yığıncağında "Hümmət"lə "Ədalət" siyasi təşkilatları birləşərək, vahid bolşevik partiyası yaradırlar.

1918-ci ilin 26 may tarixində Tiflisdə Cənubi Qafqaz Seyminin son iclasından sonra Gürcüstan, 28 may tarixdən isə Azərbaycanla Ermənistan öz müstəqilliklərini elan etmişlər. Azərbaycan Demokratik Respublikasının Milli Şurası Rəyasət Heyətinə Məmmədəmin Rəsulzadə (1884-1955) ilə Fətəlixan Xoyski (1875-1920) seçilirlər.

Tarixin yaddaşına nəzər salaq: 1918-ci il 28 may tarixində Tiflis şəhərində Azərbaycan Milli Şurası sədrinin müavini H.Ağayev, katib M.Mahmudov və üzvlər F.Xoyski, X.Xasməmmədov, N.Yusifbəyli, M.Seyidov, N.Nərimanbəyov, H.Məmmədbəyov, M.Hacınski, Ə.Mahmudbəyov, A.Qardaşov, S.Qənizadə, Ə.Şeyxülislamov, M.Hacıbababəyov, M.Cəfərov, X.Məlikaslanov, R.Vəkilov, H.Şahtaxtinski, F.Köçərli, C.Hacınski, Ş.Rüstəmbəyov, X.Sultanov, C.Axundov, M.Məhərrəmov, C.Məlik-Yeqanov və Hacı Axundzadənin iştirakı ilə qərar aktı imzalanır. Həmin ilin 30 may tarixində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında dünya parlamentlərinə radioqram göndərilir. Altı bənddən ibarət qərarın mətni aşağıdakı kimi olmuşdur;

1. Azərbaycan tamhüquqlu və müstəqil dövlətdir. O, Zaqafqaziyanın cənub və şərq hissələrindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.

2. Müstəqil Azərbaycanın siyasi quruluş forması demokratik cümhuriyyətdir.

3. Müstəqil Demokratik Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri ilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaq.

4. ADC öz sərhədləri daxilində millətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq, bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.

5. ADC onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq.

6. Məclisi-müəssisanın çağırılmasına qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şuranın qarşısında cavabdeh olan Müvəqqəti hökumət sayılır. Həmin gün mayın 28-də aşağıdakı tərkibdə Müvəqqəti hökumət təşkil olunmuşdur;

F. Xoyski- Nazirlər Şurasının sədri və daxili işlər naziri.

Xosrovpaşa Sultanov- hərbi nazir.

M. Hacınski- xarici işlər naziri.

N. Yusifbəyli- maliyyə və sənaye naziri.

X. Xasməmmədov- ədliyyə naziri.

M. Cəfərov- ticarət və sənaye naziri.

Ə. Şeyxülislamov- nəqliyyat, poçt və teleqraf naziri.

C. Hacınski- dövlət naziri.

1918-ci ilin 4 iyun tarixində Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə Türk Osmanlı dövləti arasında "Sülh və dostluq" müqaviləsi imzalanır. Həmin ilin 16 iyun tarixində Azərbaycan Xalq Cümhuriyyəti hökumət idarəçiliyi Tiflisdən Gəncə şəhərinə köçür. Daha sonra Azərbaycan Xalq Cümhuriyyəti elan edilərək Milli ordu və dövlət dili haqqında da rəsmi qanun verilir. Gəncədə Nazirlər Şurasının tərkibində bəzi dəyişikliklər baş verir. 19 iyunda isə Azərbaycanda hərbi vəziyyət elan edilir. Bakıdakı Xalq Komissarları Sovetinin qərarı ilə yeni qurulmuş AXC hökumətini yıxmaq istəsələr də, tezliklə XKS özü istefa verməli olur.

1918-ci il 1 avqust tarixində Bakıdakı "Sentrokaspi" menşeviklərinin siyasi diktaturası ilə maddi vəsait ehtiyatları Xalq Komissarlarının (Stepan Şaumyanın- F.B.) əlinə keçir. 23 avqust tarixində AXC hökuməti tərəfindən Azərbaycan vətəndaşlığı haqqında və 28 avqust tarixində isə məktəblərin millileşdirilməsi haqqında qanun verilir. Həmin ilin 27 avqust tarixində Sovet Rusiyası ilə Almaniya arasında Brest-Litovskdə sülh müqaviləsi imzalandıqdan sonra, Birinci dünya müharibəsi sona çatır.

Tarixin yaddaşına nəzər salaq: 1918-ci ilin 15 sentyabr tarixində AXC hökumətinə, dünya ictimaiyyətinin gözü qarşısında genosidə tutdurulan Azərbaycan xalqına Türkiyə Cümhuriyyətinin hərbi köməyi gəlir. Bakıdakı "Sentrokaspi" diktaturasının devrilməsindən sonra, ingilis hərbi donanması Bakı limanına girir. Az sonra Məşədibəy Əzizbəyov başda olmaqla Bakı bolşevik ünsürlərinin rəhbərləri ingilis eserləri tərəfindən həbs edilərək, Bayıl zindanına salınıb və onları Bakıdan gəmi ilə Türkmənistana aparırlar. Səhərə yaxın gəmi Krasnovodsk limanına çatır.

Krasnovodsk limanında Azərbaycan müstəqilliyinin və millətinin qatı düşmənləri olan komissarlar bir gün də həbsdə saxladıqdan sonra, gecə ilə menşevik və ingilis hərbi qüvvələrinin müşayiəti ilə Aşqabada gedən qatara mindirilir. Türkmənistanın Ağcaqum səhrasında qatardan endirilmiş Azərbaycanın taleyi ilə oynayan 23 nəfər komissar, ingilislərin və rus menşeviklərinin "səhra məhkəməsinin qərarı ilə" oradaca güllələnirlər.

Adları siyahıda olmayan Stepan Georgiyeviç Şaumyan (1878-1918(?), oğlu Suren Stepanoviç Şaumyan (1900-1936) və Anastas İvanoviç Mikoyan (1895-1978) ingilislərin köməyi ilə gizlənərək sağ qalırlar. Bundan sonra Suren Anastasla bərabər əvvəlcə Həştərxana, ordan da Moskvaya gedirlər. Bakıdakı Sentrokaspi diktaturasının varidatını ələ keçirən Stepan Şaumyan isə ingilislərin köməyi ilə Hindistana tərəf qaçır. (Sonrakı illərdə (1920-ci ilin 28 may tarixində) Anastas Mikoyanla Sueren Şaumyan, rusların 11-ci Qırmızı ordusu ilə Bakıya gəlmişlər- F.B.).

Şübhəsiz ki, ermənilər Azərbaycanın 30 mindən çox dinc əhalisini bir neçə gün ərzində qanına qəltan etdirmiş, 50 mindən çoxunu yaralayaraq əlil etmişdir. Bakının "26-lar parkı"ndakı basdırılmış komissarlardan yalnız 19-nun cəsədinin aşkar edilməsi, bir daha sübut etdi ki, vaxtilə mərhum Akademik Ziya Bünyadovun yazdığı kimi, Şaumyanla Mikoyan və digər 5 nəfər erməni qaça bilmişlər.

Stepan Şaumyanın qız nəvəsi Tatyana Gevorqievna Şaumyan, Moskvadakı Şərqşünaslıq Elmi-Tədqiqat İnstitutundan Hindistan Tədqiqat Mərkəzinə aparanlar kimlər idi? Kim onu məhz Hindistan üzrə mütəxəssis olmağa təhrik etmişdi? Əlbəttə SSRİ Ensiklopediyasının baş redaktoru olmuş atası, Gevorq Surenoviç Şaumyan Babasının sağ olduğunu bilə-bilə, onun ölümü üçün qaragüruhçu sistemin verdiyi bütün imtiyazlardan tam bəhrələnən G.Şaumyan. Onu Hindistanla bağlayan gizli isti tellər öz qızını məhz Hindistanşünas etməyə sövq edirdi.

Əfsus ki, Sovet kommunist partiyasının insanların mənəviyyatına zidd siyasəti nəticəsində Bakı komissarlarını Azərbaycan xalqının düşüncəsinə xilasedicilərimiz kimi yeridə bilmişdi. Bunun nəticəsi idi ki, 1925-ci ildə yəhudi mənşəli Rus rəssamı İsaak İzraileviç Brodskinin (1884-1939) sinəsini düşmən gülləsinə ön cərgədə "igidliklə açmış" cani S.G.Şaumyanı qəhrəman simvolunda təsvir etdiyi "26 Bakı komissarlarının güllələnməsi" tablosu, muzey və dərsliklərimizdə mərdlik simvolu kimi təbliğ edilirdi... (bax; kitabdakı "xəritə və şəkillər" səhifəsinə).

Bakının Dağüstü parkında dəfn edilib, sonradan buldozer qabağında sürüklənərək yerlə-yeksan olunmuş on minlərlə qəbirlərin üstündə 90 ildir dolaşan şəhidlərimizin ruhlarının ərşə yüksələn fəryadlarına heç olmasa müstəqillik dövrümüzdə qulaq asmalıyıq.

1918-ci ildə İngilis-Amerika imperialistlərini təmsil edən quldur dəstə üzvləri erməni daşnakları və Rus menşevikləri ilə əlbir olaraq Araz çayı boyunca Naxçıvan qəzasında basqınçılıq edirlər. (Ə.Əliyev, "Biz əzablı ömür yaşadıq" Bakı-1994).

İrəvanda millətçi Andranikin silahlı quldur dəstəsi Azərbaycan türkləri yaşayan kəndlərə basqınlar edir. Lakin Böyük Vedili Abbasqulubəy Şadlinskinin (1886-1930) silahlı dəstəsinə zor işlədə bilmirlər. (Ə.Əliyev, "Qırmızı tabor" Bakı-1990).

1918-ci ilin yay aylarında Naxçıvan qəzası ilə ətraf kəndlərin əhalisinə ağır bəla üz verir. Bir tərəfdən Aleksandropol (indiki Leninakan- F.B.) ərazisindən təcavüzkar imperialist qoşun dəstələri, Vedi-Naxçıvan, Zəngəzur və Dərələyəz, digər tərəfdən də Xoy-Maku-Culfa ərazisində erməni-kürd quldurları tərəfindən Azərbaycan türklərini qılıncdan keçirirlər.

Ərazidəki mənşəcə kürd qaçağı olmuş İsmayılbəy Şmitko da erməni qulduru Andranik Ozanyana himayədarlıq edərək, Azərbaycan əhalisini qılıncdan keçirmişlər. Həmin ilin ortalarında quldur Andranikin silahlı dəstəsi, İranın Culfa şəhərindəki Araz körpüsündən keçərək, Naxçıvan ərazilərinə hücum edir. Quldurlar yaxınlıqdakı Yaycı kəndini yandıraraq əhalisini də vəhşiliklə Arazda batırırlar.

Bundan sonra ermənilər iki yerə bölünərək, "Yapon" təxəllüslü quldurbaşının (quldurunun adı Konyyanç (Kanayan) Drostoman Martirosoviç (Dro) idi- F.B.) əlaltıları Ordubada tərəf, Andranikin dəstəsi isə Naxçıvan istiqamətində atlarını çapırlar. Drostoman Kanayan 1881-ci ildə İqdirdə erməni ailəsində doğulmuş, 1905-ci ildən "Daşnaksütyun" partiyasına üzv olaraq. ərazilərdəki görkəmli Türk zabitlərini qətlə yetirmişdir. 1907-ci ilin iyulunda o, Tiflisə gedərək azərbaycanlı qubernator general Maqsud Əlixanovu vəhşiliklə öldürmüşdür.

Birinci Dünya müharibəsi başlayanda Drostoman, Rus ordusunun tərəfin saxlayaraq türklərə qarşı döyüşmüşdür. 1914-cü ildə döyüşlərdə yaralanmış erməni quldurуna, Rus çarı II Nikolay tərəfindən "Müqəddəs Georgi" ordeni verilmişdir. Drostoman 1918-ci ildə quldur Andranik Ozanyanla birləşərək ərazilərdəki Azərbaycanlılara qarşı silahlı basqınlar edirlər. Rus Sovet hakimiyyəti İrəvanda yaranandan sonra, o, Zəngəzurdakı Azərbaycan əhalisini öldürərək, evlərini də yandırır. Sonradan hər iki quldur Batum limanından gəmi ilə Parisə qaçırlar. İkinci Dünya müharibəsində Alman faşistləri Parisi tutduqdan sonra Drostoman III Reyxin (Adolf Hitlerin) tərəfini saxlayır. (R.N.İvanov, "Basqın" (rusca) Moskva-2009).

Andranikin dəstəsi Camaldınla Ərəzin kəndləri arasındakı kövşəndə dayanaraq dincəlirlər. Ertəsi günü ermənilər hər iki kəndlərin əhalisini öldürərək Naxçıvan tərəfə üz tuturlar. Onlar yolda Güznütlə Çeşməbasar kəndlərindəki ermənilərі də, dəstələrinə qoşaraq, Nehrəm kəndini mühasirəyə alırlar. Nehrəmlilər quldur dəstəsinin gəlişini əvvəlcədən xəbər tutduqlarından, kəndin ətrafında səngərlər qazaraq könüllü müdafiə dəstələri yaradırlar. (Könüllü müdafiə dəstəsində qadınlar da fəallıq etmişlər- F.B.).

Üç günlük atışmalardan sonra, ermənilər kəndə girə bilməyəcəklərini görüb, Naxçıvan səhərinin şimal hissəsində düşərgə salmalı olurlar. Buradan Andranik Ozanyan bir nəfər Pəpiş Qədir oğlu (1907-1976) adlı oğlan uşağı ilə Naxçıvan şəhər əhalisinə təslim olma yazılı ultimatum göndərir...

1918-ci ilin iyul ayında Cəfərqulu xan oğlu III Kalbalıxana (1888-1934), şəhər əhalisini səfərbərliyə alınmasını tapşırır. Həmin günlərdə demokratik inqilabçı ziyalılar da, şəhəri erməni quldurlarından qoruyaraq son nəfəslərinədək müdafiəyə qoşulurlar. Naxçıvan şəhərinin yollarında səngərlər qazaraq, könüllü dəstələrdən ibarət silahlılar ayıq-sayıq dayanırlar. Şəhərdəki ermənilər isə qapılarını bağlayıb və ailələri ilə birlikdə erməni yaşayan kəndlərdə gizlənirlər.

Üç gündən sonra Andranik, Naxçıvan şəhər əhalisinin təslim olmadığını görərək, hücum əmrini verir. İgid naxçıvanlılar erməni basqınçılarından qorxmayır, var gücü ilə müqavimət göstərib və quldur ermənilər şəhərə yaxınlaşmağa buraxmırlar. Atışmalarda hər iki tərəfdən ölən və yaralananlar olur. Şəhərin Əlixan, Şahab və Qala məhəlləsinin könüllüləri bu ağır və qeyri-bərabər döyüşlərdə Andranikin silahlı ordusuna qarşı çox böyük əzm və inadkarlıqla vuruşaraq, əsil qəhrəmanlıq göstərirlər. Həmin atışmalarda üç nəfər naxçıvanlı cavan müdafiəçi şəhid olaraq, şəhər qəbiristanlığında dəfn edilir.

Ultimatum kağızının arxasında rəssam Bəhruzun çəkdiyi tayqulaq Andranikin ulağa oxşar şəklini qaytarıb aparan məhəllə uşağı Pəpiş İsmayılovu, (P.İsmayılov ömrünün sonunadək şəhərdəki Lermontov küçəsi 78 A №-li evdə yaşamışdır- F.B.) quldurlar qulağının birini kəsərək və gözünün də birini çıxarırlar. Əlixan məhəlləsindəki atışmalarda şəhid olanların arasında 18 yaşlı Lətif Nəcəfağa oğlu Sultanov da olmuşdur. (F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı-2008).

Tarixin yaddaşına nəzər salaq: 3 iyul 1918-ci ildə Türkiyənin IX və XI süvari atıcı alayları Andranikin quldur dəstəsinin izi ilə Şahtaxtı körpüsü vasitəsilə Arazı keçib Naxçıvana köməyə gəlir. Qardaşı müdafiəyə tələsən şanlı Türk atıcıları Duzdağ təpələrindən ermənilərin Naxçıvandakı düşərgələrini güclü top atəşinə tuturlar. (Türklərin atdı top mərmilərinin iz qoyduğu (kraterlər) qıfabənzər çuxurlar son illərədək xaçpərəstlərin "malakan qəbiristanlığı"nda qalırdı- F.B.).

Qorxuya düşən Andranik, öz qaniçən dəstəsi ilə Sirab kəndi istiqamətinə geri çəkilir. Naxçıvanlılar Kazım Qarabəkir Paşanın (1882-1948) başçılığı ilə gəlmiş Türk Azadlıq əsgər (mehmetcik) və zabitlərini sevinclə qarşılamış, yollarına gül-çiçək səpərək, ayaqlarının altında qoç qurbanlar kəsmişlər. Erməni quldurları isə həmin vaxtda Sirab kəndinin əhalisini məscidə yığaraq od vurub diri-diri yandırırlar. (Yaxşı olardı ki, tarixin yaddaşına düşən həmin xaraba məscid yerində ermənilərin vəhşiliklərini əks etdirən monumental abidə ucaldılıb və hər il tarixi mərasim tədbirləri keçirilərdi). (F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı-2008).

Erməni quldurları Qahab kəndinə hücum edərək evləri yandırıb əhalisini də qılıncdan keçirirlər. Onlar "Əshabi-kəhf" dağının yanından keçərkən, kafirlərdən bir neçəsi mağaranın içərisinə girir. Ermənilər mağara divarlarına güllə atanda yer möcüzəvi surətdə titrəyərək zəlzələ baş verir. Bu zaman dağın başından böyük qaya parçası qırılaraq mağaranın içərisində kafirlərin yolunu kəsir.

Ermənilər dincəlmək üçün yaxındakı Nəhəcir kəndinə gedirlər. Kəndin əhalisi əvvəlcədən dağlarda gizləndiyindən, quldurların əlləri boşa çıxır. Bundan qəzəblənən kafirlər, kənddəki "Cəviz ağacı çeşməsi"ni batırıb Qazançı kəndi istiqamətində hərəkət edirlər. Ermənilər Əlincə çayı başlanğıcı istiqamətində gedərkən yol boyu kəndləri yandıraraq əhalisini də məhv edirlər. Bundan sonra quldurlar Ləkətağ kəndidən yuxarıdakı Zəngəzur silsiləsindəki "Gədik aşırımı"ndan keçib Taxta körpü çayı ilə əvvəlcə Sisyana, sonra isə Gorusa tərəf qalxırlar.

Andranik Gorusda "Yapon"un (Drostomanın) dəstəsi ilə görüşərək, Bakı komissarı S.G.Şaumyanın (1878-1918(?) yazdığı məxfi məktubla tanış olur. S.Şaumyan məktubunda qatı millətçi Andranikdən onunla Tiflisdə görüşməsini və sentyabr ayında isə Batumdan menşeviklərlə bərabər Parisə qaçmalarını bildirirdi...

Şaumyanın məsləhəti ilə Andranik öz qəddarlıq missiyasını başa vurandan sonra ələ keçməsin deyə gəmi ilə Parisə gedir və orada "Daşnaksutyun" siyasi partiyasının lideri olur. Bəzi qeyri rəsmi məlumatlara görə isə, Stepan Georgiyeviç Şaumyan Parisə qaçmaq istəyərkən, Tiflisdə "menşeviklər tərəfindən öldürülür"(?). Sonrakı illərdə Akademik Z.Bünyadovun tədqiqatlarından məlum olmuşdur ki, S.G.Şaumyan ingilislərin köməyi ilə Bakıdakı Sentrokaspinin varidatını ələ keçirərək və ömrünün qalanını Hindistanda keçirmişdir.

Türk generalı Nuru Paşanın ordusu tərəfindən Bakıda çoxlu itgilər hesabına bolşevik-daşnak ünsürlərindən süpürülüb təmizləndikdən sonra, 1918-ci ilin 17 sentyabrında Azərbaycan Cümhuriyyətinin idarəetmə aparatı Gəncədən Bakıya köçür. Həmin gündən Bakının paytaxt statusu özünə qaytarılır.

Məlumdur ki, Çar Rusiyası özünün quberniyası halına salıb, hətta öz insanlarını mərkəzi Rusiyadan buraya sürgün etdiyi vaxtlar belə, neft və sənaye şəhəri olan Bakı Azərbaycanın quberniya paytaxtı idi. "Sentrokaspi" diktaturası onu birdəfəlik ələ keçirib Azərbaycandan ayırmaq və rus-erməni şəhərinə çevirmək kimi bəd niyyət güdürdü. AXC-nin Bakıya gəlməsi Azərbaycan tarixinin şanlı səhifələrindən biridir. 1918-ci ilin 9 noyabr tarixində Bakıda Azərbaycan Cümhuriyyəti Parlamenti binası üzərində üçrəngli, ay-ulduzlu Dövlət bayrağı dalğalanır. (M.Əliyev, "Azərbaycan Demokratik Respublikası (1918-1920)" Bakı-1998).

1918-ci ilin 30 oktyabrında "Mudros" sülh müqaviləsinə görə (İngilislərin Azərbaycanı öz təsiri altına salmaq üçün- F.B.) Türk qoşunları Azərbaycan ərazilərindən çıxarılır. Türklər gedərkən hərbi sursatlarını naxçıvanlılara bağışlayır. Türklərin müdafiə üçün bağladıqları silah-sursatların saxlandığı anbar 1964-cü ildə Naxçıvan Vilayət Həmkarlar Şurasına yeni inzibati bina tikilərkən təsadüfən aşkar olmuşdu... (F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı-2008).

Həmin ilin 17 noyabr tarixində general Tomsonun komandanlığı ilə İngilis hərbi gəmiləri Bakı limanına gəlirlər. Osmanlı Türkiyəsinin ordu generalı Atatatürk Qazi Mustafa Kamalın (1881-1938) məsləhəti ilə şərq cəbhəsi komandanı ordu generalı Kazım Qarabəkir Paşa (1882-1948) tərəfindən, 1918-ci ilin noyabrında Naxçıvanda müstəqil hakimiyyəti olan Araz (Türk) Respublikası yaradılır.

Tarixin yaddaşına nəzər salaq: Naxçıvandakı Araz (Türk) Respublikasının inzibati əraziləri Naxçıvan, Şərur-Dərələyəz, Ordubad Sərdərabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri nahiyələri və sairə daxil olmaqla, 16.000 km2 əraziyə və 1 milyona yaxın əhaliyə malik olmuşdur. (İ.Musayev, "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921)" Bakı-1996).

Araz (Türk) Cümhuriyyətinin Milli Şura Sədri vəzifəsinə Kazım Qarabəkir Paşanın məsləhəti ilə keçmiş İqdir vilayətinin Valisi Mirzə Nəsurullahbəy Bəktaşi (?...-?...) seçilir. Dövlətin Nazirlər Şurasının Sədri Əmirbəy Əkbərzadənin (?...-?...) işçi tərkibində aşağıdakı nazirlər olmuşdur;

İbrahimbəy Cahangirzadə (hərbi nazir).

Əlibəy Bənəniyarlı (inzibati-ərazi naziri).

Həsənağa Səfərzadə (xarici işlər naziri).

Məmmədağa Bəyzadə (ədliyyə naziri).

Mirzə Hüseyn Həsənzadə (fövqəladə işlər naziri).

Naxçıvan Araz (Türk) Cümhuriyyətinin İrəvan şəhərindəki nümayəndəliyinə də, Məhəmmədağa Təkinski (?...-1920) başçılıq edirdi. 1919-cu ilin 3 mayında Araz (Türk) Cümhuriyyətinin İrəvandakı nümayəndəliyi tərəfindən Ermənistan xarici işlər nazirliyinə etiraz bəyanatı verilmişdir. Həmin ilin 16 may tarixində isə Təkinski, Bakıya-Azərbaycan Demokratik Cümhuriyyətinə xəbər verərək demişdir ki: "İngilislərin əmri ilə bizim zabitlər (Bakıdan köməyə gələnlər- F.B.) Naxçıvanı tərk etdilər". (M.Quliyev, "Tarixi şəxsiyyətlər; Məhəmmədxan Təkinski", ("Şərq qapısı" qəzeti, 2009-cu il №74).

1918-ci ilin 7 dekabr tarixində M.Rəsulzadənin (1884-1955) sədrliyi ilə Bakıda keçirilən Azərbaycan Parlamenti fəaliyyətə başlayaraq Naxçıvandakı Araz (Türk) Cümhuriyyətinə (dövlət tərkibində əlavə hakimiyyətlə müdafiə ehtiyatı çatışmadığından- F.B.) biganəlik göstərmişdir. (Azərbaycan Parlamenti iclasında Naxçıvandan Paşabəy Əliyev (?...-1933) nümayəndə kimi iştirak etmişdir)...

1919-cu ilin yanvar-aprel aylarında Moskvada Xalq Milli İşlər Komissarlığında işləmiş, ilk Ali Hərbi Akademiya məzunu azərbaycanlı Orucəli Səfərəli oğlu Bağırov (1890-1940) sonradan Leninin göndərişi ilə RSFSR Xarici İşlər Komissarlığının Türkiyədəki hərbi attaşesi və daha sonra isə Trabzonda konsul müavini vəzifəsində işləmişdir. O, Rusiyanın ilk azərbaycanlı diplomatı olmuşdur.

1919-cu ilin yanvar ayında İngilis-Amerikan təcavüzkarları polkovnik Doluxanyanın başçılığı ilə erməni daşnakları Şərur qəzasına qəflətən hücum edirlər. Naxçıvana məlumat çatan kimi köməyə III Kalbalıxanın silahlıları göndərilir. Onlar gedəndə özləri ilə bərabər piyada topçu dəstəsini də aparırlar. III Kalbalıxanın müdafiə dəstəsi Şərur qəzasında daşnakları qovaraq Sədərəkdən uzaqlaşdırır...

28 fevral 1919-cu ildə İngilislər Naxçıvanı işğal edəndə, Azərbaycan Demokratik Respublikasının qərarı ilə "Naxçıvan General-Qubernatorluğu" adlı idarəetmə qurumu yaradılır. Həmin qubernatorluğa Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar inzibati əraziləri aid edilir. İnzibati qurumun Qubernatoru Kərim xan İrəvanski, müavin isə Hacı Mehdi Bağırov təyin olunur.

Bakıda AXC hökuməti möhkəmləndikdən sonra Naxçıvan Araz (Türk) Respublikası Milli Şurasının yazdığı məktubda bildirilirdi:- "Biz ermənilərə tabe olmuruq. Azərbaycan hökumətinin qoşun dəstələri tərəfindən Zəngəzurun tezliklə tutulmasını və Naxçıvanı Azərbaycan Cümhuriyyətinə birləşdirilməsini səbirsizliklə gözləyirik."

1919-ci ilin sentyabr ayında ABŞ dövləti komandanı polkovnik V.Hasgel kiçik qoşun dəstəsi ilə Naxçıvanı tutmaq istəmişdir. Hasgel Ermənistan hökumətinə bildirmişdir ki, Şərur-Dərələyəz qəzası ABŞ dövlətinin ixtiyarına keçərək və ərazidə "neytral zona" yaradılacaq. Amerikan-İngilis qoşunları ərazidəki İrəvan-Culfa dəmir yolunu və Naxçıvandakı Trans-Avroasiya teleqraf xəttinə nəzarəti gücləndirmək məqsədi ilə, 24 oktyabrda Naxçıvana gəlirlər. Onlar Naxçıvan Araz (Türk) Respublikası hökumətinin Milli Şurasına təkidli bəyanat verirlər. Bəyanatda bildirilir ki, Naxçıvanın inzibati əraziləri ABŞ-ın Cənubi Qafqazdakı yeni əyaləti hesab olduğundan, buradakı diğər hökuməti tanımaq istəmir.

Amerikalılar şəhərin "Təbriz meydanı" məhəlləsində özlərinə təcili surətdə "Qubernator evi"ni tikirlər. Həmin tarixi bina 1982-ci ilədək şəhərdə "ağ ev" adı ilə qalırdı. Sonradan ərazidəki köhnə binalar söküləndə, "ağ evin" yanında təsadüfən torpaq altında qalmış 18-ci əsrin tikilisi sayılan "İsmayıl xan hamamı" da aşkar olunmuşdur...

24 oktyabr 1919-cu ildə Naxçıvanda ABŞ-ın general-qubernatorluğu yaradılır, polkovnik V.Hasgelin müavini, ordu mühəndisi polkovnik Edmun Dell isə qubernator olur. Lakin Naxçıvan qəzasını Azərbaycandan ayırmaq istəyən təcavüzkar Antanta dövlətləri istədiklərinə nail ola bilmirlər.

25 fevral 1919-cu ildə Bakıda Nəsibbəy Yusifbəylinin (1881-1920) rəhbərliyi ilə beşinci hökumət kabineti yaradılır. Həmin gün Naxçıvandakı Cümə məscidinə toplanmış Araz (Türk) Respublikası hökuməti nümayəndələri ilə demokrat bolşevik fəalları birgə Naxçıvanı Azərbaycana birləşdirmək haqqında Akt tərtib edib imzalayırlar. Siyasi, hərbi, iqtisadi, maliyyə və mənəvi məsələlərlə bağlı olan 6 bənddən ibarət Akt, möhürlənərək xüsusi nümayəndə ilə Bakıya göndərilir. (İ.Musayev, "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921)" Bakı-1996).

Tarixin yaddaşına nəzər salaq: 2 yanvar 1920-ci ildə RSFSR xarici işlər komissarı G.V.Çiçerin (1872-1936) tərəfindən Azərbaycan xarici işlər naziri Fətəlixan Xoyskiyə Rusiya Federasiyasına (ağlara qarşı çıxmaq üçün) kömək məqsədli nota göndərir. Həmin ilin 11 yanvar tarixində Versalda və 3 gündən sonra isə Parisdəki sülh konfranslarında Azərbaycan Xalq Cümhuriyyəti də tanınır.

Yanvarın 23-də G.V.Çiçerin tərəfindən Azərbaycana ikinci dəfə Rusiyaya kömək notası göndərilir. 1920-ci ilin 17 mart tarixində Azərbaycan xarici işlər naziri tərəfindən Rusiya Federasiyasına teleqrafla xəbər göndərilsə də, ordan heç bir cavab alınmır. Elə həmin gün V.İ.Lenin (1870-1924) tərəfindən Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasına, Bakının bolşeviklər tərəfindən tutulmasına teleqram göndərilir.

1920-ci ilin 11-12 fevralında Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının (AK(b)P) 1-ci təsis Qurultayı olur. Qurultayda Bakı Komitəsinin birinci katibi vəzifəsinə "Hümmət" bolşevik təşkilatının sədri, Mizə Davud Bağır oğlu Hüseynov (1894-1938) seçilir. Qurultaydan sonra Bakı və ətraf rayonlarda 14 sayda qəza bolşevik komitələri (Naxçıvanda komitə katibi Mirzəmməd Bəktaşi idi) də yaradılır.

1920-ci ilin 27 aprel tarixində Dərbənddən gələn 11-ci zirehli hərbi qatar Bakıya çatır. M.Rəsulzadənin Bakıda yaratdığı Azərbaycan Xalq Cümhuriyyəti, 1920-ci ilin aprel ayının 28-də süqut edərək, Azərbaycan bolşeviklərinin əlinə keçir. ("Azərbaycan Demokratik Respublikası (1918-1920)", Bakı-1998). (Bakıdakı bolşeviklər Rusiyadan gələn 11-ci zirehli hərbi qatarı təntənəli qarşılayaraq və AXC hökumətinin istefasına nail olurlar. Beləliklə Bakı şəhəri Rus bolşevikləri tərəfindən tutulur- F.B.).

1920-ci ilin 28 aprelində Azərbaycan, Sovet Rusiyası tərkibinə keçirilərək və müstəqil (fəhlə-kəndli) Respublika yaradılır. Həmin tarixində Moskvadan 11-ci ordu ilə Bakıya gələn keçmiş "Bakı komissarı" A.İ.Mikoyan (1895-1978), iyun ayında Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilir. (Həmin ilin oktyabr ayından isə o, Azərbaycan Həmkarlar İttifaqları Şurasının sədri olmuşdur- F.B.). 1920-ci ildə Azərbaycan Parlamenti tərəfindən Azərbaycan SSR İnqilab Komitəsi yaradılır. Beləliklə iyulun 28-dən Naxçıvanda da hakimiyyət, xalqın əlinə keçir...

1920-ci ilin 28 aprelində Nəriman Nəcəf oğlu Nərimanov (1870-1925), Azərbaycan SSR İnqilab Komitəsinin sonra isə 1922-ci ilədək Xalq Komissarları Sovetinin sədri olur. 1920-38-ci illərdə Azərbaycan Parlamentinin qərarı ilə, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi (MİK) fəaliyyətdə olmuşdur. 1920-29-cu illərdə Səmədağa Ağamalı oğlu Əliyev (1867-1930), Azərbaycan MİK (Mərkəzi İcraiyyə Komitəsinin) sədri seçilir.

Tarixin yaddaşına nəzər salaq: Azərbaycan SSR (Sovet Sosialist Respublikası) 1920-ci ilin 28 aprel tarixdən yaradılır. 1922-ci il 12 mart tarixində ZSSRFİ-ə (Zaqafqaziya Sovet Sosialist Respublika Federativ İttifaqı) 13 dekabr tarixdən ZSFSR-ə (Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası) 30 dekabr tarixdən isə ZSFSR-in tərkibində SSRİ-yə (Sovet Sosialist Respublikaları İttifaqı) daxil olmuşdur.

1936-cı il 5 dekabr tarixdən isə Azərbaycan SSR müstəqil olur. Respublikanın ərazi-inzibati sahəsi 86,6 min km2, əhalisi 5,689 min nəfər idi. Respublika tərkibində Naxçıvan MSSR və DQMV inzibati əraziləri, o cümlədən də 61 inzibati rayon, 60 şəhər, 125 şəhər tipli qəsəbə var idi. ("ASE" 10 cilddə, (7-ci cild) Bakı-1976).

Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin heyət tərkibi, Nəriman Nərimanov (1870-1925) (sədr), Dadaş Bünyadzadə (1888-1938), Mirzədavud Hüseynov (1894-1938), Qəzənfər Musabəyov (1888-1938), Həmid Sultanov (1889-1938), Əliheydər Qarayev (1896-1938) və Akim Əlimov (1890-1938) idi. AMİK-in 1920-ci il 28 aprel tarixli dekreti ilə Azərbaycan Xalq Komissarları Şurası yaradılır. AMİK-in 1920-ci il 29 aprel tarixli dekreti ilə Azərbaycanda Fövqəladə Komissarlıq yaradılır. AMİK-in 1920-ci il 5 may tarixli dekreti ilə Ali İnqilab Tribunalı (AİT) və 13 may tarixli dekreti ilə də fəhlə-kəndli Qızıl Ordusu yaradılır.

Azərbaycan Kommunist (bolşeviklər) partiyası Mərkəzi Komitəsinin və AMİK-in 1920-ci il 28 may tarixli dekreti ilə Fəhlə-Kəndli Müdafiə Şurası yaradılır. AMİK, 1920-ci ildə Azərbaycandakı torpaq, meşə, su, yeraltı sərvətlər, neft sənayesi, dəniz ticarət donanması, banklar, balıq sənayesi, filiz mədənləri və sairə, o cümlədən də pambıq təmizləmə zavodları milliləşdirilərək xalq hakimiyyətinə verilir. Respublikada zəhmətkeşlərə pulsuz icbari məktəb təhsili hüququ verilərək, qadınlar da kişilərlə bərabər hüquqa malik olurlar. AMİK-in 1920-ci il 24 sentyabr tarixli dekreti ilə "işləməyən-dişləməz" prinsipləri əsas götürülərək istismarçı sahibkarlar məcburi ictimai əməyə cəlb olunurlar.

1920-ci ilin 28 aprel tarixində AMİK sədri N.Nərimanovun təşəbbüsü ilə Azərbaycan SSR XKS (1920-ci ildən fəaliyyət göstərən XKS idarəedici qurum, 1946-cı ilin 28 mart tarixdən adı dəyişilərək, Azərbaycan SSR Nazirlər Soveti olmuşdur) yaradılır. 1920-ci ildən fəaliyyət göstərən XKS idarəedici qurum, 1946-cı ilin 28 mart tarixdən adı dəyişilərək, Azərbaycan SSR Nazirlər Soveti adlanır. (X.Əhmədov, "Azərbaycanda sovetlərin yaradılması və möhkəmləndirilməsi" Bakı-1966).

> *"Siz Allahı qoyub ancaq bütlərə ibadət edir, (onlara tanrı deməklə) yalan uydurursunuz. Sizin Allahdan başqa ibadət etdiklərinizsizə ruzi verməyə qadir deyillər. Ruzini Allahdan diləyin. Ona tapının, Ona şükür edin. Siz (qiyamət günü) Onun hüzuruna qaytarılacaqsınız!"*
>
> **(Quran, Ənkəbut 29/17)**

1920-ci ilin iyul ayında general Şelkovnikovun başçılığı ilə erməni daşnakları Ermənistanda yaşayan 500 mindən çox azərbaycanlı əhalini Şərur qəzasına qovmuşlar. Qaçqınların arasında Abbasqulu Xanbaba oğlu Şadlinskinin (1886-1930) silahlı özünümüdafiə dəstəsi də olmuşdur. Qaçqınlar Şahtaxtı kəndinə tərəf üz tuturlar ki, ordan Arazı keçib Makuya getsinlər. Bir tərəfdən Rus bolşeviklərinin "qırmızı əsgərləri", digər tərəfdən də erməni daşnaklarının quldur dəstələri Azərbaycan xalqını çətinliyə salır.

Tarixin yaddaşına nəzər salaq: 1920-ci ilin 28 iyul tarixində Rusiyanın XI Qırmızı ordusunun əsgərləri Naxçıvana gəldikdən sonra Naxçıvanda İnqilab Komitəsi yaradıb və hakimiyyəti sovetlərə verirlər. Naxçıvanda "Hümmət" çi Sosial Demokratlardan Ə.Rüstəmov, M.Bəktaşi, G.Əsgərov və başqalarının köməyi ilə rus əsgərləri səmimi qarşılanır və qədim Nuh yurdu ərazisində Xalq Hökuməti elan edilir.

Şəhərdəki “Qala məhəlləsi” meydanında keçirilən toplantıya hamılıqla Naxçıvan hakimini də dəvət edirlər. Lakin Cəfərquluxan Naxçıvanski (1881-1939) “qırmızı hökumət”in dəvətini qəbul etməyərək toplantıya getmir. Ertəsi gün xan, şəhərdəki əqrəbaları ilə vidalaşaraq son sözlərini bu cür ifadə etmişdir: “Məni halal edin! Sizləri Allaha tapşırıb gedirəm. Qeyrətlə Vətəndən muğayat olun!” (Cəfərqulu xan ailəsini əvvəlcədən göndərdiyi Şahtaxtı kəndindən götürərək, Maku şəhərinə gedir və qalan ömrünü də Arazın o tayında başa vurmalı olur- F.B.). Cəfərqulu xan Naxçıvandan getməmişdən əvvəl oğlunu (III Kalbalıxanı- F.B.), Təbriz şəhərinə Məhəmməd Xiyabaninin (1880-1920) yanına göndərmişdir. Çox çəkmir ki, Təbrizdə Xalq ordusunun müşaviri işləyən III Kalbalıxan Naxçıvanski, 1934-cü ildə ermənilər tərəfindən qətlə yetirilir.(F.Bağırov, “Ziyarətnamə” Bursa-1996).

1920-ci ilin 25 sentyabr tarixli Naxçıvan Diyar İnqilab Komitəsinin dekreti ilə Rüstəmov Əbdüləzim Talıb oğlu (1887-1953), Diyar Xalq Maarif Komissarı olur. Həmin ilin 30 sentyabr tarixində RSFSR ilə Azərbaycan SSR arasında Moskva Sülh Müqaviləsi imzalandıqdan sonra (1920-ci ilin mart ayında) Naxçıvandakı Araz (Türk) Respublikası da ləğv olunur.

1920-ci ilin 10 oktyabr tarixdən Naxçıvan İnqilab Komitəsinin qərarı ilə Daxili İşlər Şöbəsi yaradılır. (Şöbənin daxilində də aparıcı şöbələri olmuşdur- F.B.) Onlar ümumi məlumat-təlimat şöbəsi ilə (rəisi Mirzəbağır Əliyev idi), milis şöbəsi (rəisi Murtuz Hacıyev idi) olmuşdur. Bundan başqa 11 noyabr tarixində Naxçıvan və Ordubadda və 11 dekabr tarixində isə Şərur qəzasında habelə Tumbul, Cəhri, Parağa, Qıvraq, Nəriman, Culfa, Əbrəqunus, Baş Noraşen və Şahbuz dairələrində də milis şöbələri yaradılmışdır. Naxçıvan Qəza Milis İdarəsinə S.Əbilov, Şərura H.Cabbarov, Ordubada M.Sarmazbəyov, Culfaya Y.Nadirxanov, Əbrəqunusa A.Qasımov, Şahbuza İ.İsmayılov, Tumbula. H.Qasımov, Cəhriyə M.Tarquliyev Dəmiryolu ərazilərinə isə N.Şaxtaxtinski rəis təyin olunmuşlar. (F.Cəfərov, “Naxçıvan polisinin inkişaf yolu” Bakı-2008).

Naxçıvanda yeni yaradılmış Diyar Şura Hökuməti bütün hakimiyyəti sovetlərə verir. İnzibati ərazi 12 dairə və 3 uyezdə bölünür. Tezliklə Naxçıvandakı sahibkarların mülkləri ilə sənaye müəssisələri milliləşdirilərək, kasıblara (füqəralara) paylanılır. Yerli hökumətin qərarı ilə İrana getmiş Abbasqulubəy Şadlinskinin silahlı dəstəsi, təminatlı surətdə Naxçıvana dəvət olunurlar. Mütəşəkkil surətdə həmin dəstə, Culfa körpüsündən keçərək Naxçıvana gəlirlər. Əlisilahlı dəstəni səmimi qarşılayan hökumət adamları, onlara tarixin yaddaşında qalmaq üçün “Qırmızı tabor” adını vermişlər.

1920-ci ilin son aylarında erməni daşnakları Zəngəzur əyalətində yenidən müsəlmanların qanın tökərək zorakılıq edirlər. Həmin ilin oktyabr ayında "Qırmızı tabor"a tapşırılır ki, Əznəbürt-Qarabağlar səmtində erməni quldurlarına qarşı hərəkətə keçib və Bağırsaqdərə-Sədərək kəndi arasındakı mövqeləri tutsunlar.

Taborçular ikinci əməliyyatla erməni daşnaklarını ərazilərdən qovduqdan sonra, gedib Arazdəyən-Çanaxçıdakı ehtiyat dəstə ilə birləşirlər. Noyabr ayında həmin əməliyyatlar başa çatdıqdan sonra, 1.200 nəfər erməni qulduru əsir alınır. Bununla da Şərur qəzası bütövlüklə erməni quldurlarından təmizlənir. 1920-ci ilin 2 dekabr tarixində Türkiyə ilə Ermənistan SSR arasında Aleksandropol (Gümrü) müqaviləsi imzalanmışdır...

1920-ci ildə Zəngəzurun 44 km. enindəki Araz çayına doğru torpaq sahələri qanunsuz olaraq Ermənistana verilməklə Naxçıvan Diyarı, Azərbaycan SSR-in ümumi torpaq ərazilərindən ayrı düşmüşdür. Sovet dövlətinin daxili siyasəti ilə Azərbaycan SSR-in torpaq ərazilərinin bir çox hissəsi ermənilərə, gürcülərə və Rusiyanın cənub hissəsindəki Dağıstana da verilmişdir.

Zəngəzurla Göyçə mahalları Ermənistana, indiki Marneuli, Qardabani və Mizəani rayon əraziləri Gürcüstana, Qasımkənd-Dərbənd əraziləri isə Rusiya Federasiyasına birləşdirilir. Həmin siyasət tezliklə Naxçıvan torpaq ərazilərində də aparılaraq, Noraşen (Şərur) rayonundakı Kərki kəndinin torpaq əraziləri, Ermənistanın Ararat rayonuna birləşdirilmişdir.

1920-ci ildə Bakıda Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun (1885-1948) səyi ilə Xalq Konservatoriyası və bir ildən sonra isə Dövlət Türk Musiqi Məktəbi (sonrakı illərdə Dövlət Konservatoriyası olmuşdur- F.B.) yaradılır.

1921-ci ilin 21 yanvar tarixində Naxçıvanda fövqəladə komissar B.Q.Vəlibəyovun (1894-1938) hərbi rəis Studnevin başçılığı ilə Diyar İnqilab Komitəsi yaradılır. İrana köçmüş mühacirlər Naxçıvandakı əmin-amanlığa görə geri qayıdırlar. Həmin ildə Naxçıvanda Firqə Gənclər İttifaqı da yaradılır. Təşkilata Həmid Mahmudov birinci və Əkbər Rzayev isə ikinci katib seçilir.

1921-ci ilin 13 fevralında millətçi erməni "Daşnaksutyun" siyasi partiya üzvləri, İrəvandakı bolşevik xalq hökumətini yıxmağa cəhd göstərir. İrəvanda daşnaklara qarşı müqavimət göstərən Abbasqulubəy Şadlinski, Ermənistan İnqilab Hökuməti tərəfindən "Qırmızı bayraq" ordeni ilə mükafatlanır. Həmin ilin yayında "Yapon" təxəllüslü (erməni Drostoman- F.B.) quldurbaşının silahlı dəstəsi, Zəngəzurun Qərçivan-Mehri ərazisindəki azərbaycanlıların evlərini yandıraraq əhalisini də qəddarlıqla məhv edirlər...

Ermənistan SSR İnqilab Hökuməti tərəfindən Abbasqulubəyin "Qırmızı tabor"çuları Zəngəzura göndərilir ki, Mehridəki quldurları ərazidən qovsunlar. Tezliklə əməliyyat, "Qırmızı tabor"çuların xeyrinə olaraq quldurlar ərazilərindən qovulurlar. Həmin əməliyyata könüllü olaraq Ordubadlı müəllim İbrahimxəlil Hacı Hüseyn oğlu (1897-1958) da, qoşulmuşdur...

Erməni daşnak quldurları Naxçıvan çuxuru ilə Vedibasar-Zəngəzurdakı yaşayan müsəlman əhaliyə, tarixdə görünməmiş qəddarlıq göstərmişlər. Belə ki, əsir kişilərin kürəklərinə qaynar su tökülmüş, bədən nahiyələrinə dağ basılmış, burun və qulaqları kəsilərək işgəncə ilə məhv olunmuşdur. Erməni quldurları Araz boyu kəndlərə hücum çəkərək, evləri yandırmış, məscid və ziyarətgahları uçurub-dağıtmış və qaçanları isə Arazda batırıb güllələmişlər. Həmin illərdə Naxçıvanda yaşamış realist rəssam Bəhruz Şirəlibəy oğlu Kəngərli (1892-1922), qaçqınlar seriyasından rəsmlər çəkərək tarixin yaddaşına salmışdır...(F.Bağırov, "Əzablı günlər" Naxçıvan-2006).

> *"Kafirlərə itaət etmə və onlara qarşı böyük bir cihad et!"*
>
> **(Quran, Furqan 25/52)**

1921-ci ilin fevral ayında Türkiyənin xarici işlər naziri Yusif Kamalın başçılığı ilə Əli Fuad Cebesov və doktor Riza Nurdan ibarət diplomatik nümayəndə heyəti, Moskvaya gedirlər. Moskvada Rusiya tərəfindən Xalq Xarici İşlər Komissarı G.V.Çiçerin (O.Batalin) (1872-1936) və RSFSR MİK-in üzvü C.Qorxmazov olmuş. Bir ay ərzindəki danışıqlarda Azərbaycanın Türkiyədəki səlahiyyətli nümayəndəsi Behbudağa Şahtaxtinski (1881-1924) də iştirak etmişdir. (İ.Hacıyev, "Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi" Bakı-1999).

Həmin tarixdən də Türk azadlıq əsgərlərinin topçu alayı Naxçıvandan gedirlər. Azərbaycan torpaq ərazilərinin bir hissəsi Naxçıvandan alınaraq Ermənistana verildikdən sonra, 1920-ci ilin 2 dekabr tarixli "Gümrü" və 1921-ci ilin 16 mart tarixli "Moskva" müqavilələri imzalanaraq, K.Atatürk və V.Lenin tərəfindən təsdiq olmuşdur.

Tarixin yaddaşına nəzər salaq: Naxçıvan dövləti tarixində 1920-21-ci illərin beynəlxalq Qarsla Moskva razılaşmaları, xalqın taleyində müsbət rol oynamışdır. Belə ki, Qars müqaviləsinin 5-ci və Moskva müqaviləsinin 3-cü bəndində Naxçıvan Muxtar Respublikasının ərazi sərhədləri təsdiq olunmuşdur. Bütün bunlar isə həmin dövrdəki Azərbaycan xalqının və onun diplomatik mövqeyinin qələbəsi idi.

Müqavilənin şərtlərinə görə Azərbaycan torpaq ərazilərindən ayrı düşmüş Naxçıvan ölkəsinə qarşı hər hansı bir qəfil təcavüz baş verdikdə, Türkiyə dövlətinin qoşunları tərəfindən hərbi kömək edilməlidir. Müqaviləyə Türkiyə, Rusiya Federasiyası, Ermənistan, Gürcüstan və Azərbaycan nümayəndə başçıları imza atmışlar. Həmin Tarixdə Azərbaycanın Türkiyədəki səlahiyyətli səfiri İbrahim Məhərrəm oğlu Əbilov (1882-1923), Mustafa Kamal Atatürklə (1881-1938) görüşmüşdür. (Tarixi Qars müqaviləsinin tam mətni kitabın sonundadır- F.B.).

1920-ci ilin 18 fevral tarixindən Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvan MSSR-in 10 sayda kəndləri (torpaq əraziləri ilə birlikdə) Ermənistana verilmişdir. Bu isə 1921-ci ilin Qars və Moskva razılaşma şərtlərinin kobudluqla pozulması deməkdir. ("Naxçıvan Ensiklopediyası", Bakı-2002).

Həmin kəndlər aşağıdakılar olmuşdur;

Axəc- inzibati ərazisi, Şahbuz nahiyəsindən.

Almalı- inzibati ərazisi, Şahbuz nahiyəsindən.

Aldərə- inzibati ərazisi, Ordubadın Lehvaz, Astazor, Nüvədi və s. kəndləri.

Kilit- inzibati ərazisi, Ordubad qəzasından.

Qərçivan- inzibati ərazisi, Ordubad qəzasından.

Horadiz- inzibati ərazisi, Şərur qəzasından.

Xaçik- inzibati ərazisi, Şərur qəzasından.

Qurdqulağı- inzibati ərazisi, Şərur qəzasından.

Sultanbəy- inzibati ərazisi, Naxçıvan qəzasından.

İtqıran- inzibati ərazisi, Naxçıvan qəzasından.

> *"O kəslər ki, Allahla əhd bağladıqdan sonra onu pozar, Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayar və yer üzündə fitnə-fəsad törədərlər. Məhz belələri ziyana uğrayanlardır!"*
>
> **(Quran, Bəqərə 2/27)**

1921-ci ildə Naxçıvanda rusca-azərbaycanca "Cavanlar həyatı" adlı həftəlik qəzet nəşr olunur. Həmin ilin 1 dekabr tarixindən Naxçıvanda həftəlik "Füqara səsi" adlı qəzet də çıxmışdır. 1922-ci ilin 1 aprel tarixindən isə Naxçıvanda "Şərq qapısı" adlı vilayət qəzetinin nəşrinə başlanılmışdır.

1921-ci ilin 11 aprel tarixində Naxçıvan Ölkə İnqilab Komitəsinin qərarı ilə ərazilərdə asayiş işlərini gücləndirmək məqsədi ilə Naxçıvan Daxili İşlər Şöbəsinin adı, Daxili İşlər Komissarlığı (NDİK, rusca NKVD rəisi Ş.Əliyev idi) ilə əvəz olmuşdur.

1921-ci ilin 19 may tarixdən Azərbaycan SSR-nin I Konstitusiyası qəbul edilərək, İnqilab Komitəsi, Mərkəzi İcraiyyə Komitəsi (MİK) ilə əvəz olunur. Həmin ilin 1 iyul tarixindən Azərbaycan K(b)P MK-ın birinci katibi vəzifəsinə Kirov Sergey Mironoviç (Kostrikov) (1886-1934) seçilir. (Bakı şəhərinə rus dilli slavyanlar gələrək "bakılılar" ruslaşırlar- F.B.).

1922-ci ilin 12 mart tarixdə Azərbaycan, Gürcüstan və Ermənistan MİK-nin səlahiyyətli nümayəndələri tərəfindən Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) yaradılır. Həmin ilin 10 dekabr tarixindən isə N.Nərimanov SSRİ-nin 1-ci Sovetlər Qurultayında SSRİ MİK-nin sədri qoyulur. Azərbaycan Xalq Komissarları Sovetinin sədri vəzifəsinə isə, Qəzənfər Mahmud oğlu Musabəyov (1888-1938) seçilir.

1922-ci ildə Naxçıvan Xalq Səhiyyə Komissarı Əli Abbasov (1886-1957) və Xalq Maarif Komissarlığı nəzdində Mədəniyyət Şöbəsi (müdiri Əli Hüseynov idi) yaradılır Həmin illərdə şəhərdə "Rüşdiyyə" (Zəhmət) məktəbi ilə yanaşı "Tərbiyə" qız məktəbi də fəaliyyət göstərirdi.

1923-cü ildən Bakıda Səhiyyə Komissarlığı nəzdində "Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyəti" (sədri A.Kazımov idi) yaradılır. Həmin ildən Naxçıvan Muxtar Respublikasında da Cəmiyyətin ictimai əsaslarla şöbəsi yaradılmışdır. Azərbaycan Respublikası üzrə 1,7 mln. üzv olan Qırmızı Aypara Cəmiyyətinin ictimai əsaslarla 7.540 şöbə və təşkilatları olmuşdur. Cəmiyyətin əsas məqsədi təbii fəlakətlərdən zərər çəkənlərə kömək, keçirici xəstəliklərə qarşı əvvəlcədən profilaktiki tədbirlər görmək və əhali arasında geniş sosial-tibbi təbliğatı yaymaqdan ibarət idi.

1923-cü ilin 2 noyabr tarixindən Azərbaycanda savadsızlığa qarşı mübarizə məqsədi ilə Tədqiq və Tətöbbö Cəmiyyətinin Naxçıvan Şöbəsi yaradılır. 1925-ci ildə cəmiyyət sərbəst olaraq (sədri Vahab Həsənzadə (1890-1960), elmi katibi isə Mirbağır Mirheydərzadə (1877-1956) idi- F.B.) Naxçıvan ərazilərinin tarixi keçmişini öyrənir.

1923-cü ildə Naxçıvan MİK-in dekreti ilə Naxçıvan teatrı, Dövlət Dram Teatrı adını alır. Teatrın 40 illik yubileyinə Naxçıvan Xalq Maarif Komissarı Həmid Mahmudov, Xalq Səhiyyə Komissarı Məmmədismayıl Qədimov, Vilayət (bolşeviklər) Komitəsinin katibi Əhməd Həsənov və başqa rəhbər işçilər təşəbbüs göstərmişlər. Yubiley günündə teatrda M.F.Axundovun "Hacı Qara" tamaşası göstərilmişdir. (Tamaşanın rejissoru H.Səfərli, rəssamı isə A.Qazıyev olmuşdur).

1923-cü ilin 27 fevral tarixində Naxçıvan qəzası Naxçıvan Muxtar Diyarın tərkibinə keçirilir. 1923-cü il 16 iyunda Azərbaycan MİK-nin üçüncü sessiyasında Naxçıvan Ölkə İcraiyyə Komitəsinin qəbul etdiyi Naxçıvan Muxtar Diyarının səlahiyyətləri haqqındakı Əsasnamə təsdiq olunmuşdur. Keçmiş inzibati sahələr bütövlükdə 1924-cü ilin 9 fevral tarixli qərarı ilə Naxçıvan MSSR-in tərkibinə keçirilmişdir. (Q.Mədətov, "Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Nax. MSSR-in təşkili" Bakı-1958).

Tarixin yaddaşına nəzər salaq: 1923-cü ilin 7 iyul tarixində Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) siyasi-inzibati ərazisi də yaradılır. (Qarabağda (mənası "Böyük bağ" deməkdir) keçən əsrin axırlarında İrandan köçürülmüş erməni ailələri olduğundan, inzibati ərazini Muxtar Vilayət kimi Azərbaycanın tərkibində şaxlayırlar)...

1924-cü ilin 9 fevral tarixində Azərbaycanın SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Nax. MSSR) yaradılır. Naxçıvan Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Mirzalıbəy Bəktaşi (1880-1936) təyin olunur. 1921-24-cü illərdə Behdudağa Şahtaxtinski (1881-1924) Naxçıvan İnqilab Komitəsinin və sonradan isə Naxçıvan MSSR XKS-in sədri işləmişdir.

1924-cü ildə Bakıdakı Dövlət Darülfununda məşhur Sovet şərqşünası V.V.Bartold (1869-1930) "Türk-tatar xalqları tarixi" fənnindən tələbələrə mühazirə oxuyaraq, iki ildən sonra isə Bakıda keçirilmiş 1-ci Türkoloji Qurultayda nümayəndə kimi iştirak etmişdir. Böyük alimin almancadan tərcümə etdiyi Azərbaycan xalqının qəhrəmanlıq dastanı olan "Kitabi-Dədə Qorqud", Qafqazdakı türkdilli oğuzların ilk yazılı abidəsi kimi tanınmışdır.

1924-cü ilin 6 yanvar tarixdən Naxçıvan XKS-in qərarı ilə keçmiş mülkədar Balabəy Əlibəyovun (1855-1930) şəxsi mülkündə Tarix-etnoqrafiya muzeyi kimi təşkil olaraq, ona ayda 40 manat məvacib verilir. Həmin muzeydə ilk vaxtlar əsasən qədim və orta əsr məişət əşyaları, toxunma məmulatı, müxtəlif silah nümunələri, mis (bürünc) və gümüş pullar, saxsı qablar və Duzdağ mağarasından tapılmış qədim daş alətlər olmuşdur.

B.Əlibəyov 1909-1911-ci illərdə Qarsdakı polis idarəsində tərcüməçi zabit işləmişdir. 1911-ci ildən 1917-ci ilədək oradan təqaüdə buraxılmışdır. O, 1918-20-ci illərdə İranın Urmiya şəhərindəki Naxçıvan Araz (Türk) Respublikasının səlahiyyətli nümayəndəsi olmuşdur. O, 1921-ci ildən Naxçıvanda şura hökuməti yarananadan sonra bolşeviklər partiyasına üzv olmuş və Naxçıvan Maliyyə Komissarlığında maliyyə agenti işləmişdir. 1925-ci ildə bolşevik Balabəy Əlibəyov haqqında cinayət işi qaldırılaraq Naxçıvan Daxili İşlər Komissarlığı (NDİK) tərəfindən həbs olunur. (F.Xəlilov, "Naxçıvanı öyrənən elmi cəmiyyət" Bakı-2005; R.N.İvanov, "Basqın" (rusca) Moskva-2009).

Tarixin yaddaşına nəzər salaq: 1924-cü ilin yanvarın 21-də V.İ.Lenin 1918-ci ilin avqustun 30-da Moskvadakı Mixelson zavodunda fəhlələr arasında çıxışından sonra, Palina Kaplan adlı terrorçu eser qadının tapança atəşi ilə ağır yaralanır. Kremlin Komendantı Maykov dərhal qatil qadını yerindəcə güllələdikdən sonra cəsədini də yandırtdırır. Uzun sürən müalicədən sonra Sovet dövlətinin qurucusu V.İ.Lenin (1870-1924), Qorka qəsəbəsində zəhərli yeməklə öldürülür. (Leninin zəhərlənməsi İ.Stalinin hiyləgər qəsdi ilə olmuşdur- F.B.).

Sovet dövlətinin başçısı gürcü mənşəli Bakı bolşeviki İ.V.Stalin (1879-1953) gəlir. Tezliklə Moskvada olduğu kimi Bakıda da görkəmli şəxslər bəhanə ilə tutularaq aradan götürülür. Bakı ilə Naxçıvanda ermənilər Moskvadakı havadarlarına görə, yüksək vəzifələrə keçirilir. Onlar millətçi ermənilərin Azərbaycan türklərinə qarşı törətdiyi cinayətlərin üstünü örtmək istəmişlər. Şəhidlər uyuyan Quba, Bakı, Naxçıvan və başqa ərazilərdəki qəbiristanlıqları söküb ləğv etməklə gələcək nəsillərin yaddaşından silmək istəmişlər.

Bakıdakı şəhidlər qəbiristanlığı yerində sonralar S.M.Kirovun heykəli ucaldılaraq ətraf ərazi isə istirahət parkı olur. Naxçıvandakı Sarbanlar məhəlləsində, orta əsrlərdən qalma "Pir Ömər ziyarətgahı"nın yanındakı şəhidlər basdırılmış köhnə qəbiristanlığının yerində isə şəhər 1 №-li orta məktəb üçün (sonrakı illərdən isə binada Naxçıvan Elm Mərkəzi yerləşirdi- F.B.) iki mərtəbəli bina tikilir. (F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı-2008).

Qubadakı şəhidlər qəbiristanlığının yerində isə meşə ağacları əksələr də, sel suları nəticəsində torpaqdakı insan sümükləri aşkara çıxmışdır. Bütün bu həqiqətləri- erməni cinayətkarlıqlarını sovetlər dövründə Moskva tərəfindən ört-basdır edilsə də tarixin yaddaşından poza bilməmişlər...

> *"Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridir. Onlara Rəbbin yanında ruzi (cənnət) əta olunur."*
>
> **(Quran, Ali- İmran 3/169)**

1924-cü ilədək Naxçıvan MSSR-nin ərazi inzibati bölgüsündə (tərkibində) 3 qəza ilə 12 dairəsi olmuşdur. 1925-ci ildən qəzalar ləğv edilərək, dairələrin sayı 8-ə endirilmişdir. Həmin dairələr Baş Noraşen, Qıvraq, Tumbul, Əbrəqunus, Nərimanov, Culfa, Parağa və Ordubad idi.

1925-ci ilin 13 dekabr tarixdən Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvan Muxtar Respublika Arxivi (müdiri Əhməd Hüseynov idi) yaradılır. Azərbaycanda Arxiv fondlarının yaranması üçün Azərbaycan MİK-in sədri N.Nərimanovun 13 dekabr 1920-ci il tarixli dekreti ilə Xalq Maarif Komissarlığı yanında Mərkəzi Dövlət Arxivi yaradılmışdır. 1930-cu ilin yanvarın 18-dən Azərbaycanda arxivlərin yenidən təşkil edilməsinə görə Naxçıvanda Mərkəzi Arxiv İdarəsi yaradılır.

Həmin Arxiv İdarəsi 1941-ci ildən Muxtar respublika Mərkəzi Dövlət Arxivi olmuşdur. Dövlət Arxiv İdarəsində 1941-51-ci illərdə Paşa Əhmədov, 1951-59-cu illərdə Arif Hüseynov, 1960-88-ci illərdə Əməkdar mədəniyyət işçisi Adil Cəfərov (1920-1988), 1988-2001-ci illərdə Mirəhməd Seyidov (1940-2001) və 2001-ci ildən isə tarix elmləri namizədi, Fəxrəddin Cəfərov rəhbərlik etmişlər. Arxivin 780 fondunda haliyədə 1 milyon 200 mindən artıq sənəd saxlanılır. Bundan başq arxivin fondlarında 3.500-dən artıq foto-kino sənədləri də vardır. Naxçıvan MR Mərkəzi Dövlət Arxivində 5 mindən artıq müxtəlif kitab, jurnal və qəzetlərin saxlanılması üzrə elmi kitabxana vardır.

1925-ci ilin 4 aprel tarixli Naxçıvan Respublikasındakı xüsusi komissiyasının cinayət-axtarış işlərinin iclası olur. İclasdakı M.C.Bağırov (1896-1956), Ə.H.Qarayev (1896-1938), Y.Kvantaliani, S.İ.Qorobçenko və İ.İ.Dövlətovdan (1887-1938) (Qarabağ ermənisidir- F.B.) ibarət komissiyanın 6 №-li protokolunun qərarı ilə vilayətdəki 50 nəfər bolşevik (onların 2-si erməni 1-i latış və 47 nəfər isə Azərbaycanlı- F.B.) tutularaq, məsuliyyətə cəlb olurlar. Uzun müddət Rusiya arxivlərində saxlanan "cinayət xarakterli "sənədlər, Naxçıvan Dövlət Universitetinin və Azərbaycan MEA-sı Tarix İnstitutunun fəxri doktoru R.İ.İvanov tərəfindən aşkar olmuşdur.

Məhkəmədə ittiham olmuş vəzifəli şəxslərin "çox məxfi" saxlanılan siyahısı bunlardır;

Mahmudbəyov F. –(1896-cı ildə təvəllüd etmişdir, Vedibasarlı sahibkar, Naxçıvan ölkəsinin Torpaq Komissarı), qərar: tutulsun.

Qafar Babayev-(1897-ci ildə təvəllüd etmişdir, Ordubad dəri zavodunun keçmiş mülkədarı, Naxçıvan ölkəsinin Daxili İşlər Komissarı), qərar: tutulsun.

Mahmud Şirəlizadə-(1886-cı ildə təvəllüd etmişdir, keçmiş İrəvan Polis İdarəsində işləmiş ziyalı), qərar: tutulsun.

Həmid Mahmudov-(1898-ci ildə təvəllüd etmişdir, Naxçıvanda, Kalbalıxanın katibi olmuşdur, Dövlət İdarəsində rəis işləmiş ziyalı), qərar: tutulsun.

Ələkbər Qurbanov-(1895-ci ildə təvəllüd etmişdir, Naxçıvan şəhər Qaradovoyu işləmişdir), qərar: tutulsun.

Hacı Dadaşov-(1897-ci ildə təvəllüd etmişdir, Ordubadlı sahibkar ziyalı), qərar: tutulsun.

Həsənqulu Qazıyev-(1896-cı ildə təvəllüd etmişdir, Naxçıvandakı hamamda oğlan uşağını zorlamışdır, keçmiş Xalq Komissarı, idarə işçisi, ziyalı), qərar: tutulsun.

Fərzalı Bağırov-(1896-cı ildə təvəllüd etmişdir, Naxçıvanda kəndli oğlu olmuş və rüşvətxorluq etməklə, Qəza məhkəməsində xidmətçi işləmişdir) qərar: tutulsun.

Məşədi Abdulla Qasımov-(1891-ci ildə təvəllüd etmişdir, fırıldaqçı və rüşvətxor təbəqəli xidmətçi) qərar: tutulsun.

Molla Vahab Həsənzadə-(1890-cı ildə təvəllüd etmişdir, Ordubad və Naxçıvanda mollalıq etmiş, Maarif Komissarlığının işçisidir) qərar: işdən çıxarılsın və Bakıya MK-nın öhdəsinə göndərilsin.

Mirəli Seyidov-(1897-ci ildə təvəllüd etmişdir, keçmiş uryadnik olmuşdur. O, kəndliləri incidərək, özünü yazıq adam kimi bildirmişdir), qərar: tutulsun.

Məzahir Kəngərli-(1891-ci ildə təvəllüd etmişdir, İrəvanlı mülkədar oğlu olmuş və keçmiş İrəvan polisinin çinovnikidir. Onun əli ilə Kəngərli ailələrindən 20 nəfər vəzifələrə yerləşdirilib), qərar: tutulsun.

Həsənağa Şəfiyev-(Naxçıvan Xüsusi İşlər üzrə xalq müstəntiqi, keçmiş mülkədar oğlu) qərar: işdən çıxarılsın və sürgünə göndərilsin.

Şirzad Əliyev-(Kommunal təsərrüfat rəisi, keçmiş jandarma rəisi olmuşdur), qərar: sürgün olunur.

M.Munşiyev-(Nax. SSR-in Xalq Maarif Komissarı müavini, Şərurda rayon komitəsinin sədri olmuşdur), qərar: sürgün olunur.

Əbdüləzimbəy Kəngərli-(57 yaşında, mülkədar Nax. SSR-in Xalq Maliyyə Komissarlığında baş katib), qərar: işdən çıxarılsın və kənd təsərrüfat işlərində işləsin.

Müzəffərağa Kəngərli-(44 yaşında, vəzifəsində özbaşınalıq etdiyi üçün, Naxçıvan vilayət məhkəməsi tərəfindən 5 il həbsdə olmuşdur. Tumbul rayon icraiyyə komitəsinin hesabdarıdır) qərar: tutulsun və Naxçıvandan uzaqlaşdırılsın.

Bəylərağa Kəngərli-(45 yaşında, Naxçıvanlı mülkədar kimi dairə məhkəməsinin üzvidir) qərar: tutulsun və Naxçıvandan uzaqlaşdırılsın.

Məmmədağa Kəngərli-(Naxçıvanlı mülkədar kimi, aksiya idarəsində yoxlayıcıdır) qərar: tutulsun və sürgün olunsun.

Qasımağa Kəngərli-(35 yaşında, Naxçıvanlı mülkədardır, Kommunal Təsərrüfatı idarəsində torpaq şöbəsi müdiridir) qərar: tutulsun və sürgün olunsun.

Həmidağa Kəngərli-(28 yaşında, Naxçıvanlı mülkədar, Xalq Maarif Komissarlığında mühasibdir) qərar: tutulsun və sürgün olunsun.

Fərəcağa Kəngərli-(37 yaşında, Naxçıvanlı mülkədardır, Naxçıvan rayon Məhkəməsində katibdir) qərar: tutulsun və sürgün olunsun.

İbrahimağapaşa Kəngərli-(25 yaşında, Naxçıvan mülkədarıdır, əvvəllər prokuror işləmiş), qərar: tutulsun və sürgün olunsun.

Sultanağa Kəngərli-(30 yaşında, Naxçıvan mülkədarı, əvvəllər kənd təsərrüfatı bankında təlimatçı işləmişdir), qərar: tutulsun və sürgün olunsun.

Həşimağa Hacılarov-(32 yaşında, Naxçıvanlıdır, Həmkarlar təşkilatı kəndli ittifaqının katibidir) qərar: tutulsun və sürgün olunsun.

Abbasqulu Tahirov-(44 yaşında, Naxçıvanlıdır, Naxçıvan Məhkəmə İdarəsində işlər müdiridir) qərar: tutulsun və sürgün olunsun.

Fərzalı Səfiyev-(40 yaşında, Şərurlu mülkədardır, əvvəllər Şərur pristavı olmuş, Aksiya idarəsinin rəisidir) qərar: tutulsun və sürgün olunsun.

Yunis Naxçıvanski-(38 yaşında, Naxçıvanlı mülkədar oğludur. Nax SSR Xalq Komissarlarının Maliyyə İdarəsi, Dövlətnaloqun müfəttişidir), qərar: tutulsun və sürgün olunsun.

Muradxan Naxçıvanski-(Naxçıvanlı mülkədardır, Naxçıvan şəhər milisinin rəisi,) qərar: tutulsun və sürgün olunsun.

Mövsüməlibəy Bənəniyarski-(Bənəniyarlı mülkədardır, Naxçıvan kənd təsərrüfatı bankının sədridir), qərar: tutulsun və sürgün olunsun.

Əmirəli Bənəniyarski-(40 yaşında, Bənəniyarlı mülkədardır), qərar: tutulsun və sürgün olunsun.

Qəmbərəli Bənəniyarski-(35 yaşında, Bənəniyarlı mülkədardır, hüquqçu, Xalq məhkəməsində vəkildir) qərar: tutulsun və sürgün olunsun.

Mehbalı Bənəniyarski-(35 yaşında, Bənəniyarlı mülkədardır, fırıldaqçıdır) qərar: tutulsun və sürgün olunsun.

Heydərağa Bənəniyarski-(40 yaşında, Bənəniyarlı mülkədardır, Naxçıvan dövlət pambıq tədarükünün kargüzarıdır), qərar: tutulsun və sürgün olunsun.

Teymur Səfiyev-(58 yaşında, Baş Noraşen mülkədarıdır, Şərur İcraiyyə Komitəsinin katibidir), qərar: tutulsun və sürgün olunsun.

Cabbarağa Kələntərli-(35 yaşında, Naxçıvanlıdır, Naxçıvan Xalq Əmək Komissarlığında məsul katibdir) qərar: tutulsun və sürgün olunsun.

Rəhimbəy Kazımbəyov-(35 yaşında, Şərurlu mülkədardır, Şərur aksiya idarəsində işçidir) qərar: sürgün olunsun.

Mirzəabbas Ramazanov-(56 yaşında, Ordubadlıdır, Ordubad icraiyyə komitəsinin katibidir) qərar; Sovet hökumətinin yabançı ünsürü kimi işindən çıxarılsın.

Rəşid Məkinski-(54 yaşında İrəvanlı erməni, Nax. SSR dövlət gəlirləri üzrə Maliyyə Komissarlığının müdiridir). qərar; vəzifəsindən çıxarılmaqla başqa sovet müəssisələrində işləsin.

Əli Səlimov-26 yaşında, Naxçıvanlıdır Kalbalıxanın müşaviri olmuşdur, Nax. SSR Daxili İşlər Komissarlığında şöbə müdiridir), qərar: tutulsun və sürgün olunsun.

Balabəy Əlibəyov-(70 yaşında, Naxçıvanlı mülkədardır, İlk dəfə şəxsi mülkündə ölkəşünaslıq muzeyi yaratmış və hökumətdən ayda 40 manat məvacib almışdır. Nax. SSR Maliyyə Komissarlığının agentidir) qərar: işindən çıxarılsın.

Friç Hansoviç Zirin-(37 yaşında Baltikyanı ölkədən, (Latış), Nax. SSR Torpaq komissarlığında müavin) qərar: tutulsun və prokurorluğa verilsin.

Azrik Axverdov-(30 yaşında Təzəkənd ermənisi, Nax. SSR Torpaq komissarlığında mühasib) qərar: müdiriyyətin şübhəsi dayandırılsın.

Cabbar Vəzirov-(36 yaşında, Naxçıvanlı Bünyatzadə adına sovxozun direktoru) qərar: tutulsun və sürgün olunsun.

Sumbat İsayeviç Baxşiyev-(29 yaşında Təzəkənd ermənisi, Erməni ticarət bazasının Naxçıvan şöbəsinin hesabdarı) qərar: Ermənitiсarət müdiriyyətinin şübhəsi dayandırılsın.

İsmayıl Əhmədsultanov-(36 yaşında Naxçıvanlı, Naxçıvan Mərkəzi Statistika İdarəsində birinci dərəcəli mütəxəssis) qərar: işindən çıxarılsın.

Kərimbəyov-(33 yaşında Salyan fırıldaqçısı, Noraşen pambıq zavodunun direktoru) qərar: işdən çıxarılsın və başq bir işlə məşğul olsun.

Hacı Bağırov-(Şərurlu, Noraşen pambıq zavodunun qəbuledicisi) qərar: işdən çıxarılsın və Naxçıvan ölkəsində başqa bir işlə məşğul olsun.

Qasımbəyov-(Yaycılı, Culfa rayon icraiyyə komitəsinin sədri) qərar: işdən çıxarılsın.

Səmədov-(Salyanlı fırıldaqçı, Naxçıvan pambıqtəmizləmə zavodunun direktoru). qərar: Naxçıvan ölkəsində fırıldaq etdiyindən işdən çıxarılsın və Sovet Azərbaycanının başqa ərazilərində işləmək hüququ verilir. (R.M.İvanov, "Naşestviye" (Basqın) (rusca) Moskva-2009).

1925-ci ilin sentyabr ayında Naxçıvan şəhərində Naxçıvan Təsərrüfat Məktəbi (direktoru N.Əfəndizadə idi) (sonrakı illərdə Naxçıvan Kənd Təsərrüfatı Texnikumu adlandırılmışdır- F.B.) yaradılır. Orta ixtisaslı kənd təsərrüfatı kadrları hazırlayan müəssisə əvvəlcə bir neçə il şəhərdəki "Xan evi" binasında fəaliyyət göstərir. Tələbələr burada aqronom, baytar feldşeri, zootexnik və planlaşdırma ixtisasları üzrə şöbələrdə təhsil alırlar.

Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun yetirmələrindən biri də Heydər Əliyevin böyük qardaşı akademik Həsən Əliyev olmuşdur. (Texnikuma kolxozlarda rəhbər işlərdə işləmək üçün xüsusi göndərişlə yeddinci sinfi bitirmiş oğlan və qızlar tələbəliyə qəbul olunurlar. Yaxşı oxuyan tələbələrə dövlət tərəfindən xüsusi müavinət verilməklə və tələbə yataqxanasında qalmağa şərait də verilir. Sonrakı illərdə həmin müəssisə Şıxmahmud kəndinə köçürülməklə adı isə Sovxoz- texnikum olur. Sovetlər birliyi dağıldıqdan sonra bu məktəb 37 tələbəsi olan Texniki Kollec adlandırılacaq- F.B.).

1926-cı ildə Naxçıvan SSR Xalq Komissarları Sovetinin sədri H.Sultanov, Mərkəzi İcraiyyə Komitəsinin sədri B.Balayev və Xalq Maarif Komissarı H.Musazadə idi. Həmin ildən Naxçıvandakı Duzdağ ərazisindən sənaye əsasları ilə duz çıxarılmağa başlanmışdı. Qazmaçılar orada 5 sayda qalın duz yataqlarını aşkar etmişlər. İstismar olunan yataqlardakı daş duzun (NaCl) miqdarı 90-92 %, ehtiyatı isə 124.506 min tona qədər ehtimal olunur.

1926-cı ildə Azərbaycan Xalq Maarif Komissarlığının dekreti ilə Naxçıvanda "Zikr" pedaqoji və Təsərrüfat məktəbləri açılır. Pedaqoji məktəbə Xəlilbəy Hacılarov (1895-1970), Təsərrüfat məktəbinə isə Neman Əfəndizadə (Əmişbəy) (1899-1952), daha sonra isə Mamaybəy Qulubəyov (1899-1941) direktor təyin olurlar. 1925-28-ci illərdə Naxçıvandakı Tədqiq və Tətöbbö Cəmiyyətinin (ictimai əsaslarla) sədri, Naxçıvan Xalq Maarif Komissarı Vahab Salman oğlu Həsənzadə (1890-1961) olmuşdur.

“Sən çərxin gedişinə qisas gözüylə baxsan,
Yaxşı, yaman gündə də haqşünas olacaqsan.”

(Nizami Gəncəvi).

1926-cı ilin aprelin 18-də Naxçıvan MSSR-in ilk Konstitusiyası (Əsas qanunu) yaradılmışdır. Bu Əsas qanun sənədi Muxtar respublikaya geniş hüquqlar vermişdir. Həmin illərdə Təbriz, Maku və Xoyda Naxçıvanın nümayəndəlikləri də yaradılır. Bundan başqa Naxçıvanın Zaqafqaziya müttəfiq respublikaları və Türkiyənin Qars şəhərində də nümayəndəlikləri yaradılmışdır.

1927-ci il 12-18 noyabr tarixdə Bakıda Azərbaycan SSR K (b) P-ın 8-ci qurultayının qərarı ilə, ölkədə mövcud fars-ərəb mənşəli yazı hərfləri, latın əlifbası ilə əvəz olunur. 1927-ci ildə Naxçıvan Firqə Komitəsinin birinci katib vəzifəsinə Bahadurbəy Vəlibəyov (1894-1938) qoyulur.

1928-ci ildə Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri vəzifəsinə Dadaş Xasa oğlu Bünyatzadə (1888-1938) keçmişdir. Həmin ildən Naxçıvan şəhərindəki Zaviyə məscidinin qarşı tərəfində Hacı Vəliağa Şahtaxtinskinin iki mərtəbəli mülkünü, Naxçıvan Vilayət Xalq Daxili İşlər Komissarlığı (rəisi Həmid Yaqubov idi) üçün inzibati bina edirlər. Tarixi bina sonradan müxtəlif idarə və müəssisələrin (Kinolaşdırma Komitəsi, Zona Təcrübə Aqrokimya Stansiyası (ZTAS) və s.) istifadəsinə verilsə də, 1970-ci ildə ərazidən V.İ.Leninin prospekti salındığından tikili yerli-dibli sökülmüşdür.

1928-ci ildən Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin filialı kimi yaradılmış Naxçıvan Yazıçılar Birliyi (sədri Nağı Nağıyev idi) 1958-ci ildə Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan Şöbəsinə çevrilmiş (sədri Müzəffər Nəsirli idi) və sonrakı illərdə isə Naxçıvan Yazıçılar Birliyi olmuşdur. Ayrı-ayrı illərdə M.İbrahimov, M.Nəsirli, H.İbrahimov, A.Yadigar sədrlik edərək tərkibində 70-dən artıq üzvlər vardır.

Naxçıvanlı yazıçı-dramaturqların 30-a yaxın pyesləri Birliyin köməkliyi ilə Naxçıvan Dövlət Dram Teatrında səhnəyə qoyulmuşdur. Son illərdə Yazıçılar birliyi İran İslam Respublikası Naxçıvandakı Baş konsulluğu ilə birlikdə 137-dək Naxçıvan və İran şairlərinin şerlər toplusunu, nəşr etdirmişlər. Bu isə iki qonşu ölkələr arasındakı mədəni dostluq körpüsünün tarixi simvoludur.

1929-cu ildə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Qəzənfər Mahmud oğlu Musabəyov (1888-1938) olur. Həmin ilin sentyabr ayından Azərbaycanda mövcud ərəb qrafikalı yazı əlifbası latın əlifbası ilə əvəz olunmuşdur.

1930-cu ildə Naxçıvan MSSR-in tərkibindəki inzibati ərazilər Şahbuz, Noraşen, Naxçıvan, Culfa, Əbrəqunus və Ordubad rayon ərazilərinə bölünür. Həmin ilin əvvəlindən Azərbaycanın Şəki-Zaqatala mahalında, Şəmkirin Bitdili və Şahbuzun Keçili kəndlərində yerli hökumət əleyhinə üsyanlar baş qaldırır.

1930-cu ildə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə Vladimir Polonskiy keçir. Həmin ildə Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri vəzifəsinə Mircəfər Abbas oğlu Bağırov (1895-1956) qoyulur. 1930-32-ci illərdə Naxçıvan Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Həmid Mahmudov (1890-1949) olmuşdur.

1930-cu ilin əvvəlindən Muxtar respublikada ümumi Təsərrüfat Artellərinin yaranması ilə əlaqədar mülkədarların torpaq əraziləri əllərindən alınaraq, həmin yerlərdə kollektiv təsərrüfatlar (kolxozlar) yaradılır. Sovet ölkəsi XKS-nin 1930-cu il 2 fevral tarixli "Mülkədarlıqla mübarizə işinin təşkili və bütün SSRİ ərazisində kolxozların yaradılması" dekreti olmuş. Yerlərdə həmin qərara əsasən hökumət hüquq mühafizə orqanları, işlərini gücləndirmək məqsədi ilə sahibkarlara məxsus mülklər əllərindən alınaraq kəndlilərin ixtiyarına verilir. Bütün bunların da nəticəsində yerlərdə qolçomaqların başçılığı ilə üsyanlar yaradılır. Naxçıvandakı sovet hökumətinə qarşı duranlara havadarlıq edənlər Kərbəlayi Süleyman, Kərbəlayi İsmayıl, Cəfərqulu xanın adamlarından Keçilili Quşdanla Məşədi İsmayıl, Ərəfsəli Səlim, Milaxlı Kərbəlayi Yəhya və başqaları olmuşlar. (F.Cəfərov, "Naxçıvan polisinin inkişaf yolu" Bakı-2008).

1930-cu ildən Naxçıvan şəhərində Respublika Mərkəzi Kitabxanası (direktoru Əhvə Abbasova idi) yaradılmışdır. Sonrakı illərdə (1956-cı ildə) kitabxana üçün yeni bina tikildiyindən M.S.Ordubadinin adı da verilmişdir. Kitabxananın fondunda 260 minə yaxın kitab, qəzet və jurnallar kitabsevənlərin ixtiyarına verilir. Burada oxu zalları, metodiki, kitab işləmə, kataloq, məlumat-biblioqrafiya, informasiya, mübadilə, musiqi-not və s. şöbələr də fəaliyyət göstərməyə başlayır. Bilik "xəzinəsi" olan kitabxanada oxucularla yazıçıların görüşləri və vaxtaşırı elmi-nəzəri seminarlar keçirilir.

1930-cu ilin payızında katib H.Mahmudovun imzaladığı dekretlə Naxçıvan MSSR-in yaradılmasının 10-cu ildönümü bayram kimi qeyd edilmişdir. Mərkəzi meydanda qurulmuş tribuna qarşısından ayrı-ayrı təşkilatların əməkçiləri, əllərində tutduğu qırmızı bayraqla keçmişlər.

Tarixin yaddaşına nəzər salaq: Rusiya Federasiyası maşınqayıranlarının (Xarkov Traktor Zavodu) "XTZ" markalı üçtəkərli traktoru bər-bəzəkli halda Naxçıvan Təsərrüfat Məktəbinə bayram hədiyyəsi kimi verilir. Bayramda məktəbin direktoru Nemanbəy Əfəndizadə (Əmişbəy) traktoru işə salaraq təntənə ilə rəhbər işçilərin qarşısından keçirir. Bundan bir həftə sonra məktəbin təcrübə sahəsində traktor nədənsə işə düşmür. Bu xəbəri eşidən fövqəladə komissarlıq Nemanbəyi ciddi sorğuya tutub və "sinfi düşmən" adı ilə hədələyir. Qorxuya düşən Əmişbəy Ərəbyeycəli qohumları ilə halallaşaraq, Arazdan keçib İqdıra tərəf qaçır. İki ildən sonra İstanbula gedən Əmişbəy Əfəndizadə ömrünün sonunadək jandarma idarəsində işləməli olur.

Təsərrüfat Məktəbinə Əmişbəyin həmyerlisi ali təhsilli aqronom Ərəbyeycəli Mamaybəy Qulubəyovu direktor təyin edirlər. Qəribə də olsa işləməyən Sovet dövlətinin ilk hədiyyəsi kimi dəmir təkərli traktor, uzun illər Naxçıvan Elmi-Bazasının yardımçı təsərrüfat sahəsində açıq havada qalıb pas atır. Sonrakı illərdə "ətiq əşya" kimi üstü rənglənmiş traktor, Naxçıvandakı MTS-ın darvazası qarşısında qoyulur...

Muxtar respublikanın 50 illiyi ərəfəsində həmin traktoru gətirib Naxçıvan MSSR Tarix-diyarşünaslıq Muzeyinə qoyurlar. Başıbəlalı "tarixi əşya" Sovet dövləti dağılandan sonra "qara dəmir tullantısı" kimi digər texniki avadanlıqlarla bərabər qonşu İran ölkəsinə "hicrət edir". Haliyyədə həmin traktor İran İslam Respublikası Xorasan ostanının Məşhəd şəhərinə gedən turistləri, Gülab Zavodu darvazası yanında nikbinliklə "salamlayır". (F.Bağırov, "Ziyarətnamə" Bursa-1996).

> *"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və aranızdakı əmanətlərə bilə-bilə xəyanət etməyin!"*
>
> **(Quran, Ənfal 8/27)**

1930-cu ildə Naxçıvan mahalında kollektiv təsərrüfat (kolxoz) yaradılanda, kəndli etirazları baş qaldırmış və yerli hökumətlə qarşıdurmalar olmuşdur. Həmin "üsyankarlardan" biri də Şahbuz rayonundakı Keçili kənd sakini Əbdül Məhərrəm oğlu (Qaçaq Quşdan) idi Qaçaq Quşdanın silahlı dəstəsi ilə hökumət adamları arasındakı atışmalarda ölənlərin cənazələri Naxçıvana gətirilir. Cənazələr şəhərdəki "Təbriz meydanı" məhəlləsində yerləşən Daxili İşlər Komissarlığı binasının qarşısındakı "toplantı"dan sonra, "Padşahlıq bağı"nda torpağa basdırılır. Qaçaq Quşdan yaralanmış dostuna kömək edərkən tutularaq "qolçomaq" adı ilə güllələnir və əmlakı müsadirə olmaqla yaxın qohumları da sürgünə göndərilir. (H.Arzulu, "Qaçaq Quşdan" Bakı-2000).

1930 cu ilin 17 avqust tarixində Zaqafqaziya Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyov, Azərbaycan K(b)P MK-ın katibi Əliheydər Qarayev və Naxçıvan MSSR XDİK rəisi Həmid Yaqubov Naxçıvandan Şahbuza gedərək, orada qaçaqçılığa qarşı "üçlük qərargahı" yaradırlar. Qaçaq Quşdanın tutulmuş adamları meydanda sorğu-sualsız güllələnir. Həmin tarixində (21 avqust) Şahbuzda hökumət işçilərinin qaçaqçılığa qarşı gizli müşavirəsi də keçirilmişdir. Müşavirədə bildirilir ki, Kolanıda başına dəstə toplamış Məşədi Məhi, Qarabağlar kəndində Fərəc ağanın oğlanları Mustafa, Hacı, Ağaxan və Kərbəlayi Müseyib, Yaycı kəndindən olan quldurlarla əlaqəyə girərək, kolxozçuların əmlaklarını talayaraq özlərini də öldürmüşlər. (F.Cəfərov, "Naxçıvan polisinin inkişaf yolu" Bakı-2008).

Həmin hadisədən 8 il sonra Naxçıvan şəhərindəki "Böyük bağ"da Teatr binası tikmək istəyərkən, qəbirlər sökülərək ərazinin cənub tərəfinə köçürülür. Sonradan teatr binası yandığına görə tamaşalar müvəqqəti olaraq təzə tikilmiş Mədəniyyət Evində göstərilir. Bir neçə illərdən sonra isə, parkdakı "17-lər" adlanan yerə, sərhəd əsgərlərindən həlak olmuş iki nəfərinin də meyitlərini gətirilib basdırırlar.

Sonrakı illərdə memar Məmməd İbrahimovun layihəsi əsasında parkda yenidənqurma işləri aparılıb və köhnə qəbirlərin yerində monumental abidə ucaldılır. Ölənlərinin xatirəsini əbədiləşdirmək məqsədi ilə Naxçıvan MİK 12 iyun 1930-cu il tarixli qərarı ilə, şəhərin küçələrindən birinə Abbas Qasımovun, Naxçıvan XKŞ binası yerləşən meydançaya isə "17-lər"-in adı verilir. (Naxçıvan MR Dövlət Arxiv İdarəsi fond 40, s. 1 iş 346, vərəq 14-15).

Parkdakı məzarların önündəki meydanda vətənpərvərlik tədbirləri keçirilir. Dəfn olunanların adlı siyahısı ilə atışmalarda həlak olmuş digər adamların da sənədləri Naxçıvan Dövlət Arxiv İdarəsində saxlanılır. (Naxçıvan MR Dövlət Arxiv İdarəsi fond 728, s. 1, iş 4, vərəq 43).

Parkda dəfn olunanların adlı siyahısı aşağıdakı kimidir;

Nax. MSSR XDİK-in məsul işçilərindən;

1. Abbas Qasımov. Naxçıvan Baş Milis İdarəsinin rəisi.

2. Qənbər Qənbərov. Sıravi milis işçisi.

3. Fərhad Əliyev. Sıravi milis işçisi.

4. Eynulla Sultanov. Sıravi milis işçisi.

5. Yusif Mustafayev. Sıravi milis işçisi.

6. Kərbəlayi Əli Eynullayev. Sıravi milis işçisi.

Nax. MSSR-in ərazi sərhəd əsgərlərdən;

1. İvan Yeremeyev, Sıravi əsgər.

2. İvan Jeleznyak, Sıravi əsgər.

3. Vladimir Zaxarov, Sıravi əsgər.

4. Mişa Şumilov, Sıravi əsgər.

5. İqor Morenko, Sıravi əsgər.

6. Vasili Zaxarov, Sıravi əsgər.

7. Vladimir Juravlyov, Sıravi əsgər

8. Serqo Vixliyanin, Sıravi əsgər.

9. Vladimir Baranov, Sıravi əsgər.

10. İqor Bulqanin, Sıravi əsgər.

11. İlya Afanasyev, Sıravi əsgər.

12. Pyotr Levteryev, Sıravi əsgər.

13. İvan Babuşkin. Sıravi əsgər.

Sonrakı illərdə təmir-bərpa edilmiş "17-lər"-in məzar yerində rus və azərbaycanca bu sözlər yazılmışdır; "17-lər" Naxçıvanda Sovet hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizədə həlak olmuş kommunarlar və qırmızı sərhədçilərdir".

"Bu yerdə mənim tək çoxdu yatanlar,
Hansı yad edilər, hansı anılar?"

(Nizami Gəncəvi)

1930-cu ilin aprel-may aylarında Qaçaq Quşdanın silahlı dəstəsinə qarşı atışmalarda həlak olan və öz kəndlərində basdırılan milis işçilərinin adlı siyahısı aşağıdakı kimidir;

1. Əkbər Əsgərov (Cəhri kəndi).

2. Qasım Hüseynov (Cəhri kəndi).

3. Şahhüseyn Zeynal oğlu (Cəhri kəndi).

4. Hüseyn Fərzəliyev (Nehrəm kəndi).

5. Bəhmən Məmmədov (Sirab kəndi).

6. Kərbəlayi Qəhrəman Abbas oğlu (Nehrəm kəndi).

7. Aban Quliyev (Payız kəndi).

8. "Partizan" Cabbar (Nehrəm kəndi).

9. Bəşirəli (Qaraqala kəndi).

10. Həmzəqulu (Keçili kəndi).

11. Fərman (Qışlaq kəndi).

12. Qurban Qurbanov(?).

13. Xudayar İsmayılov (Qarabağlar kəndi).

14. Fərhad Əliyev, (Əbrəqunus).

"(Ya Peyğəmbər!) Sən nə bilirsən ki, nədir Səqər! O (heç kəsi sağ) qoymaz və buraxmaz! İnsanı yandırıb-yaxar! Onun üstündə on doqquz vardır."

(Quran, Muddəssir 74/27-30)

1931-ci ilin sentyabrın 5-də Azərbaycan SSR XK Şurasının qərarı ilə Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığı (komissar N.C.Məmmədli idi) nəzdində Naxçıvanda Tibb Məktəbi (direktor A.Abdullayev idi) açılaraq və həmin ildə 32 nəfər tələbə "Tibb bacısı" şöbəsinə qəbul olur. Bir ildən sonra orta ixtisas məktəbində "Mamalıq" və "Farmaseft" şöbələri də yaradılaraq və 89 nəfər tələbə qəbul edilir. (1935-ci ildə bu Məktəb Naxçıvan Tibb bacısı Məktəbi adlandırılır. 1947-ci ildə məktəbə oğlanlar da qəbul olduğundan Naxçıvan Tibb bacısı və Feldşer Məktəbi adlandırılmışdır. On il ərzində bu məktəbi 455 nəfər feldşer və 161 nəfər isə mamalıq ixtisası üzrə tibb mütəxəssisi bitirmişdir. 1957-1977-ci illər ərzində Naxçıvan Tibb Məktəbini 247 nəfər feldşer-laborant, 314 nəfər mamalıq və 555 nəfər isə tibb bacısı ixtisasları üzrə bitirmişlər. Sovetlər Birliyi dağıldıqdan sonra (2009-cu ildə) Naxçıvan Tibb Məktəbi Kollec adlandırılmış- F.B.).

1931-ci ilin axırlarında Bakıda SSRİ EA-ın Azərbaycan şöbəsi açılır, bununla yanaşı, Azərbaycan Yazıçılar və Rəssamlar ittifaqları da fəaliyyətə başlayır. Həmin ildə Sultanməcid Məcid oğlu Əfəndiyev (1887-1938) Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə sədr vəzifəsinə keçirilir.

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da əhali arasında güclü ateist təbliğatı aparılır. Dindarlar təqib olunaraq sürgünə göndərilir, onlara olmazın işgəncələr verilir, məscid və ziyarətgahlar bağlanaraq, gənclərin həmin yerlərə getməsi qadağan olur. Tədriclə kəndlərdəki məscidlər kolxoz anbarlarına, klub və dükanlara çevrilirdi. Məktəblərdə dini təlimlər qadağan edilərək, uşaqlara Böyük oktyabr sosialist inqilabından, pioner və komsomol tərbiyəsindən təlimlər verilir. Əhali arasında savadsızlığa qarşı kəskin mübarizə başlayır. Həmin illərdə gündüz və axşam məktəblərində, habelə klublardakı dərnəklərdə adamlara azərbaycanca-rusca yazıb-oxumaq öyrədilirdi. Yeddiillik və orta gündüz məktəblərini bitirmiş məzunların, ibtidai məktəblərdə müəllim işləməsinə imkan yaradılmışdır.

Naxçıvanda hələ 19-cu əsrin axırlarından fəaliyyət göstərən teatr tamaşaları indi əhali arasında din və xurafatı məsxərəyə qoymaq üçün əsas təbliğat vasitəsinə çevrilmişdir. Bununla belə, qədim mədəniyyət mərkəzini öz funksiyasına görə istiqamətləndirən ziyalılarımız da az deyildi. Məsələn, Rzabəy Təhmasib (1894-1980) direktor olduğu Naxçıvan teatrında M.F.Axundovun, C.Məmmədquluzadənin, N.Nərimanovun dram əsərlərini tamaşaya hazırlayırdı.

Tarixin yaddaşına nəzər salaq: Cəlil Məmmədquluzadə (1866-1932) 1866-cı ilin fevralın 22 (9)-da Naxçıvan şəhərində dünyaya göz açmışdır. Yazıçı sonradan xatirələrində belə yazır: “Araz sahilində dünyaya gələrkən “Allah Əkbər” sədalarını eşitdim...”

O, 1873-78-ci illərdə Naxçıvanda molla məktəbində şəriət dərsləri almışdır. Bir ildən sonra (1879) Cəlil şəhərdəki üç sinifli Rus-tatar məktəbinə qəbul olur. Daha bir ildən sonra (1880) isə atası Məşədi Hüseynqulu, oğlunu Qori Seminariyasında oxumasına ərizə verir. Lakin uşağın yaşı çatmadığından Seminariyaya qəbul etmirlər.

1881-ci ildə Cəlilin atası yenidən Seminariyaya ərizə versə də yaşı çatmadığından yenə də qəbul olunmur. 1882-ci ildə Cəlil Naxçıvandakı ibtidai məktəbi bitirərək, atasının ərizəsi ilə Qori Seminariyasına qəbul edilir. 1883-84-cü illərdə Cəlil Seminariyadakı hazırlıq sinfində oxuyur. Cəlil 1885-ci ildə Seminariyanın 1-ci sinfində naxçıvanlı Ə.Məmmədov və Ə.Sultanovla bərabər oxuyanda, müəllim A.O.Çernyayevskidən (1840-1894) dərs almışdır.

1887-ci ilin iyulun 7-də Qori Seminariyasını bitirən Cəlil, İrəvan Quberniyasının Uluxanlı kənd məktəbində müəllim təyin olunur. Oktyabrın 13-dən onu Şərur-Dərələyəz qəzasının Baş Noraşen (Cəlilkənd) kənd məktəbinə göndərirlər. Sonra o, Şahtaxtı kənd məktəbinə dəyişilmək məqsədi ilə İrəvandakı Xalq Məktəbləri direktorluğuna ərizə yazır. (1889-cu ilin dekabr ayında Baş Noraşendə müəllim işlərkən, “Çay dəsgahı” adlı alleqorik dramını yazmışdır).

Mirzə Cəlil 1890-cı ilin yanvarın 15-dən Naxçıvan Qəzasının Nehrəm kənd məktəbinə müəllim gəlir. Naxçıvan teatrı ilə yaxından əlaqə saxlayan Cəlil, "Kişmiş oyunu" pyesini (1892) yazıb tamaşaya hazırlayır.

1893-cü dərs ilində Nehrəm kənd məktəbində qız sinfi açdıran Cəlil, bacısı Səkinənin köməkliyi ilə 8 nəfər də qızları məktəbə cəlb edir. Bir ildən sonra Cəlil Məmmədquluzadə naxçıvanlı maarifpərvər ziyalı Məhəmmədağa Şaxtaxtlı (1846-1931) və Məmmədtağı Sidqi (1854-1903) ilə tanış olur. Həmin ildə o, "Eşşəyin itməyi" adlı povestini də yazıb tamamlayır.

1895-96-ci illərdə Nehrəmdəki məktəbdə tarix-diyarşünaslıq muzeyi yaradan Mirzə Cəlil, kənddəki Nağı kişinin qızı Həlimə ilə evlənir. Cəlilin qızı Münəvvər dünyaya gələndə Həlimə uçaq üstə dünyadan köçməli olur.

1898-ci ildən Mirzə Cəlil, İrəvanda Qəza Polis İdarəsində xidmətçisi işinə girir və onun işini Naxçıvan şəhər Pristav idarəsinə dəyişirlər. 13 iyun 1990-cı ildə Mirzə Cəlil Naxçıvanda Məmmədqulubəy Kəngərlinin bacısı Nazlı (Zeynəb) xanımla evlənir.

1902-ci ildə Mirzə Cəlil vəkil olmaq niyyəti ilə İrəvana köçməli olur. İlk dəfə "Qafqaz" qəzetində (28 yanvar) "İrəvandan" adlı publisistik məqaləsi çıxır. Bir ildən sonra M.Şaxtaxtlının köməyi ilə "Şərqi Rus" qəzetinə işə girən Cəlil, "Poçt qutusu" hekayəsini də yazır.

1904-cü ildə Mirzə Cəlilin arvadı Nazlı (Zeynəb), sonra atası Məmmədqulu və anası Sara Məşədi Baba qızı da vəfat edirlər. Bundan sonra Mirzə Cəlil , Ömərfaiq Nemanzadə və tacir Məşədi Ələsgər Bağırovla birlikdə pul toplayaraq, Tiflisdəki "Şərqi Rus" mətbəəsini alırlar.

1906-cı ilin aprelin 20-dən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalını nəşr etdirir. Bir ildən sonra Mirzə Cəlil (iyunun 15-də) Qarabağlı Həmidə xanım Cavanşirlə evlənir.

1908-ci ilin martın 19-da Cəlil Məmmədquluzadənin Həmidə xanımdan Midhəd adlı oğlu olur. İki ildən sonra Mirzə Cəlil Naxçıvanlı Məmmədəli Sidqi Cəfərovu "Molla Nəsrəddin" jurnalına (12 oktyabr) redaktor köməkçisi işinə götürür.

1911-ci ilin mayın 11-də Mirzə Cəlilin Ənvər adında ikinci oğlu da doğulur. İki ildən sonra (20 fevral) Əliqulu Qəmküsarın (Nəcəfovun) (1880-1919) redaktorluğu ilə "Molla Nəsrəddin" jurnalı nəşr olunur. Həmin ildə Mirzə Cəlilin bacısı Səkinə Məmmədquluzadə vəfat edir.

1914-cü il “Molla Nəsrəddin” jurnalının 21 №-də dərc olunmuş “Gimnazist” şerinə görə redaktor və köməkçi Ə.Qəmküsar, məsuliyyətə cəlb olaraq, jurnalın nəşri müvəqqəti dayandırılır. (İki ildən sonra ”Molla Nəsrəddin” jurnalının yenidən nəşrinə icazə verilmişdir- F.B.).

1917-ci ilin may ayında Naxçıvan teatrında C.Məmmədquluzadənin “Ölülər” pyesi tamaşaya qoyulur. 1918-19-cu illərdə Mirzə Cəlil Şuşa yaxınlığındakı ailəsi ilə birlikdə Kəhrizli kəndində yaşamalı olur.

1920-ci ildə Mirzə Cəlil ailəsi ilə bərabər Təbrizə köçərək inqilabçı demokrat Şeyx Məhəmməd Xiyabani (1880-1920) ilə görüşür. Bir ildən sonra “Molla Nəsrəddin” jurnalı Təbrizdə yenidən nəşr olaraq 8 nömrəsi çıxır.

1922-ci ildə Cəlil Məmmədquluzadə Bakıdakı Azərbaycan Xalq Maarif Komissarlığında işə dəvət olunur. O, 24 may tarixində ailəsi ilə Bakıya köçməli olur. Həmin ildən Bakıda “Molla Nəsrəddin” jurnalının sonrakı sayları “Yeni yol” adı ilə çıxmağa başlayır. (22 may tarixində Kəhrizli kəndində Mirzə Cəlilin qardaşı Ələkbər Məmmədquluzadə də vəfat edir- F.B.).

1923-cü ildə Bakıda D.Bünyadzadə adına teatrda “Ölülər” pyesinin tamaşası qoyularaq və “Molla Nəsrəddin” jurnalının da “xatirə gecəsi” keçirilmişdir. Bir ildən sonra C.Məmmədquluzadə Azərbaycan “Tədqiq və Tətəbbö Cəmiyyəti”nin üzvü seçilir.

1925-ci ildə C.Məmmədquluzadənin hekayə və pyeslərindən ibarət kitabı nəşr olunur. (Həmin ildə C.Məmmədquluzadə Moskvada keçirilən Türkoloji Qurultayda nümayəndə kimi iştirak etmişdir).

1927-ci ildə C.Məmmədquluzadə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə üzv namizəd seçilir. Həmin il ədibin “Bəlkə də, qaytardılar” adlı kitabı da nəşr olur. Bir ildən sonra (1928, 4 aprel) Mirzə Cəlilə Azərbaycan SSR Xalq Komissarları Şurası tərəfindən təqaüd təyin olunur.

1929-cu ildə Mirzə Cəlil Tiflis və İrəvan şəhərlərində keçirilən Azərbaycan yazıçılarının nümayəndə heyətinin tərkibində olur. Sonrakı ildə isə o, İrəvanda A.Şirvanzadənin (Movsisyan Aleksandr Minasoviç) (1858-1935) yubiley gecəsində (8 fevral) çıxış etmişdir. (Həmin ilin yayda Mirzə Cəlil həyat yoldaşı Həmidə xanımla bərabər Kislovodskdə müalicəyə gedirlər).

1931-ci ildə Bakıda “Molla Nəsrəddin” jurnalının nəşr olunmasının 25 illiyi qeyd olunmuşdur. (İ.Həbibbəyli, “C.Məmmədquluzadənin həyat və yaradıcılığının əsas tarixləri” Bakı-1986).

1932-ci ilin yanvarın 4-də Azərbaycan mədəni irsinin banisi görkəmli dramaturq, jurnalist və ictimai xadim Cəlil Məmmədquluzadə (Mirzə Cəlil) (1866-1932) dünyadan köçərək əbədiyyətə qovuşdu. Yanvarın 8-də mərhumu Maarif İşçiləri Evində qoyulmuş cənazəsi ilə vidalaşma mərasimindən sonra, "Fəxri Xiyaban"da dəfn etmişlər.

Tarixin yaddaşına nəzər salaq: 1932-ci ildən Naxçıvan Xalq Maarif Komissarlığının dekreti ilə Etnoqrafiya Muzeyinin bazası əsasında Tarix-Ölkəşünaslıq Muzeyi yaradılaraq (direktoru Mirbağır Mirheydərzadə (1877-1956) idi) yenidən qurulmuşdur. (1968-ci ilin dekabrından Naxçıvan Mədəniyyət Nazirliyinin qərarı ilə Naxçıvan Dövlət Tarix Muzeyi adını alaraq, 1956-82-ci illərdə muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Əbülqasım Sultanov (1924-1991) olmuşdur. (Muzeyə 1982-ci ildən Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov rəhbərlik edir).

Muzeyin 9 şöbəsində 46 minə yaxın eksponat saxlanılır. Burada elmi-tədqiqat işləri aparılaraq sərgilər, görüşlər, xatirə gecələri və müxtəlif mədəni-kütləvi tədbirlər keçirilir. Muzeyin baş fond mühafizi N.Əsədova, elmi işçi Z.Süleymanova, şöbə müdiri N.Allahverdiyevanın fəaliyyəti ilə Tarixi abidələri mühafizə Cəmiyyəti və Azərbaycan MEA-sı Naxçıvan Bölməsinin Tarix və Etnoqrafiya İnstitutu ilə əlaqə saxlanılaraq, muzeyin elmi fəaliyyəti geniş surətdə təbliğ olunur).

1932-ci ilin yanvar ayından Azərbaycanda XDİK-da xüsusi şöbə açılaraq (Naxçıvan MSSR-də pasport masa rəisi Abdulla Bağırov idi) və əhali arasında pasportlaşma siyasəti aparılırdı. Pasport vasitəsilə əhalinin yerdəyişməsinə nəzarət etmək və xalqın davranışında məhdudiyyət yerinə yetirilirdi. (Vətəndaşlığı təsdiq edən bir vərəqlik fotoşəkilsiz pasport sənədi, Rus və Azərbaycan dilində yazılaraq möhürlə təsdiq olunurdu- F.B.).

1933-cü ilin dekabr ayından Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsini birinci katibi vəzifəsinə Mircəfər Abbas oğlu Bağırov (1895-1956) keçir. Həmin tarixdən də Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri vəzifəsinə Hüseyn Sərdar oğlu Rəhmanov (1889-1938) gətirilir. 1934-36-cı illərdə Naxçıvan Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Hüseyn Rəhmanov (1906-1958) olur.

1932-35-ci illərdə teatrın və ümumiyyətlə, yerli xalqın mətbuat mədəniyyətinə alışmasının inkişafında "Şərq qapısı" və MTS siyasi şöbəsinin orqanı olan "Sürət" qəzetlərinin də rolu az olmamışdır. O vaxt görkəmli yazıçılar Əli Vəliyev (1901-1978) "Şərq qapısı", Mirzə İbrahimov (1911-1986) isə "Sürət" qəzetinin redaktorları idi.

1935-ci ilin 19 yanvarında “Şərq qapısı” qəzeti redaksiyasındakı müşavirədə Naxçıvan MSSR Xalq Maarif Komissarı Qurban Həsənov “Naxçıvan teatrının yaradıcılıq yolu” mövzusunda məruzə etmiş. Həmin müşavirədə Naxçıvan Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi H.Mahmudov da iştirak edərək razılığını bildirmişdir. Naxçıvan teatrı bütöv Azərbaycan teatr mədəniyyəti tarixində də adları iftixarla çəkilən İ.Həmzəyev, Ə.Məmmədov, İ.Musayev, S.Mövləvi, Z.Budaqova, F.Əlixanova və başqa istedadlı aktyorlar yetişdirmişdir. (Ə.Xəlilov, ”Naxçıvan teatrının tarixi” Bakı-1964).

Azərbaycan hökuməti şərq qadınlarına “azadlıq” verərək çadra örtməyi qadağan edir. Şəhərdə fəaliyyət göstərən Klara Setkin adına Qadınlar klubunda (müdirəsi Cənnət Talıbzadə idi) qız-gəlinlərə sinifsiz cəmiyyətdə kişi ilə qadınların bərabər hüquqları təbliğ olunur. Naxçıvanda oğlanlarla qız uşaqları məktəblərdə, eyni siniflərdə təhsil alaraq müxtəlif sosial peşələrə də yiyələnirlər. Ölkədə kənd və şəhər əhalisi məcburi əməyə cəlb edilərək, cəmiyyətdə işsizliklə mübarizə aparılır. Kəndlərdə ictimai kolxoz təsərrüfatı ilə bərabər, dövlət təsərrüfatları olan sovxozlar da yaradılmışdır. Şəhər və qəsəbə məktəblərində fabrik-zavod, peşə-sənət artelləri açılmışdı.

Asayiş işlərinə dövlət qayğısı göstərilərək, xalq nəzarəti üçün drujina fəalları yaradılır. Çar rusiyasındakı jandarma və qaradovoy xidmətçiləri artıq sovet milisi adı ilə əvəz olunmuşdu. “Beynəlmiləlçi” Sovet ideologiyasının qanunlarına zidd çıxan vətəndaşlar, molla və sahibkarlar müxtəlif əqidələrinə görə “sinfi düşmən” damğası ilə Sibir və Qazaxıstan çöllərinə sürgün edilirdilər.

Tarixin yaddaşına nəzər salaq: 1936-cı ildə Naxçıvanlı şair və dramaturq Hüseyn Cavid Rəsizadə (1882-1941) Bakıdakı evində günahsız tutularaq, “pantürkist” (türkpərəst) adı ilə əvvəlcə Maqadana, sonra isə İrkutsk Əmək İslah Düşərgəsinə sürgün olunur. Həmin illərdə vətənpərvər hərbiçi general-mayor Qambay Məmməd oğlu Vəzirov (1899-1937), hərbiçi Cəmşid Cəfərqulu oğlu Naxçıvanski (1895-1938), Heydər Qulu oğlu Novruzov (1902-1938) Qurban Həsən oğlu Həsənov (....-1938), Heydər Sadıq oğlu Vəzirov (1893-1937), Qafar Babayev (....-1937), Abbasqulu Əliyarov (....-1937), Həsən Səfərov (....-1937), şairlərdən Əhməd Cavad və Seyid Hüseyn də tutularaq və Respublika DİK-ın Təhlükəsizlik Şöbəsi tərəfindən məhv edilmişlər. Ümumiyyətlə SSRİ-dən 70 min və təkcə Azərbaycandan isə 23 min nəfər günahsız vətəndaşlar, repressiya qurbanına çevrilmişlər. (Maqadanda H.Cavidlə bərabər siyasi dustaqlar arasında dülgər işləyən Nehrəmli Abbasqulu usta da olmuşdur). (F.Bağırov, “Nuh yurduna ziyarət” Bakı-2008).

1937-40-cı illərdə Naxçıvan XDİK-ın komissarı mayor V.Qranskiy, baş leytenant P.Vakulçik, baş leytenant Zakiyan, leytenant Meleseyev, komissarlığın katibi Perel, baş kargüzar Baziyan, həbsxana rəisi Geverkov, milis şöbəsinin istintaq rəisi A.Danelyan və başqalarının əli ilə ziyalılarımız günahsız surətdə tutdurularaq, repressiya qurbanlarına çevrilirlər.

> *"Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr!"*
>
> **(Quran, İnşirah 94/5-6)**

1936-41-ci illərdə Naxçıvan Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Kazım İsmayılov (1906-1966) olmuşdur. 1937-ci ilin 10 mart tarixindən Azərbaycan SSR-nin yeni Konstitusiyası (Əsas qanunu) qəbul olunur. (Həmin il Bakıda Ü.Hacıbəyovun "Koroğlu" operası da tamaşaya qoyulmuşdur).

1937-ci ildə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinə Mirbəşir Fəttah oğlu Qasımov (1879-1938) sədr seçilir. Həmin ildə Azərbaycan Xalq Komissarları Sovetinə Teymur İmamqulu oğlu Quliyev (1896-1954) sədr seçilmişdir. 1938-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Mirteymur Mirələkbər oğlu Yaqubov (1904-1949) olur.

1937-ci ildə Üzeyir Hacıbəyov (1885-1948) Naxçıvandan SSRİ Ali Sovetinin Millətlər Sovetinə deputat seçilir. Üzeyir bəyin səyi ilə Naxçıvan şəhərində Nax. MSSR MİK-nin sədri Cəfərovun imzaladığı qərar ilə 1937-ci il avqustun 23-də Lenin komsomolu adına Naxçıvan Musiqi Məktəbi açılır. 1937/38-ci dərs ilində Məktəbdə oxumaq üçün 80 şagird qəbul olur. 5 şöbədən ibarət olan məktəbdə; tar, kamança, royal, nəfəs və simli alətlər üzrə siniflər yaradılır. Həmin il Məktəbə müvəqqəti olaraq İncəsənət İşləri İdarəsinin təlimatçısı Hüseyn Bədirliyə müdirlik həvalə edilir. Azərbaycan XKŞ-nın İncəsənət İşləri İdarəsinin rəisi İsmayıl Sayılova tapşırılır ki, məktəb şagirdləri üçün yataqxana və lazımi miqdarda musiqi alətləri ilə təmin olunsun.

Naxçıvan Musiqi Məktəbinə 1939-41-ci ildə İsmayıl Sayılov, 1941-43-cü ildə Məmməd Ələkbərov, 1943-45-ci ildə Siddiqə Abbasova, 1945-46-cı ildə Məmməd Cavadov rəhbərlik etmişlər. Məmməd Cavadov uzun illər 1950-ci ilədək məktəbdə tədris işi üzrə müavin vəzifəsində işləməklə dərslərin pedaqoji cəhətdən keyfiyyətli keçirilməsinə diqqət yetirmişdir. 1939-41-ci ilədək Musiqi Məktəbinin müəllim kollektivi müxtəlif çalğı alətlərində şagirdlərə fənn məşğələsi keçmişlər ki, onlar; Məmməd Ələkbərov-truba (nəfəsli alət), Nikolskaya Olqa-fortepiano, Javarenko Lyudmila-skripka, Babayev Rəhim-kamança və Sadıxov Hüseyn-tar. (Naxçıvan MR Dövlət Arxiv İdarəsi, F- 529 1/3).

1938-ci ilin iyun ayında Azərbaycan hökumətinin Parlament iclasında qərar qəbul edilir ki, bəzi yüksək dövlət qurumlarında adlar dəyişdirilsin. Bu qərara əsasən, Azərbaycan XKS-i Nazirlər Şurası (Soveti) ilə, Azərbaycan MİK-si isə, Ali Sovet adlı ilə əvəz olunur.

1939-cu ilin 11 iyul tarixli Azərbaycan Xalq Maarif Komissarlığının dekreti ilə, 1940-cı ilin 1 yanvarından Azərbaycandakı mövcud Latın qrafikalı əlifba, Rus (Kiril) əlifbası ilə əvəz olunur.

1939 cu il 14 avqust tarixində Nax. MSSR XKS-nin qərarı ilə, 1927-30-cu ildə fəaliyyət göstərmiş Naxçıvan Pedaqoji Məktəbin bazası əsasında yaradılan C.Məmmədquluzadə adına ikiillik Dövlət Müəllimlər İnstitutu (1939-1954) açılır.

Naxçıvanda həmin ali məktəbin açılması bütün regionda pedaqoji kadrların yaranmasına səbəb olur. Məktəb, təkcə Naxçıvan Respublikasına deyil, Ermənistan SSR-də yaşayan azərbaycanlıların da müəllim ixtisası almaq işində fövqəladə əhəmiyyət kəsb edir və qonşu respublikada kadr yoxluğundan əziyyət çəkən Azərbaycan dilli məktəblərin yüksək ixtisaslı müəllimlərlə təminində böyük dəyər daşıyırdı. Ali məktəbin əyani və qiyabi şöbələrindən müxtəlif ixtisaslar üzrə 1.159 nəfər məzun buraxılmışdır. Həmin ildən ictimai əsaslarla Naxçıvanda Muxtar Respublika Qadınlar Şurası da yaradılmışdır. Şuranın sədri tarix-ölkəşünaslıq muzeyinin işçisi Bahar (Qəşəngxanım) Kəngərli idi. O, şəhərin A.S.Puşkin küçəsindəki Klara Setkin adına Qadınlar klubunda savad kursuna da rəhbərlik edirdi.

1939-cu ilin dekabr ayından Türkiyə ilə SSRİ arasında dostluq və sülh sazişi imzalanır. Lakin Türkiyə gizli surətdə Rusiyaya qarşı hərbi hazırlığa başlayaraq və türk müsəlman ordusu yaradırlar. Həmin ilin axırında ABŞ təklif edir ki, SSRİ-yə yalnız şimaldan qonşu olan Finlandiya ərazilərindən hərbi hücum edilsin. İngiltərənin Baş naziri (Nevill Çemberlen (1869-1940)) isə təklif edir ki, həmin vaxtlarda cənub sərhədlərindən (İran Türkiyə və İraqdan- F.B.) Bakıya hücum edilsin. Lakin həmin təklif Türkiyə tərəfindən qəbul olunmadığı üçün dayandırılır.

1940-cı ildən Azərbaycan SSR Konstitusiyasına görə yaşı 18-dən yuxarı olan vətəndaşlara yerli milis orqanları tərəfindən pasportlar verilir. Bununla əlaqədar şəhər (rayon) milis idarələri nəzdində Vətəndaşlıq Vəziyyəti Aktları Qeydiyyatı (VVAQ) şöbələri yaradılır. (Naxçıvan şəhər VVAQ şöbəsinin müdiri Sənubər Hacıyeva idi).

1940-cı ilin əvvəlindən Bakıda neft sənayesini inkişaf etdirmək məqsədilə yeni metal neft vışkaları yaradılır. Bakı neftçiləri bu məqsəd ilə gecə-gündüz neft mədənlərində yorulmadan çalışırlar. Həmin ilin mart ayında SSRİ XKS sədri K.Y.Voroşilov (1881-1969), Bakıya gələrək və neftçi fəhlələrlə görüşüb və Moskvaya qayıdır. O, Bakı neftçilərinin əzmkarlığından və neft istehsalının sənaye əsasları ilə çıxarılması haqqında İ.V.Stalinə məlumat verir.

1940-cı ilin ortalarında SSRİ ilə Finlandiya arasındakı müharibə dayanır. Lakin İngiltərənin Baş naziri Çemberlen Qara dəniz və Xəzər dənizlərindən Bakıya hava hücumu planını irəli sürür. Fransız təyyarəçilər Batumiyə kimi gəlsələr də, yanacaqları qurtardığından Batumi, Qroznı və Bakı şəhərlərini bombalaya bilmirlər.

Tarixin yaddaşına nəzər salaq: 1941-ci ilin iyunun 21-də səhər saat 6-da Hitler Almaniyası Sovet İttifaqı ilə əvvəlcədən bağladığı sülh müqaviləsini pozaraq, SSRİ ərazilərinə qəflətən hücuma keçirlər. İki saatdan sonra xəbər tutan İngiltərənin təzə Baş naziri Uinston Çörçil (1874-1965), sevinərək demişdir ki; "Artıq İngiltərə xilas oldu." Müasir silahlarla silahlanmış almanlar 190 mexanikləşdirilmiş hərbi diviziya ilə Sovet dövlətinin qərb sərhədlərinə soxulurlar. Faşistlərin niyyəti yalnız "ildırım sürətilə" irəliləyib və Moskvada sosializmi boğmaqdan ibarət idi. Həmin ilin 30 iyun tarixində Moskvada İ.V.Stalin tərəfindən Dövlət Müdafiə Komitəsi (DMK) yaradılaraq və müharibənin sonunadək Komitəyə rəhbərlik edir. Həmin ilin 13 aprel tarixindən Naxçıvan XDİK nəzdində fəaliyyət göstərən Təhlükəsizlik şöbəsi, müstəqil olaraq Naxçıvan MSSR Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı olur.

1941-ci ilin avqust ayında azərbaycanlı könüllülərdən ibarət 402-ci milli diviziya yaradılır. Müharibənin ilk günlərindən etibarən Mircəfər Bağırov (1906-1956) dəfələrlə döyüş bölgələrində olaraq, əsgər və zabitlərimizin tələb və ehtiyacları ilə maraqlanır.

1941-ci ilin oktyabr ayında azərbaycanlı könüllülərdən ibarət 223, 227 və 271-ci milli diviziyalar da yaradılaraq, döyüş üçün birbaşa ön cəbhəyə göndərilir. Zəhmətkeş xalqımız ölkənin müdafiəsi və qələbəsi üçün əlindən gələni əsirgəmir. Millətimiz Dövlət Müdafiə Fonduna ev əşyaları, ov tüfəngləri, qadın zinət əşyalarını bağışlayaraq, hətta aylıq məvacibinin yarısını da yardım edir. Qış aylarında Azərbaycan qadınının əlləri ilə yundan toxunmuş isti paltarlar şarflar, corablar, əlcək və digər növ geyimlər cəbhə xəttinə göndərilir. Azərbaycan xalqı tonlarla ən müxtəlif çeşidli meyvə qurusu, və başqa şeylər də poçt bağlamaları ilə cəbhə bölgələrinə göndərmişdir. Hamı, kimi Azərbaycan xalqı qara faşizmdən yaxa qurtaracağı günün yaxınlaşması üçün əlindən gələni edirdi.

1941-ci ilin oktyabrın 19-da Leninqrad şəhərindəki Dövlət Ermitaj Muzeyində Azərbaycanın dünya şöhrətli şair və mütəfəkkiri Nizami Gəncəvinin (1141-1209) 800 illiyi Sovet xalqları tərəfindən təntənə ilə qeyd olunmuşdur. Mərasim Böyük Vətən müharibəsi illərində hitlerçilər tərəfindən mühasirədə olan Qəhrəman şəhərdə tarixi salnaməyə yazılmışdı.

Böyük şairin əsərləri Sovet xalqları tərəfindən dəfələrlə nəşr olunmuşdur. Azərbaycan oxucularına şairin 1946-cı ildə "Yeddi gözəl", 1953-cü ildə "Sirlər xəzinəsi", 1959-cu ildə "Leyli və Məcnun", 1962-ci ildə "Xosrov və Şirin" və 1964-cü ildə isə "İsgəndərnamə" poemaları nəşr olunaraq çatdırılmışdı. Ayrı-ayrı illərdə isə şairin lirik şerləri ilə qəzəlləri də nəşr olunmuşdur. (Nizami Gəncəvinin 840 illik yubiley tədbirləri, 1981-ci ildə Moskvanın Qurultaylar Sarayında da təntənəli surətdə keçirilmişdir. Müstəqillik illərində böyük şairin 850 illiyində üzərində Nizami Gəncəvinin rəsmi olan 500 manatlıq kağız pullar da banklardan buraxılmışdır).

"Ömrün gözəl günləri ötüşdü, gecə düşdü,
Torpaq yellə öpüşdü, atəş suyla görüşdü."

(Nizami Gəncəvi)

XX əsrin əvvəlində yalnız ABŞ və Rusiyada (Bakıda) neft çıxarılırdı. 1938-ci ildən Sovet İttifaqının rəhbəri İ.V.Stalin (1879-1953), xarici dövlətlərə neft məhsullarının satışını dayandırır. Bu vaxt artıq Almaniya yeni Dünya müharibəsinə hazırlıq məqsədi ilə, kömürdən süni yolla neft məhsulları alınmasına başlamışdır. Bu məqsədlə hərbi cani Adolf Hitler (1889-1945) tərəfindən faşist Almaniyası qonşu Polşaya hərbi qoşun yeridərək və İkinci Dünya müharibəsinə başlayır.

1942-ci ilin yazında Azərbaycan könüllülərindən ibarət 77 və 416-cı Milli diviziyalar da yaradılır. Müharibənin dörd ayı ərzində Naxçıvan MSSR əhalisi, Dövlət Müdafiə Fonduna 120.800 manat nəqd pul vəsaiti, 1 milyon 727 min manat həcmində istiqraz bileti, 7 kq-dan artıq qızıl məmulatı toplamış və təhvil vermişdi. Dövlət tədarük məntəqələrinə 66 ton ət, 2.155 kq. yun, 897 kq. kərə yağı, 10,6 ton tərəvəz məhsulları, 3.634 cüt yun corab, 1.461 cüt yun əlcək və sairə döyüşçülərə göndərilmişdir. ("Şərq qapısı" qəzeti, 1941-ci il 22 oktyabr).

Tarixin yaddaşına nəzər salaq: İkinci Dünya müharibəsi illərində (1941-45) Nax. MSSR döyüşçülərdən üç nəfərinə, Qəzənfər Qulam oğlu Əkbərov (1917-1944), Nəcəfqulu Rəcəbəli oğlu Rəfiyev (1912-1970) və Abbas Şahbaz oğlu Quliyev (1916-1998) Sovet İttifaqı Qəhrəmanı adı verilir. Naxçıvan zəhmətkeşləri gündüzlər işləyib gecələr isə ev pəncərələrinə qara pərdə asaraq, "Rekord" radio ucadanışanla Moskva radiosunun diktoru Viktor Levitanın səsi ilə "Sovinformbüro" nun xəbərlərini dinləyirdilər...

İkinci Dünya müharibəsində faşist Almaniyasına qarşı Sovet dövlətinin digər vətəndaşları kimi, Naxçıvanlılar da düşmənə qarşı çıxmış, igidliklə vuruşmuş, ön və arxa cəbhələrdə fədakarlıq göstərmişlər. İkinci Dünya müharibəsində Naxçıvandan ön cəbhəyə 29.024 nəfər könüllü əsgər getmişdir ki, onlardan yarısı, yəni, 15.329 nəfəri döyüşlərdə şəhid olmuşlar.

Müharibədə sağ qalmış döyüşçülərdən general-mayor Akim Əli oğlu Abbasov (1911-1992), polkovnik Mehdi Abdulla oğlu Mahmudov (1911-1984) və leytenant Rəhim Cəfər oğlu Rəhimov (1920-2003), "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüş. Kiçik leytenant Bağır Məhəmməd oğlu Bağırov (1903-1986) və Məmməd Əli oğlu Əliyev (1919-2002) isə, "Şöhrət" ordeninin ikinci dərəcəsi ilə mükafatlanmışlar.

Müharibə illərində Naxçıvandan cəbhəyə 127 nəfər könüllü həkim və tibb bacıları da getmişdir. Həkimlərdən Tofiq Sultanov, Mehdi Bağırov, Abbas Əliyev, Əbdüləli Tahirov, Əkbər İsmayılov, Camal İbrahimov, Əkbər Fəttahov, Cabbar Cəfərov, Hacı Mehdiyev, Əzim Kazımov, Abdulla Abdullayev və başqaları da onlarla birlikdə cəbhədə olmuşlar. Orta tibb işçilərindən Dilbər Təhməzbəyova, Zərifə Camalbəyova, Xeyrənsə Abdullayeva, Səfiyə Sultanova və başqalarının da adlarını şərəflə çəkmək olar.

Müharibə illərində Naxçıvan Xalq Komissarlığının qərarı ilə əhalinin sağlamlığı üçün, 16-60 yaşınadək vətəndaşlar istehsalatdan (təhsildən) ayrılmadan icbari qaydada Sanitariya Müdafiəsinə Hazıram (SMH) normalarını Qırmızı Aypara Cəmiyyəti tərəfindən öyrənirdi. Böyük Vətən müharibəsi illərində (nazir Həmid Əsədov idi) Naxçıvan şəhərində vərəm əleyhinə dispanser açılaraq, oradakı çarpayıların sayı 55-ə çatdırılmışdır. (A.Məmmədov, "Naxçıvan MSSR-də səhiyyənin tarixi və mərhələli inkişafı" Bakı-2006).

1941-46-cı illərdə Naxçıvan Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Hüseyn Nəcəfov (1905-1963) olmuşdur. Azərbaycan KP(b)P-nın birinci katibi Mircəfər Bağırovun (1906-1956) göstərişi ilə xalqın milli adət-ənənələrinə hörmətlə yanaşılırdı. Məscidlərdə möminlər tərəfindən ölkəyə əmin-amanlıq, əsgərlərə mətanətlə ayıqlıq və düşmənə isə nifrət duaları edilirdi.

1942-ci ildə Naxçıvanda Baş kinoprokat şöbəsi (müdiri Adil Əliyev idi) yaradılır. Naxçıvanda 14 kino qurğu işə düşmüş və ilin birinci yarısında 546 kino nümayiş etdirilmişdir.

1943-cü ildə Naxçıvanda İncəsənət işləri İdarəsinin təşəbbüsü ilə Dövlət Caz Orkestri (bədii rəhbəri Məmməd Cavadov, administratoru Daniyal Jirov idi) yaradılır. Orkestr Naxçıvan MSSR rayon mərkəzlərində maraqlı çıxışlar etmişdir.

1943-cü ilin 1 iyul tarixli Azərbaycan Ali Sovetinin fərmanı ilə Ordubad Pedaqoji texnikumunun direktoru, Əli Həsənəli oğlu Qənbərov (1907-1987) və Naxçıvan Dövlət Müəllimlər İnstitutunun müəllimi Lətif Talıb oğlu Hüseynov (1903-2007) "Əməkdar müəllim" fəxri adını alırlar. Həmin vaxt Naxçıvan Dram Teatrının artistlərindən İbrahim Həmzəyev (1908-1982), Səməd Mövləvi (1900-1962) və Əyyub Haqverdiyev (1911-1996) də fəxri ad almışlar.

Tarixin yaddaşına nəzər salaq: Müharibədən əvvəl (1920-ci ildə) Stalin tərəfindən Bayıl həbsxanasından buraxılmış, Məmmədəmin Rəsulzadə (1884-1955) bir müddət Moskvada Millətlər Komissarlığında mətbuat müvəkkili işləyir. "Xidməti iş" üçün Leninqrada ezamiyyətə gedən Məmmədəmini tatar Musa Cərullah Bigiyevin köməkliyi ilə, qayıqla Fin körfəzindən keçib, saxta pasportla Finlandiyaya adlamağa müvəffəq olur. Sonra Polşa, Almaniya və nəhayət ömrünün sonuna kimi Türkiyədə mühacirətdə olur.

1943-cü ilin payızında Məmmədəmin Rəsulzadənin təşəbbüsü ilə Berlində, “Azərbaycan Mühacir Partiyası”nın əsir düşmüş azərbaycanlı əsgərlərinə, Sovet İttifaqına qarşı əks kəşfiyyat (hərbi legion) təlimləri keçirilir. Bu barədə Məmmədəmin Adolf Hitlerlə (Fürerlə) (1889-1945) məsləhətləşərək, rəsmi qərar qəbul edirlər...

Naxçıvan MSSR Noraşen rayonunun Düdəngə kəndindən olan müharibə əsiri Fətəlibəyli Əbdürrəhman Əlibəy oğlu (1908-1954), Sovet İttifaqının mayor rütbəli hərbi komandanı olmuşdur. O, 1942-ci ilin iyulunda Leninqrad ətrafında gedən qızğın döyüşlərdə general A.A.Vlasovun alayında (Volxov cəbhəsi 2-ci Zərbə ordusu komandanı) almanlara əsir düşür.

Almanların tapşırıqlarını yerinə yetirən Əbdürrəhman, müharibən sonra Türkiyədə (Məmmədəmin Rəsulzadənin himayəsində) yaşamışdır. (1946-cı il avqustun 1-də SSRİ Ali Məhkəməsi Hərbi kollegiyasının qərarı ilə almanlara əsir düşən vlasovçular xain kimi “edam olunurlar”). O, Münhendəki Sovet Azərbaycanına qarşı təxribatçı “Azadlıq” və “Azad Avropa” radiolarında aparıcı redaktor işləmişdir. Sonrakı illərdə “Azadlıq” radiosunun Azərbaycan şöbəsinin aparıcı redaktoru işləyən Salyanlı Mirzə Lalayev (Mirzə Xəzər) olur. O, Azərbaycan həqiqətlərini efirə yaydığı üçün işdən çıxarılandan sonra Vətənə pənah gətirməli olur.

Talehin hökmü ilə Azərbaycanlı jurnalist, Bakıya gəlib iş axtarmalı olur. Lakin yenidən mühacir həyatını yaşamaq zorunda qalan Mirzə Xəzər, keçmiş “təxribatçı kimi” doğma vətənini yenidən tərk etməli olur. (V.Borisova, L.Maxnaç “Hörümçək yuvası” sənədli-xronikal film MSFS, Moskva-1969-cu il).

1944-cü il 28 sentyabr tarixində Naxçıvanda Azərbaycan Elmlər Akademiyasının Elmi Bazası (direktoru Lətif Hüseynzadə idi) yaradılmışdır.

1944-cü ildə Tehran və Yalta görüşlərindən sonra, ABŞ ilə İngiltərənin müttəfiq qoşun hissələri, Fransanın ərazisindən “İkinci Cəbhə” adı ilə Ruslara hərbi yardım siyasətinə əl atırlar. Onların əsas məqsədi Avropanı “Faşist təhlükəsi”ndən qorumaqla, dağılmaqda olan kapitalizm cəmiyyətini isə əllərində saxlamaq idi.

1945-ci ildə Sovet qoşunları bütün cəbhə boyu Baltik dənizindən Karpat dağlarınadək geniş miqyaslı əks hücuma keçir. Gərgin döyüşlər nəticəsində 8 mayda Berlin şəhərində faşistlər təslim olub ağ bayraq qaldırmalı olurlar.

1945-ci il 9 mayda uzun sürən döyüşlərdən sonra nəhayət, Sovet əsgərləri Qələbə bayrağını Berlində Reyxstaq üzərindən asmaqla faşizmə son qoyulur. Həmin ilin avqust ayında İmperialist Yaponiyasının qoşunları Çin və Sovet İttifaqının şərq ərazilərinə soxulurlar. Yorulmuş Sovet əsgərləri, Şərqə tərəf- Tibet yaylası ilə Monqol və Çin ərazilərindən keçərək, uzaq Mancuriya ərazilərinə getməli olur. Müharibə illərində Yapon imperialistləri ərazilərdəki günahsız insanları bakterioloji silahlarla kütləvi surətdə məhv etmək istəmişlər. Fanatik təyyarəçi kamikadzelər isə, "əbədiyyata qovuşmaq" üçün özlərini "şərəfli ölüm"ün caynağına atmaqla "şərəfli tapşırığa" əməl edirlər.

1945-ci ildə Culfa rayonundakı Ərəzin kəndi yaxınlığında Əlincə çayının sol sahilində SSRİ Müdafiə Komissarlığının əmri ilə, ölümə məhkum olunmuş əsgərlərin işçi qrupundan ibarət, məxfi Bakterioloji laboratoriya yaradılır. Laboratoriyada yoluxucu xəstəliklərin mikrobları ilə yoluxdurulmuş həşəratlar (siçovullar), xüsusi bunkerlərdə qatarla (Karaqanda və Termezdəki- F.B.) məxfi bakterioloji zavodlara göndərilir...

1945-ci ilin 27 mart tarixində Bakıda Azərbaycan SSR Elmlər Akademiyası (Prezident Ə.M.Mirqasımov (1883-1958) idi) yaradılır.

Tarixin yaddaşına nəzər salaq: Akademiyanın Neft və Qaz İnstitutunun rəhbəri əslən Ordubad şəhərindən olan Yusif Heydər oğlu Məmmədəliyev (1905-1961) müharibə illərində yüksək oktanlı yanacaq kəşf edir. Bu yanacaq ən şaxtalı şəraitdə belə donmurdu. Və bu, Rusiyanın sərt qışı şəraitində Sovet hərbi təyyarələrinin uçuşuna böyük imkanlar açırdı.

Belə yanacağa sahib olmuş Sovet Hərbi hava qüvvələri havada düşmən üzərində böyük üstünlük əldə etmiş oldu. Azərbaycanın bütün məhsuldar dəyərləri, varı-dövləti cəbhəyə axan dövrlərdə, SSRİ məkanında yeganə neft yataqlarına sahib olan Azərbaycan milyonlarla "qara qızılını" cəbhəyə yönəltmişdi.

Sovet hərbi mexanizmi tamamilə Bakı neftinin, Azərbaycan maddi sərvətləri hesabına işləyirdi. Belə bir fonda gənc Azərbaycan aliminin ixtirası fövqəladə dəyərə malik idi. Lakin Akademiya yaradıldıqdan sonra gənc alim Y.Məmmədəliyevə Fəxri elm adı verilərək, onu SSRİ EA-na həqiqi üzv deyil, müxbir üzv seçirlər. Bütün bunlar isə bütövlükdə Azərbaycana Moskvanın "qayğı" və münasibəti idi.

Xalqımız müharibədə qələbə qazanaraq, sonrakı illərdə dağıdılmış şəhər və sənaye mərkəzlərinin bərpası ilə məşğul olur. Sovet rəhbərləri müharibənin qələbəsində Azərbaycan neftçilərinin fədakarlıqlarına müəyyən mənada yüksək fəxri adlar versələr də bir sıra Sovet şəhərlərini "Qəhrəman şəhər" elan etsələr də, nədənsə müharibənin udulmasında misilsiz rol oynamış, əsil fədakarlıq göstərən Bakı şəhərinə fəxri adın verilməsi unuduldu.

1945-ci ilin 9 sentyabr tarixində ABŞ-in hərbi təyyarəçiləri tərəfindən Yaponiyanın Naqasaki ilə Xirosima şəhərlərinə Atom nüvə bombaları salınaraq, nəticədə imperialist Yaponiya təslim olur.

"Şübhəsiz ki, onlar Allahdan gələcək bir şeyi (bəlanı) səndən dəf edə bilməzlər. Zalimlər (kafirlər) bir-birinin dostudurlar, Allah isə müttəqilərin dostudur!"

(Quran, Casiyə 45/19)

1945-ci ilin son aylarında Ermənistan KP MK-ın birinci katibi Q.Harutunyan İ.Stalinə inandırır ki, (G.Mikoyanın himayəsi ilə- F.B.) Ermənistandan köçürülən azərbaycanlıları Azərbaycan SSR-nin Mİl-Muğan sahələrində yerləşdirməklə, orada kənd təsərrüfatının pambıqçılıq sahəsini inkişaf etdirmək olar. Həmin ilin 19 oktyabr tarixində SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan ərazilərinə köçürülməsinə Fərman verildi.

1945-56-cı illərdə əvvəllər "Rüşdiyyə" (Zəhmət) adı ilə tanınmış Naxçıvan şəhər 4 № -li orta məktəbində (direktoru müharibə veteranı Bəhlul Zeynalov idi) keçmiş məktəb məzunlarından A.Abbasov, T.Bəktaşi, İ.Maqsudov, A.Qurbanov, M.Mirişli, L.Hüseynzadə, M.Məmmədov və başqaları uşaqların təlim-tərbiyəsində idilər. Bütün bu illərdə Naxçıvanda maariflə yanaşı, səhiyyə və baytarlıq sahələri də inkişaf etdirilir.

1945-ci ilin 12 dekabrında cənublu soydaşlarımız Güney Azərbaycanında milli demokratik hərəkatını qələbə ilə başa çatdıraraq, tarixdə ilk dəfə Azərbaycanın böyük hissəsini öz azadlığına qovuşdurdular.

Tarixin yaddaşına nəzər salaq: Tarixi mənbələrin verdiyi məlumata görə, Azərbaycanın indiki torpaqları ilk İranın Sasani şahı I Ərədəşir (Artaşir Papakan) (180-241) tərəfindən zəbt edilərək müstəmləkəyə çevirmişdir. Doğrudur, son min ildə Persiya imperiyasını, əvvəlcə Sultan Mahmud Qəznəvidən başlayan (988-ci il) Səlcuq türkləri, sonra isə Oğuz türkləri idarə etmişlər.

Bütün tarixi araşdırmalar göstərir ki, min il ərzində, (Şah İsmayıl Xətainin 14 illik şahlığı dövrü istisna olmaqla), Azərbaycan xalqı öz ərazisində imperiya daxilində ikinci dərəcəli xalq olmuşdur. Azərbaycan dili dövlət saraylarına yaxın buraxılmamış, əhalisi öz dilində yazıb oxumaq hüququndan məhrum edilmiş və adət-ənənələr isə fars fonunda olmuşdur.

Bu mənada "Varlıq" jurnalının təsisçisi və redaktoru, görkəmli cərrah, hörmətli Cavad Heyyət müsahibələrinin birində belə deyir ki; "Əslində indiki İrana fars dilini gətirənlər Qəndəhardan, Baktiryadan, Orta Asiyadan gələn Türklər olmuşlar.

Əvvəllər Persiya imperiyasına paytaxt olmuş Ərdəbil və Təbrizdə, yəni tamamilə yeni şəraitdə də, ayrı məkan və zaman genişliyində belə, Türk qüdrəti, Türk zirəkliyi, Türk idarəçiliyi prinsipləri bir millət kimi farsın milli dəyərlərinin cilalanmasının, fars dilinin dövlət dili, ədəbi dil, yazı dili kimi pardaqlanmasının, fars mədəniyyətinin üstün mədəniyyət kimi inkişaf tapmasının keşiyində durur." (C.Heyyət, "Azəri türkləri haqqında həqiqətlər" "Varlıq" jurnalı yanvar-mart 2008-ci il).

Təsadüfi deyil ki, qacarlar hakimiyyətdə ola-ola, 1918-ci ildə Urmiya şəhərində və ətrafında yaşayan azğınlar, azərbaycanlıların başına min bir faciələr gətirirdi. O yerlərdə azlıq təşkil edən kürdlərin nümayəndəsi İsmaylbəy Smitko, Qərbi Azərbaycanda etnik təmizləmə aparırdı. Bir aborigen (fars-türkmən qarışıq) millətin, şahı (İran şahı Rza Pəhləvi nəzərdə tutulur- F.B.) Azəri türklərinin qadın və qocalarını qırıb tökürdü. Şəhərləri, kəndləri, yandırıb yaxırdı. Mal-qaranı qabağına salıb kürd kəndlərinə göndərirdi. Evləri yandırıb qız-gəlinlərə və yeniyetmə oğlanlara fiziki cəza verdirirdi. (C.Heyyət, "Azəri türkləri haqqında həqiqətlər" "Varlıq" jurnalı, yanvar-mart 2008-ci il).

Bir yandan da, Dərələyəzlə Zəngəzuru oda qalamış Andranikin dəstəsi Türk Osmanlı generalı Qara Bəkir Paşa tərəfindən qovulanda, Arazı rahatca adlayıb Persiya deyilən məmləkətə gedir. Andranik Ozanyan, Urmiyadakı Türk millətinin soyqırımına hökm vermiş İsmayılbəy Smitkoya qoşulur. Birləşmiş quldurların silahlı dəstələri yerli əhalini öldürüb və evlərini də yandırırlar.

Azəri Türkiyənin ərşə qalxan naləsi, mənşəcə Qacar nəslindən olan (İran şahı Məhəmmədriza Pəhləvi nəzərdə tutulur- F.B.) “şahın qulağına çatmır”. İrandakı Pəhləvi şahların sülaləsi Rza Pəhləvi (1925-41-ci illərdə) və oğlu Məhəmmədriza Pəhləvi (1941-79-cu illərdə) hakimiyyətdə olmuşlar. İkimin illik belə ağır həyat tərzi yaşamış Güney (Cənubi) Azərbaycan xalqı İkinci Dünya müharibəsində Sovet ordusunun orada iştirakından, yəni yaranmış tarixi fürsətdən istifadə edərək, Seyidcəfər Pişəvərinin (1892-1946) rəhbərliyi ilə 12 Dekabr 1945-ci ildə Güneydə “fars üsul-idarəsini devirməklə”, hakimiyyəti ələ alır. Quzeyli-güneyli Azərbaycan torpağında tarixdə ikinci dəfə Azərbaycan Xalq Demokratik Respublikası elan edilir.

Cənubi Azərbaycan Milli Hökuməti xalqın böyük dəstəyi ilə Dövlətin vacib işləri həyata keçirilir. Milli Hökumətin hər gün verdiyi fərmanlar, xalq tərəfindən dəstəklənir. Yolların salınması, məktəblərin tikilməsi və xəstəxanaların açılması kimi işlər Güney Azərbaycan hökumətinin bir ildə əldə etdiyi nailiyyətlər, 2.000 illik Persiya hökuməti dövründə əldə etdiklərindən qat-qat artıq olmuşdur.

Amerikalı hüquqşünas Uilyam Duqlas (1917-1995) 1950-ci ildə Cənubi Azərbaycana getmiş, camaatın Milli hökumətdən və onun Baş Naziri Seyidcəfər Pişəvərinin xidmətlərindən razı qaldığının şahidi olmuş və o zamanın əldə olunmuş dəyişikliyinin siyahısını tərtib etmişdi:

Güney Azərbaycan Milli hökumətinin proqramının kəndlilərə ən xoş ovqat yaradan hissəsi torpaq islahatı idi.

Hökumət öz proqramına uyğun sosialist xarakterli vergi və maliyyə işlərini milliləşdirdi.

Dövlət məmurlarının rüşvət alması ağır cinayət sayılırdı. Bu dövlət qanunun ən inanılmaz və güclü yetkini oldu.

Kəndlərdə xidmət göstərən bir neçə səyyar xəstəxana-sağlamlıq klinikaları yaradıldı.

Əsas malların qiymətlərinə ciddi şəkildə nəzarət edilərək və ərzağın gizlədilməsinə görə “ağır” cəza verilirdi. Hökumət vəd etdiyi kimi xalqın yaşayış səviyyəsi yaxşılaşmış və qiymətlər 40 faiz aşağı düşmüşdür.

Sosial işlər proqramına başlanılaraq, işsizlər işlə təmin olunur.

Güney Azərbaycan Ordusu dekabrın 13-də yaradılır.

Digər islahatlar isə əsasən 3 dərəcəyə bölünmüş. Birinci yerdə Hökumətin milliləşdirilməsi məsələsi dururdu. İnzibati vəzifələrin bütün mümkün səviyyələrdə yerli kadrlar, özəlliklə demokratların siyasi cəhətdən güvənilən adamlar tərəfindən tutulmasına cəhd göstərilirdi. Daha sonra həqiqi mədəni inqilab etməyə cəhd göstərildi.

Bu inqilab Pəhləvi siyasətinə qarşı çıxmaq və Azərbaycan Milli kimliyini təsdiq etmək məqsədi daşıyırdı. Azərbaycan dilinin yüksək tutulmasına əsaslanan mədəni dəyişikliklər prosesi hətta 1945-ci ilin noyabrından qabaq başlamışdı. Lakin öz rəsmi xarakterini 1946-cı ilin yanvarın 6-da "Dil haqqında Milli Hökumətin qərarı" ilə həyata keçirildi. Bu sənəd elan etdi ki, "Bu gündən etibarən Cənubi Azərbaycanda rəsmi dövlət dili Azərbaycan Türkcəsidir". Bu vaxtadək ana dili artıq bir çox məktəblərdə işlənilirdi və dərsliklər də bu dildə nəşr edilirdi.

Cənubi Azərbaycanda bir neçə təhsil ocaqları yaradıldı. Onlar Azərbaycan İncəsənət və Rəssamlıq Məktəbi (19 yanvar), Dövlət Dram Teatrı (23 mart), Azərbaycan Radio Verilişləri Agentliyi (4 iyul) və Təbriz Dövlət Universiteti (6 iyun) və s. 1946-cı il sentyabr ayından başlayaraq, bütün məktəblərdə tədris ana dilində (Azərbaycan türkcəsində- F.B.) aparıldı. Güney Azərbaycan Milli hökuməti sosial dəyişiklikləri həyata keçirmək məqsədilə 3-cü dərəcəyə daxil olan islahatlara da başladı. Amma bu islahatlar gizli şəkildə davam etdiyindən, Cənubi Azərbaycanı, İran şahının ordusu, Amerika və İngiltərədən aldığı dəstəklə işğal etdi. Beləliklə Güney Azərbaycan Milli Demokratik Hökuməti 12 dekabr 1946-cı ildə ləğv olundu. (Bax; Araz Güneyli, "Güney Azərbaycan Milli Demokratik Hökumətinin Dövlət quruculuq işləri").

1946-cı ilin yayında Təbriz şəhərində Milli Darülfünunun (Universitetin) açılışı ilə əlaqədar olaraq, orada işləmək üçün Bakı və Naxçıvandan müəllim kadrları dəvət olunur. Təəssüf ki, Araz çayı boyunca ikiyə bölünmüş Azərbaycanın birləşməsinə, Güneydə sosializmin qurulmasına Sovet rəhbərləri İ.Stalin, L.Beriya, A.Mikoyan, A.Jdanov və başqaları xain çıxdılar. Halbuki Sovet sistemi sosializmin sərhəddə deyil, lap hər hansı uzaq bir ölkədə bərqərar olmasına büdcədən milyardlarla dollar pul xərcləyirdi.

Azərbaycandakı inqilabdan az sonra (martın 20-də) əmr verərək, İ.Stalin, Güney ərazilərindən Sovet ordusunu bütün silah-sursatı ilə birgə tam geri götürdü. Bu zaman hətta bir tüfəngin belə yerli əhalinin əlinə keçməməyi üçün ordu üzərində ciddi nəzarət qoyulmuşdu. Halbuki Amerika və İngiltərə nəinki çox böyük miqdarda dövrün ən yeni silahlarını şaha hədiyyə etdilər. Onlar, müharibədən yenicə çıxaraq böyük döyüş təcrübəsi qazanmış hərbi generallarını da İran şahına müşavir-məsləhətçi kimi qoyub gedirlər. Digər tərəfdən, o zamanki Türkiyənin hökuməti də Cənubi Azərbaycan inqilabına dayaq durmadı. Təbrizdən Ankaraya göndərilmiş üç nəfər Azərbaycan nümayəndəsini üç ay qəbul etməyərək, nəticədə nümayəndələr tutularaq, qatarla Tehrana göndərilir. "Əsirlər" Tehrana çatan kimi şah, Təbrizli nümayəndələri dar ağacından asdırdı. Ölənlər Güney Azərbaycan Milli Hərəkatının ilk qurbanları-şəhidləri idilər.

12 dekabr 1946-cı ildə Amerika və İngilis silahları ilə silahlanmış şah ordusu Təbrizə girib, günahsız insanları al qanına boyadı. Azərbaycan dilində olan kitablar müəlliflərlə birlikdə tonqalda yandırıldı. 70 mindən çox soydaşımız məhkəməsiz dar ağacından asıldılar. Qaçmağa macal tapan əhalinin 600 mindən çoxu yurd-yuvasını tərk etməyə məcbur oldular. Anası Türkmən, arvadı Azəri olan Məhəmməd Rza Pəhləvi (1941-1979) Azərbaycan türklərinə qarşı törətdiyi ən alçaq və şərəfsiz soyqırımı törətmişdi. (O da atasının Rza Şah Pəhləvi (1925-1941) tutduğu yol ilə gedərək, Azəri türklərinin qənimi olduğu halda Ulu Yaradanın hökmü ilə məmləkətini qoyub Amerikaya qaçmalı oldu və qürbətdə (1979) öldürülənlərin ahu-naləsinin qurbanına çevrildi)...

"Məgər görmürsənmi ki, Rəbbin nələr etdi Ada (Ad qövminə)?! Sultanlar sahibi İrəmə?! Məmləkətlər arasında onun kimisi yaradılmamışdı."

(Quran, Fəcr 89/6-8)

1947-ci ildən başlayaraq hər ilin 12 dekabrı günahsız Güneyli soydaşlarımızın "Soyqırımı günü" kimi qeyd edilməli idi, amma edilmədi və hər şey unutduruldu. İ.Stalin öz günahlarını yumaq üçün belə aktın keçirilməsinə imkan verməzdi. Ona görə də 1964-cü ildə Bakıya təşrif gətirmiş Məhəmməd Rza Pəhləvi o zamankı Azərbaycanın rəhbəri Vəli Axundov (1916-1974) tərəfindən ən hörmətli, ən əziz qonaq kimi qarşılanmışdı. O zaman günahsız məhv edilmiş on minlərlə azərbaycanlı oğul və qızlarımızın yeri bilinməyən qəbirlərində tanınmaz hala salınmış nəşləri hələ soyumamışdı heç. Az sonra Xalq Demokratik hərəkatının Lideri Seyidcəfər Pişəvəri Cavadzadə (1892-1947) Sovet təhlükəsizlik orqanlarının casusları, Bakıdan qayıdanda (Zaviyə kəndində) avtomobil qəzasına salaraq məhv etdilər. Tarixə qızıl hərflərlə yazılacaq bir əsrdə Güney Azərbaycanda üçüncü Xalq hərəkatı beləcə xəyanətin qurbanı oldu.

"Sənin arxandadır bütün fələklər,
Fələklə çarpışmaq asandır məgər?"

(Nizami Gəncəvi)

"Korla görən, iman gətirib yaxşı əməllər edənlərlə pislik edən eyni olmaz. Nə az düşünürsünüz!"

(Quran, Ğafir 40/58)

1946-50-ci illərdə Naxçıvan Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Yusif Yusifov (1908-1960) olur. Müharibədən sonra Naxçıvan zəhmətkeşləri, sosializm sisteminin inkişafı naminə əzmkarlıq göstərərək, dövlət plan və tapşırıqlarını ödəməyə çalışırlar.

1946-cı ildə Naxçıvan MSSR Meşə Təsərrüfatı İdarəsi (rəisi Səftər Heydərov idi) yaradılır. İdarənin əsas işi ərazidəki yaşıllıq sahələrinin artırılması, mühafizəsi və təsərrüfatlara meyvə tədarükündə yardım etmək idi.

1947-ci ilin 10 mart və 1948-ci ilin 23 dekabr tarixlərində (A.Mikoyanın təklifi ilə-F.B.) SSRİ Nazirlər Sovetinin qərarı ilə Ermənistan ərazilərindən Azəri türklərini öz dədə-baba yurd yerlərindən çıxarıb, deportasiya edirlər. Həmin ərəfədə Ermənistandan təkcə elə Naxçıvan ərazilərinə 10 mindən artıq "İrəvanlı" ailələr köçürülür.

1947-ci ilin 23 dekabrında Dövlət başçısı İ.Stalin 4083 № -li Qərarına əsasən, Ermənistan SSR ərazilərindəki yaşayan Azərbaycan əhalisi Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülürlər. (Həmin qərarda "könüllü surətdə" ifadəsi yazılsa da, əslində bu repressiya idi- F.B.).

1948-1953-cü illər ərzində Ermənistan SSR ərazilərindən 100 mindən çox Azərbaycan əhalisi Azərbaycan SSR-nin Kür-Araz vadisinə köçürülmüşdür. Köçürülənlərin əksəri yerli iqlimə dözməyərək və vaxtından əvvəl xəstələnib ölmüşlər.

1948-ci ildən Əbrəqunus rayonu ləğv edilərək, inzibati ərazilər Culfa rayonu ilə birləşdirilir.

1949-54-cü illərdə Nəzər Heydər oğlu Heydərov (1896-1968) Azərbaycan Ali Sovetinin sədri olmuşdur.

1949-cu il mayın 28-də Naxçıvan MSSR-in yaradılmasının 25-ci ildönümü təntənəli surətdə qeyd edilmiş. Yubiley günündə "Şərq qapısı" qəzeti, bayram nömrəsi ilə rəngli nəşr olunmuşdu. (Qəzetin redaktoru Hidayət Bağır oğlu Bağırov, mətbuat idarəsinin (Qlavlit) rəisi isə Nağı Kərim oğlu Nağıyev idi). Bütün bu illərdə Naxçıvan diyarında yüzlərlə məktəblər açılmış, sənaye və mülki tikinti işləri sürətlənmiş, təsərrüfat işlərində irəliləyiş olmuşdur. Muxtar respublikada kolxoz və sovxozlardakı ümumi əkin sahəsi iki dəfə artırılmış, təsərrüfatlara texniki kömək məqsədi ilə Naxçıvan və Noraşen rayonlarında Maşın Traktor Stansiyaları (MTS) tikilmişdir.

Muxtar respublikada ümumittifaq əhəmiyyətli iki kombinat, çox sahəli artellər, kərpic, əhəng, konserv, pambıqtəmizləmə, "Badamlı" mineral suyunu qablaşdırma və asfalt-beton zavodları istifadəyə verilmişdir. Əhaliyə səhiyyə (nazir Ələkbər İsmayılov (1909-1983) idi) xidmətinin səviyyəsi yüksəlmiş və tibb müəssisələrinin sayı artırılmışdır. Muxtar respublikada 557 çarpayılıq 19 xəstəxana, həkim-feldşer və tibb məntəqələri, 10 sayda körpə evləri, südəmər uşaqlar evi, uşaq bağçaları və digər səhiyyə müəssisələri də yaradılmışdır.

Tarixin yaddaşına nəzər salaq: Xalq maarifi də inkişaf etdirilərək, 194 ibtidai, yeddillik və orta məktəblərdə 26 min 693 nəfər şagird oxuyurdu. Həmin ilin sentyabr ayından ölkədəki icbari təhsil 4-illik sistemdən yeddillik sistemə keçirilmişdir. Məktəblərdə 1.155 nəfər müxtəlif təhsilə malik müəllim-tərbiyəçi (onlardan 310 nəfəri qadın idi) uşaqların təlim-tərbiyəsi ilə məşğul olurdu. Təkcə Nehrəm kənd orta məktəbindəki 725 nəfər şagirddən 367 nəfəri qızlar idi.

İlk təhsilini Nehrəm kənd məktəbində almış M.Abdullayev (19071979), sonralar (1960) "Əməkdar həkim" fəxri adını almışdır. Digər həkimlərdən Mehdi Bağırov (1915-2002), Murtuz Fərzəliyev, Klara Həşimova və başqaları Nehrəm məktəbinin yetirmələri olmuşlar.

Naxçıvan rayonundakı Nehrəm kənd orta məktəbin məzunlarından İ.Məmmədov Leninqrad Tibb İnstitutunda, K.Tağıyev Azərbaycan Mühəndislər İnstitutunda və A.Həşimov isə Bakı Darülfünunda (Universitetində) tələbələr sırasında idi. Bundan başqa, həmin məktəbin məzunlarından daha 5 nəfəri- Əsgər, Heydər, Əli, Həbib və Ənvər İsmayılov qardaşları, həkim, mühəndis, aspirant, kino rejissor və memar ixtisası ilə xalq təsərrüfatının müxtəlif sahələrində çalışırdılar.

1949-cu ildə Naxçıvan MSSR-in 25-ci ildönümü münasibəti ilə Azərbaycan SSR Elmlər Akademiyasının Naxçıvan Elmi-Tədqiqat Bazasında (direktoru Texn. elm. namiz. Hüseyn Səfərov idi), ilk dəfə olaraq elmi əsərlərin məcmuəsi nəşr etdirmiş. 4,5 çap vərəqi həcmində olan məcmuədə Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin katibi Paşa Əliyevin Muxtar Respublika xalqına təbriki, Elmi-Bazanın əməkdaşlarından H.Cəfərov, Ə.Cəfərov, N.Əbusəlimov, L.Prilipko, L.Hüseynzadə, C.Qazıyev və başqalarının yazıları da verilmişdir. ("Şərq qapısı" qəzeti, 28 may 1949-cu il № 61).

1949-cu ilin payızında indiki Ermənistanın ərazisində qalmış Qərbi Azərbaycan torpaqlarında, eləcə də İrəvan mahalında erməni millətinin sayını artırmaq üçün Türkiyədən, Suriyadan, Livandan və digər ölkələrdən ermənilər köçürüb həmin ərazilərdə yerləşdirirlər. Bütün bu işləri mərkəzin (Moskvanın) dəstəyi ilə vəhşicəsinə yerinə yetirirdilər. Azərbaycan ailələri ata-baba yurdlarından və tarixi etnik torpaqlarından məcburi və kütləvi surətdə deportasiya edilirdi. Ermənilərin (başda Anastas Mikoyanın- F.B.) məkrli niyyəti "Dənizdən-dənizə türksüz Böyük Ermənistan" yaratmaq idi. Həmin ildən Naxçıvan elinə məcburi köçürülən soydaşlarımıza el arasında "irəvanlılar" adı (ləqəbi) verilir...

1950-ci ildən Naxçıvan şəhərində Mebel Kombinatı (direktoru Bağır Bağırov idi) yaradılır. Kombinat öz məhsullarını əsasən Muxtar respublikanın idarə və müəssisələrindən olan sifarişlər əsasında istehsal edirdi. Həmin ildə Allahverdi İsayev (1912-1961) və 1951-55-ci illərdə isə, İsmayıl Əsgərov (1911-1969) Naxçıvan Vilayət (bolşeviklər) Komitəsində birinci katib vəzifəsində işləmişlər.

“Allah doğru yolda olanların doğruluğunu artırar. Əbədi qalan yaxşı işlər isə Rəbbinin yanında savab etibarilə daha xeyirli, nəticə etibarilə daha yaxşıdır!”

(Quran, Məryəm 19/76)

BÖLMƏ

Naxçıvan ən yeni tarixdə

1952-ci ilin 23-25 sentyabr tarixində Bakıda keçirilən Azərbaycan Kommunist Partiyasının 19-cu Qurultayından sonra ÜİK (b) Partiyası Sov.İKP və müttəfiq respublikalardan biri kimi Azərbaycan Kommunist (bolşeviklər) Partiyası isə Azərbaycan Kommunist Partiyası (KP) adlandırılır.

1953-cü ildə Sovet dövlətinin başçısı İ.V.Stalin vəfat etdikdən sonra, o zaman ən yüksək vəzifə sayılan Sovet İttifaqı Nazirlər Sovetinə sədr kimi SSRİ MİK-in sədri Stalinin ən yaxın köməkçisi və dostu İ.M.Malenkov keçir.

1953-54-cü illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində Mirteymur Yaqubov olmuşdur. 1954-58-ci illərdə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsinə yazıçı Mirzə Əjdər oğlu İbrahimov (1911-1993) keçir. Həmin illərdə (1954-58) Azərbaycan Nazirlər Sovetinin sədri vəzifəsində Sadıx Qaziyarəli oğlu Rəhimov (1914-1975) işləmişdir. 1954-cü ildə Azərbaycan KP MK-in birinci katibi İman Daşdəmir oğlu Mustafayev (1910-1997) olmuş.

Tarixin yaddaşına nəzər salaq: 1954-cü ilin dekabrın 20-dən Muxtar respublika Xalq Maarifi Nazirliyinin qərarı ilə Naxçıvan şəhərində məktəbdən kənar uşaq təhsil və tərbiyə müəssisəsi olan, Gənc Texniklər Stansiyası (direktoru Nurəddin Musayev idi) yaradılır. Stansiyada “Dülgərlik” (dərnək rəhbəri Teymur Əliyev), “Aviamodel” (dərnək rəhbəri Abbas Zalov), “Radiotexnik” (dərnək rəhbəri Kamil Vəliyev), və “Foto” (dərnək rəhbəri Əkbər Əliyarov) dərnəkləri fəaliyyətə başlayır. Dərnəklərə şəhərdəki 6 saydakı məktəblərin oğlan şagirdləri ilə bərabər qızlar da həvəs göstərir.

İlk Gənc Texniklər Stansiyası SSRİ XMK-nın qərarı ilə 1926-ci dərs ilindən Moskvada yaradılmışdır. Stansiyada məktəblilərin texniki biliklərə həvəs göstərmək üçün onlarda texniki peşələrə maraq yaratmaq idi. Stansiya tədbir və sərgilərini OADKYC komitəsinin himayəsi ilə keçirib, şagirdlərdəki texniki biliklərə meylliyi təbliğ edilirdi. Həmin illərdə Azərbaycanda 32 sayda belə məktəbdən kənar uşaq müəssisələri fəaliyyət göstərmişdi.

1955-ci ildən Sov.İKP MK-nın Baş katibi N.S.Xruşşov (1894-1971), SSRİ Nazirlər Sovetinin sədri vəzifəsinə isə N.A.Bulqanin (1895-1975) seçilirlər. N.S.Xruşşov yüksək vəzifəyə keçdikdən sonra, "stalinçi" rəhbərləri, SSRİ Təhlükəsizlik İşləri Komissarı marşal L.Beriyanı (1899-1955) 1918-ci ildə AXC-nin müsavatçı agenti və xalq düşməni kimi və Stalinin genral rütbəsində olan hərbçi oğlu Vasili İosifoviç Vissarionoviçi (1926-1955) "xarici kəşfiyyatla əlaqəli olduğundan" həbs etdirərək güllələtmişdi.

Daha sonra isə, SSRİ MİK-nin yüksək vəzifəli şəxslərindən Malenkov, Kaqanoviç, Molotov, Bulqanin, Şepilov dəstəsinə "antipartiya"çı damğası vuraraq, tutduqları vəzifələrindən azad elətdirdi. Tezliklə həmin siyasət müttəfiq respublikalarda da həyata keçirilir. Belə ki, Azərbaycan KP MK-nin birinci katibi Mircəfər Bağırovla bərabər, yüksək vəzifəli şəxslər tutularaq "xalq düşməni" adı ilə güllələnirlər. (R.M.İvanov, "Naşestviye"(Basqın) (rusca) Moskva-2009).

Azərbaycanın Xalq şairi Səməd Vurğuna (1906-1956), 1956-cı ildə Təhlükəsizlik Komitəsində polkovnik V.Q.Bauçerov tərəfindən istintaq işi açılsa da, tezliklə H.Ə.Əliyev tərəfindən ləğv edilir. (V.Mustafayev, "Təhlükəsizliyimizin tarixi" sənədli-xronikal film Bakı-2008).

1955-ci ilin 6 mart tarixində Məmmədəmin Rəsulzadə Türkiyənin Ankara şəhərində 71 yaşında vəfat etmiş və orada da dəfn olunmuşdur. Həmin ilin 20 mart tarixindən Bakıda Azərbaycan televiziyası fəaliyyətə başlayaraq, ilk dəfə rejissor Lətif Səfərovun "Bəxtiyar" adlı kino əsəri efirə buraxılır. Həmin ildən Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi Xurşyd Məmmədov olmuşdur.

Tarixin yaddaşına nəzər salaq: 1956-cı ildə Naxçıvanda yeyinti sənayesini inkişaf etdirmək üçün Ət-süd Kombinatı (direktoru Nuru Quliyev idi) yaradılır. Kombinatın istehsal sexlərində kərə yağı, pendir, xama, qatıq və başqa məhsullar hazırlanır. Naxçıvan MSSR Nazirlər Soveti yanında Bədən Tərbiyəsi və İdman Komitəsi (sədri Əli Hacıyev idi) yaradılır. Həmin ildən Naxçıvanda idman sahəsini inkişaf etdirmək üçün şəhərinin şimal hissəsində 400 yerlik stadion tikilir. Daha sonra isə Naxçıvan şəhərindin cənub hissəsində (Ə.Qəmküsar küçəsində- F.B.), gündəlik istehsal gücü 35 ton olan çörək zavodu (direktoru Abbas Abbasov idi) işə salınır. (Sonrakı illərdə Muxtar respublikanın rayonlarında da çörək bişirmə sexləri yaradılır- F.B.).

1956-cı ildə N.S.Xruşşov Kommunist partiyasının 20-ci qurultayından əvvəl SSRİ Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin cinayət məqsədli (xüsusi ilə İ.Stalin və L.Beriyaya məxsus) arxiv sənədlərini domna sobalarında yandırtdırır. (V.Mustafayev, "Təhlükəsizliyimizin tarixi" sənədli-xronikal film Bakı-2008).

1956-cı ilin mart qurultayından sonra SSRİ Nazirlər Sovetinin qərarı ilə şəhər və qəsəbələrdəki xüsusi "çağırış" siqnalları ləğv olunaraq və əhalinin narahatçılığına son qoyulur. (1941-ci ildən hər gün Naxçıvan şəhərində fəhlə və qulluqçuların işə başlaması səhər saat 900-da və iş vaxtının qurtarması isə axşam saat 1800-də şəhər hamamının qazanxana qurğusundan xüsusi qulaqbatırıcı səslə (qudokla) çağırılardı-F.B.).

Sov İKP-ın (1956-cı il mart) XX Qurultayında Stalinin şəxsiyyətinə pərəstiş siyasəti kəskin surətdə pislənilir. Qurultayda Kommunist partiyasındakı "bolşevik" sözləri ləğv olaraq, nizamnamədə dəyişiklik edilir. Qurultayda Stalin dövründə "xalq düşməni" damğası ilə repressiyaya uğramış məhkumların günahlarının bağışlanması məsələsinin həlli müzakirəyə qoyulur. (1958-ci ildə SSRİ Ali Sovetinin qərarı ilə Stalin dövründə repressiya olunmuş məhkumlar əfv olunurlar).

Tarixin yaddaşına nəzər salaq: 1956-cı ildə Naxçıvan şəhərində Tikinti İdarəsi (rusca Naxstroy) (müdiri Ələsgər Rzayev idi) yaradılır. İdarənin bacarıqlı iş icraçıları, şəhərdə 3 mərtəbəli (qırmızı tuf daşı ilə üzlənmiş) ictimai yaşayış evlərini tikərək, şəhər zəhmətkeşlərini evlə təmin etmişlər. Həmin illərdə şəhərdə İstiqlal (Puşkin) küçəsindəki 94 və 96 №-li, H.Əliyev (keçmiş Nizami) prospektindəki 11, 24, 26 və 40 №-li yaşayış evləri, Naxçıvan MSSR vilayət partiya Komitəsi və, Nazirlər Sovetinin və habelə Dövlət Dram Teatrın binaları da tikilərək memarlıq və şəhərsalma tarixinə salınmışdır.

İdarə inşaatçıların bilavasitə Muxtar Respublikanın rəhbər işçiləri qayğısına qalaraq, xüsusilə Nazirlər Sovetinin sədr müavini Abdulla Orduxanovun (1906-1973) himayəçiliyi də tarixin yaddaşında qalmışdır. Tikinti İdarəsinin inşaatçıları Muxtar respublikanın Culfa, Ordubad, Şahbuz və Noraşen (Şərur) rayon mərkəzlərində də çoxmərtəbəli inzibati binaları tikib istifadəyə vermişlər.

1958-ci ildə Azərbaycan Yazıçılar İttifaqının Naxçıvanda səyyar plenumu keçirilmişdir. Bu məqsədlə bir sıra tanınmış yazıçılardan S. Rəhimov, M. Rahim, R. Rza və başqaları Naxçıvana gəlmişdir. Plenumda xalq şairi Rəsul Rza məruzəsində demişdir: "Bu gün Azərbaycan sovet ədəbiyyatının gənc yazarları Naxçıvandadır. Onlar Hüseyn Razi, Əliyar Əliyev, Əhməd Mahmudov, Məmməd Əsgərov, Müzəffər Nəsirli, Əkbər Məftun və başqalarıdır."

1958-ci ildə Akademik Yusif Məmmədəliyev (1905-1961) Azərbaycan SSR EA-na ikinci dəfə Prezident seçilir. Həmin ildən Bakıda Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Azərbaycan Elmi-Tədqiqat Baytarlıq İnstitutu (AETBİ) yaradılaraq, Rayonlarda zoobaytar xidmətini tənzimləmək üçün yüksək ixtisaslı mütəxəssislər hazırlanır. Bu münasibətlə Azərbaycanda 683 müəssisə o cümlədən də 512 müalicə-profilaktika müəssisələri, habelə 170 diaqnostika və zoobaytarlıq aptekləri də yaradılmışdır.

1958-59-cu illərdə Azərbaycan SSR Ali Sovetinin sədri İlyas Kərim oğlu Abdullayev (1913-1959) və Nazirlər Sovetinin sədri isə Vəli Yusif oğlu Axundov (1916-1974) işləmişlər.

Tarixin yaddaşına nəzər salaq: 1958-59-cu illərdə Naxçıvanda Muxtar respublika kolxoz və sovxoz təsərrüfatları, habelə şəxsi heyvandarlıqda sanitar-müalicə məqsədli Zoobaytarlıq Təchizat Apteki (baş həkim Hüseyn Zeynalov (1927-1987) idi) fəaliyyət göstərmişdir.

Aptekin mütəxəssisləri Naxçıvandakı Zoobaytarlıq Elmi-Tədqiqat Laboratoriyası (baş həkim Baytar. elm. nam. Cəlal Bağırov (1928-1997) idi) ilə əlaqə saxlayaraq, kənd təsərrüfatı heyvanları və quşçuluq sahəsindəki yoluxucu xəstəliklərə qarşı karantin müalicə tədbirlərini vaxtında qarşısı alınırdı. (Sonrakı illərdə (1989) Ermənistan tərəfdən keçən dəmir yolu hissəsi, erməni separatçıları tərəfindən bağlandığından Naxçıvandakı Zoobaytarlıq Təchizat Aptekinin fəaliyyəti zəifləyir)...

1959-cu ildə xalq təsərrüfatının bütün sahələrində “kommunizmə çatmaq” siyasəti ilə ciddi islahatlar aparılır. Məktəblərdə icbari təhsil səkkizillik və onbirillik proqramına uyğunlaşdırılaraq, məktəb məzunları icbari formada şagird istehsalat sahələrinə cəlb edilirlər. Orta və sənət məktəblərdə şagirdlərin xüsusi geyimləri ləğv edilərək, dərsliklər yeni proqramda nəşr olunur. Həmin illərdə Azərbaycanda 830 min şagird müxtəlif dərəcəli məktəbləri bitirərək Attestat və peşə Diplomları almışdır.

Azərbaycanda formaca milli, məzmunca sosialist sistemi yenidən inkişaf etdirilir. Ölkədə maarif, mədəniyyət, səhiyyə, sosial və digər sahələrə diqqət artırılır. Kəndlərdə məktəb, kitabxana, klub və mədəniyyət evi, səhiyyə-sağlamlıq məntəqələri, tikilərək istifadəyə verilir. Şəhər (rayon) qəsəbə və kəndlərdə əhaliyə kino xidməti səviyyəsi qaldırılaraq, kənd əməkçilərinə tarlalardakı “qırmızı çadırlarda” təbliğat və təşviqat işləri gücləndirilir.

1959-cu ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Mərkəzi Statistika İdarəsi yaradılandan sonra, Naxçıvan MSSR Nazirlər Soveti yanında da Statistika İdarəsi (müdiri Əməkdar maliyyə işçisi Əsəd Məmmədov (1915-1973) idi) fəaliyyətə başlayır. (Təşkilat 1978-ci ildən sərbəst olaraq Naxçıvan MSSR Mərkəzi Statistika İdarəsi daha sonra isə müstəqillik illərində Komitə statusu almışdır). Azərbaycan Mərkəzi Statistika Komitəsi bütün fəaliyyətini Naxçıvan MR, Bakı şəhəri, və rayonlardakı Statistika İdarələrinin məlumat hesablama mərkəzləri vasitəsilə həyata keçirir. İnkişaf etməkdə olan Naxçıvan Muxtar Respublikasında, Statistika Komitəsi (sədri Bəxtiyar İsmayılov idi) üçün beşmərtəbəli və müasir texnologiyalarla təchiz olunmuş yeni bina inşa edilmişdir.

1959-cu ildən Naxçıvan MSSR Yerli Sənaye Nazirliyinin nəzdində Naxçıvan Tikiş Fabriki (direktoru Nemət Kərimov idi) işə düşmüşdür. Fabrikin yeganə tikiş sexində 74 nəfər usta işləyərək müxtəlif geyim paltarları tikilirdi. Sonrakı illərdə fabrikin istehsalat sexləri artırılaraq orada ADR-dan gətirilmiş yeni tikiş maşınları quraşdırılaraq, və səmərəliliyin keyfiyyəti yüksəldilmişdir.

Tarixin yaddaşına nəzər salaq: Naxçıvan MSSR-də səhiyyə-sağlamlıq (nazir Tofiq Sultanov (1920-1975) idi) işləri də inkişaf etdirilir. Belə ki həmin illərdə xəstəxanalarının tikilməsi üçün dövlət tərəfindən 1 milyon 100 min manat vəsait ayrılmışdır.

Naxçıvan şəhərində 75 çarpayılıq vərəm dispanseri, 50 çarpayılıq nevroloji xəstəxana, 20 çarpayılıq radioloji dispanser, 180 yerlik körpələr evi, təcili tibb yardım stansiyası binaları tikilərək istifadəyə verilir. Bundan başqa Ordubad şəhərində 50 çarpayılıq vərəm dispanseri, Noraşen rayonunda 100 çarpayılıq xəstəxana, Badamlı və Sirab kəndlərində isə hər biri 100 çarpayılıq pansionatların tikintisinə başlanılır. Əllinci illərdə Naxçıvan Respublika Səhiyyə Nazirliyi tabeliyindəki (şəhər Poliklinikasının həyətində- F.B.) Səhiyyə Maarifi Evində (müdiri Məmmədəli Həsənov idi) 200 yerlik tamaşaçı tutan klubunda vaxtaşırı Azərbaycan səhiyyə mədəniyyətinin inkişafı ilə bağlı məşğələlər keçirilərək, elmi-kütləvi filmlər nümayiş olur. Burada 5.000-nə yaxın müxtəlif ədəbiyyat olan kitabxana ilə oxu zalı da var idi.

Kitabxanada kitablarla yanaşı qəzet və jurnallardakı elmi məqalələrin müzakirəsi keçirilirdi. (Kitabxananın xidmətindən şəhər və rayonların səhiyyə müəssisələrinin "ağ xalatlı" işçiləri həvəslə istifadə edirdilər). Həmin illərdə Naxçıvan şəhər Poliklinikasında (baş həkim, Əməkdar səhiyyə işçisi. Məmməd Mehdiyev idi) əhalinin sağlamlığı üçün hər şərait yaradılmışdır.

Poliklinikada stomatoloji, cərrahiyyə, terapiya, infeksion, rentgen, kardioloji kabinələri ilə laboratoriya da fəaliyyət göstərirdi. Hektar yarımlıq yaşıllıq sahəsində əkilmiş ətirli güllərlə həmişəyaşıl bəzək kolları, xəstələrin zövqünü oxşayırdı. (Poliklinika keçmiş Naxçıvan Araz (Türk) Respublikası hökumət binasında yerləşirdi- F.B.).

1959-cu ildə Naxçıvanda yeni yaradılan "Araz" Mahnı və Rəqs Ansamblı (direktoru Məmməd Ələkbərov idi) tez bir vaxt ərzində Muxtar respublikada şöhrət tapır. Bu illər ərzində ansamblın vokal ifaçılarından Yaşar Səfərov və Elbrus Mehdiyev musiqi mədəniyyəti tarixində yüksək xidmətləri olmuşdur. (1963-cü ildə Naxçıvan Dövlət "Araz" Mahnı və Rəqs Ansamblı statusu alaraq və repertuarı genişlənir. Ansamblda görkəmli ifaçılardan Vahid Ərəboğlu və Abdulla Babayev tamaşaçıların rəğbətini qazanır).

1959-cu ildə Azərbaycanda kitab nəşri 10 milyon nüsxəyə çatdırılır ki, əhalinin xidmətində 2.600 sayda müxtəlif kitabxanalar yaradılır. Həmin ilin dekabr ayında Moskvada kənd təsərrüfatı fəallarının plenumu keçirilir. Plenumda çıxış edən ölkə başçısı N.S.Xruşşov, təsərrüfatlarda məhsul bolluğu yaratmaq üçün qarğıdalı və dənli bitkilər əkinlərinin artırılması və donuz fermalarının yaradılmasını bildirir. (Həmin ildən "Qarğıdalı" (rusca) adlı aylıq jurnal da nəşr olunur- F.B.). Həmin Plenumda (1959-cu il) Azərbaycan KP MK-nin birinci katibi vəzifəsinə Vəli Yusif oğlu Axundov (1916-1974) seçilir. Bundan sonra Azərbaycanda səhiyyə işlərindən başqa, digər sahələr (xüsusilə kənd təsərrüfatı) geriləməyə başlayır.

1959-cu ildə Azərbaycan Ali Sovetinin sədri vəzifəsinə Səfiyar Məmməd oğlu Cəfərov (1900-1961) keçirilir. Həmin ildən Azərbaycan Nazirlər Sovetinin sədri vəzifəsinə Məmməd Adil oğlu İsgəndərov (1915-1985) gəlir.

1959-cu ildə dövlət başçısı N.S.Xruşşov, Ermənistanda səfərdə olmuş və Sevan (Göyçə) gölünü seyr etmişdir. Burada içkili vəziyyətdə olan dövlət başçısına, ermənilərin əvvəlcədən hazırladıqları "Arpa çayının suyu Sevan gölünə axıdılması" adlı məkrli qərara qol çəkdirmişlər. Nəticədə Naxçıvan Muxtar respublika Noraşen rayonu üzrə kənd təsərrüfatı sahəsində suvarılan torpaqlara xeyli zərər dəymişdir.

1959-60-ci illərdə SSRİ-də xarici siyasət işlərində ciddi səhvlərə yol verildiyindən, əhalinin sosial vəziyyəti pisləşir. Sovet dövləti xarici ölkələrə borclu qaldığından və Kuba Respublikasına (ölkə başçısı Fidel Kastro Rus idi) qənaətsiz yardımlar etdiyindən ölkə daxilində böhranlar yaranır. Həmin illərdə (1959-60) Naxçıvanda ərzaq qıtlığı yarandığı üçün, hər gün adam başına 250 qram qara çörək düşürdü. Əhali yarıac vəziyyətdə axşamdan ərzaq dükanlarının qarşısında çörək almaq üçün saatlarla növbə çəkməli olurdu. (Vətəndəki bütün istehsal malları yalnız ölkə paytaxtı Moskvaya göndərilirdi- F.B.).

1960-cı ilin dekabr ayından ölkə daxilində SSRİ Nazirlər Soveti yanında inzibati qurum-Xalq Nəzarəti Komitəsi yaradılır. Naxçıvan MSSR Xalq Nəzarəti Komitəsi (sədri Qadir Həsənəliyev idi) Muxtar respublikadakı nazirlik, idarə və təşkilatlarda ictimai əsaslarla nəzarətçilər tərəfindən müəssisə və istehsalat daxili əyintiliklərə qarşı mübarizə işləri gücləndirilir.

Tarixin yaddaşına nəzər salaq: 1960-cı ildə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi vəzifəsinə Hacıağa İbrahimov keçir. Həmin ildə Naxçıvan Mədəniyyət Nazirliyi (nazir Zülfəli Əliyev idi) tabeliyində olan 200 yerlik şəhərdəki Kirov adına kinoteatrda (direktor Leysan Seyidov idi) ”KPT-1” markalı kömür-qövs reflektorlu genişekranlı və stereo maqnit fonoqramlı kino aparatları quraşdırılır. Kino həvəskarları bir aya kimi nümayiş olunan, rəngli, genişekranlı və stereo səsli Kiyev k/s-nın (1957) istehsalı olan “Partizan qığılcımı” (ssenari A.Qonçar, quruluş A.Maslyukov və M.Maevskiy idi) adlı bədii filminə maraqla tamaşa edirlər. Bir gündə 4 seans nümayiş olunan filmə görə, satılmış biletlərdən götürülən gəlir hesabına, yarım illik dövlət planları yerinə yetirilir.

Sosializm yarışının qalibi kimi SSRİ Mədəniyyət Nazirliyi Həmkarlar Şurası tərəfindən kinoteatrın kollektivi Fəxri Fərmanla və 2 nəfər kinomexanik (həmin kino mexaniklər Firudin Məmmədov və Djon Danelyan idi- F.B.) isə “SSRİ- nin Əlaçı kino mexaniki” döş nişanı ilə mükafatlandırılır. Həmin ildə (1960-cı il) Naxçıvanda Muxtar Respublika Xalq Yaradıcılığı Evi (direktoru İldırım Cabbarov idi) yaradılaraq, özfəaliyyət və yaradıcı kollektivlərlə mədəni-kütləvi tədbirlər keçirilir, aralarından xalq sənətkarları seçilərək təbliğ olunurdular.

Naxçıvan şəhərində Uşaq Kitabxanası (direktoru Arif Hüseynov idi) yaradılır. İki oxu zalı olan kitabxananın fondunda 174.948 ədəd müxtəlif kitab, qəzet və jurnallar saxlanılırdı. Kitabxanada 3 adda dərnəklər fəaliyyət göstərərək, məktəb kitabxanaları ilə əlaqə saxlanılıb və onlara metodiki kömək edilir. Kitabxanada uşaqların mənəvi-vətənpərvərlik tərbiyəsi ilə tədbirlər keçirməklə uşaqlarda kitaba həvəs yaradılır. Sonrakı illərdə (1980-cı ildən) kitabxanaya naxçıvanlı şair Adil Babayevin (1925-1977) adı verilmişdir.

1960-78-ci illərdə Naxçıvan MR Orduya, Aviasiyaya və Donanmaya Könüllü Yardım Cəmiyyəti (OADKYC) yaradılaraq, gənclər arasında hərbi vətənpərvərlik işləri aparılır. Məktəblərdə Mülki müdafiə işlərinin təbliğ olunması üçün nəzəri və əməli təlimlər keçirilməsinə diqqət artırılır.

Cəmiyyət Bədən Tərbiyəsi və İdman Komitəsi ilə, "Qırmızı aypara", "Dinamo", "Spartak", cəmiyyətləri və digər təşkilatlarla birgə iş apararaq gənclər arasında əməyə və müdafiəyə hazırlığında səmərəli işlər görülür. Elə buna görə də cəmiyyət (sədri Yusif Məmmədov idi), Respublika hərbi komissarlıq, veteranlar şurası və digər təşkilatlar tərəfindən dəfələrlə mükafatlanmış. Həmin illərdə OADKYC cəmiyyətinin vəsaiti ilə əvvəllər (1953-cü ildən) "Avtomotoklub" kimi fəaliyyət göstərən tədris müəssisəsi olan Avtomoto Məktəbi (direktoru Qədir Vəzirov idi) yaradılır. Məktəbdəki müxtəlif markalı avto-moto sürücüləri hazırlanan kursantlara nəzəri və praktiki tədris proqramları tətbiq edilir. Naxçıvan Avtomobil Məktəbinin kursantları Azərbaycan Respublikası üzrə keçirilən yarışlarda (1986-cı ildə) iştirak edərək, 5 dəfə yüksək yerləri tutmuşlar.

1961-ci ildən həm kağıza qənaət üçün (köhnə pullar həcmcə çox iri idi) və həm də pulun dəyərini artırmaq üçün SSRİ-də reforma həyata keçirildi. Bu həm də İ.Stalini xalqa unutmağın bir üsulu idi. Onun dövründən qalmış bank əmanəti "ellər atasını" xatırlatdığından, Sovet xalqları bir növü o pullardan təsəlli tapırdılar. Bu isə N.Xruşşovun rəhbərlik etdiyi Kommunist partiyasının siyasi tələblərinə cavab vermirdi. Odur ki, pul vahidi dəyişilərək 10 manat 1 manatla əvəz edildi.

Dəyər on dəfə qaldırıldı, kağız pulları ölçücə çox kiçik buraxmağa başladılar. Təzə çıxan 1, 3, 5, 10, 15, 20, 50 və 1 manat qəpiklərlə bərabər, 1, 3, 5, 10, 25, 50 və 100 manatlıq kağız pul vahidləri də tədavülə buraxıldı. SSRİ Maliyyə Nazirliyinin qərarı ilə ölkədəki Əmək əmanət kassalarından 2%-li dövlət daxili uduşlu istiqraz vərəqələri ilə bərabər, yeni buraxılmış lotereya biletləri də satışa çıxarıldı. Şəhadətnamə attestat və diplomlar yeni formada çap olunaraq, bu dəfə həm milli dillər və həm Rus dilindən istifadə edildi. Partiya üzvlük biletləri ilə vətəndaşlıq aktına aid sənədlərdə də dəyişikliklər edildi.

1961-ci ildə Azərbaycan Ali Sovetinin sədri vəzifəsinə Məmməd Əbdül oğlu İsgəndərov (1915-1985) keçir. Həmin tarixdə Azərbaycan Nazirlər Sovetinin sədri Ənvər Nəzər oğlu Əlixanov (1917-1997) olmuşdur.

1961-ci ildən Naxçıvanda Radio məmulatları zavodu (direktoru Telman Məmmədov idi) yaradılaraq, "Araz" adlı abonent radio ucadanışanlar istehsal edilir. (Sonrakı illərdə (1965-ci ildən) zavodda yeni avadanlıqlar quraşdırılaraq, lüminessent lampaları üçün tənzimləyicilər buraxılmışdır). Həmin ildə Naxçıvan MSSR Rabitə xidməti Baş İdarəsi (rəisi Mehdi Qasımov idi) əhaliyə poçt və rabitə xidməti işlərini layiqincə görərək, əhaliyə abonent radio və telefon xidməti və habelə mətbuat yayımını səmərəli təşkil edilmişdir. Naxçıvan şəhəri və rayon mərkəzlərində əhalinin xidmətinə avtomat telefonlar quraşdırılmışdır.

1962-ci ilin dekabr ayında Bakıda Azərbaycan Tarix və Mədəniyyət Abidələrinin Mühafizə Cəmiyyəti (TMAMC), yaradılmışdır. Əvvəllər (1930-cu ildən) bu təşkilat Azərbaycan SSR Mədəniyyət Abidələrinin Mühafizəsinə Könüllü Yardım Cəmiyyəti adlanırdı. Həmin ildən Cəmiyyətin Naxçıvan MSSR-də, DQMV-də və respublikanın digər bölgələrində də şöbələri yaradılmışdır. Naxçıvan MSSR də 1923-29-cu ilədək fəaliyyət göstərmiş Naxçıvan Tədqiq və Tətöbbö Cəmiyyəti tərəfindən öyrənilmiş 90 abidədən ibarət, Tarixi və Mədəniyyət Abidələri olmuşdur. ("ASE", 10 cilddə (1-ci cild) Bakı-1976 səh. 175).

1963-cü ildən Azərbaycanda "Bilik" Cəmiyyəti yaranaraq, (sədri Tibb elmləri Doktoru, Akademik Mirəsədulla Mirqasımov (1883-1958) idi) əhali arasında siyasi və elmi bilikləri yayan ictimai təşkilat idi. Cəmiyyətin Bakıda hər 5 ildən bir Qurultayı çağrılr. (1970-ci ildən Azərbaycan EA-nın Prezidenti və respublika "Bilik" Cəmiyyətinin də sədri Fizika-riyaziyyat elmləri Doktoru, Akademik Həsən Abdullayev (1918-1993) olmuşdur). Cəmiyyətin orqanı olan "Elm və həyat" adlı jurnalı da nəşr olunurdu. Həmin illərdə Akademiklərdən H.Abdullayev, H.Əliyev, İ.Mustafayev, Ş.Mehdiyev, tarix elmləri doktorları Ə.Bağırzadə, M.Qazıyev, tibb elmləri doktoru R.Cavadov, və başqaları Akademik S.İ.Vavilov (1891-1951) adına medalla təltif olmuşlar.

1963-cü ildə Naxçıvan MSSR Nazirlər Soveti yanında Kinolaşdırma İdarəsi (sədri Cəfər İmanov idi) yaradılır. İdarənin nəzdində Azərbaycan Nazirlər Soveti yanında Peşə Təhsili Komitəsinin kino mexanikləri üçün ixtisasartırma kursları da yaradılır. Naxçıvan şəhərində 600 yerlik tamaşa zalı olan H.Cavid adına genişekranlı müasir qurğu və avadanlıqlarla təchiz edilmiş kinoteatr və 800 yerlik tamaşa zalı (amfiteatr və yan balkonlarla birlikdə) olan C.Məmmədquluzadə adına Dövlət Dram Teatr binaları tikilib istifadəyə verilir.

1964-cü ildə Naxçıvan zəhmətkeşləri Muxtar respublikanın 40 illiyini bayram etmişlər. Həmin illərdə şəhərdə 1930-cu illərdən fəaliyyət göstərən yerli Radio Stansiyasının bazası əsasında Dövlət Radio və Televiziya verilişləri Komitəsi (sədri Səfəralı Babayev (1923-2002) idi) yaradılır. (1948-ci ildə Naxçıvan Radiosunun (müdiri Hüseyn İbrahimov idi) xəbərlər proqramı, milli və rus dilində də (diktor Gültəkin Kəngərli idi) deyilirdi). Naxçıvanlılar gün ərzində 2 saat yarım radio dinləmək və 3 saat televiziya proqramlarına baxmaq imkanı qazanırlar. Həmin ildən İran və SSRİ dövlətləri arasındakı razılaşmadan sonra Araz çayı üzərində (Qızılvəngdə) gücü 20 meqavat gərginliyində olan Naxçıvan SES-ın (direktoru Rüstəm Abbasov idi) tikintisinə başlanılır. (Moskva ermənilərinin növbəti fitnəsi ilə tikintisinə başlanan Qızılvəng ərazisində 1800-cü illərdə tikilmiş, Azərbaycan xalqının tarixi arxeoloji Abbasabad şəhər-qalasının su altında qalması olmuşdur).

Naxçıvan zəhmətkeşləri xalq təsərrüfatının bütün sahələrində fədakarlıq göstərərək yüksək əmək nailiyyətləri qazanmışlar. Təsərrüfatlarda çalışan Narıngül Quliyeva, Bahar Talıbova, Mirhəmzə Eminov, Lətifə Babayeva, Fatma İmamquluyeva, Tamam Əliyeva, Ağcoş Əliyeva, Raziyə Rüstəmova və başqaları kənd təsərrüfatı sahəsində yüksək fəxri adlar almışlar. Həmin illərdə SSRİ hökuməti tərəfindən Muxtar respublikaya, "Lenin" və "Oktyabr bayrağı" ordenləri verilmişdir. Naxçıvan mətbəəsində ilk dəfə kitab nəşrinə başlanır, Şair M.Nəsirlinin "Mənim respublikam" və yazıçı M.İbrahimovun "Baharın hekayəsi" adlı kitabları çapdan çıxır.

Naxçıvan MSSR-in xalq təsərrüfatı sahəsində əmək qabaqcıllarının sayı durmadan artır. Bu cür fəallardan, qaynaqçı F.Bayramov, qazmaçı S.Novruzov, quraşdırıcı V.Talıbov, poliqrafçı F.Bağırov, cərrah-həkim C.Cəfərov, xalq müəllimlərindən İ.Şükürov, F.Əliyeva, M.Tutayuq, R.Bəktaşi və başqalarını göstərmək olardı.

1964-cü ildə Sovet dövlətinin başçısı N.S.Xruşşovun xarici və daxili siyasətdə ciddi nöqsanlara yol verdiyinə, vəzifəsindən sui-istifadə etdiyinə, bütün ali vəzifələri əlində topladığına, həddən ziyada özbaşınalıqlarına və şəxsiyyətinə pərəstişliyə görə Siyasi Bürodakı öz "silahdaşları" ona qarşı qruplaşma yaradırlar. Onu Abxaziya MSSR-nin dəniz sahilindəki Pitsunda burnundakı (Qaqra şəhərindən 20 km cənubda- F.B.) hökumət bağında dincəldiyi zaman, məzuniyyətindən xüsusi təyyarə və Siyasi büro üzvünün müşayiəti ilə Moskvaya geri gətirirlər. (N.S.Xruşşov (1894-1971) vəzifədən çıxarıldıqdan sonra, Moskva yaxınlığındakı bağ evində həmişəlik nəzarətdə saxlanılır- F.B.).

1964-cü il oktyabr ayındakı MK plenumunda L.İ.Brejnyev (1906-1982), Sov.İKP MK-nın Baş katibi vəzifəsinə seçilir. 1965-ci il 9 may tarixində SSRİ Ali Sovetinin qərarı ilə, faşizm üzərində "Qələbənin 20 illiyi" yubiley tədbirləri keçirilir. Yubiley münasibətilə ölkədəki bütün müharibə veteranlarına həmin il dönüm üçün xüsusi hazırlanmış xatirə medalları təqdim edilmişdir. SSRİ Maliyyə Nazirliyinin qərarı ilə üzərində "Qələbə 20 il" əks olunmuş 1 rubl qəpik pullar da tədavülə buraxılır. Həmin ildən Naxçıvanda illik məhsul gücü 300 ton olan alüminium qablar zavodu da işə salınır. Sonrakı illərdə zavod hər ildə 1.500 ton məhsul istehsal etmişdir.

1965-ci ildə Naxçıvan MSSR-də səhiyyə-sağlamlıq müəssisələri də inkişaf etdirilir. Şəhərdə körpələr evi, yeni vərəm əleyhinə dispanser, eləcə də doğum evi binaları tikilərək istifadəyə verilir. Həmin ildən Azərbaycan SSR Xalq Maarif Nazirliyinin qərarı ilə ümumtəhsil məktəblərindəki orta icbari təhsil müddəti 10 ilə endirilərək, yalnız axşam məktəbləri 11 ildə qalır. Bütün bu illərdə Muxtar respublikada mədəniyyət müəssisələrinin (nazir İsa Məmmədov idi) sayı iki dəfə artırılaraq, yeni klub və mədəniyyət evləri tikilir və özfəaliyyət kollektivlərinə dövlət qayğısı artırılır.

1965-66-cı dərs ilində Naxçıvan şəhərində Pedaqoji məktəb (direktoru Əsgər Əhmədov idi) açılaraq ibtidai sinif müəllimi ixtisası üzrə 50 nəfər tələbə qəbul olunur. Hələ 1939-54-cü illərdə fəaliyyət göstərmiş C.Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutu bazasında Müəllimləri Təkmilləşdirmə İnstitutu (direktoru Məmməd Bəktaşi idi) yaradılır. Bu illərdə (1960-1970-ci illərdə) Naxçıvanda Muxtar Respublika Elektrik Şəbəkəsi (direktoru Yunis (Bənəniyarlı) Hüseynov idi) fəaliyyət göstərir. Naxçıvan şəhərinə Mingəçevir SES-dan (İrəvandan keçməklə Qəmərli-Naxçıvan- F.B.) yüksək gərginlikli elektrik enerjisi ötürülür. Muxtar respublikada əvvəlki illərdə 0,02 mln. kvt saat elektrik enerjisi istehsal edildiyi halda, sonradan (1970) 0,5 mln. kvt saat enerji istehsal edilmişdir.

1966-cı ildə Naxçıvan şəhərində dörd rəqəmli Avtomat Telefon Stansiyası (ATS) ilə şəhərlərarası telefon xidməti stansiyası da işə salınır. Muxtar respublikanın rabitə xidməti (rəisi Mehdi Qasımov idi) sahəsi inkişaf etdirilmiş, şəhər və kəndlərdəki poçt, teleqraf və abonent radio rabitə xidməti təkmilləşdirilir.

Tarixin yaddaşına nəzər salaq: 1966-cı ildə 4.000 yerlik N.Nərimanov adına Naxçıvan Respublika Stadionunun tikintisi başa çatdırılır. Həmin illərdə Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idman işləri Nazirlər Soveti yanında Bədən Tərbiyəsi və İdman Komitəsi (sədri Müzəffər Əsgərov idi) tərəfindən inkişaf etdirilir. Stadionda idman ustası, gəncliyində "Neftçi" futbol komandasının oyunçusu Tofiq Axundovun məşqçiliyi ilə "Araz" futbol komandası yaradılır. Naxçıvanın futbol komandası bir neçə dəfə azarkeşləri sevindirərək, Bakının "Neftçi" futbol komandasına qalib gəlir. (1969-cu ildə komandaya idman ustası Əhməd Ələsgərov məşqçilik edərək, "Araz" futbolçularına yeni uğurlar qazandırır).

Son illərdə Naxçıvan Respublika Stadionunda təmir-tikinti və yenidənqurma işləri aparılmış və oturacaq yerlərinin sayı 12.000-ə çatdırılmışdır. Əvvəlki illərdə Naxçıvan Stadionunda kütləvi el şənlikləri keçirilər, tanınmış müğənnilərlə konsert-görüşlər və futbol oyunundan sonra isə uduşlu lotereya oyunları keçirilərdi. Xoşbəxt bilet sahibləri qiymətli məişət əşyaları ilə bərabər, avtomobil də udardılar. (Haliyyədə Naxçıvan respublika Stadionu, idman ustası İbrahimxəlil Axundovun (1897-1958) adını daşıyır- F.B.). Naxçıvan Muxtar Respublikasında idman işləri kütləvilik halını almışdır. Naxçıvan idmançıları həmişə Muxtar Respublikanın idman şərəfini uca tutaraq, müxtəlif yarışlarda qalibiyyət əldə etmişlər. Gənc idmançılara veteran idman ustaları tərəfindən qayğı və bacarıqlar öyrədilir.

Veteran məşqçilərdən güləş üzrə idman ustası Rüstəm Abbasov, Şəmil Əliyev, İslam Hümbətov, Bağır Həsənov və Ramiz Mehdiyev, futbol üzrə idman ustası Bəhlul Fərzəliyev, Əli Əliyev və Səməd Fərzəliyev, boks üzrə idman ustası Asif Axundov, Kamil Salayev və Məmməd Əliyev, voleybol üzrə idman ustası Malik Tarverdiyev, Müzəffər Əsgərov və Məmməd Ramazanov, ağırlıq qaldırma üzrə idman ustası Yusif Əhmədov, velosiped sürmə üzrə idman ustası Sultan Qədimov, basketbol üzrə əməkdar məşqçi, Muxtar Respublika İdman Federasiyasının sədr müavini və respublika dərəcəli hakim Ənvər Məmmədov və başqalarını nümunə çəkmək olar.

Naxçıvanda bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsində "Ehtiyat Əmək Qüvvələri", "Məhsul", "Dinamo", "Spartak" və "Burevestnik" idman cəmiyyətlərinin də rolu çox olmuşdur. Haliyyədə Muxtar Respublika üzrə XIII idman turnirinin oyunları keçirilməkdədir. Turnirdə "Dinamo", "Universitet", "Batabat", "Arpaçay", "Kəngərli", "Dübəndi", "Babək", "Sədərək", "Əlincə" və "Gənclik" idmançıları bir-biri ilə yarışırlar. (M.Əliyev, "Naxçıvan MR-da bədən tərbiyəsi və idman hərəkatı" Naxçıvan- 1999).

1966-cı ilin əvvəlindən dövlət büdcəsindən çoxuşaqlı analara verilən müavinatların faizi artırılır. “Qəhrəman ana” fəxri adına layiq olanların sayı 110, “Analıq şərəfi” ordeni alanların sayı 3.524, “Analıq medalı” alanların sayı isə 12.394 nəfərə çatır. Dövlət qayğısı sayəsində hamilə və doğuş məzuniyyətinin vaxtı 77 təqvim günündən 112 təqvim gününə artırılaraq və gənc analara müalicə-profilaktika xidmətləri yüksək səviyyəyə qaldırılır.

Tarixin yaddaşına nəzər salaq: 1966-cı ildən Muxtar respublika Kənd Təsərrüfatı Nazirliyi tabeliyində olan Naxçıvan Zona Aqrokimya Stansiyası (direktoru İbrahim Mehdiyev idi) yaradılır. Müəssisənin işçiləri, rayonlardakı əkinçiliyə yararlı torpaq nümunələrinin kimyəvi tərkibini analiz edərək, təsərrüfatlara yardım məqsədilə torpaq xəritələri tərtib edirlər. Həmin xəritələr əsasında əkin sahələrinə aqrotexniki qaydada mineral və üzvi gübrələr səpilməsinə zəmin yaradılaraq, əkinçilikdə yüksək məhsuldarlıq yaranır. Aqrokimya laboratoriyasında ayrı-ayrı illərdə S.İbrahimov, Ə.Əliyev, Z.İsmayılov, T.Sadıqov və İ.İbrahimov rəhbərlik etmişlər. Son illərdə (1990) müəssisənin adı dəyişdirilərək Layihə Axtarış Kimyalaşdırma Stansiyası olmuşdur.

Əsası 1926-cı ildən qoyulmuş Muxtar respublikadakı kənd təsərrüfatı sahəsindəki mədəni bitki ehtiyatları və əkinçiliyin texnoloji problemlərinin öyrənilməsi ilə əlaqədar, Naxçıvanda Kompleks Zona Təcrübə Stansiyası yaradılmışdır. 1954-cü ildən həmin Stansiya Ümumittifaq Bitkiçilik, Üzümçülük, Şərabçılıq İnstitutlarının Naxçıvandakı dayaq məntəqəsini əvəz etmişdir. Müəssisənin işçiləri taxıl, yem bitkiləri, meyvə. üzüm, tərəvəz, texniki və başqa bitkilərin genetik ehtiyatlarını öyrənməklə əkinçilik mədəniyyətini inkişaf etdirmişlər. Elmi müəssisə sonrakı illərdə (1988) “Araz” Elmi İstehsalat Birliyi (sədri k/t elml. namiz. Sərdar Nəcəfov idi) olmuşdur.

Tarixin yaddaşına nəzər salaq: 1967-ci ilin mart ayında Bakıda ilk dəfə olaraq Azərbaycan KP MK-nin katibi və Büro üzvü, Dövlət mükafatı laureatı, Filologiya Elmləri Doktoru Şıxəli Qurbanovun (1925-1967) təşəbbüsü ilə Novruz- Bahar bayramı keçirilmişdir. Tezliklə bu bayram tədbiri dini bayram adı ilə hallanaraq və keçirilməsi qadağan olunur. Ş. Qurbanovu bu işdən ötəri Moskvaya çağırıb və millətçi kimi cəzalandırmışlar. Bu işdə Azərbaycan KP MK-nin birinci Katibi Vəli Axundov və Ali Sovetin Sədri Ənvər Əlixanlı ona kömək etsələr belə, həmin ilin 24 may tarixində müəmmalı şəkildə öldürülür. (Ağrıyan dişinə zəhərli iynə vurmaqla öldürülür- F.B.).

1967-ci ildə Naxçıvan şəhərində Azərbaycan Pedaqoji İnstitutunun filialı (direktoru Filoloji elm. nam. Əli Əliyev idi) açılır. Ali məktəbdə tarix-ədəbiyyat, fizika-riyaziyyat və təbiət-coğrafiya fakültələri və 14 kafedra yaradılır. Ali məktəbin filialı 1972-ci ildən müstəqil instituta çevrilmişdir. (İnstitut 1990-cı ildən Pedaqoji İnstitut əsasında Naxçıvan Dövlət Universitetinə çevrilmişdir- F.B.).

1967-ci ilin iyunun 12-də Naxçıvan şəhərində Ədəbiyyat Muzeyi (direktoru İsfəndiyar Əsədullayev idi) açılır, İlk əvvəl muzeydə 98 eksponat olduğu halda, sonrakı illərdə onların sayı 18.000-ə çatdırılmışdır. Muzeydə əntiq kitablar, görkəmli rəssamların çəkdiyi yazıçı və şairlərin portretləri, qəzet və jurnallar da saxlanılır. Bundan başqa muzeyin ekspozisiyasında Naxçıvan teatrının tarixi sənədləri (afişa, proqram və tamaşa eskizləri) də saxlanılır. (Müstəqillik illərində Ədəbiyyat Muzeyi yeni iki mərtəbəli binaya köçürülmüşdür) (S.Kəngərli, "Muzey elm və mədəniyyət məbədidir" "Qobustan" jurnalı, 1999-cu il № 2).

Naxçıvan MSSR Nazirlər Soveti nəzdindəki Kinolaşdırma (sədri İbrahim Hüseynov idi) Komitəsinin qərarı ilə, Muxtar Respublikadakı rayon mərkəzlərində zəhmətkeşlərə kino mədəniyyətini təbliğ etmək üçün kinoteatrlar tikilib istifadəyə verilir.

1967-ci ildə Naxçıvanda Dövlət "Araz" Mahnı və Rəqs Ansamblı (direktoru Nəriman Sadıqov idi) Naxçıvan musiqi tarixində özünə layiqli yerlərdən birimi tutmuşdur. Burada həvəskar bəstəkar Məmməd Ələkbərov tarzən və müğənni Vahid Axundov, müğənnilərdən Nəbi Nəbiyev, Vahid Ərəboğlu, Abdulla Babayev, Elbrus Mehdiyev, Fikrət Qasımov, Qurban İsmayılov, kamançı Aydın Camalbəyov, klarnetçi Kamil Hüseynov, nağaraçı Yusif Şeyxov, tarzən Rəşid Məmmədov və başqaları, Naxçıvan Musiqi mədəniyyətinin inkişaf və təbliğində böyük fəaliyyətləri olmuşdur.

Sonrakı illərdə xüsusi ixtisas təhsili alan müğənnilər də Naxçıvan musiqi mədəniyyətini şöhrətləndirmişlər ki, onlar Elbrus Mehdiyev (1940-1981), Əli Muradov (1938-1996) və Əməkdar artist Yaşar Səfərov (1940-2007) idi. (R.Kərimov, "Naxçıvan musiqi mədəniyyəti tarixindən" Bakı-2006). (Mədəniyyət müəssisəsi 1983-cü ildən Naxçıvan Dövlət "Araz" Mahnı və Rəqs Ansamblının bazası əsasında Dövlət Filarmoniyası adını almışdır. Filarmoniyada xalq çalğı alətləri, rəqs, instrumental və simfonik ansambl kollektivləri fəaliyyət göstərirlər).

1967-ci ildə Muxtar respublika ərazilərindəki yararsız torpaqlarda meliorativ üsullarla yeni salınmış yararlı əkin sahələri hər il artırılırdı. Naxçıvandakı 6 №-li su tikinti idarəsinin (müdiri Abidin Bayramov idi) inşaatçıları kənd təsərrüfatı əkin sahələrinin suvarılması üçün süni göllər tikərək yığılan su ehtiyatı hesabına məhsuldarlığı artırırlar.

Son illərdə su tikintisi inşaatçılarının tikdikləri süni “II Xok gölü” (su tutmu 400 min m3), “Əznəbürt gölü” (500 min m3 1), “I, II, III ”Batabat gölü (1 milyon m3 1), “Qanlı göl” (1 milyon m3), “Uzunoba gölü”, (8,5 milyon m3), “Nehrəm gölü” (6 milyon m3),”Nəçənnik gölü” (Sovetabad) (300 min m3), “Adil ağa gölü” (Qaraçuq) (400 min m3) və s. göllər və bəndə salınmış sututarlar respublikanın kənd təsərrüfatı sahələrinin suvarılmasında və müvafiq olaraq məhsuldarlığın artırılmasında çox böyük inqilabi dönüş yaratmışlar.

1967-ci ilin payızında Noraşen rayonundakı Arpaçay üzərində uzunluğu 120 paqonometr olan yeni dəmir-beton körpü tikilərək istifadəyə verilir. Körpünün açılışında Muxtar respublikanın rəhbərləri ilə bərabər, Azərbaycan KP MK-in birinci katibi Vəli Axundov (1916-1974) da iştirak etmişdir.

> *“İman gətirib yaxşı işlər görənləri Nəim cənnətləri gözləyir.”*
>
> **(Quran, Loğman 31/8)**

Tarixin yaddaşına nəzər salaq: 1968-ci ildə Azərbaycan MEA-nın Tarix İnstitutunun “Araz” arxeoloji-etnoqrafik ekspedisiyası, kompleks şəkildə Araz çayı üzərində bənd salınması ilə əlaqədar su altında qalacaq tarixi arxeoloji abidələrdə qazıntılar aparmışlar. Həmin yerlər Xarabaşəhər, Astabad, Bulqan, Təzəkənd, Qaraçuq, Qızılburun, Qaraxanbəyli, Böyükdüz, Şahtaxtı abidələri idi.

Qazıntılar zamanı Fəzlullah Nəiminin (1340-1394) vətəni olmuş Astabad şəhər xarabalıqlarından, habelə XIX əsrdə tikilmiş Abasabad qalası ilə Nehrən yaxınlığındakı əfsanəvi Ölənşəhərlə (Tunc dövrün Tərsus şəhərdir- F.B.) Muncuqtəpədən və Qaraçuq kəndi yaxınlığındakı Xarabaşəhərdən məişət əşyaları aşkar olmuşdur. Alimlər II Kültəpədən qazıntılar zamanı eramızdan əvvəl 2-1-ci minilliyə aid boyalı saxsı qablar, daşdan və sümükdən yonulmuş məişət alətləri də aşkar etmişlər.

Bu illərdə Naxçıvan şəhərində yeni kanalizasiya boru kəməri çəkilməklə, əhalinin içməli suya olan tələbatı qismən ödənilir. Şəhər zəhmətkeşləri üçün (həftənin bazar günləri) xalq istehlakçılarının sənaye və kənd təsərrüfatı satış yarmarkaları keçirilir. Naxçıvan zəhmətkeşləri hər ilin 7 oktyabr və 1 may günlərində, Mərkəzi meydanda ənənəvi Bayram nümayişlərinə çıxaraq sosializm prinsiplərinə sadiq olduqlarını bildirirlər.

1968-ci ildə Azərbaycanda sənaye və kənd təsərrüfatı sahələrində geriləmə halları aşkar olunur. Yerlərdəki partiya orqanlarında özbaşınalıq və bürokratik hallar güclənir, ideoloji işlər zəifləyir, siyasi təbliğat və təşviqat işləri ləngidilərək, istehsal sahələrində intizamsızlıq halları çoxalır. Naxçıvan Vilayət Partiya və Komsomol orqanlarında da "Lenin ideyaları" unudularaq, siyasi təbliğat və təşviqat işləri zəifləyir. Bütün bu hallar nəticədə ölkənin xalq təsərrüfatı sahələrindəki geriləməyə gətirib çıxarır.

Tarixin yaddaşına nəzər salaq: XX əsrin 20-ci illərində Naxçıvan Teatrı öz inkişaf mərhələsinə keçmişdir. Belə ki, həmin ildə Dövlət Dram Teatrı adını almış mədəniyyət müəssisəsində kollektivin peşəkarlıq səviyyəsi artır. Həmin illərdə teatrın səhnəsində H.Cavidin "Şeyx Sənan", C.Cabbarlının "Sevil", M.İbrahimovun "Həyat", S.Vurğunun "Vaqif", və başqa tamaşalar qoyulmuşdur. Böyük Vətən müharibəsi illərində də Naxçıvan teatrı uğurlu tamaşalarla tamaşaçıların ruhunu oxşamışdır.

Altmışıncı illərdə Naxçıvan teatrında geriləmə halları olduğundan Naxçıvan Vilayət partiya rəhbərləri tərəfindən inzibati vəzifələrdə kadr dəyişmə siyasəti aparılır. Belə ki, 1966-cı ildən həmin kollektivin rəhbərliyində dəyişiklik edilərək, qocaman ziyalı İdris Səlimov (1918-1986), Naxçıvan teatrına direktor təyin olunur. Lakin repertuar planları düzgün qurulmadığından və teatra tamaşaçı axını azaldığından mədəniyyət müəssisəsi dövlət maliyyə planlarını ödəyə bilmir.

Üç ildən sonra teatra rəhbərlik işi M.Əliyev adına Azərbaycan İncəsənət İnstitutunun məzunu Əməkdar mədəniyyət işçisi Sübhi Kəngərliyə tapşırılır. Qısa müddət ərzində Naxçıvan teatrında dönüş yaranmaqla bir-birindən maraqlı dram əsərləri tamaşaya qoyulur. Tezliklə teatrda Naxçıvan yazıçı-dramaturqlarının əsərləri də səhnələşdirilir.

Şair dramaturq Əlyar Yusiflinin (1929-1993) "Səadət naminə" pyesi tamaşaçıların müzakirəsinə çıxarılmışdır. Müzakirədə teatrın rejissoru B.Qələndərli, xalq artistləri İ.Həmzəyev, F.Əlixanova, Ə.Haqverdiyev, yazıçı-publisist Ə.Əsgərli, və başqaları tamaşaçıları ətraflı məlumatlandırmış. Həmin tamaşa Bakıdakı Akademik Dram Teatrında göstərilərkən, xalq artisti professor Rza Təhmasib, teatrın direktoru Əli İsmayılov və başqaları tərəfindən rəğbətlə qarşılanmışdır. ("Ədəbiyyat və incəsənət" qəzeti, 1969-cu il 13 sentyabr № 37; L.Hüseynzadə, "Naxçıvan Teatrının tarixindən" Bakı-2002).

1969-cu il mart-aprel aylarında Şahbuz rayonunun Zıprnel kəndində yer sürüşməsi olmuşdur. Həmin ilin 25 sentyabr tarixindən kəndin əhalisi rayondakı Aşağı Remeşin kəndinə köçürülmüşdür.

1969-cu ilin avqust ayında Azərbaycan KP MK-si aparatının yuxarı eşelonunda kadr dəyişmə siyasəti həyata keçirilir. Azərbaycan KP MK-in birinci katibi V.Axundov vəzifəsindən azad edilərək, həmin vəzifəyə əvvəllər Dövlət Təhlükəsizlik Komitəsinin sədri işləmiş general-mayor Heydər Əlirza oğlu Əliyev (1923-2003) təyin olunur.

1970-ci ildən Əli İsmayıl oğlu İbrahimov (1913-1981), Azərbaycan Nazirlər Sovetinin sədri vəzifəsinə irəli çəkilir. Həmin ildən Azərbaycan Ali Sovetinin sədri vəzifəsinə Qurban Əli oğlu Xəlilov (1906-1985) gətirilir.

Heydər Əliyev işə başladığı gündən, rayonlara gedərək xalq ilə görüşlər keçirir, Respublika həyatı ilə yaxından tanış olur, hər şeyi öz gözləri ilə görməyi və qiymətləndirməyi üstün tutur. Bu, əslində bütün Sovet sistemində kommunist liderinin yeni iş üsulu idi. Və xalq yeni siayəstçinin məsləyə bu cür yanaşmasını alqışlayır, ona inam bəsləməyə başlayır.

O dövrə qədər Bakını tərk etməyən rəhbərlərin kabinet daxili iş üsulları fonunda, yeni rəhbərin bu qədər fəallığı hamının ürəyindən xəbər verir. H.Əliyev iş üstündəcə hamının iş prinsipini təhlil edir, xalqın səsini dinləyir və yarıtmaz vəzifəli şəxsləri tənbeh edir. Buna misal olaraq, 1970-ci ildə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi Hacıağa İbrahimov işindəki ciddi nöqsanlarına görə tutduğu vəzifəsindən azad edilir və həmin vəzifəyə Aslan Hüseynov təyin olunur.

Tarixin yaddaşına nəzər salaq: Heydər Əlirza oğlu Əliyev 1923-cü ildə mayın 10-da doğulmuşdur. Atası Əlirza Əliyev Ermənistan SSR-in Sisyan rayonundakı Comərdli kəndində həyat yoldaşını vaxtsız itirdiyindən uşaqları ilə Naxçıvana köçməli olur. Naxçıvan şəhərində yenidən evlənən Əlirza kişi, "Cığatay məhəlləsi"ndə (indiki Dövlət Tarix Muzeyinin arxa hissəsində- F.B.) yaşamalı olur. Əlirza kişinin ailəsində Həsənlə Hüseyn adlarında uşaqları olmuşdur. (Sonrakı illərdə Həsən Əliyev (1907-1993), kənd təsərrüfatı üzrə Akademik, Hüseyn Əliyev (1911-1991) isə görkəmli rəssam kimi şöhrət tapır).

Heydər Əlirza oğlu Əliyev, 1929-36-cı illərdə şəhərdəki "Rüşdiyyə" (Zəhmət) məktəbinin yeddinci sinfini bitirir. (H.Əliyevin keçmiş sinif şagirdləri "Şərq qapısı" mətbəəsinin çap ustası Əməkdar poliqrafçısı Firdovsi Bağırov (1923-1993) və "Araz" Mahnı və Rəqs Ansamblının müğənnisi Nəbi Nəbiyevin (1923-2002) xatirələrindən- F.B.). O, 1936-cı ildə Naxçıvandakı orta ixtisas Pedaqoji Məktəbinə qəbul olaraq, 1939-cu ildə isə həmin məktəbi əla əxlaq qiymətlərlə bitirmişdir.

H.Əliyev 1939-41-ci illərdə Bakıdakı Sənaye İnstitutunun memarlıq fakültəsində oxuyanda kurs möhləti götürmüş və Naxçıvan Xalq Komissarları Sovetində (sonra isə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında) şöbə müdiri vəzifəsində işləmişdir. 1944-cü ilin may ayından etibarən H.Əliyevi, Azərbaycan Təhlükəsizlik Komitəsində məsul vəzifəyə keçirirlər. O, 1957-ci ildə Bakıda işləyərkən Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini də oxuyub bitirir. (1967-ci ildə Təhlükəsizlik Komitəsində sədr işlərkən ona, SSRİ Dövlət Təhlükəsizlik Nazirliyi tərəfindən Təhlükəsizlik xidməti General-mayor rütbəsini verirlər).

H.Ə.Əliyev Vətənə şərəfli xidmətə görə, iki dəfə (1970 və 1979) Sosialist Əməyi Qəhrəmanı fəxri ada layiq görülərək, Lenin ordeni və başqa medallarla mükafatlanır. H.Ə.Əliyevi 1969-cu ildən Azərbaycan KP MK-nın birinci Katibi və Büro üzvü seçirlər.

1971-ci ilin martından H.Ə.Əliyev Sov, İKP MK-nın Siyasi Bürosuna üzv namizəd və sonrakı illərdə isə, SSRİ Ali Sovetinin sədr müavini işləyərək siyasi Büroya da üzv seçilir. H.Əliyevin təşəbbüsü ilə sərt iqlimə malik olan Naxçıvan MSSR ərazilərində əkilən texniki bitkilərdən pambıq bitkisinin əkini ləğv edilərək, yerində ölkə büdcəsinə daha çox gəlir gətirən Üzümçülük təsərrüfatı yaradılır.

1971-ci ildən Azərbaycanda xalq təsərrüfatı üçün əhəmiyyətli olan iri sənaye obyektlərinin tikintisinə başlanılır. Həmin ildən Noraşen rayonundakı Arpa çayı üzərində "Dəvə ölən" ərazisində yeni su anbarı tikintisinə start verilir. Dəryaçada suyun həcmi 150 milyon m3 çatdırıldıqdan sonra, sağ və sol suvarma kanalları da çəkilir. Həmin ildən Araz çayı üzərində tikilmiş və gücü 20 meqavat gərginlikdə olan SES işə düşür. Nəticədə 1,350 milyon m3 su tutumunda olan "Araz dəryaçası" yaranmış oldu. Araz dəryaçasındakı su altında qalmış Bulqan və Qaraçuq kəndlərinin əhalisinə yeni salınmış Cavidabad qəsəbəsində müasir formalı həyət evləri tikilir. Yəmxana ilə Təzəkənd əhalisi isə, Pircüvar düzündəki yeni salınmış Babək qəsəbəsinə köçürüldü. ("Araz dəryaçası" yaranmaqla tarixi Abbasabad qalası ilə qədim qəbiristanlıq əraziləri su altında qalmalı oldu- F.B.).

1971-ci ildə Naxçıvan şəhərindəki 1 №-li Mədəniyyət evində ictimai əsaslarla Xalq Teatrı (rejissoru Nadir Hüseynov idi) yaradılır. Tezliklə teatra həvəskar aktyorlar cəlb olaraq, kollektiv dram əsərlərini səhnələşdirib teatrsevərlərə təqdim edirlər. Həvəskar kollektivə Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən Xalq Teatrı statusu verilərək, repertuarda Ə.Haqverdiyevin "Bəxtsiz cavan", N.Hikmətin "Unudulan adam", C.Cabbarlının "Aydın", C.Məmmədquluzadənin "Kamança", G.Figeyeredonun "Ezop" və başqa tamaşalar yer tutur.

Tarixin yaddaşına nəzər salaq: 1971-74-cü illərdə Naxçıvan Muxtar Respublikası qazandığı nailiyyətlərə görə, SSRİ Həmkarlar İttifaqı Mərkəzi Şurası tərəfindən "Keçici Qırmızı Bayraq" la mükafatlanır. 1974-cü ilin oktyabr ayında Muxtar respublika zəhmətkeşləri Naxçıvan MSSR-ın 50 illiyini qeyd edirlər. Moskva hökuməti Naxçıvan xalqını 3 oktyabr 1974-cü il tarixli fərmanı ilə təbrik edərək, qazandığı nailiyyətlərə görə Respublikanı ikinci dəfə "Oktyabr bayrağı" ordeni ilə təltif edir. Həmin tədbirə gələn Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev, Naxçıvan xalqını təbrik edərək Mərkəzi meydandakı V.İ.Leninin qranitdən yonulmuş 7 metr hündürlükdə büst-abidəsinin (heykəltəraş İ.Zeynalov, memarlar H.Ələsgərov və Ə.Hüseynov idi) açılışında olmuşdur. ("Şərq qapısı" qəzeti, 4 oktyabr 1974-cü il № 233).

Əvvəllər filial kimi fəaliyyət göstərən Naxçıvan Pedaqoji İnstitutu həmin ildən müstəqil ali məktəb kimi fəaliyyətə başlayır. Yeni tikilmiş təyyarə limanı, poçt-rabitə idarəsi, mehmanxana, sərgi nümayişi pavilyonu və digər xidmət sahələri də Naxçıvan zəhmətkeşlərinin istifadəsinə verilir.

Bütün bu illərdə Naxçıvan əhalisi artıq yerli televiziya verilişindən başqa, həm də Bakı ilə Moskvanın da televiziya proqramlarını seyr edirlər. Naxçıvan şəhərində yaradılmış Zona Aqrokimya Stansiyası, Baytarlıq laboratoriyası, Meliorasiya və su təsərrüfatı İdarəsi, Maşın-ekskavator Stansiyası, Meşə təsərrüfatı İdarəsi, Cins toxumçuluq Müfəttişliyi, Kənd təsərrüfatı İdarəsi, Mədən-filizçıxarma İdarəsi, Zəlzələ və tektonik hadisələr Stansiyası, Hava məlumatı və meteorologiya Stansiyası, Topoqrafiya, yerölçmə və xəritəçəkmə İdarəsi, Qaz istehsalat idarəsi, 2719 №-li yük maşınları Dəstəsi və başqa təşkilatlar da fəaliyyətə başlamışdır.

1971-ci dərs ilindən Naxçıvandakı Pedaqoji Məktəb ləğv olaraq, onun bazasında Kiyev Politexnik Texnikumun filialı kimi (1969-dan) fəaliyyət göstərmiş C.Naxçıvanski adına Politexnik Texnikumu (direktoru Tofiq İsmayılov idi) yaradılır. Orta ixtisas məktəbində tikinti üzrə iş icraçısı, elektrik və texnik-mexanik kadrları hazırlanılır. (Sonrakı illərdə (1974-cü ildə) orta ixtisas məktəbinə Əcəmi Naxçıvaninin adı verilmişdir). Texnikumda yol hərəkətinin təşkili, nəqliyyat vasitələrinin təmiri və servis xidməti, gömrük ekspertizası, iqtisadiyyat və s. ixtisaslar üzrə də kadrlar hazırlanmışdır. (Sonrakı illərdə Texnikum ləğv edilərək və Kənd təsərrüfatı Texnikumunun bazasında Naxçıvan Texniki Kolleci olmuşdur- F.B.).

1972-ci ilin iyulun 7-dən Naxçıvanda Azərbaycan EA-nın Naxçıvan Regional Elmi Mərkəzi (direktoru kimya elm. dokt. Toğrul Şahtaxtinski idi) yaradılmışdır. Mərkəzin elmi əməkdaşları Muxtar respublikadakı təbii xammal ehtiyatlarının kompleks şəkildə öyrənməklə məşğul idi.

Mərkəzdə 5 bölmə (fizika-riyaziyyat, kimya, biologiya, iqtisadiyyat və tarix) fəaliyyət göstərir. Haliyyədə mərkəzdəki 3 bölmə (geobotanika, riyazi modelləşdirmə, elmi-texniki informasiya), 5 laboratoriyanı (bitki mənşəli maddələrin kimyası, mineral xammalın kimyası və texnologiyası, fiziki-kimyəvi tədqiqatlar, genetika və seleksiya, dekorativ bitkilər) və metrologiya və standartlaşdırma qrupları birləşdirir. Mərkəzin elmi işçiləri Muxtar respublika istehsal sahələrinin yeni xammal əsasında işləməsi üçün əllərindən gələni edirlər. Muxtar respublikanın elm və mədəniyyət müəssisələrindən biri olan Naxçıvan Regional Elmi Mərkəz, haliyyədə akademik H.M.Abdullayevin (1918-1993) adını daşıyır. ("Azərbaycan Elmlər Akademiyasının 50 illiyi", Bakı-1995).

1972-ci ildə Naxçıvan Vilayət Partiya Komitəsinin rəsmi mətbuat orqanı olan "Şərq qapısı" qəzetinin 50 illik yubileyi münasibətilə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Müxtəlif illərdə qəzetin baş redaktoru M.Tarverdiyev (1941-45), M.Xudiyev (1953-56), F.Tağıyev (1956-60), M.Bəktaşi (1961-62), H.İbrahimov (1962-65), R.Qazıbəyov (1965-70), V.Bağırov (1970-75), S.Kərimova (1975-85), A.Axundov (1986-90) olmuşlar.

1973-74-cü illərdə Naxçıvanda gənc idmançılardan ibarət "Şərq" futbol komandası, Zaqatalada keçirilən Azərbaycan üzrə yarışlarda birinci yerə çıxmış, "Badamlı" futbol komandası isə Azərbaycan üzrə "Sevinc" kuboku yarışının qalibi olmuşdur.

1973-cü ildə Naxçıvanda rəssam Məmməd Qasımovun təşəbbüsü ilə Naxçıvan MR Rəssamlar Birliyi yaradılır. 1974-cü ildən isə Naxçıvanda Azərbaycan Rəssamlarının Müstəqil (sədri Şəmil Mustafayev idi) Təşkilatı yaradılır. Təşkilatın ayrıca sərgi salonu ilə, bədii satış mağazası da fəaliyyət göstərir. Təşkilatın ayrı-ayrı illərdə sədrləri Ş.Mustafayev, A.Qardaşbəyov, M.Seyidov, B.Abuzərli, və H.Əliyev olmuşlar.

Təşkilatın üzvlərindən C.İbadullayev, Y.Məmmədov, S.Qədimov, R.Ağayev, M.İsmayılov və başqaları mövsümi yaradıcılıq sərgiləri ilə şöhrət tapırlar. Həmin illərdə gənc rəssamlardan M.Seyidov, N.Əliyev, F.Bağırov, S.Bayramov, X.Həsənova, Ə.Şərifov, E.Səfərov, M.Rəhimov, S.Mehdiyev, E.Babayev, H.Sadıqov və başqaları da Muxtar respublikanın təbii gözəlliklərini köçürdükləri kətan üzərindəki dəyərli, cəlbedici işlərini yaradıcılıq sərgilərində nümayiş etdirirlər. (Muxtar respublikanın 50 illiyinə həsr olunmuş "Gənc Rəssamların Yaradıcılıq Sərgisi", (məlumat kataloqu) Naxçıvan-1974).

1974-cü ilin 5 iyuldan Azərbaycanda Respublika Avto-Moto həvəskarlarının könüllü Cəmiyyəti yaramışdır. Bir ildən sonra isə (1974-ci il 5 iyul) Naxçıvan Muxtar Respublikasında "Avtomobilçi Cəmiyyəti" (sədri Yaşar Xəlilov idi) yaradılır. Cəmiyyətin üzvləri küçə hərəkəti qaydalarını öyrənmək məqsədilə Dövlət Avtomobil Müfəttişliyi ilə birlikdə Avtomoto məktəbində təlimatlanaraq həvəskar sürücülük vəsiqəsi qazanırlar. Sonrakı illərdə (1979-cu ildən) Naxçıvan Respublika Avtomoto Cəmiyyətindəki (sədri Sücaət Seyidov idi) yaradılmış kurslarda, 360 nəfərdən artıq üzv, həvəskar sürücülük vəsiqəsi üçün test imtahanından keçməli olmuşdur.

Muxtar respublikada 200-dən çox ümumtəhsil məktəblərində 3.500-dən çox ali təhsilli müəllimlər (nazir Məmməd Bəktaşi (1917-1993) idi) şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olur. Bu illərdə müəllimlərdən 100 nəfərinə "SSRİ Xalq Müəllimi" fəxri adları verilmişdir. Naxçıvanda orta ixtisas kadrları hazırlayan tibb, musiqi, pedaqoji və kənd təsərrüfatı texnikumları, sənaye və tikinti sahələri üçün ixtisaslı kadrlar hazırlayan 3 texniki-peşə və 2 internat məktəbi də fəaliyyət göstərirdi, göstərir.

Bütün bu illərdə Muxtar respublikada 174 sayda klub və mədəniyyət (nazir Hüseyn İbrahimov idi) müəssisələri, 200-dən artıq kitabxana, muzeylər, yaradıcılıq evləri, özfəaliyyət kollektivləri, mahnı və rəqs ansamblı, dövlət və xalq teatrları, ziyalı evləri, park və istirahət bağları və sairə xalqın xidmətinə verilmişdir.

Muxtar respublikada 135 sayda daimi kino qurğuları fəaliyyət göstərərək, onlardan 7 sayda müasir texniki qurğularla təchiz olunmuş kinoteatr (o cümlədən 6 yay kino zalı), 11 səyyar kino maşını, (o cümlədən 1 ədəd "Zil" markalı səyyar avtokinoteatr), qırmızı təşviqat çadırları və Muxtar respublika "Bilik Cəmiyyəti"nin səyyar kino maşını da əhaliyə xidmət göstərir. Həmin illərdə Naxçıvanda yazıçılar birliyi (sədr Müzəffər Nəsirli (1911-1980) idi) fəaliyyət göstərərək, Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynayan dəyərli əsərlər ortaya qoymuşdur. Naxçıvanlı yazarlardan M.Nəsirli, H.İbrahimov, H.Rzayev, K.Ağayeva, İ.Səfərli, M.Araz, H.Elsevər, İ.Oruc, M.Tarverdiyev, Ə.Əylisli, Ə.Yusifli və başqalarının yaradıcılığı oxucuların rəğbətinə səbəb olmuşdur.

"Kaş yazım elə bir könül əsəri,
Sizi ovsunlasın incəlikləri."

(Nizami Gəncəvi

.

1974-cü ildə Muxtar respublikada səhiyyə-sağlamlıq sahələri də (nazir Tibb elm. namiz. Adil Məmmədov idi) inkişaf etmişdir. Belə ki, 269 ali təhsilli həkim və 1325 də orta ixtisas tibb kadrları əhalinin sağlamlığı keşiyində durmuş. Xəstələrin rəğbətini qazanmış həkimlərdən tibb elmləri namizədi C.Cəfərov, A.Məmmədov, Y.Budaqov, əməkdar həkimlərdən M.Bağırov, A.Abdullayev, M.Mehdiyeva və başqaları idi.

1974-cü ildə Naxçıvanda yerli sənaye istehsal səviyyəsi, əvvəlki illərdən 10 dəfə çoxalaraq, əhalinin sosial-mədəni səviyyəsi də yaxşılaşır. Naxçıvanda yeni tikilmiş sənaye müəssisələrindən biri də, tikintisinin birinci hissəsi başa çatdırılmış nəhəng Taxıl Məhsulları Kombinatı (direktoru Əli Əliyev idi) idi ki, inşaatçılar tikintidəki qurğu və avadanlıqların quraşdırılması işini sürətləndirmişlər. Bunun üçün müxtəlif respublikalardan quraşdırıcı mütəxəssislər də köməyə gəlmişdir.

Naxçıvan şəhərində 1947-ci ildən bu yana iki böyük kitab mağazası fəaliyyət göstərirdi. Onlardan biri Azərbaycan Dövlət Nəşriyyatın (rusca Az. QİZ) Naxçıvandakı 52 №-li mağazası (müdiri İslam İsmayılov idi), digəri isə Azərbaycan Kooperativlər İttifaqı Naxçıvan rayon istehlak bazasının satış mağazası (müdiri Miryəhya Seyidov idi) olmuşdur. Hər iki mağazalarda bədii, elmi-texniki ədəbiyyatlarla bərabər dərsliklər və dəftərxana ləvazimatları da satılırdı.

"Tənhalıq küncünün şüurudur kitab,
Bilik şəhərinin nurudur kitab."

(Nizami Gəncəvi)

1975-2001-ci illərdə Azərbaycan Kitab Ticarəti Birliyinin Naxçıvandakı 52 №-li mağazasında (müdiri İsmayıl Əliyev idi) kitabsevənlər üçün satışda olmayan ensiklopedik nəşrlərə, fərdi abunə də yazılmaq mümkün idi. Belə ki, əgər 1976-cı ildə abunəçilərin sayı 32 nəfər idisə, 1983-cü ildə onların sayı 44-ə qalxmışdı. Kitab mağazasında yeni nəşrlərin satış sərgisi də təşkil olub, kütləvi kitab satışından başqa məktəb və kitabxanalara da bədii, elmi-siyasi və dərslik kitabları yayılırdı. Həmin illərdə Naxçıvan Muxtar respublikasında "Kitabsevənlər Cəmiyyəti" (sədri Zülfəli Əliyev idi) yaradılır. Cəmiyyətin xətti ilə yerli yazıçıların kitab təqdimatı keçirilərək, "Kitabsevənlər mağazası"nda isə təzə çıxmış və bukinistik kitabların satış-sərgisi təşkil edilirdi.

Tarixin yaddaşına nəzər salaq: 1974-cü ildə Naxçıvanda yeni sənaye müəssisələrinin işə salınması nəticəsində istehsal olunan məhsulların artım tempi 16 milyondan 31 milyona (manatla) çatdırılmışdır. Naxçıvandakı duz mədənindən ildə 60 min ton daş düz çıxarılırdı. Ordubad aqrar-sənaye kombinatından ildə 16,4 milyon şərti bankadan ibarət müxtəlif adda mürəbbələr bişirilirdi. Y.Məmmədəliyev adına Ordubad barama açan fabrikində 32 sayda əlavə əyirici dəzgah quraşdırılmışdır ki, bu da fabrikin ümumi məhsuldarlığını artırmışdır.

Naxçıvan mebel fabrikinin istehsal etdikləri müxtəlif çeşidli mebellərin alıcıları günbəgün artmaqla sifarişçilərin rəğbətini qazanmışdı. Noraşen rayonundakı Şahtaxtı daş karxanasından çıxarılan tikinti üçün üzlük travertin daşları, öz şöhrətini nəinki Sovet məkanında, hətta xarici ölkələrdən də sifarişlər gəlməkdə idi. Rayondakı Xələc və Ulya Noraşen kəndlərindəki mərmər sexlərində istehsal gücü artdığından, tikinti təşkilatlardan sifarişlər gəlirdi.

Ordubad rayonundakı Parağaçay və Noraşen rayonundakı Gümüşlü filizçıxarma mədənlərindən, xalq təsərrüfatı üçün əlvan metallurgiya zavodlarına xammal göndərilirdi. Ordubadda dağ-mədən sənayesini inkişaf etdirmək məqsədilə okean səviyyəsindən 2.500 m. yüksəklikdəki Pəzməri kəndində “Niyazbaşı” adlı sahədə mis, qızıl, molibden və polimetallar aşkar edilmişdi. Kəşfiyyatçı geoloqlar həmçinin Naxçıvan rayonundakı Nehrəm kəndi yaxınlığında kaustik soda kimyəvi duz yataqlarını da aşkar etmişlər.

Naxçıvan tikiş fabrikinin, pivə və limonad zavodlarının istehsal etdikləri yerli məhsullar, qısa vaxt ərzində keyfiyyətinə görə ittifaq miqyasında şöhrət tapmışdır. Noraşen rayonundakı Sədərək kəndi üzümçülüklə ixtisaslaşaraq, orada 10 min ton üzüm emal edən şərab zavodunun tikintisinə başlamışdır. Həmin illərdə Muxtar respublikadakı 21 sayda kolxoz və sovxozlar, gəlirli sahə olan üzümçülüklə məşğul olurdu. Naxçıvan yeyinti sənayesindəki mineral su bulaqları ittifaq əhəmiyyətli olmuşdur. Culfa rayonundakı Darıdağ mərgümüşlü termal mineral su bulağında səhiyyə nazirliyi tərəfindən xüsusi binalar tikilərək, həkimlərin müayinəsi ilə bir çox xəstəliklərin müalicəsinə şərait yaradılmışdır.

Naxçıvan rayonundakı Vayxır və Sirab mineral bulaqları, Şahbuz rayonundakı Badamlı mineral süfrə suyu , sənaye əsasları ilə istehsalına başlanılmışdı. Bütün bunlara görə də mineral su istehsalını artırmaq məqsədilə yeni tikilən Naxçıvan şüşə qablar zavodunda işləri sürətlənmişdir. Naxçıvanda sənaye və mülki tikinti işləri durmadan genişlənirdi. Şəhərin küçələrində abadlıq və təmir-tikinti işləri aparılaraq, dəmir yolu vağzalındakı meydanın sahəsi də genişləndirilmişdi.

Naxçıvan Muxtar Respublikasının əhalisinə avtosərnişin daşıma xidmətləri və nəqliyyat növləri də artırılmış. Şəhərdəki Avtovağzaldan hər gün cədvəl üzrə rayon mərkəzlərinə və ayrı-ayrı kəndlərə gündə bir neçə dəfə sərnişin daşıma avtobusları hərəkət edərək əhaliyə nəqliyyat xidməti səviyyəsini yüksəltməkdə idi. Bundan başqa Avtovağzaldan hər gün İrəvan, Tiflis, Gəncə, Yevlax və Bakı şəhərlərinə də rahat sərnişin avtobusları marşruta çıxarılırdı.

Sərnişindaşıma taksi (müdiri Manaf Qayıbov idi) parkında yenidənqurma işləri aparılaraq, əlavə emalatxana ilə baxış-nəzarət dispetçer xidməti də istifadəyə verilmişdir. Taksi avtomobilləri təzəsi ilə dəyişdirilərək, sərnişinlərin rahatlığı üçün avtomobillərdə avtomat sayğaclar quraşdırılmış. 1966-cı ildən yaradılmış Azərittifaqın Naxçıvan Avtobazası (müdiri Əyyub Əzimov idi) tərəfindən əhalinin gündəlik tələbat mallarının yerlərə yük daşınması işləri lazımı qaydada təmin olunurdu. Naxçıvandan Bakıya təyyarə ilə uçmaq üçün, yeni tikilmiş uçuş-enmə zolağı 1800 metrlik Aeroportdan ilin bütün fəsillərində işləyən "Tu" və "An" markalı təyyarələr uçuşa buraxılır.

Tarixin yaddaşına nəzər salaq: 1967-70-ci illərdə Naxçıvan diyarında ən təmiz havası olan Şahbuz rayonundakı 2.050 m. yüksəklikdəki Biçənək meşəsində Azərbaycan EA-nın N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının Naxçıvan (Batabat) şöbəsi (müdiri Fizika-riyaz. elml Doktoru Mütəllim Məmmədov idi) yaradılmışdır. Görkəmli alim Batabat rəsədxanasını işə saldıqdan sonra, sonrakı illərdə (1982-ci ildə) Azərbaycan EA-nın Naxçıvan Elm Mərkəzinə rəhbərlik etmişdir. Buradakı bütün texniki qurğular ADR-dan gətirilərək quraşdırılmışdır. Rəsədxanadakı 2 m-lik reflektor və 60 sm-lik ulduz teleskopu, Günəş pornoqrafı, 20 sm-lik meniskli teleskopun köməyi ilə günəş tutulması halları və ulduzların fiziki xassələri öyrənilir.

"Sən mənə bir damcı göz yaşı töksən,
Sənə nur saçaram yetmiş fələkdən."

(Nizami Gəncəvi)

Elmi-tədqiqat müəssisəsində coğrafi en dairəsinin təqribən 39,50 olması, Günəşin cənub səmasının görünməyən hissəsinin müşahidəsi mümkündür. Şamaxıdakı Astrofizika Rəsədxanası ilə birlikdə əməkdaşlıq edərək günəş sistemindəki tədqiqatlar aparılırdı. (Müstəqillik illərində Batabat Astrofizika rəsədxanasında 17 əməkdaş elmi iş aparılaraq, onlardan 2-si elmlər doktoru və 6-sı isə elmlər namizədidir).

“Orada ayı bir nur, günəşi də çıraq etdi.”

(Quran, Nuh 71/16)

1975-83-cü illərdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi Kamran Nəbi oğlu Rəhimov (1928-2009) olmuşdur.

1975-ci ildən Naxçıvan Muxtar Respublikasında əhaliyə kino xidmətini inkişaf etdirmək üçün sərbəst surətdə Kinoqurğuları və kinolaşdırma Komitəsi (nazir Adil Məmmədov idi) yaradılır. Həmin ildə Naxçıvan, Culfa, Ordubad şəhərlərində və Noraşen qəsəbəsində də müasir texniki avadanlıqlarla təchiz olunmuş kinoteatrlar fəaliyyətdə idi. 1970-ci ildən tikintisinə başlanmış Arpa çayı üzərimdəki su tutumu 150 milyon m^3, sahəsi 6,30 km^2 olan dəryaçanın sağ və sol suvarma kanalları 1977-ci ildə istifadəyə verilir.

Tarixin yaddaşına nəzər salaq: 1956-cı ildən yaradılmış Naxçıvan MSSR Sosial Təminat Nazirliyi (nazir Səkinə Rzalı idi) tabeliyindəki Sosial təminat Arteli (müdiri Yusif Zeynalov idi), Məişət Kombinatı (müdiri Lətifə Qafarova idi) və Əhaliyə Məişət Xidməti Kombinatı (müdiri Arif Hacyev idi) müəssisələri, planları artıqlaması ilə yerinə yetirirlər. Burada müxtəlif sənətlər üzrə gənc kadrlar da hazırlanırdı. Bundan başqa məişət əşyalarının kirayə verilməsi işi də fəaliyyət göstərirdi. Kombinatda əhalinin təminatı üçün saatsaz, bərbər, fotoqraf, dərzi, çəkməçi, dülgər, çilingər, zərgər, radio əşyaları təmiri üzrə ustalar xidmət göstərirdi. Əhaliyə müxtəlif məişət xidməti Kombinatının rayonlarda da xidmət sexləri açılmışdır.

Məişət Kombinatının kollektivi 1976-cı ilin aprel ayında Naxçıvan Vilayət partiya Komitəsi və Həmkarlar İttifaqları Şurasının “Keçici Qırmızı Bayrağı” ilə mükafatlanmış. Adları “Şərəf lövhəsi”nə düşən ustalardan, Q.İsfəndiyarov, T.Hüseynov, Y.Bağırov, H.Mürsəlov, Ə.Əliyev, F.Adıgözəlov, N.Məmmədov, Y.Səfərov, Q.Hüseynov, M.İsmayılov, C.Mehdiyev, R.Əsədullayev və başqalarını göstərmək olardı.

1975-ci ildə Ordubad şəhərində Azərbaycanın kimya sahəsində tanınmış alim Akademik Yusif Məmmədəliyevin (1905-1965) yubileyi münasibəti ilə əvvəllər yaşadığı evində ev-muzeyi yaradılmışdır. Muzeyin ekspozisiyasında 1.160 eksponat, o cümlədən də tarixi sənədlər, kitab və xatirə əşyaları nümayiş olunur. Həmin ildə Naxçıvan şəhərində Ü.Hacıbəyov adına Musiqi Texnikumu (direktoru Səidə Məmmədova idi) açılır. Orta ixtisas məktəbində həmin il xalq çalğı alətləri, orkestr alətləri, xanəndəlik və vokal ixtisasları üzrə şöbələr də fəaliyyət göstərmişdir. Texnikumun fəaliyyəti illərində Muxtar Respublikanın mədəni-maarif müəssisələrinə 1.000-dən artıq kadrlar yetişdirmişdi.

Tarixin yaddaşına nəzər salaq: 1976-cı ildə Azərbaycan Dəmir yolu İdarəsinin Qaradonlu şöbəsi, İmişli rayonundan Naxçıvana (rəisi A.Y.Hacıyev idi) köçürülmüşdür. Naxçıvan dəmir yolu stansiyasından hər gün "Araz" Bakı-Noraşen və "Dostluq" Bakı-Yeravan qatarları keçərək, həftədə bir gün isə "Naxçıvan-Moskva" tranzit (SV) vaqon qatarlara qoşulurdu. Müstəqillik illərində Azərbaycan Dövlət Dəmir Yolu Naxçıvan şöbəsi tərəfindən 1,2 mln. ton yük göndərilmiş, 24.445 vaqonlardan müxtəlif yüklər boşaldılmış və 70 mindən artıq sərnişin daşınmışdır. Təkcə son illərdə (1999) dəmir yolu nəqliyyatı vasitəsi ilə qonşu İİR-dan 22,4 min ton müxtəlif yüklər daşınmış və yük dövriyyəsi isə 4,8 mln. t/km olmuşdur.

1976-cı ildə Azərbaycanda xalq təsərrüfatının bütün sahələrində beşillik dövlət plan və tapşırıqlar yerinə yetirilir. SSRİ Həmkarlar İttifaqı Mərkəzi Şurasının qərarı ilə Azərbaycan Respublikası Ümumittifaq Keçici Qırmızı Bayraqla təltif olunur. Bu münasibətlə Azərbaycan SSR KP MK-in birinci katibi Heydər Əlirza oğlu Əliyev Sosialist Əməyi Qəhrəmanı adı ilə birgə həm də "Qızıl ulduz" ordeni ilə təltif olunur. Moskva hökuməti H.Ə.Əliyevi Azərbaycanda dönüş yaratdığına görə, Mərkəzi Komitənin Siyasi Bürosuna üzv seçirlər.

1977-ci ildə ölkədə Böyük Oktyabr sosialist İnqilabının 60 illiyi şərəfinə zərbəçi əmək həftələri keçirilir. Həmin illərdə Muxtar Respublikada mədəniyyət sahələri (nazir Vahid Bağırov idi) genişləndirilir. Belə ki, Naxçıvan şəhərində Oktyabrın 60 iliyi adına Uşaq mədəniyyət və istirahət Parkı (direktoru Musa İsmayılov idi) istifadəyə verilir. Parkda uşaqların istirahəti üçün əyləncə avadanlıqları, pnevmatik atıcılıq tiri, uşaq dəmir yolu stansiyası, motorlu qayıqlar üçün 700 metrlik məsafədə su kanalı, üzgüçülük hovuzu, fırlanğaclar, 500 məsafəlik avtodrom, "Bahar" yay kinoteatrı, "Şəlalə" qəhvəxanası, təcili foto xidməti və başqa mədəni xidmət sahələri yaradılmışdır.

Uşaq istirahət parkında tez-tez şəhər Komsomol Komitəsinin məktəblilər arasında maraqlı tədbirləri, siyasi disputlar, yaradıcı adamlarla görüşlər, şeir və mahnı və asfalt üzərində rəsm müsabiqələri keçirilir. Həmin illərdə Naxçıvan Vilayət Komsomol Komitəsinin (katibi Eldəniz Əliyev idi) təşkilatçılığı ilə yeni tikilmiş Muxtar respublika Pioner və Məktəblilər Sarayı (direktoru Nizami Həmzəyev idi) məktəblilərin ixtiyarına verilir. (Məktəblilərin ekskursiyalara getməsini təmin etmək məqsədi ilə xüsusi avtobus da hədiyyə edilir- F.B.).

Tarixin yaddaşına nəzər salaq: 1949-59-cu illərdə E.Telman adına Pionerlər Evinə Nəriman Sadıqov, Ələviyyə Musayeva, Hüseyn Rəhimov, İdris Səlimov, və başqa müəllimlər rəhbərlik etmişlər. Həmin illərdə məktəbdənkənar uşaq tərbiyə müəssisəsində, "Rəsm", "Xor", "Rəqs", "Xalq çalğı alətləəri", "Foto", və başqa dərnəklər fəaliyyət göstərirdi. kimi fəaliyyət göstərən Məktəblilər Sarayı, Naxçıvandakı Xalq Maarifinin (nazir Əli Hüseynov idi) inkişafında böyük rol oynamışdır. Belə ki, burada gənc nəslin təlim və tərbiyəsi ilə məşğul olan pedaqoqlar, şöhrətli sənətkarların inkişafına səbəb olmuşdur.

Burada öz sənətini sevən bacarıqlı və qayğıkeş müəllimlər olmuşdur. Onlardan İdris Səlimov, Məmməd Qasımov, Rəşid Məmmədov, Məmməd Məmmədov və başqalarını nümunə göstərmək olar. Cəbhədə iki gözünü itirmiş Səfər Rəcəbov (1915-1968) İkinci Dünya müharibəsinin veteranı kimi musiqi duyumunu saxlaya bilmiş və öz qabiliyyətini həvəslə məktəbli uşaqlara tar, kaman dəf və qaval alətləri ifaçılığından dərs verməyə sərf edirdi. 1951-ci ildən Pionerlər evində 5.000 sayda kitab, qəzet və jurnallar saxlanılan "Uşaq kitabxanası" yaradılmışdır. Kitabxanada müəllimələrdən Zeynəb Babayeva və Solmaz Əsgərova yazıçı görüşləri ilə bədii kitabların müzakirəsini keçirirdilər. (1949-cu ilədək E.Telman Klubunda kinofilmlərin nümayişi olmuşdur. 1945-ci ildə ilk dəfə rejissor Rza Təhmasibin lentə çəkdiyi "Arşın mal alan" səsli filminin gündüz seanslarına məktəblilər də baxmışlar- F.B.).

Naxçıvan Muxtar respublikasının usta vokal sənətkarlarından söz düşəndə, heç şübhəsiz, Naxçıvan MSSR (1974) və Azərbaycanın (1989) Əməkdar artisti Yaşar Səfərovn (1940-2007) adını xüsusi çəkmək lazımdır. Y.Səfərov yeniyetmə çağlarından Naxçıvan şəhər Pionerlər Evinin fəallarından olmuşdur. 1951-ci ildə ilk dəfə Pionerlər Evinə qədəm qoyan Yaşar, orta məktəbi bitirənədək M.Məmmədovun rəhbərlik etdiyi "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının solisti olmuşdur. (R.Kərimov, "Naxçıvan musiqi mədəniyyəti tarixindən" Bakı-2006).

1978-ci ildə Azərbaycan SSR də (sonra isə Naxçıvan MSSR-də) Dövlət Konstitusiyası (Əsas Qanun) qəbul olunur ki, bu respublikada sayca 3-cü Əsas Qanun idi.

Tarixin yaddaşına nəzər salaq: 1978-79-cu dərs ilində Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna, (direktoru Bayt. elm. namiz. Cəlal Bağırov (1928-1997) idi), müharibə Qəhrəmanı N.Rəfiyevin adı verilərək, Sovxoz-texnikum olur. Şıxmahmud kəndindəki əvvəlki M.Hüseynzadə adına toxumçuluq sovxozunun təsərrüfat sahələri, təcrübə üçün sovxoz-texnikumun tələbələrinə verilir.

Naxçıvan Sovxoz-texnikumun kollektivi, SSRİ Kənd Təsərrüfatı Nazirliyinin Keçici Qırmızı Bayrağı ilə təltif olunaraq, əkinçilik və heyvandarlıq sahəsində qalib çıxır. Təsərrüfatın çobanı Əhməd Mustafayev Lenin ordenı ilə mükafatlanaraq, SSRİ Ali Sovetinə deputat seçilir. Çobanlardan Balabəy Abdullayev isə ”Balbas” cinsli qoyundan 4 əkiz bala alaraq, “SSRİ-nin Əməkdar heyvandarı” fəxri adı ilə, “Volqa” (QAZ-31) markalı minik maşını da hədiyyə edilir. Sovxoz-texnikumun pedaqoji kollektivinə, Naxçıvan şəhərində 50 mənzilli 5 mərtəbəli ictimai yaşayış binası tikilmişdir.

Tarixin yaddaşına nəzər salaq: 1962-ci ilin dekabrın 10-dan Azərbaycan Tarixi Abidələrinin Mühafizə Cəmiyyətinin Bakıda keçirilmiş 2-ci Qurultayında, Nax. MSSR və DQMV-də ictimai əsaslarla şöbələrin yaradılmasına qərar qəbul olunur. Həmin illərdə Naxçıvan (sədri Qurban Xəlilov idi) Muxtar respublikada 450 tarixi abidə qeydə alınmışdır.

1978-ci ildən isə Muxtar Respublika Ali Sovetin qərarı ilə sərbəst surətdə Tarixi Abidələrin Mühafizəsi Cəmiyyəti (sədri Qadir Həsənov idi) yaradılanda Muxtar respublikada 750 Tarixi və Arxeoloji abidə öyrənilərək qeydə alınmışdır. Cəmiyyətin fəaliyyəti dövründən Naxçıvandakı mədəniyyət abidələri haqqında buklet və məlumat kitabçaları yazılıb nəşr edilmişdir. Cəmiyyət bilavasitə Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Abidələr üzrə Elmi Bərpa İdarəsi və Azərbaycan EA Naxçıvan Bölməsi ilə, abidələrin qeydiyyatında, mühafizə və bərpasında əlaqə saxlayar. (“Naxçıvan Abidələri Ensiklopediyası”, Bakı-2008; “Naxçıvan MR Tarixi və Arxeoloji Abidələri haqqında məlumat kitabı”, (“Qızıldağ” nəşriyyatı) Naxçıvan-2009).

1978-ci il 27 sentyabr tarixindən Naxçıvan rayonu Babək adlanaraq və yeni salınmış Təzəkənd yaşayış yeri, Babək qəsəbəsi adlandırılır. Həmin tarixdən Muxtar respublika tabeliyindəki Ordubad və Culfa rayon mərkəzləri də, şəhər adlandırılmışdır.

1979-cu ildə Culfa şəhərindən 8 km- aralıda Darıdağ mineral su yatağı ərazisində Darıdağ Balneoloji Müalicəxanası tikilərək istifadəyə verilmişdir. Həmin ilin axırlarında isə Naxçıvan şəhəri yaxınlığındakı Duzdağ mağarasında Fizioterapiya Müalicəxanası yaradılmışdır.

1979-cu ildə Naxçıvan şəhərində iri sənaye mərkəzlərindən biri də Naxçıvan Taxıl Məhsulları Kombinatında (direktoru Əli Əliyev idi) taxıl məhsulları emalına və un ustalarına dair əsas və yardımçı sexlər yaradılmışdır.

Kombinatda 30 min ton tutumu olan elevator sexləri yaradılaraq, gündə 245 ton buğda emal etmək və 185 ton isə un üyütmək gücünə malik avadanlıqlar quraşdırılır. Həmin ildən istifadəyə verilmiş Naxçıvan Şüşə qablar Zavodunda (direktoru Abbas Talıbov idi) 500 nəfərədək fəhlə və qulluqçu işləyərək, şüşə butulkalarla bərabər məişət keramik qablar da istehsal olunur. Zavodun əsas istehsal gücü ildə 60 milyon ədəd 0,5 litrlik şüşə butulka məhsulları buraxmaq idi. Sonrakı illərdə (1990-cı ildən) Muxtar respublika əraziləri Ermənistan tərəfdən qaz və elektrik enerji blokadasına salındığından zavodun istehsal gücü azalmağa başlamışdır.

1980-ci ildə Naxçıvan şəhərində Bakı və Moskva radio-televiziya kanallarının yayımlanması üçün 285 km-lik Yevlax-Şuşa-Naxçıvan radio rele xətti çəkilərək işə salınmışdır.

1980-ci ildən Kommunal Təsərrüfatı Nazirliyinin tabeliyində Naxçıvan şəhər Yaşıllaşdırma İdarəsi (müdiri Bəylər İbrahimov idi) yaradılır. Sonrakı illərdə şəhər İcra Hakimiyyəti tabeliyindəki olan müəssisənin kollektivi, Naxçıvan şəhərindəki park və xiyabanlarda çoxillik meşə ağacları, dekorativ bəzək kolları və ətirli güllər əkməklə şəhərin ekoloji problemlərini aradan götürmüşlər. İdarə kollektivinin zəhməti ilə Naxçıvan şəhərindəki "Əcəmi seyrəngahı", "Uşaq istirahət parkı", Mərkəzi mədəniyyət və istirahət parkı, və başqa istirahət guşələrində yaşıllaşdırma işləri gözoxşayandır. Naxçıvana gələn qonaqları şəhərin tarixi memarlıq abidələri ilə yanaşı həmişəyaşıl dekorativ bitkilər də məftun edir. Bu işdə idarə və təşkilatların işçiləri də "yaşıllıq dostlarına" qoşularaq iməcilik yolu ilə qədim Naxçıvan diyarına qayğı göstərirlər.

1980-cı ilin 28-30 mart tarixində Azərbaycan SSR-in yaradılmasının 60 illiyi münasibəti ilə Bakı şəhərində Naxçıvan MSSR günləri keçirilir. Bakılılar Naxçıvanlı qonaqları dəmir yolu vağzalında gül çiçəklə qarşılamış, "Xalqlar dostluğu parkında" ağac əkmişdilər. Həmin günün axşamı Azərbaycan Dövlət Akademik opera və balet teatrında təntənəli gecə iştirakçılarına geniş proqramda konsert verilir. Üç gün müddətində bakılılar Naxçıvan incəsənət ustalarının çıxışlarına, rəssamlarının rəsm işləri, yazıçılarının yaradıcılığı ilə tanış olurlar.

Hələ 1978-ci ildən ictimai əsaslarla yaradılmış Noraşen rayon Tarix-Diyarşünaslıq Muzeyi (direktoru Abdulla Qurbanov idi), 1980-ci ildən Mədəniyyət Nazirliyinin öhdəsində mədəniyyət müəssisəsi kimi fəaliyyətə başlayır. Muzeyin 9 bölməsində 5.500-dən artıq eksponat nümayiş etdirilir. Son illərdə muzey binasında yenidənqurma işləri aparıldığından, fondlar zənginləşdirilmiş və muzeyə gələnlərin marağına səbəb olmuşdur. Həmin ildən (1980) Culfa şəhərində də rayon Tarix-diyarşünaslıq muzeyi yaradılmışdır. Mədəniyyət Nazirliyinin öhdəsindəki mədəniyyət müəssisəsinin 5 şöbəsində 2.000-dən çox eksponat vardır. Muzeydəki rayon ərazilərindən arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri, tamaşaçıların daha çox marağına səbəb yaradır. (Müstəqillik illərində muzeyə İranlı vətəndaşların da maraqları artmışdır- F.B.).

1980-ci ilin sentyabr ayında Bakıdan Naxçıvana çəkilmiş qaz boru kəməri, 320 km-lik Yevlax-Stepanakert-Naxçıvan magistral xətti Naxçıvan şəhərindəki Pioner və Məktəblilər Sarayı binası qarşısında təntənəli açılışı olmuşdur. Tezliklə Naxçıvan şəhərində 8403 mənzil qazla təmin olunmuşdur.

1980-ci il sentyabrın 1-dən Naxçıvan şəhərində Uşaq İncəsənət Məktəbi (direktoru Azər Abbasov idi) açılır. 60 şagirdi olam məktəbdə musiqi ixtisasları üzrə Fortepiano, Xalq çalğı alətləri Xoreoqrafiya və Təsviri incəsənət sinfi yaradılır. Bilik və bacarığına görə məktəbin müəllimlərindən R.Xəlilov, Z.Məmmədova, Z.Yusifova, T.Babayeva, F.Bağırov, O.Məmmədov, A.Məmmədov, A.Yusifova və başqaları nümunəvi pedaqoji qabiliyyətlərinə görə seçilirdilər.

Məktəbin keçmiş məzunlarından bir neçəsi, müvafiq ali və orta ixtisas təhsili aldıqdan sonra bir vaxtlar müəllimlərindən öyrəndiklərini şagirdlərə həvəslə öyrədirlər. Həmin pedaqoqlardan Mətanət Mahmudova, Ruqiyyə Abbasova, İlahə Əliyeva, Şəhanə Bağırova, Məryəm Hüseynova, Səkinə Həsənova və başqalarını nümunə göstərmək olar. Uçaq İncəsənət Məktəbinin kollektivi Muxtar respublika baxış müsabiqələrində uğurlu çıxışlarına görə dəfələrlə Mədəniyyət və Turizm Nazirliyinin “Diolom” və “Fəxri Fərman”larını qazanmışdır.

1980-ci il oktyabrın 27-də Naxçıvanda Azərbaycan milisinin 60-cı ildönümü münasibəti ilə təntənəli tədbirlər keçirilir. Naxçıvan MR Daxili İşlər Nazirliyi (nazir polkovnik Yusif Əbülhəsənov və Təhlükəsizlik İşləri şöbə rəisi polkovnik Allahverdi Sarıyev idi) əməkdaşlarından bir qrupuna dövlət təltifləri verilir. Həmin ilin 26 dekabr tarixində isə Naxçıvandakı "Sovet Naxçıvanı" Vilayət qəzetinin (redaktoru Sənubər Kərimova idi) (həmin illərdə qəzet rus dilində "Sovetskaya Naxiçevan" adı ilə də çıxırdı) 60 illiyi qeyd olunur. Yubiley günlərində qəzetin mətbəəsində rəngli "Rotasiya" çap maşını işə salınır. Uzun illər qəzetdə çapçısı işləyən Firdovsi Bağırov (1923-1993), "Əməkdar poliqrafçı" fəxri adını almışdır. Həmin illərdə Naxçıvan Muxtar Respublikasında artıq 5 adda (Culfada "Zəfər", Ordubadda "Yeni Ordubad", İliçdə "İşıqlı yol", Babəkdə "Əmək bayrağı", və Şahbuzda isə "Yüksəliş") qəzetlər nəşr olunurdu.

Muxtar Respublikanın Dövlət bayrağında 3 sayda orden asılmış. Naxçıvan zəhmətkeşləri beşillik dövlət planları, siyasi, iqtisadi və sosial mədəni quruculuq sahəsində nailiyyətlərə görə Ümumittifaq Sosializm Yarışının qalibi kimi Keçici Qırmızı Bayraq mükafatı almışlar. Belə ki, şəhər və rayon mərkəzləri abadlaşmış, yeni yaşayış binaları tikilmiş və mikrorayon sahələri genişlənmişdir. Həmin illərdə Muxtar respublikanın siyasi xəritəsinə İliç şəhəri ilə Babək qəsəbəsi də əlavə olunmuşdur...

1981-ci ilin əvvəlində Muxtar respublikada ticarət və ictimai iaşənin yaxşı təşkilinə görə 3 dəfə Azərbaycan KP MK-nın, Nazirlər Sovetinin, Həmkarlar İttifaqları Şurasının və Azərbaycan LKGİ MK-nin keçici Qırmızı bayrağı ilə mükafatlanmışdır.

1981-ci ilin əvvəlindən Azərbaycan Teatr Cəmiyyətinin Naxçıvan Şöbəsi (ictimai əsaslarla sədri Cəlil Vəzirov idi) yaradılır. 1948-ci ildə Bakıda yaradılmış Cəmiyyətin əsas vəzifəsi Azərbaycanda teatr sənətini daha da inkişaf etdirmək, bölgələrdəki teatrları təbliğ etmək və onlarla yaradıcılıq əlaqələri qurmaqdan ibarət idi. Bundan başqa Cəmiyyətin xətti ilə görkəmli aktyorlar haqqında yazılmış kitab və xatirələri nəşr etdirir.

1981-ci ilin aprel ayından SSRİ hökumətinin qərarı ilə ölkə daxilindəki coğrafi saat qurşaqlarında yaz-payız mövsümündə, bir saat irəli və geri çəkilməsi tətbiq olunur.

1981-ci ildə Naxçıvan MSSR-nin kooperatorları xalq təbabətində işlədilən dərman məqsədli bitki və heyvan dərisi satmaq məqsədilə xarici ölkələrlə əlaqə yaratmışlar. Onlar Çexoslovakiyaya 7 ton kəklikotu, AFR-na 10 ton yemişan, Yuqoslaviyaya 20 ton itburnu və İtaliyaya isə 20 min ədəd müxtəlif heyvan dərisi satmışlar.

1981-ci ildə Azərbaycan Nazirlər Sovetinin sədri vəzifəsinə Həsən Nemət oğlu Seyidov (1932-2004) keçmişdir. 1981-ci ilin 22 oktyabr tarixində Naxçıvan şəhərində sərkərdə Cəmşid Naxçıvanskinin (1895-1938) ev muzeyi (direktoru Oruc Rüstəmov idi) açılır. Muzey 1918-20-ci illərdə Araz (Türk) Respublikasının keçmiş inzibati binasında yaradılır. Muzey 320 m2 sahəsi olmaqla iki ekspozisiya və üç zal ilə bir yardımçı otaqlardan ibarətdir. Muzeydə sərkərdənin həyat və fəaliyyətindən danışan 4.500-ə yaxın müxtəlif tarixi sənədlər qorunub saxlanılır.

Muzeyin açılışında qocaman komsomol və partiya veteranı Qasım Tağıyev (1903-1987), sərkərdənin həyatı və 1918-ci ildə erməni daşnaklarının Naxçıvan ərazilərinə basqını və xalqımıza qarşı amansızlığından danışaraq gənclərə vətənpərvərlik ideyalarını yada salmışdır. (F.Bağırov, "Nuh yurdu Naxçıvan" Bursa-1999). Həmin ildən Muxtar respublika Xalq Maarif Nazirliyinin tabeliyində olan Naxçıvan Şahmat Məktəbi (direktoru Sultan Qədimov idi) yaradılır. Məktəbin açılış mərasimində Heydər Əliyev də iştirak edərək gənc idmançıları təbrik etmişdir. Sonrakı illərdə Uşaq- gənclər Şahmat Məktəbinə yeni 3 mərtəbəli yaraşıqlı bina tikilib istifadəyə verilmişdir. Məktəbə 1990-cı ildən Əməkdar bədən tərbiyəsi və idman xidməti xadimi, Respublika Ali kateqoriyalı məşqçi-müəllim Həsən Abbasov rəhbərlik edir.

Məktəbdənkənar uşaq müəssisəsində 600 şagirddən 34 qrupu idmanın şahmat növü üzrə məşqlər keçirək yarışlara ciddi hazırlaşırlar. 2000-ci ilin Dünya (Avropa) idman çempionatında Naxçıvan şəhərindəki 11 №-li məktəbin şagirdi Vüsal Abbasov, çempionatın qalibi çıxmışdır. Fərəhləndiricidir ki, Şahmat Məktəbinin şagirdlərindən S.Əlizadə, R.Rəhimov, T.Əliyeva və başqaları həmin çempionatda iştirak etmək hüququ qazanmışlar. Naxçıvan Uşaq-gənclər Şahmat Məktəbi, elmi fəaliyyəti və yüksək əmək intizamı ilə idman ustası adını qazanmış bacarıqlı pedaqoji kadrlar da yetişdirir. Onlardan əvvəllər məktəbin şagirdləri olmuş ustalığa namizəd Talıb Babayev, Elmira Xəlilova, Fəridə Ələsgərova, Emin Hacıyev, Fətulla Həmdiyev və digər usta müəllimlərin adını çəkmək olar.

1981-ci ildən Ordubad şəhərində orta əsrlərdən qalma Cümə məscidi binasında Tarix-Diyarşünaslıq Muzeyi yaradılır. Muzeyin 8 şöbəsində 4.000 yaxın eksponat toplanılır. Rayon rəhbərinin səhvi üzündən məscid binasında yaradılmış muzey, Ordubad şəhər sakinlərinin etirazlarına səbəb olduğundan sonradan orta əsrlərdən qalma tarixi "Zorxana" binasına köçürülmüşdür.

Tarixin yaddaşına nəzər salaq: 1982-ci ilin 22-28 fevral tarixində Azərbaycan KP İliç rayon komitəsi (katib Tahir Əliyev idi), Azərbaycan SSR Mədəniyyət Nazirliyi Respublika Xalq yaradıcılığı və mədəni-maarif işi üzrə Elmi-Metodik Mərkəz, Mədəniyyət işçilərinin Respublika İxtisasartırma Kursu və Naxçıvan MSSR Mədəniyyət Nazirliyi ilə birgə, SSRİ-nin təşkil edilməsinin 60 illiyi münasibəti ilə "Hərbi Vətənpərvərlik həftəsi" keçirilir;

Həftənin 1-ci günündə təntənəli açılışdan sonra İliç rayon Xalq teatrı kollektivinin iştirakı ilə yazıçı İ.Məlikzadənin "Oyanmış xatirələr" povesti əsasımda (rejissoru Abdulla Qurbanov idi) tamaşa göstərilmiş.

Həftənin 2-ci günündə rayondakı gənc rəssamların əl işlərindən ibarət sərgi açılmış, "Üfüqdə parıltı" ilə "Qartal balası" hərbi-idman oyunlarının müsabiqəsi və "Heç kim unudulmur, heç nə yaddan çıxmır" mövzusunda tematik gecə keçirilmişdir.

Həftənin 3-cü günündə Rayondakı müharibə veteranlarının xatirəsinə ucaldılmış abidə qarşısında veteranlarla çağırışçı gənclərin görüşü keçirilir.

Həftənin 4-cü günündə "SSRİ-in 50 illiyi" adına Qırmızı bayraqlı kolxozda "Dostluq" uşaq avtoşəhərciyin açılışı olaraq və hərbi vətənpərvərlik mövzulu bədi filmə kütləvi baxmış olur.

Həftənin 5-ci günündə Rayondakı Kirov adına kolxozda Xalqlar dostluğu muzeyinin açılışı olaraq, "Gənclərin hərbi vətənpərvərlik tərbiyəsində mədəni-maarif müəssisələrinin rolu" mövzusunda elmi-nəzəri konfrans keçirilmişdir.

Həftənin 6-cı günündə sərhəd zastavasında sərhədçilərlə rayon komsomolçu-gənclərin görüşü olaraq, obrazlı ədəbi səhnəciklər göstərilir.

Həftənin 7-ci günündə "Hərbi Vətənpərvərlik həftəsi"nin bağlamışı münasibəti ilə rayon Mədəniyyət evində konsert olur. Tədbirlərin təşkilatçıları İliç rayon Partiya Komitəsi ilə Rayon Hərbi Komissarı G.Rəhimov sərhəd zastavasının siyasi şöbə rəisi M.Keyfulin və Ümumittifaq festivalı laureatı A.Qurbanov olmuşdur.

1982-ci ilin yazında Azərbaycan KP MK-nin birinci katibi H.Ə.Əliyev (1932-2003), ikinci dəfə Naxçıvana gəlir. O, Naxçıvan şəhərindəki yeni yaradılmış "Döyüş şöhrəti muzeyi" ilə tanış olur, əmək və müharibə veteranları ilə görüşüb söhbət edir. Heydər Əliyev 1979-cu ildən tikintisinə başlanmış Naxçıvan çayı üzərindəki su tutumu 100.000 m3 olacaq "Vayxır su anbarı"nın inşaatçıları ilə görüşərək təkliflərini bildirir. Bundan sonra katib, bakılı nazir və mütəxəssislərlə birlikdə yenicə istifadəyə verilmiş Naxçıvan Alt trikotaj Fabrikində (müdiri Telman Məmmədov idi) olur. (Həmin il fabrikdə 1.500 nəfər işçi çalışaraq, illik istehsal gücü isə 9 mln. ədədə çatdırılmışdır).

Heydər Əliyev tikintisi davam edən Xalça fabriki, Mədəniyyət Sarayı və "Təbriz" mehmanxanasının inşaatçıları ilə də görüşüb təkliflərini bildirir. Ertəsi gün H.Əliyev H.Cavid və C.Naxçıvanskinin ev muzeylərində də olur. Bundan sonra H.Əliyev yeni yaradılmış Cavid poeziya Teatrı aktyorları ilə görüşür, sonra isə Mömінə Xatun məqbərəsinə tərəf gedərək "Əcəmi seyrəngahı" nı da seyr edir. Axşam üstü H.Əliyev yeni yaradılmış Uşaq Şahmat Məktəbində olduqdan sonra, naxçıvanlı rəssamların sərgisinə baxır. (Axşam H.Əliyev Siyasi Maarif Evindəki Muxtar respublika zəhmətkeşləri qarşısında çıxış edərək tikintilərdəki nöqsanlar haqqındakı irad və məsləhətlər demişdir)...

1982-ci ildə Naxçıvan Vilayət Partiya Komitəsinin rəsmi mətbuat orqanı olan "Şərq qapısı" qəzetinin (redaktoru Sənubər Kərimova idi) 60 illik yubileyi keçirilmişdir. Qəzetin və mətbəə işçilərinin qabaqcıl əmək adamlarına Azərbaycan SSR və Naxçıvan MSSR nin Fəxri adları verilmişdir. Həmin ildən Naxçıvanda tikinti materialları sənayesi müəssisələrindən biri olan Üzlük Plitələr Zavodu fəaliyyətə başlamışdır. Zavodun istehsal etdiyi tikinti materiallarına nəinki ittifaq daxilində, o cümlədən xarici dövlətlərdən də sifarişlər olurdu. Sonrakı illərdə həmin müəssisə Babək rayon Daş Emalı Zavodu adı ilə fəaliyyət göstərməkdədir.

1982-ci ildən Naxçıvan Muxtar respublika mədəniyyət sahəsində yeni bir ünvan-Dövlət Rəsm Qalereyası (müdiri Sərdar Urmuyev idi) yaradılır. Qalereyada Azərbaycanın görkəmli rəssamlarımdan M.Abdullayev, T.Salahov, O.Sadıqzadə, M.Rəhmanzadə, T.Nərimanbəyov, E.Şaxtaxtinskaya və başqalar sənətkarların boyakarlıq əsərlərinin daimi sərgisi qoyulmuşdu. Bundan başqa Qalereyada Naxçıvanlı rəssamlardan S.Qədimov, Ş.Qazıyev, B.Kəngərli, M.Qasımov, Y.Məmmədov və digər sənətkarların əsərləri nümayiş olunurdu.

> *"Bu rəsmi onunçün göstərdim ki, sən,*
> *Mənim də şəklimi aydın görəsən."*
>
> **(Nizami Gəncəvi)**

Mədəniyyət sahəsində yeni bir ünvan da zəhmətkeşlərin ixtiyarına verilir. Həmin ilin ortalarında Şahbuz rayon mərkəzində Tarix Diyarşünaslıq Muzeyi yaradılmışdır. Altı şöbədən ibarət olan muzeydə 3.500-dən çox eksponat toplanmışdı. Burada Xalq şairi Məmməd Arazın (1933-2004) həyat və fəaliyyətini əks etdirən guşə də yaradılmışdır. Məktəblilərin tətil günlərində muzey daha çox izdihamlı görünür.

“Ayaq saxla, dövrənə bax ötəri belə,
Min illərdir Araz belə, Həkəri belə.
Axşamların, səhərlərin təkəri belə,
Dünya sənin, dünya mənim, dünya heç kimin.”

(Məmməd Araz)

1982-ci ildə Azərbaycan xalqı Hüseyn Cavidin 100 illiyi münasibəti ilə mədəni-kütləvi tədbirlər keçirir. H.Əliyev şairin yeganə övladı Turan Cavidin xahişini nəzərə alaraq, İttifaq hökumətinin razılığı ilə 1937-ci ildə repressiyaya məruz qalmış mərhumənin cənazə sümüklərini vətəninə gətirtdirir. Həmin ilin 3 noyabr tarixində İrkutskdan gətirilən H.Cavidin nəşinin sümük qalıqları Naxçıvanda torpağa basdırılır...

“Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü.”

(Hüseyn Cavid)

Həmin ilin əvvəlindən Naxçıvan şəhərində Azərbaycan dramaturqu repressiya qurbanı olmuş Hüseyn Cavid Rəsizadənin (1882-1941) doğulduğu evində ev muzeyi (direktoru Bəhruz Axundov idi) yaradılır. 1984-cü ilin 9 iyun tarixində muzey rəsmi surətdə açılsa da 2000-ci ildə ekspozisiyasında yenidən qurma işləri aparılaraq, və 6.000 yaxın eksponat toplanmışdır. Muzeyin ekspozisiyasında Məmmədcəfər Cəfərov, Abbas Zamanov, Mehdi Məmmədov, Yaşar Qarayev, Rafael Hüseynov, Yavuz Axundlu, İsa Həbibbəyli, Zahid Əkbərov, Əjdər İsmayılov və başqalarının kitabları və xatirələri toplanmışdır.

Muzey Cavid sevənlərin və məktəbli uşaqların sevimli elmi-bilik mənbəyidir. Burada tez-tez Hüseyn Cavidlə bağlı yadda qalan mədəni kütləvi tədbirlər də keçirilir. Muzeyin ekspozisiyasının yaradılmasında teatrşünas Tamilla Təhmasib və ədəbiyyat muzeyinin elmi işçisi Əməkdar mədəniyyət işçisi Xanım İsmayılovanın zəhmətləri olmuşdur. Sonrakı illərdə muzeyin yaxınlığındakı H.Cavidin məqbərəsində, Bakıdan şairin həyat yoldaşı Müşkünaz xanımla Naxçıvan şəhər qəbiristanlığından isə oğlu Ərtoğrulun məzar sümükləri gətirilmişdir. Daha sonra isə Bakıda vəfat etmiş H.Cavidin qızı Turan Cavidin də cənazəsi Naxçıvana gətirilərək, məqbərədə dəfn olunmuşdur.

1982-ci ilin 10 noyabr tarixində Sovet dövlətinin başçısı L.İ.Brejnev vəfat etdikdən sonra həmin vəzifəyə Y.İ.Andropov (1914-1984) seçilir. Brejnevin ölüm xəbəri ilə əlaqədar, bütün Sovet xalqı matəm saxlayır. Həmin ilin 19 noyabr tarixində Bakıda Azərbaycan Həmkarlar İttifaqları Şurası (AHİŞ), Azərbaycan SSR Mədəniyyət Nazirliyi və Azərbaycan Kinematoqrafçılar İttifaqı ilə birlikdə, SSRİ-nin yaranmasının 60 illiyinə həsr olunmuş həvəskar kino filmlərin Respublika müsabiqəsi keçirilir. (Müsabiqədə Naxçıvandakı həvəskar kino kollektivlərinin çəkdiyi "Mən çalacağam" (müəllifi A.Qədimov) və "Naxçıvan toyu" (müəllifi F.Bağırov) filmlərinə Fəxri Diplomlar verilmişdir).

1982-ci ilin dekabr ayının əvvəlindən iki dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri ad almış Heydər Əlirza oğlu Əliyev, SSRİ Ali Sovetinin sədr müavini vəzifəsinə irəli çəkilərək Mərkəzi Komitənin Siyasi Bürosuna üzv olur. Həmin tarixdən də Azərbaycan SSR KP MK-nin birinci katibi vəzifəsinə Kamran Məmməd oğlu Bağırov (1933-1997) təyin olunur.

1982-ci ilin dekabr ayının 11-də Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi və Naxçıvan MSSR Ali Soveti tərəfindən Naxçıvan Dövlət Dram Teatrında, SSRİ-nin 60 illiyi münasibəti ilə "İllərin estafeti" adlı təntənəli yığıncaq keçirilmişdir.

Sovet dövlət başçısı Y.V.Andropov ölkədəki əmək intizamını bərpa edərək, rüşvətxorluqla mübarizəni gücləndirir. Ölkənin hər yerində olduğu kimi Naxçıvan Muxtar respublikasında da Xalq Nəzarəti Komitəsinin (sədri Şəkkül Məmədov idi) səlahiyyəti gücləndirilir. Ölkədəki daxili siyasətdə ciddi intizam yaradılaraq, istehsalat sahələrindəki məsuliyyət artırılır. (Xarici imperialist qüvvələr, öz soyuq müharibə planlarından əl çəkməyərək, ələ aldıqları Sovet ittifaqının vəzifəli şəxslərdən istifadə edirlər)...

1983-cü ildə Azərbaycan SSR EA-nın Prezidenti Fizika-riyaziyyat elmləri Doktoru Eldar Yunis oğlu Salayev (1934-1996) olur. Həmin ilin aprelin 21-də Naxçıvandakı Dövlət Dram Teatrında Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi tərəfindən V.İ.Leninin anadan olmasının 113-cü ildönümünə həsr olunmuş Naxçıvan ictimaiyyəti nümayəndələrinin təntənəli iclası keçirilir. Həmin ilin payızında Azərbaycanın cənub-qərb və DQMV ilə Naxçıvan MSSR ərazilərinə Bakıdan qaz kəməri çəkilərək istifadəyə verilmişdir. Naxçıvanda əhalini qaza olan tələbatını ödəmək məqsədi ilə boru qaz xətləri çəkilməsində Muxtar Respublika Zona İstehsalat Qaz Birliyinin (sədri Nəriman Məmmədov idi) xidmətləri uğurlu olmuşdur. Bakıdan Ağdama oradan da çətin keçilən dağ yolları ilə Naxçıvana boru ilə qaz kəməri çəkilir. Naxçıvan şəhərində Qaz İdarəsinin (müdiri Adil Məmmədov idi) təşkil etdikləri açılış mərasimi toplantısında, Məktəblilər Sarayının qarşısındakı "Məşəl abidəsi"ndə mavi alov yandırılmışdır.

1983-cü ildən Naxçıvan Taxıl Məhsulları Kombinatında (müdiri Qasım Qasımov idi) gün ərzində 200 ton qarışıq yem istehsal edən sex işə salınır. Sexin istehsal məhsulları Muxtar respublikadakı quşçuluq təsərrüfatlarına qüvvəli yem hazırlamaqla əhalinin toyuq ətinə olan tələbatını ödəyir.

1983-cü ilin 20 oktyabr tarixində Naxçıvan Vilayət Həmkarlar İttifaqları Şurasının İttifaqlararası özfəaliyyət yaradıcılığı Evi və Naxçıvan şəhər Uşaq İncəsənət Məktəbi şagirdlərinin, Naxçıvan MSSR-nin 60 illiyi münasibəti ilə "Muxtar respublika uşaqların gözü ilə" mövzusunda yaradıcılıq sərgisi açılır. Sərgidə "Təsviri incəsənət" şöbəsinin 3-cü sinif şagirdi Musa Bağırovun rəngkarlıq işləri tamaşaçıların zövqünü oxşadığından "Fəxri Fərman"la mükafatlanır. (Həmin ayda C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında, Azərbaycanın Əməkdar artisti Əkbər Qardaşbəyovun (1923-2001) anadan olmasının 60, səhnə fəaliyyətinin isə 40 illiyi qeyd olunmuşdur- F.B.).

1983-cü ilin noyabr ayının 25-də Azərbaycan və Ermənistanın Əməkdar incəsənət xadimi Baxşı Qələndərlinin (1903-1989) anadan olmasının 80 və səhnə fəaliyyətinin də 50 illik yubileyi keçirilir. Həmin ilin dekabr ayında Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin təşkil etdiyi Naxçıvan MSSR-nın 60 illiyinə həsr edilmiş Muxtar respublika "Ailə ansamblları ilə bədii təşviqat briqadaları"nın baxış-müsabiqə qaliblərinin yekun konserti olmuşdur...

1984-cü ildə Naxçıvanda ümumi həcmi 58 min m2 olan blok seksiya yaşayış binaları tikmək üçün 5 №-li Naxçıvan Tikinti Tresti nəzdində İripanelli Evtikmə Kombinatı (direktoru Talıb Əlixanbəyov idi) yaradılır. Kombinat Naxçıvan şəhərindəki "Yeni Naxçıvan" yaşayış sahəsində 9 mərtəbəli yaşayış evlərinin tikintisinə başlayır. (Sonrakı illərdə Muxtar respublika Ermənistan tərəfindən iqtisadi blokadaya düşdüyündən Kombinatdakı işlərin sürəti azalmışdır- F.B.).

1984-cü ilin yazında Y.V.Andropov müəmmalı surətdə vəfat edir. Tezliklə Sovet İttifaqına Siyasi büronun üzvü, əvvəllər müəllim işləmiş K.U.Çernenko (1916-1985) yüksək rəhbər seçilir. Həmin il Moskvada Sov.İKP MK-nin XXVI Qurultayı çağırılır. Qurultayda əsas məsələ ölkədəki təhsil sistemini nizamlamaq və gerilikləri aradan qaldırmaqdan ibarət olur. Təhsil sisteminin təkmilləşdirilməsi, müəllim kadrlarına qayğı və əmək haqqının yüksəldilməsi məsələsinə diqqət artırılır.

1984-cü ildə Muxtar respublikada 6.500 nəfərdən çox müəllim (nazir Elmira Qasımova idi) olmuş, onların 170 nəfəri Əməkdar müəllim, 52 nəfər Baş müəllim və 25 nəfər isə Metodist müəllim fəxri adlarına layiq görülmüşdür. Yüzlərcə müəllim "SSRİ-nin əlaçı maarif işçisi" fəxri döş nişanına da layiq görülmüşdür. Müəllimlərdən bir nəfəri İttifaq, bir nəfəri Azərbaycan və iki nəfəri isə Muxtar respublikaya deputat seçilmişlər. Babək rayonundakı Didivar kənd orta məktəbin müəllimi İsrafil Şükürov (1924-1994), "SSRİ-nin Xalq Müəllimi" fəxri adını almışdır.

Tarixin yaddaşına nəzər salaq: 1980-84 cü illərdə Naxçıvan respublikasında mədəniyyət sahəsində (nazir Rəşid Qazıbəyov (1926-1989) idi) inkişaf yaradılmışdır. Belə ki Naxçıvandakı Xalq Yaradıcılığı Evinin bazası əsasında Muxtar respublika Elmi-Metodik Mərkəz (direktoru Məmməd Musayev idi) yaradılır. Mərkəzin mütəxəssisləri özfəaliyyət kollektivləri ilə əlaqə saxlayaraq baxış-müsabiqələr keçirməklə yeni istedadlar aşkar olunur.

Muxtar respublikada mədəniyyət sahəsini inkişaf etdirmək üçün yeni müəssisələr də yaradılmışdır. Həmin illərdə Dövlət Mahnı və Rəqs Ansamblı, Xalq teatrı, Xalq Konservatoriyası, Aşıqlar birliyi, Poeziya teatrı, Uşaq incəsənət Məktəbi, Rəsm qalereyası, Asudə vaxt mərkəzi, "Gənclik" həvəskar kinostudiyası, Təqaüdçülər klubu və digər müəssisələr fəaliyyətə başlamışdı. Bundan başqa Naxçıvan Vilayət Həmkarlar İttifaqları Şurasının "Ozan" klubu, Diskoteka əyləncə Mərkəzi, "Əcəmi" həvəskar kinostudiyası və başqa müəssisələr də xalqın xidmətinə verilmişdir.

XVIII əsrin 70-ci illərindən başlayaraq XX əsrin ortalarınadək Naxçıvanda el aşıq və xanəndələri olmuşdur. Onlardan Ağ Aşıq, Aşıq Cəlil, Aşıq Nəcəfalı, Aşıq Abbas Dəhri, Məşədi Əsəd, Məşədi Həsən, Məşədi Əbil, Məşədi İsmayıl, Həsənqulu, İdris Nağıyev və başqalarını adını çəkmək olar. Xanəndələrdən Məşədi Həsənlə Həsənqulunun ifasındakı "Heyratı", Məşədi Əbilin "Çahargah", Məşədi İsmayılın "Şahnaz" və "Qatar", İdris Nağıyevin "Şur" muğamları dinləyiciləri həmişə heyran qoyurdu.

Keçən əsrin 50-ci illərdə Naxçıvanda çox hörmətlə tanınmış Baxşəli Əli oğlu Əliyev (1866-1970) məlahətli səsi ilə toy məclislərində şöhrət tapmışdır. (1905-ci ildə Kərbəlayi Baxşəlinin ifasındakı "Şur" və "Segah" muğamları Tiflisdə qrammofon vallarına yazılmışdır). (R.Kərimov, "Naxçıvan musiqi mədəniyyəti tarixindən" Bakı-2006).

1984-cü ildə Mahnı və Rəqs Ansamblının bazası əsasında yeni yaradılmış Dövlət Filarmoniyasında (direktoru Məmməd Hümbətov idi) xalq çalğı alətləri, nəfəsli alətlər və kamera musiqisi şöbələri fəaliyyət göstərmişdir. Filarmoniyanın kollektivi tez-tez qonşu respublikalara qastrol səfərlərinə gedərək, Azərbaycan mədəniyyətini təbliğ edirdi.

Əvvəlki illərdə filarmoniyada bacarıqlı müğənnilərdən E.Mehdiyev, F.Qasımov, Q.İsmayılov, N.Nəbiyev, A.Babayev və başqaları istedadlarını gənclərə həvəslə öyrədirdi. Gənc müğənnilər bazar günlərində istirahət parkındakı tədbirlərdə öz ifaçılıq sənəti ilə dinləyiciləri sevindirirdi. (Naxçıvan Dövlət Filarmoniyasının gənc ifaçılardan Y.Qurbanov, N.Məmmədov, S.Cəfərov, G.Məmmədova və başqalarının adlarını indi də iftixarla çəkmək olar). Həmin ildə Naxçıvan MSSR Mədəniyyət Nazirliyi tabeliyində yeni bir müəssisə, Bədii Uşaq Fondu (müdiri Əli Məmmədov idi) yaradılır. Fondun yaranması ilə Muxtar respublikadakı yaradıcı uşaqların əl işləri respublika və beynəlxalq sərgilərə çıxarılıb və onlara maddi qayğı göstərilir.

Tarixin yaddaşına nəzər salaq: 1984-cü ilin 17 noyabr tarixində Muxtar respublikanın yaradılmasının 60 illiyi qeyd edilir. Həmin ildə Muxtar respublikanın kənd əməkçiləri (nazir Kazım Süleymanov idi) dövlət planından artıq 147 min ton (210 %) üzüm, 7,6 min ton (174 %) meyvə, 7,3 min ton (118 %) tərəvəz və 1.702 ton (122 %) bostan bitkiləri yetişdirmiş.

Şəhər və rayon mərkəzlərindəki istehlak mallarına gündəlik tələbat artdığından mağazalarda müxtəlif çeşidli sənaye, ərzaq və təsərrüfat malları bolluğu yaranmışdı. Həmin illərdə qiyməti ucuzlaşdırılmış xüsusi mağazalar da fəaliyyət göstərirdi.

1984-ci illərdə Naxçıvan Muxtar Respublika Kooperativlər İttifaqı (sədri Həsən Xəlilov idi) tərəfindən rayon mərkəzlərində Universal mağazalar yaradılaraq, iaşə müəssisələrinin sayı artırılmışdır. Təkcə Naxçıvan şəhər Ticarət Birliyinin (direktoru Sadıq Rəhimov idi) 5 sayda Universal mağazası əhalinin xidmətində idi. Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun məzunu kimi Muxtar respublika İstehlak Kooperativlər İttifaqında əmək fəaliyyətinə başlayan S.Rəhimov, 1984-94-cü illərdə rəhbərlik etdiyi Naxçıvan şəhər Ticarət Birliyində səmərələşdirici işinə görə "Ticarət Əlaçısı" fəxri adını almışdır. (Həmin illərdə şəhər Ticarət Birliyinin 80-dən çox müxtəlif mağazalarında əhaliyə göstərilən ticarət xidməti səviyyəsi yüksəldilmişdir). (S.Rəhmanov, "Azərbaycan tacirləri" ("Səda" nəşriyyatı) Bakı-2002).

Azərbaycanda olduğu kimi Naxçıvan zəhmətkeşləri də payız aylarında sosialist ənənələrindən olan "Məhsul bayramı" təntənəli keçirirlər. Bayram ərəfəsində kolxoz və sovxoz kollektivləri istehsal etdikləri məhsullarının satış-yarmarkasını təşkil etməklə, şəhər zəhmətkeşlərinə nümunəvi xidmət edirdi Həmin bayramda fərqlənən kollektivlərə və istehsalat qabaqcıllarına həvəsləndirici minik avtomobilləri hədiyyə verilirdi. Yubiley ərəfəsində Naxçıvan şəhərində tikinti abadlıq işləri də yüksək səviyyədə aparılmışdı. Belə ki, 13 mərtəbəli "Təbriz" mehmanxanası, Rabitə nazirliyi üçün çoxmərtəbəli yeni bina, Respublika Mədəniyyət Sarayı tikilib başa çatdırılmış, "Uşaq istirahət Parkı" nın ərazisi və xiyabanlar isə genişləndirilmişdir.

Bayram ərəfəsində Naxçıvan şəhərində ictimai nəqliyyatdan geniş istifadə məqsədilə Gəncəli mütəxəssislərin köməyi ilə trolleybus xətləri çəkilərək, yeni nəqliyyat vasitəsi istifadəyə verilir. Bundan ötrü şəhərin 3-cü mikrorayon yaşayış ərazisində Trolleybus Parkı (müdiri Hacı Hacıyev idi) salınır. On beş sayda olan trolleybuslar Naxçıvan şəhərinin mərkəzi və ətraf küçələri ilə şütüyərək sərnişinlərə ucuz qiymətə xidmət göstərir. (Naxçıvan diyarı Ermənistan tərəfdən enerji blokadasına düşdüyündən və yerli elektrik enerjisində fasilələr olduğundan, ictimai nəqliyyatın bu növü ləğv olundu- F.B.).

Yubiley günlərində istifadəyə verilmiş Naxçıvan Respublika Mədəniyyət Sarayı (direktoru Nizami Həmzəyev idi) zəhmətkeşlərin ixtiyarına verilir. Tamaşa zalı iki hissədən (alt 675 və üst 365 yerlik) ibarət olaraq, fırlanan səhnəsinin eni 16 m., dərinliyi 25 m., hündürlüyü 12 m. və texniki avadanlıqlar quraşdırılan yerin hündürlüyü isə 36 m. idi. Sarayda əlavə olaraq aktyor və qonaqlar üçün 50 otaq da tikilmişdir. Bundan başqa binada 340 yerlik kino lektoriya zalı da var idi. Sarayda müxtəlif dövlət tədbirləri ilə yanaşı teatr tamaşaları, konsert və müsabiqələr təşkil olurdu. (Sonrakı illərdə (2008-ci il) Mədəniyyət Sarayında əsaslı təmir-bərpa işləri aparılaraq, binanın xarici fasadı ilə daxili interyeri yeni formada inşa olunaraq, Heydər Əliyevin adı verilir- F.B.).

1984-cü ildə Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin tabeçiliyində olan yeni Muxtar respublika Tarixi və Memarlıq abidələrinin Elmi-Bərpa İdarəsi (müdiri Azər Nəsirli idi) yaradılır. İdarənin inşaatçıları Muxtar respublikadakı tarixi və memarlıq abidələrini bərpa edərək, yenidən xalqa qaytarılır. Həmin ildə Naxçıvan şəhərində "Araz" Elm-İstehsalat Kosmik Tədqiqatlar Zavodunun (direktoru Məhbub Kazımov idi) filialı açılır. Müəssisə kollektivi Moskva Elmi-Tədqiqat Kosmik Avadanlıqlar Birliyinin sifarişlərini yerinə yetirərək, kosmik məqsədli elektron cihazlar istehsal edirdi...

1984-cü ildə Naxçıvanda rəngli təsvirdə televiziya verilişləri (komitə sədri Elxan Əliyev idi) efirə buraxılır. Rabitə Nazirliyinin (nazir Novruz Zeynalov idi) əhaliyə nümunəvi 5.000 nömrəlik Avtomat Telefon Stansiyası quraşdırılaraq işə salınır. Həmin ildə SSRİ Ali Sovetinin qərarı ilə Naxçıvan şəhərində iki dəfə Sosialist Əməyi Qəhrəmanı H.Ə.Əliyevin Vətənində tuncdan tökülmüş xatirə-büstü (heykəltəraş Ömər Eldarov idi) qoyulur. 1984-1987-ci illərdə Azərbaycan KP Naxçıvan Vilayət komitəsinin birinci katibi N.E.Mustafayev olur. 1985-ci ildə Azərbaycan Ali Sovetinin sədri vəzifəsinə Süleyman Bayram oğlu Tatlıyev (1925-....) gəlir.

1985-ci ildə Sovet İttifaqının rəhbəri K.Çernenko səhhətinə görə vəfat edir. SSRİ Nazirlər Sovetinin birinci müavini, iki dəfə Sosialist əməyi Qəhrəmanı H.Ə.Əliyevin ali vəzifəyə gəlməsinə ehtimal olunsa da Kremldəki xaçpərəstlər, türkdilli müsəlmanı yaxın qoymurlar. Əvvəlcədən hazırlanmış xarici dövlətlərin planı əsasında Sovet dövlətinin yüksək kürsüsünə, Stavropol ölkəsindən olan ermənipərəst M.S.Qorbaçov irəli çəkilir.

Rəsmi olmasa da, baş katib dünyasını dəyişəndən və ya vəzifəsindən götürüldükdən sonra həmin vəzifəyə kimin gətiriləcəyi barədə Kremldən sızan qeyri-rəsmi məlumatlara görə, L.Brejnyevin vəfatından sonra, Sovet dövlətinin rəhbəri vəzifəsinə H.Əliyevin irəli çəkiləcəyi söz-söhbəti dolaşırdı. Lakin saray daxili dedi-qodular, yüksək kürsü tutmaq hərisliyi və hiyləgərlik öz işini gördü. M.Qorbaçovun qurduğu tələ əsasında elə özümüzünkülər, yəni Orta Asiya respublikaları rəhbərlərinin guya ona qarşı etirazları səslənir.

Həmin siyasətin davamı kimi Azərbaycandakı "muzdlu cənabların" və azərbaycanlı adı ilə minlərlə erməni əli ilə yazılmış H.Əliyevə qarşı böhtan xarakterli məktub və teleqramların Moskvaya göndərilməsi də yuxarıdan təşkil olunmuş aksiya idi və bunlar da əlavə çətinliklər, Rusiya şovinistlərinin əlində bəhanə idi. (Naxçıvan Vilayət Partiya Komitəsi katibinin keçmiş müavini Həmid Cəfərovun söyləməsinə görə, böhtan xarakterli məktublar vəzifəli şəxslər tərəfindən də göndərilmişdir- F.B.).

Tarixin yaddaşına nəzər salaq: 1985-ci ildə H.Ə.Əliyevə ağır itki üz verdi. O, çox sevdiyi, ona ən əziz nemət olan həyat yoldaşı görkəmli oftomoloq, tibb elmləri Doktoru, akademik Zərifə Əziz qızı Əliyevanı (1923-1985) vaxtsız itirir.

> *"...Bu kişi ürəkli qadın çox qoçaq,*
> *Dəniz incisindən pakizə parlaq."*
>
> **(Nizami Gəncəvi)**

Bu itki təkcə Əliyevlər ailəsinin itkisi deyildi, o, həm də Azərbaycan elminin, xalqının və ictimaiyyətinin ağır itkisi idi. Zərifə Əliyevə SSRİ miqyasında ilk dəfə gözün peşə xəstəlikləri adlanan ayrıca elm sahəsi və elmi tədqiqat laboratoriyasını yaratmışdı və bu Azərbaycan tibb elmi üçün də, İttifaq elmi üçün də tam yenilik idi.

Onun Moskvada buraxdığı monoqrafiyaların hər biri bu sahədə çalışan alimlərin masaüstü kitabına çevrilirdi. O vaxta qədər SSRİ-də elmin belə sahəsi yox idi və bu nailiyyətlərinə görə Zərifə Xanım SSRİ Tibb sahəsində ən yaxşı mükafatlara layiq görülmüşdü. Ömür vəfa versəydi, onun pioneri olduğu bu sahə, heç şübhəsiz, özünə layiq yer tutacaq və öz işində zərər çəkmiş minlərlə xəstə ən yeni üsul və metodlarla müalicə ala biləcəkdilər. Həmin illərdə (1985) SSRİ-də alman faşizmi üzərində qələbənin 40 illiyi keçirilir. Şəhərdəki "17-lər" küçəsinin başlanğıcında 400 m.2 sahədə yüksək təpəlikdə abadlıq işləri aparılaraq, orada Döyüş şöhrəti Muzeyi (direktoru Naibə Mirzəyeva idi) yaradılır. Muzeyin qarşısındakı pilləli meydançada isə, müharibədə həlak olmuş və itmiş oğul və ərlərin, ata, qardaş və bacıların hamısının həsrətin, nisgilin çəkən ananın timsalı kimi, rəmzi məna daşıyan "Dərdli ana" monumental abidəsi (heykəltəraş M.Talıbov idi) ucaldılır. (Sonrakı illərdə (1997) muzeyin ətrafı genişləndirilmiş, heykəl meydandan götürülmüş və adı isə dəyişilərək, "Şəhidlər Muzeyi" olmuşdur- F.B.).

1985-ci ildə Naxçıvan Muxtar Respublika Səhiyyə Nazirliyinin tabeliyindəki Naxçıvan şəhər Poliklinikası (baş həkim Validə Qazıbəyova idi) yeni binaya köçürülür. Tibb müəssisəsində cərrahiyyə, rentgen, terapiya şöbələri və laboratoriya, profilaktik-müayinə kabinələri də fəaliyyət göstərir. (Sonrakı illərdə (1999-cu il) Poliklinikaya Akademik Zərifə Əliyevanın (1923-1985) adı verilərək, onun həyat fəaliyyəti ilə bağlı olan tarixi sənədlər əsasında muzey-guşə yaradılır- F.B.).

Tarixin yaddaşına nəzər salaq: 1986-cı ilin 30 yanvarında Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin orqanı olan "Sovet Naxçıvanı" qəzetinin 20-ci nömrəsində naxçıvanlı bir müəllifin "Xalqımızın mənlik heykəli" sərlövhəli məqaləsi dərc olunmuşdur. Müəllif vətənpərvərlik ruhunda qələmə aldığı yazısında, Dünya tufanında Nuh peyğəmbərin indiki Naxçıvan ərazilərində dayanmasından danışır və ərazidə mövcud olan peyğəmbərin adı ilə bağlı coğrafi yer adlarının varlığından söz açırdı.

Sovetlər dönəmindən Azərbaycan xalqının tarixi qəsdən saxtalaşdırılır reallıqlar gizlədilirdi. Ayrı-ayrı tədqiqatçılar çap etdirdikləri elmi əsərlərində Naxçıvan şəhərinin yarandığı tarixi səhvən 2.000, 3.500 il əvvəl göstərirdilər. Halbuki Naxçıvandakı Duzdağ mağarasından tapılmış ilkin insana məxsus daş çəkiclər bu diyarda yaşayış məskənlərinin yaşının ən azı 7000-8000 ildən artıq olduğunun əyani sübutudur. Ancaq bəla burasında idi ki, Ermənistan rəhbərliyinin və Moskvadakı erməni lobbisinin səy və təzyiqləri ilə Kreml də "Zaqafqaziyada hər şey ermənilərə məxsusdur" ideyası ilə hərəkət edirdi.

Və ordan enən göstərişlə hərəkət edən Azərbaycan hökuməti də əsil Azərbaycan tarixinin yazılmasına hər cürə maneçilik törədir, milli ruhda ortaya qoyulmuş məqalələrin, əsərlərin müəlliflərinə qarşı hətta inzibati yolla töhmətlər verir, partiya sıralarından kənarlaşdırmaqla, onları mənən alçaldırdı. Bir sözlə, Oğuz türklərinin Zaqafqaziyaya kütləvi gəlişinin təsadüf etdiyi 11-12-ci əsrlərdən qabaq bu yerlərdə türkün varlığından danışmaq bizlərə yasaq edilmişdi. Bu, ermənilərin "eqo" suna, mənəm-mənəmliyinə tərs mütənasib idi və onların bir növü şənlərinə toxunurdu. Məhz bu siyasətin nəticəsi idi ki, Nuh peyğəmbər və Naxçıvanla əlaqədar tarixi məqaləyə görə müəllif və qəzetin redaktoru S.A.Kərimova Vilayət Partiya komitəsinin katibi N.Mustafayev tərəfindən cəzalandırıldılar. ("Sovet Naxçıvanı" qəzeti, 1986-cı il 30 yanvar № 20).

1986-ci ilin 25 fevral-6 mart tarixində Sov. İKP MK-nin XXVII qurultayında Siyasi Büronun üzvü M.Solomentsevin təklifi ilə Mixail Sergeyeviç Qorbaçov (1931-....) Sov. İKP MK-nə baş katib "seçilir". M.Qorbaçov vəzifəyə keçdikdən sonra Sovetlər İttifaqının və Kommunist Partiyası nizamnaməsində əsaslı dəyişikliklər edir. O, N.Xruşşovdan başqa bütün əvvəlki Sovet rəhbərlərini kəskin tənqid edir. M.Qorbaçov Mərkəzi Komitədə işləyən təcrübəli rəhbər kadrları, təcrübəsiz adamlarla əvəz etmiş. Belə ki, Qərbi Avropa və ABŞ dövlət başçısının siyasəti ilə, "muzdlu cənablar" mühüm vəzifələrə irəli çəkilirlər.

M.Qorbaçov özünün var olmayan milli siyasətində əsasən daşnak tör-töküntüləri, qatı millətçilər Z.Balayan, A.Aqambekyan, L.Stravoytsova kimi faşist təbiətli terroristlərin məsləhətləri ilə durub-oturmağa başlayır. Erməni lobbisinin onun arvadına bağışladığı iri qaşlı brilyantın və milyonlarla dolların fonunda o, Aqambekyan kimi dələduz iqtisadiyyatçı ilə Parisə səfər edib, orada yəqin ki, birincinin təkidi altında erməni lobbisi ilə görüş keçirir. Həmin görüşdə A.Aqambekyan ilk dəfə Qarabağın Ermənistana verilməsi iddiası ilə çıxış edir. Sovet dövlətinin iqtisadiyyatına elmi cəhətdən rəhbər təyin edilmiş bu "göbələk akademik"in elmi o qədər aşıb-daşırdı ki, o illərdə Sovet iqtisadiyyatı öz göstəricilərinə görə dünyanın ən geridə qalmış ölkələrini belə geridə qoymuşdu.

M.Qorbaçovun da söykəndiyi "göbələklər" bunlardan ibarət idi: Aqambekyan, Şahnazarov, Balayan, qatı ermənipərəst olduğundan Ermənistandan SSRİ Ali Sovetinə deputat seçilmiş Strovoytsova, qatı millətçi, yazıçı Silva Kaputikyan, moskvalı rəssam İgityan, Yerevan Dövlət Universitetinin rektoru Ambarsumyan və üzdə olmayan onlarla daşnak nümayəndələri. M.Qorbaçov Sovet xalqını aşkarlıq, demokratiya və "yenidən qurma" şüarları ilə aldadaraq, iclaslar çağırıb boşboğazlıqla günlərini keçirməklə məşğul idi. Tezliklə ölkədə bütün sahələrdə geriləmələr baş verir. Əmək intizamı pozulur idarə, komitə və nazirliklərdə özbaşınalıq baş alıb gedir, istehsal sahələrində zay məhsullar buraxılır, istehlak rentabelliyi birdən-birə qəti şəkildə aşağı düşür.

"Ağzına qıfıl vur, yandır sözünü,
Boş-boş söyləməkdən saxla özünü."

(Nizami Gəncəvi)

Müttəfiq respublikalarda milli qarşıdurmalar yaranır, xalqlar arasında Sovet təbliğatı ilə zor və xof gücünə yaradılmış beynəlmiləlçi sosialist birliyinə böyük zərbə endirilir. Fürsətdən istifadə edən Qərb və ABŞ-ın dövlət başçısı M.Qorbaçovu tez-tez öz ölkəsinə "qonaq çağıraraq", məxfi surətdə antisovet siyasi təbliğatlarını gücləndirir. Azərbaycanın əzəli torpağı olan Qarabağda anadan olsa da, Azərbaycana, Türkiyəyə, azərbaycanlılığa, türklüyə ədavət, kin, genetik nifrət bəsləyən, əslində tarixin hansı dönəmindən xaçın təzyiqi ilə azərbaycanlı Bala kişidən dönmə, azğın faşist təbiətli erməni millətçisi Zori Balayan cızmaladığı "Ocaq" kitabını, heç şübhəsiz M.Qorbaçovun xeyir-duası ilə Moskvada böyük tirajla nəşr etdirir.

Millətimizə, doğulduğu torpağa, çörəyini yediyi Vətənə (Azərbaycana), kökündən göyərdiyi xalqa bəşər mədəniyyətinə sığmayan ağır ittiham və təhqirlərlə dolu, qaniçən bir satqının, ağlını tamam itirmiş bir səfehin bu cızma-qarası yenə də Kremlin gizli göstərişi ilə, az sonra, SSRİ-nin bir çox xalqlarının dillərinə tərcümə edilir. Az keçmədi ki, mürtəce "Ocaq" kitabı heç də faşist A.Hitlerin (1909-1945) "Mayn Kampf" ("Mənim mübarizəm") kitabından geri qalmayaraq, bir nacinsin, bir iblisin, əlləri ilə yazılmış kitabdakı məkrli hiylələr nahaq qanların tökülməsinə zəmin yaratdı.

Törədilən qırğınlara, tökülən günahsız qanlara o zamankı Sov. İKP MK-nın baş katibi bilavasitə cavabdehdir ! Əfsus ki, dünya çox zaman müsəlman aləmində axıdılan qanlara, qırılan, məhv edilən yüz minlərə, milyonlara (xaçpərəst qüvvələrin son 5 ildə İraqda törətdikləri kütləvi qırğınları yada salmaq kifayətdir) karlıq və korluq nümayiş etdirir. M.Qorbaçov yüksək vəzifəyə keçəndən sonra İttifaqboyu gənclərin əxlaqına təsir edən video filmlərin nümayişi kütləvi hal alır. Həmin illərdə Naxçıvan şəhərindəki ictimai binaların zirzəmilərində də ABŞ və Qərb dövlətlərində çəkilmiş pornoqrafik video filmlərin nümayişləri təşkil edilirdi. Nədənsə dövlətin güc nazirlikləri də bütün bu kimi işlərə laqeyd münasibət göstərirdilər. (F.Bağırov, "Nuh yurdu- Naxçıvan" Bursa-1999).

Müttəfiq respublika ərazilərində terrorçu "reket dəstələri" yaranaraq, vətəndaşları incidir, döyür, söyür, oğurlayır, olub-qalan varlarını əllərindən alır, bir sözlə, güclü təxribatçılıqla məşğul olurdular. Moskva şəhərində metro stansiyası ilə "Rossiya" mehmanxanası erməni təxribatçıları tərəfindən partladılır. Daha sonra ölkədəki mühüm hərbi zavodlar, təyyarə və sürət qatarları, sualtı hərbi qayıqlar, yeraltı şaxtalar və sairələr, terrorçular tərəfindən partladılırdı.

1986-cı ilin 26 aprel tarixində Ukrayna Respublikasındakı Çernobıl Atom Elektrik Stansiyasındakı (AES) texnoloji qəza nəticəsində blokun biri partlayaraq və minlərlə insan həlak olmuşdur. Qəzanın aradan qaldırılmasında Naxçıvan MSSR-dən 500 nəfər hərbi ehtiyatda olan gənclər iştirak etmişlər. Nəticədə isə iştirak edənlər radioaktiv şüalanıb və sağlamlıqlarını da itirmişlər. Həmin ildən Naxçıvan şəhərində Çernobıl Əlilləri Cəmiyyəti (sədri Eyvaz Əsgərov idi) yaradılır. (Haliyyədə Muxtar respublika ərazisində qalmış bu cür əlillər 261 nəfərdir- F.B.).

Ukraynadakı Çernobıl AES-nın enerji blokunun partladılması nəticəsində Ukrayna və Belorusiya ərazilərinin çox hissəsi, radioaktiv şüalanmaya məruz qalmışdır. Oraya köməyə göndərilmiş bir çox azərbaycanlı mütəxəssislər də, bu cür fəsadlardan indi də əzab çəkmədədirlər.

1986-cı ilin 23 sentyabr tarixində Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi tərəfindən Azərbaycan sovet ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Səməd Vurğunun (1906-1956) anadan olmasının 80 illiyinə həsr olunmuş təntənəli ədəbi-bədii gecə keçirilmiş tədbirdə, Azərbaycan SSR Yazıçılar İttifaqının Naxçıvan şöbəsinin sədri Hüseyn İbrahimov (1919-2008) şairin həyat-yaradıcılığı haqqında məruzə ilə çıxış etmişdir.

1987-ci ilin aprel ayından Moskvada Sovet rəhbəri M.S.Qorbaçov, bəhanə ilə H.Ə.Əliyevi xəstə kimi tutduğu vəzifəsindən azad edərək istefaya göndərir. Bundan sonra Qorbaçovun erməni lobbisi ilə Azərbaycana qarşı hazırlanmış hiyləgər siyasətinin əl-qolu açılmış olur.

Tarixin yaddaşına nəzər salaq: 1987-ci ilin 13 iyun tarixində C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının (direktoru Ramiz Bağırov idi) 100 illik yubileyi keçirilir. ("Sovet Naxçıvanı" qəzeti, 1987-ci il № 137). "Mədəniyyətimizin bayramı" yubiley tədbirinə Bakıdan, Tbilisidən, Dərbənddən və İrəvandan (İrəvan Azərbaycan Dram Teatrının rejissoru Baxşı Qələndərli (1903-1989)) qonaqlar gəlirlər. Yubileydə teatrın aktyorlarından Ə.Haqverdiyev, Z.Həmzəyeva, Z.Əliyeva, F.Əlixanova, S.Hüseynova, M.Quliyev, Ə.Qardaşbəyov, R.Cəfərxanova və başqalarına "Azərbaycan Xalq artisti" fəxri adı verilir.

Tədbirin əvvəlində təbrik üçün Azərbaycan SSR KP Naxçıvan Vilayət Komitəsinin katibi D.Z.Ələkbərova və Teatr Xadimləri İttifaqı Naxçıvan şöbəsinin sədri C.H.Vəzirov (1944-2008) çıxış etmişlər. Bundan Sonra isə teatrın aktyorlarının ifasında "Msyo Jordan və dərviş Məstəli şah", "Ölülər, "Şeyx Sənan", "Azər", "Sevil", "O olmasın, bu olsun", "Məhsəti", "Azərbaycan-dünyam mənim" əsərlərindən parçalar da göstərilmişdir.

1987-ci ildən ictimai əsaslarla və iki ildən sonra isə Noraşen rayonundakı Baş Noraşen (Cəlilkənd) kəndində C.Məmmədquluzadənin (1869-1932) müəllimlik etdiyi məktəbdə Xatirə Muzeyi (direktoru Abdulla Qurbani idi) açılır. Muzeyin ekspozisiyasında böyük ədibin həyat-fəaliyyətini əks etdirən tarixi sənədlərlə bərabər kitab və sənədli foto şəkillər də qoyulmuşdur. Həmin ilin axırlarında ermənilər Azəri türklərini ata-baba yurdlarından qovub çıxarmağa başlayırlar. Hökumət başçılarının laqeydliyindən Bakıda, İrəvanda, Sumqayıtda, Xankəndində və başqa şəhərlərdə ermənilərlə Azəri türkləri arasında milli toqquşmalar baş verir. Artıq bu zaman Sovet dövlətinin bir sıra bölgələrində də milli toqquşmalar başlayır.

Tarixin yaddaşına nəzər salaq: Bakıda olduğu kimi, Naxçıvanda da milləti, torpağı və mənəviyyatı müdafiə edən "Xalq cəbhəsi" adlı siyasi qurum yaradılır. Həmin qurum bir müddət məxfi fəaliyyət göstərsə də, tez bir vaxt ərzində ətrafına könüllüləri toplaya bilir.

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da, Xalq cəbhəsi təşkilatının şöbə və özəkləri yaradılır. Özəklərin təbliğatçıları məktəb və müəssisələrdə Sovet Dövləti əleyhinə təşviqat işlərini gücəndirirlər. Onlar xalq kütləsini təşkilat ətrafında birləşdirərək, küçə və meydanlardakı yığıncaqlara (mitinqlərə) cəlb edirlər. Həmin yığıncaqların tez-tez keçirilməsinə Moskva hökuməti etirazını bildirmir. Bakıda olduğu kimi, Naxçıvanda da küçə toplantıları artaraq adamların ehtiraslarını coşdurur. Mitinqlərdə danışan "şairlər" axşamdan tələsik nəzmə çəkdikləri qafiyələrinin nöqtə-vergülünü siyasətlə tamamlayırlar.

"Hikmət qaynağı şeiri hər gün alçaldıb bir az,
Sudan da ucuz etdi beş-on nəfər şeirbaz."

(Nizami Gəncəvi)

"Şairlərə gəlincə, onlara yalnız azğınlar uyar !"

(Quran, Şuəra 26/224-225)

Artıq hər kəs özünü "siyasətçi" kimi tanıtmağa can atır. Bütün bu mitinqləri pəncərəsindən izləyən Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi Nurəddin Mustafayev, qəzəblənərək meydandakı əhalinin üzərinə hərbi texnika ilə silahlı dəstələr göndərir. Camaat küçələrdəki BTR maşınları ilə silahlı hərbiçiləri görəndə qorxuya düşür. Adamların üzərinə yeriyən hərbi maşınlar, bir neçə nəfəri yaralayır. Bundan qəzəblənmiş adamlar benzin doldurulmuş şüşə qabları yandıraraq hərbi maşınlara tullayırlar. Bütün bu gözlənilməz hadisələrdən qəzəblənən adamlar, Vilayət Partiya komitəsinin binası qarşısına toplanaraq katibin istefasını tələb edir.

Pəncərəsindən barmağını sistemin eybəcərliklərindən cana gəlmiş, qızmış xalqa silkələsə də, kütlənin onu bir andaca didəcəyindən qorxan katib, binanın arxa qapısından çıxaraq hərbiçilərin müşayiəti ilə ailəsi ilə birlikdə maşınla Ordubada gəlir və oradan qatarla Bakıya qaçmağa müvəffəq olur. Həmin vaxtlar Xalq cəbhəsini fəallarının sırası gündən-günə çoxalaraq, xalqı azadlıq və müstəqilliyə səsləyirdi

Naxçıvandakı istehsal sahələri dayandığından, camaat şəhərdə qara bazarlardakı alış-verişlə dolanır. Alverçilər İrandan gətirdikləri saqqız və güllü köynəkləri, saat və ərzaq mallarını satmaqla məşğul olur. Adamlar qiymətli Sovet sənaye və texniki malları İrana apararaq ucuz mallarla dəyiş-düyüş edir. Həmin illərdə dövlətin güc nazirliyindəki Sosialist Əmlakını Dağıdanlarla Mübarizə (SƏDM) şöbələri ilə Xalq nəzarəti Komitələri ləğv olmaq səviyyəsində idi.

1987-ci ilin oktyabr ayından Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi Heydər İsa oğlu İsayev (1936-1999) olur. Həmin ilin oktyabr ayında İrəvan şəhərindəki Puşkin adına meydanda, "Qarabağ Komitəsi" adlı erməni millətçilərinin açıq mitinqi keçirilmişdir. M.S.Qorbaçovun (1931-....) rəhbərliyi illərində Sovet İttifaqından Qərb kapitalist ölkələrinə turist marşrutları açılır. Nəticədə minlərlə Sovet vətəndaşı xarici ölkələrə səfərə gedə bilir. Sovet ölkəsindən turist gedən xarici dil müəllimlərinə daha çox üstünlük verilir. Həmin illərdə xaricdən gələn "turistlər" özləri ilə açıq-aşkar ABŞ valyutası gətirirdilər.

1988-ci ildə Azərbaycan Nazirlər Sovetinin sədri vəzifəsinə Ayaz Niyazəli oğlu Mütəllibov (1938-....) keçir.

Tarixin yaddaşına nəzər salaq: 1988-ci ilin əvvəllərindən ölkə ərazilərində milli münaqişələr güclənirdi. Orta Asiyada, Krım vilayətində, Moldovanın Dnestryanı ərazilərində, Şimali Qafqazda, Çeçenistanda, Gürcüstanda, Baltikyanı ölkələrdə, Qazaxıstanda, Ermənistan və Azərbaycanda da nahaq qanlar tökülür, dinc əhali narahat günlərini yaşayırdı. Həmin ilin 19 fevral tarixində Bakıda, Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycana qarşı ikrah doğuracaq rus-erməni qarşılıqlı siyasətinə qarşı ilk etiraz mitinqləri başlayır

Vaxtilə Stalinin əmri ilə Gürcüstanın Cavaxetiya adlandırılan ana yurdlarından Özbəkistana sürgün edilmiş Məhsəti türkləri ilə 1988-ci ildə yerli özbəklərin arasında nifaq toxumu səpilir. Özbəklər qızmış başla Məhsəti türklərini qırıb tökməyə başlayır. Yüzlərlə türk vəhşicəsinə məhv edilir, qarılar, qocalar, uşaqlar qanlarına qəltan olunurlar. Gəlinlər, qızlar zorlanır, namuslarına təcavüz baş alıb gedir.

Türklərin bütün dükan, restoran və biznes yerləri, maşınları, çoxunun evləri yandırılıb külə döndərilir. Bütün bu qardaş qırğınını da Moskvadakı erməni lobbisinin təzyiqi ilə M.Qorbaçov təşkil edirdi. Onun gizli göstərişi ilə Özbəkistan MK-nin birinci katibi Niyaz Nişanov şəxsən respublikada baş verən azğın hadisələrə rəhbərlik edir. Və az keçmir ki, göstərdiyi xidmətlərinə görə, N.Nişanov SSRİ Ali Sovetinin sədri M.Qorbaçovun birinci müavini vəzifəsinə irəli çəkilir. Xarici missionerlər və yerli millətçilər tərəfindən bütün ittifaq boyu ölkədə milli-dini ədavətlər qızışdırılır. (Həmin illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun müəllimlərindən Cabbar Cəlilov və Rüstəm Eminovun rəhbərliyi ilə tələbələr arasında siyasi dərnək yaradılır).

1988-ci ilin əvvəlində tikintisi 1979-cu ildən başlamış Naxçıvan Xalça Məhsulları Kombinatı (direktoru Kamal Qasımov idi) işə salınır. Əsasən əyirici və toxucu fabriklərindən ibarət kombinatın istehsal gücü ildə 2,5 mln. m2-ə çatmaqla xalça və xalça məmulatlarının da toxunması planlaşdırılmışdı. Lakin Ermənistan tərəfindən iqtisadi blokadaya salınmış Naxçıvanda bütün sahələrdə olduğu kimi tezliklə xalça kombinatında da istehsal işləri dayandırılır. (Sonrakı illərdə həmin müəssisənin bazası əsasında Naxçıvan Xalça Açıq Səhmdar Cəmiyyəti (sədri Mehdi Babayev idi) yaradılmışdır. Burada yeni istehsal avadanlıqları quraşdırılaraq, sexlərdə müəssisələrin sifarişi ilə xalça məmulatları toxunur). Həmin illərdə ermənilər İrəvanda Qərbdəki millətçi havadarlarının dəstəyi ilə türklərə qarşı iğtişaşlar yaradırlar. Ermənilər Qafqazda "Dənizdən-dənizə türksüz Böyük Ermənistan" xülyası ilə xaricdəki havadarlarından təlimatlanırlar.

1987-ci ilin noyabr ayında Fransanın paytaxtı Parisdə M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik A.Adanbekyan, Fransanın "Humanite" qəzetində (1987 18 noyabr) müsahibə verərək və Dağlıq Qarabağın Ermənistana verilməsini məqsədli bildirmişdir. Erməni quldurları M.Qorbaçovun himayəsi ilə Ermənistan ərazilərindən 230 min azəri türklərini qovmuşlar. Ermənistanın Qafan və Mehri rayonlarında yaşayan soydaşlarımız Azərbaycana pənah gətirməklə yurdlarından qaçaq düşürlər.

1988-ci ilin ilk üç ayı ərzində Ermənistandan 9 min 88 nəfər (1853 ailə) qaçqın gələrək və Muxtar respublikanın Sədərək kəndindəki ictimai binalarda yerləşmişlər. Bundan sonra Babək rayonunda 2 min 500, Ordubad rayonunda 500, Culfa rayonunda 300, Şahbuz rayonu ərazilərində isə 1500 nəfər qaçqın yerləşdirilmişdir. Babək rayonundakı "Ceyran bulağı" deyilən ərazidə 380 qaçqın ailəsinə yeni evlər tikilmişdir. (1989-cu ilin son aylarından Naxçıvanda məskunlaşmış qaçqınların əksəriyyəti Bakı şəhərinə köçməyə başladı- F.B.).

Naxçıvandakı Kinoprokat İdarəsinə (müdiri Əsgər Əsgərov idi) filmsurətlərinin gəlməsi dayandığından, kinoteatrlarda Türk kino ustaları filmlərinin nümayişi yaradılır. Muxtar respublika kino qurğuları və kinolaşdırma Komitəsi (sədri Ramul İbrahimov idi) tərəfindən əhalinin tələbatı nəzərə alınaraq, Türk filmlərinin seanslarını artırmaq məqsədilə əlavə tədbirlər planı hazırlanır. Lakin bununla bərabər yarım işıqlandırılmış tamaşa zallarında, xarici ölkə video filmlərin də nümayişləri təşkil olurdu.

Naxçıvan MSSR ərazilərində əhaliyə kino xidməti yarıtmaz vəziyyətdə olsa belə bir sıra kino qurğularındakı xidmət işi yaxşı idi. Onlardan Nehrəm kənd daimi kino qurğusu (kino mexanik Arif Kərimov idi), Saltaq kənd daimi kino qurğusu (kino mexaniki Əhməd Allahverdiyev idi), Şahtaxtı kənd daimi kino qurğusu (kino mexaniki Teymur Həsənov idi), Şahbuz qəsəbə kino-teatrı (kino mexaniki Qaçay Mehdiyev idi), belələri sırasında idi.

Naxçıvan şəhərindəki kino-teatrlar, Cəhri, Bənəniyar və Qarabağlar kənd daimi kino qurğularında əhaliyə aşağı səviyyədə xidmət göstərilərək dövlət planları yerinə yetirilmirdi. Muxtar respublikanın bir çox kənd klubları isə film göstərmək üçün yararsız idi. Uşaq təlim-tərbiyə müəssisələrində də tədris filmlərindən istifadə olunmurdu. Maarif Şöbələrindəki Filmotekalar yararsız halda olduğundan, sanki V.İ.Leninin dediyi; "bütün incəsənətlərdən bizim üçün ən əhəmiyyətlisi kinodur!" şüarı da unudulmuşdur...

1988-ci ildən Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Kinematoqrafiya Komitəsi ləğv olaraq, Nazirlər Soveti yanında Kino-video Birliyi olur. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikadakı Kinolaşdırma Komitəsi ləğv olmuş və Naxçıvan Kino-video Birliyi (direktoru Əbülfəz Məmmədov idi) yaradılır. Birliyin əsas işi isə, kinoqurğular və kinoteatrlarda əhaliyə video filmlərin nümayişi və prokatı xidmətlərindən ibarət olur...

1988-ci ildə, M.Qorbaçov, hər yerdə, hər zaman şivən qoparıb, qara-qışqırıq salan, iş-peşələri Azərbaycana, (türklüyə) qarşı duran bir qrup erməni nümayəndəsini Kremldə qəbul edir. (Həmin görüş, sonra Bakıya ordu yeridilməsi və Qarabağda Kremlin ermənipərəst mövqe tutmasında böyük rol oynamışdır). Orada erməni "şairəsi" Silva Kaputikyan kimi daşnak təxəyyüllü qadına müraciət edən Mixail Qorbaçov belə demişdi: "Hörmətli Silva, biz Raisa ilə sizin şeirlərinizi oxuyur və onlardan ləzzət alır, sizin yaradıcılığınızla fəxr edirik !". Bu sözlərlə, M.Qorbaçov, erməni payının ona çatdığını nümayəndə heyətinin qulağına dörd divar arasında pıçıldamaq niyyətini güdürdü.

Və Azərbaycan xalq təfəkküründün məhsulu olan "loğma boğmadır" belə rüşvətlər, SSRİ Ali Sovetinin Parlament iclaslarından birindəki çıxışı zamanı, Şuşa rayon partiya komitəsinin birinci katibi mərhum Vaqif Cəfərovun danışığını yarımçıq kəsdirib, onu kürsüdən yerə salırdı. Elə onun ardınca da, yerindən sual verən Zori Balayana, onun adı və atasının adı ilə müraciət edib, ona qəsdən çox böyük diqqət və hörmət nümayiş etdirməsi, həmən səhnəarxası kölgələrdən xəbər verirdi. (Azərbaycan deputat nümayəndə heyətinin rəhbəri Müslim Məmmədov isə erməni tüğyanını qəsdən qulaq ardına vurduraraq, düşmən hiyləsinin qarşısını almırdı).

Tarixin yaddaşına nəzər salaq: Azərbaycan "Bilik" Cəmiyyətinin Naxçıvan Muxtar respublikasında Elmi və Siyasi bilik yayan Cəmiyyətinə Əsəd Cəfərli, Rəşid Qazıbəyov, Hüseyn İsmayılov, Qasım Tağıyev, Adil Məmmədov, Mahmud, Mahmudov, Fərman Tağıyev, Seyran Kərimov rəhbərlik etmişlər.

1988-2008-ci illərdə Naxçıvan "Bilik" Maarifçiliyi Cəmiyyətinin sədri, Akademik Y.Məmmədəliyev adına Azərbaycan Respublika mükafatı laureatı Ziyəddin İsmayılov olmuşdur. Həmin illərdə Cəmiyyətin fəal təbliğatçıları İbrahim Hüseynov, Yaqub Şirinoğlu, Yorulmaz Qoçəliyev, Yaqub Rzayev, Oruc Qəhrəmanov və başqaları idi. Cəmiyyətin üzvləri Muxtar respublika istehsalat əməkçiləri ilə görüşərək, onlar arasında siyasi-elmi mövzulu söhbətlər aparırdılar.

1988-ci ilin 6 may tarixində Naxçıvanda Azərbaycan dramaturgiyasının görkəmli klassiki M.F.Axundovun (1812-1878) anadan olmasının 175 illiyi yubiley tədbirləri də keçirilmişdir. Tədbirdə yubilyarın həyat və yaradıcılığından alim filoloq Yavuz Axundov və dramaturqun fəlsəfi görüşləri haqqında fəlsəfə elmləri namizədi Rüstəm Eminov danışmışlar.

1988-ci ilin may ayından "Araz" Elm İstehsalat Birliyi (direktoru Sərdar Nəcəfov idi) kimi fəaliyyət göstərən elm-təcrübə mərkəzi idi. Birlik Naxçıvan Kompleks Zona Təcrübə Stansiyası, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası və Azərbaycan Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun Naxçıvan dayaq məntəqəsi bazasında yaradılmışdır. Birliyin müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaları, Şərur və Culfa rayonlarında da fəaliyyət göstərən, dayaq məntəqələrindəki təcrübə məqsədli əkin sahələri də vardır. Akademik Cəlal Əliyevin rəhbərliyi ilə yüksək keyfiyyətli məhsuldar taxıl bitkilərinin bazası yaradılmışdır.

1988-ci ilin mayın 28-də Azərbaycan ədəbiyyatı və elminə ağır itki olur. Filologiya elmləri Doktoru Lomonosov adına Moskva Dövlət Universitetinin Professoru, Azərbaycanın əməkdar elm xadimi, yazıçı Əziz Qurbanəli oğlu Şərifzadə (1895-1988), doxsan dörd yaşında vəfat edir. Mərhumun dost və yoldaşları cənazəni Naxçıvana gətirərək onun ruhu ilə vidalaşdıqdan sonra doğma torpağında dəfn edirlər...

1988-ci ilin 3 iyun tarixində Naxçıvan şəhərində "Xalq Qəhrəmanları Günü" keçirilərək, Koroğlunun at üstündə heykəlinin (heykəltəraş Hüseynqulu Əliyev idi) açılışı olur. Təntənəli mərasimə Muxtar respublikanın rayonlarından folklor kollektivləri ilə bərabər Bakı şəhərindən də qonaqlar dəvət olunur. Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin katibi Əkrəm Əylisli, "Azərbaycan" jurnalının baş redaktoru, yazıçı Yusif Səmədoğlu, yazıçı Anar Rzayev və başqaları tədbirdə iştirak etmişlər. Mərasimin sonunda heykəlin qoyulduğu əraziyə "Koroğlu meydanı" adı verilir. Bu münasibətlə respublika mətbuatında "Koroğlu" Naxçıvanda məskən salır" sərlövhəli məqalə verilmişdir. ("Ədəbiyyat və incəsənət" qəzeti, 1988-ci il № 24).

1988-ci il sentyabr ayının 5-də Naxçıvanda Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü münasibətilə kütləvi tədbirlər keçirilərək, mətbuat və Dövlət radio və televiziya müxbirlərindən bir qrupuna Muxtar Respublika Ali Soveti tərəfindən fəxri adlar verilmişdir.

1988-ci il sentyabr ayının 6-da SSRİ Maliyyə Nazirliyi və SSRİ Dövlət Bankı tərəfindən Rus yazıçısı L.N.Tolstoyun anadan olmasının 160 illiyi münasibətilə tədavülə 1 manatlıq Xatirə Sikkəsi buraxılmışdır. Sikkə ağ rəngli mis-nikel xəlitəsindən olmaqla 31 mm-lik diametri olan dairəvi formada idi. Sikkənin üz tərəfində SSRİ-nin Dövlət gerbi olaraq rusca "SSSR", "1 rubl" və "1988" yazıları yazılmışdır. Sikkənin arxa tərəfində isə L.N.Tolstoyun barelyef təsviri ilə rusca "L.N.Tolstoy 1828-1910" söz və tarix yazılmışdır.

1988-ci ilin payızından Ermənistandan Naxçıvana ilk azərbaycanlı qaçqın dəstələri gəlməyə başlayır. Moskva hökuməti bu haqsızlıqları görsə də, bütün bunlara biganəliklə yanaşırdı. (Azərbaycan xalqı bütün bu illərdə tarixdə görünməmiş narahat günlərini yaşayır). Həmin ilin axırınadək qədim azərbaycanlıların ərazisi olmuş müasir Ermənistanın 185 şəhər, rayon və kəndlərindən 230 mindən artıq azərbaycanlı əhali qovularaq qaçqın düşür. (A.Qasımov, XX əsrdə Naxçıvanda erməni-Azərbaycan ziddiyyətləri" Bakı-1996).

Soydaşlarımıza qarşı erməni zorakarlığı başlayanda, Moskva rəhbərləri Azərbaycanda kadrdəyişmə siyasəti ilə məşğul olurdu. Belə ki, Sov.İKP MK-nın Siyasi Büro üzvü K.M.Bağırov vəzifəsindən çıxarılır. Onun yerinə isə, SSRİ-nin Nepaldakı səfiri Əbdürrəhman Xəlil oğlu Vəzirov (1930-....) gətirilərək, 1990-cı ilədək Azərbaycan KP MK-nın birinci katibi olur.

1988-ci ilin 17 noyabrdan 4 dekabr tarixədək Bakı şəhərində indiki Azadlıq meydanında, Xalq cəbhəsi nümayəndələrinin yığıncaqları keçirilir. Meydandakı çıxış edənlər arasında milli-azadlıq hərəkatının fəal üzvü Nemət Pənəhov xüsusi fədakarlıq göstərir. (Sonrakı illərdə 17 noyabr günü müstəqil Azərbaycan tarixində Milli dirçəliş günü elan olunacaqdır- F.B.).

1988-ci ilin noyabr ayından Bakının mərkəzi meydanında (V.Lenin adına meydanda- F.B.) Ermənistanın Azərbaycan türklərinə qarşı haqsızlıqlara görə xalq mitinqləri keçirilməyə başladı. Həmin ilin 22 noyabr ayında Naxçıvan şəhərində də xalq mitinqləri keçirildi. Mitinq iştirakçıları Vilayət Partiya Komitəsinin birinci katibi Nurəddin Mustafayevi mitinqə dəvət etsələr belə saymayaraq və xalqın üzərinə tank və "BTR"-lər göndərmişdir. Nəticədə istər Bakı və istər sə də Naxçıvan şəhərində hərbi komendant saatı yaradıldı. (Naxçıvan şəhərinin hərbi komendantı general-leytenant A.Maşkov idi). Noyabrın 23-də Naxçıvanda "vəziyyəti sabitləşdirmək" üçün Vilayət Partiya Komitəsinin ikinci katibi A.M.Qolubevin sədrliyi ilə fövqəladə plenum keçirilərək və birinci katib N.Mustafayev vəzifəsindən azad edilir. (Naxçıvan Vilayət Partiya Komitəsinə birinci katib Heydər İsayev seçilir- F.B.).

1988-ci ilin 15 dekabr tarixdə Ermənistanın Leninakan, Spitak və Kirovakan şəhərləri habelə ətraf ərazilərdə yeraltı silkələnmə nəticəsində insan tələfatı olmuşdur. Zəlzələnin dağıntılarını aradan qaldırmaq üçün SSRİ Müdafiə Nazirliyinin xətti ilə qüvvə və vəsait cəlb olunur. Belə ki, 20 min əsgər heyəti, 770 min ədəd texnika və 1,5 min avtomobil işə cəlb edilmişdir. Tezliklə zəlzələ olmuş ərazilərə 100 min nəfərlik 6 min çadır, 22 min sırıqlı, qulaqlı papaq və isti əlcəklər göndərilir. Həmin ildə Yerevan şəhərində qadağan saatı tətbiq olunsa da, hərbi komendantlıq tərəfindən 1146 şəxsin xüsusi yoxlama zamanı 179 nəfər tutulmuş və oğurluq üstündə 8 nəfər həbs edilmişdir. (SİTA-nın Yerevandakı müxbirləri J.Kanakyan və O.Moskomskinin məlumatına görə, Yerevandakı "Zvartnots" təyyarə limanına yardım məqsədilə göndərilən dava-dərmanları oğurlayan ermənilər tutulmuşlar). ("Sovet Naxçıvanı" qəzeti, 17 dekabr 1988-ci il).

1988-ci ilin 17 dekabr tarixdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsində (katib A.Cəlilov idi) partiya iclası keçirilmişdir. İclasda Naxçıvan MSSR Səhiyyə Nazirliyinin (nazir Vaqif Qurbanov idi) işində ciddi nöqsanlar olduğu bildirilmişdir. İclasda Səhiyyə Nazirliyinin Naxçıvan şəhərində və İliç rayonunda uşaq ölümünün çoxalması və heç bir profilaktik tədbirlərin görülməməyi vurğulanmışdır. İclasda çıxış edənlər, Səhiyyə nazirliyinin ilk partiya təşkilatı (katib H.Haqverdiyev idi) Nazirliyin aparatı üzərində nəzarət hüququnun həyata keçirilməsi acizliyini bildirilmişlər. Həkim və orta tibb kadrlarının seçilib yerləşdirilməsində ciddi nöqsanlara yol verdiyindən və Muxtar Respublikada tibbi xidmətin aşağı düşməsi səbəbi ilə nazir, partiya sıralarından və vəzifəsindən azad edilir. (“Sovet Naxçıvanı” qəzeti, 17 dekabr 1988-ci il).

1989-cu ilin yanvarından Azərbaycan SSR Ali Sovetinin sədri vəzifəsinə Elmira Mikayıl qızı Qafarova (1934-1994) keçir. Yuxarıda adları çəkiləm rus meylli, kommunist rəhbərlərin zəif siyasətləri sayəsində 1989-cu ilin 12 yanvarından İttifaq hökumətinin qərarı ilə Azərbaycan SSR-nin DQMV-də, polkovnik A.Volskinin rəhbərliyi ilə “Xüsusi idarəetmə Komitəsi” yaradılır. Bununla da, Qarabağ Azərbaycan idarəçiliyindən çıxarılaraq, əvvəlcə Moskvaya tabe edildi ki, bu da onun Ermənistana ötürülməsi prosesini asanlaşdırdı. Həmin ilin 16 iyun tarixində Bakıda Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) təsis konfransı keçirilir. Konfransda gizli səsvermə yolu ilə Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) (1938-2000) siyasi partiyanın sədri seçilir. 23 sentyabrında isə Respublika Ali Sovetinin sessiyasında “Azərbaycan SSR-nin suverenliyi haqqında” Konstitusiya qanunu qəbul edilir.

1989-cu ilin 6 iyulunda Sov İKP MK-nın Baş katibi, SSRİ Ali Sovetinin sədri M.S.Qorbaçov Fransa Respublikasının prezidenti Fransua Mitteranın dəvəti ilə iyulun 4-də Moskvadan Parisə rəsmi görüşə gedir. Yelisey sarayında M.S.Qorbaçov və arvadı Raisanın şərəfinə Fransa prezidenti qonaqlara nahar verir. (Bundan sonra isə hər iki dövlət rəhbərləri uzun-uzadı nitq söyləmişlər- F.B.).

1989-cu ilin 28 iyul tarixli SSRİ Ali Sovetinin sədri M.S.Qorbaçovun “Ermənistan SSR-də zəlzələ nəticələrinin ləğv edilməsində daha çox fərqlənmiş komsomolçu-gənclər dəstələri üzvlərinin orden və medallar ilə təltif edilməsi haqqında” Fərmanı olur. Həmin fərmana görə Azərbaycan dəmir yolunun Biləcəri stansiyası lokomotiv deposunun çilingəri Zeynalov Ulduz Mehdi oğlu- “Əmək igidliyinə görə” medalı ilə və DQMV-nin Gənc Texniklər Klubunun direktoru Baqramyan Akop Qavruşayeviç- “Şəxsi mərdliyə görə” medalı ilə mükafatlanırlar.

1989-cu ilin 1 avqustdan Naxçıvan MSSR Kənd Təsərrüfatı Nazirliyi (nazir Cəlil Abdullayev idi) tabeliyində yeni ekoloji idarə-Naxçıvan rayonlararası Bioloji istehsalat laboratoriyası (müdiri k/t elmləri namizədi Əmralı Novruzov idi) yaradılır. Hələlik 7 nəfər işçisi olan bu müəssisədə Muxtar respublikamızda ekoloji problemləri aradan qaldırmaq məqsədilə, təsərrüfatlara zərərverici və xəstəliklərə qarşı, trixoqramma adlı həşərat artırılıb yetişdirilir.

1989-cu ilin birinci yarısında Azərbaycan Xalq Cəbhəsinin bir neçə rayonda dayaq dəstəsi yaradılır. Naxçıvan Muxtar Respublika rəhbərliyi hər hansı bir qərar qəbul edərkən AXC-nin rəhbərliyi ilə hesablaşmalı olur. Həmin ilin 3 noyabr tarixində Naxçıvan şəhərində keçirilən mitinqdə Moskvanın Bakı və Naxçıvandakı rəhbərləri olmuş V.Polyanski və A.Bolotinin vəzifələrindən çıxması və qarşıdan gələn Oktyabr bayramının keçirilməyəsi tələbini bildirmişlər.

1989-cu ilin 14 sentyabrından Naxçıvan Muxtar Respublika mədəni həyatında yeni bir sıçrayış baş verir- Respublikada ilk dəfə olaraq Mədəniyyət Nazirliyinin tabeliyində Dövlət Kukla Teatrı (direktoru Ələkbər Qasımov idi) yaradılır. Teatrın kollektivi öz funksiyalarına uyğun olaraq, əsasən uşaq və yeniyetmələrin mədəni-əxlaqi tərbiyəsində rol oynayır. Teatrın kollektivi Azərbaycan xalq dastanları əsasında tamaşalar hazırlayaraq, Muxtar respublikadan başqa Türkiyəyə, İrana da qastrol səfərlərinə gedirlər. Teatrın repertuarında "Keçinin qisası", "Cırtdanın kələyi", "İnanmayaq tülkülərə" və sairə tamaşalar vardı.

Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin (nazir Fəttah Heydərov idi) 1989-cu ilin 13 mart tarixində C.Məmmədquluzadənin (1866-1932) yubileyi münasibəti ilə Babək rayonundakı Nehrəm kəndində xatirə muzeyi (direktoru Akif Hacıyev idi) açılır. Mirzə Cəlilin işlədiyi məktəbdə (1896-cı ildə) tarix-diyarşünaslıq muzeyi yaratmaqla tarixi mədəniyyətimizi təbliğ etmişdir. (I.Həbibbəyli, "C.Məmmədquluzadə, mühiti və müasirləri" Bakı-1997).

Əvvəllər kənd məktəbinin binası olmuş muzeydə 750 sayda ekspozisiya toplanmışdır. Muzeyə qonşu kəndlərin məktəbliləri tez-tez ekskursiyaya gələrək, ədibin həyat-yaradıcılığı və sərgi ilə tanış olurlar. Həmin ilin axırlarında (1989) Naxçıvan şəhər ZDS İK-nin (sədr Həsən Abdullayev idi) qərarı ilə şəhərdəki "Heydər bulağı" istirahət bağının qarşısındakı meydanda 12-ci əsr Azərbaycan memarı Əcəmi Əbubəkr oğluna qranitdən xatirə heykəli (heykəltəraş Kamil Ələkbərovdur) qoyulur. (Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə şəhər ictimaiyyəti nümayəndələri heykəlin açılışında iştirak etmişlər).

Tarixin yaddaşına nəzər salaq: 1989-cu ilin 28 noyabr tarixində Azərbaycan SSR Ali Sovetinin sessiyası çağırılır. İclasda DQMV-nin Xüsusi İdarəetmə Komitəsi ləğv edilərək, yerində Xüsusi Təşkilat Komitəsi yaradılır.

1989-cı ilin axırlarında Qərbi Avropa kapitalist ölkələrinin təkidi ilə, SSRİ-nin hərbi qoşun hissələri sosialist ölkələrindən çıxarılır. Daha sonra Yaponiya dövlət başçıları öz tarixi torpaqlarının –İkinci Dünya müharibəsindən sonra zəbt edilərək SSRİ-nin Sakit Okeandakı əraziləri kimi qələmə verilən Kuril adalarına öz təbii iddialarını irəli sürməyə başladılar. Lakin yaponların rüşvətinə uyaraq adaları öz həqiqi sahiblərinə qaytarmaq istəyən M.Qorbaçovun sevdası, ABŞ və Qərbi Avropa Dövlət başçılarının etirazına səbəb olur. Elə bütün bu və digər işlərinə görə, Mixail Qorbaçova "Nobel sülh mükafatı" fəxri adının verilməsinə vəd edilir. Həmin ilin axırında Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi Heydər İsayev vəzifəsindən azad edilərək və onun yerinə Afiyəddin Cəlil oğlu Cəlilov (1946-1994) seçilir. Azərbaycan Nazirlər Sovetinin sədri vəzifəsinə Ayaz Niyazəli oğlu Mütəllibov (1938-....) keçir.

1989-cu il dekabrın 31-də saat 12-də "Azərbaycan Xalq Cəbhəsi" partiyası könüllüləri tərəfindən Naxçıvandakı Araz çayı boyunca 137 km-lik Sovet-İran dövlət sərhəd zolağındakı tikanlı məftilləri kəsirlər. Tez bir vaxt ərzində tonqallar qalanır, kəsilmiş sərhəd dirəkləri ilə texniki qurğular birgə yandırılır. (Sonrakı illərdə həmin gün Dünya azərbaycanlılarının Həmrəylik günü kimi elan olunacaq- F.B.).

"Ey Adəm övladı! Məgər sizdən əhd almadımmı ki, Şeytana ibadət etməyin, o sizin açıq-aşkar düşmənizdir. Və Mənə ibadət edin, doğru yol budur ! Həqiqətən, (Şeytan) içərinizdən çoxlarını yoldan çıxardı. Məgər ağlınız kəsmirdi ?"

(Quran, Yasin 36/60-62)

BÖLMƏ

Naxçıvan müasir tarixdə

1990-cı ilin əvvəli Azərbaycan xalqı üçün çətin və məşəqqətli olmuşdur. Erməni silahlıları Qarabağ ərazilərindəki azərbaycanlı vətəndaşları yurd yerlərindən qovurlar. Kafirlər əllərinə düşən müsəlmanların burun-qulaqlarını kəsib əzabla öldürür. Nədənsə xalqın haqq səsinə Bakı ilə Moskva hökumət rəhbərləri (M.Qorbaçov, Ə.Vəzirov, E.Qafarova, A.Mütəllibov, V.Hüseynov) əhəmiyyət verməyərək susurlar. Azərbaycanın bütün bölgələrində İttifaq və Respublika dövləti əleyhinə mitinqlər keçirilir. Çıxış edən natiqlər, mitinq təşkilatçıları Azərbaycanda sosialist ictimai siyasi durumu pisləyərək, Sovet dövlətinin ləğv olunmasını tələb edirlər.

Bakı radio və televiziya xəbərlər proqramında dövlət senzurasının icazəsi ilə xəbərlər saxtalaşdırılır. Həmin illərdə yalnız Naxçıvan radio-televiziyası ilə yerli qəzetlərdə real hadisələr xalqa çatdırılırdı. Bakıda mərkəzi meydanda keçirilən gündəlik mitinqlər, get-gedə kütləvilik halını alaraq xalqı ruhlandırır.

1990-cı ilin yanvar ayının 19-dan 20-ə keçən gecədə meydandakı adamlara xəbər verilmədən seçmə Sovet əsgərləri müasir ağır hərbi texnika ilə Bakı şəhərinə girib xüsusi qəddarlıqla qırğınlar törədirlər. Hərbiçilər küçə və meydandakı insanları öldürmüş, avtomobilləri əzmiş və yaxındakı binaların pəncərələrinə belə avtomat silahlardan atəş açmışlar. Həmin gecə Bakıda Sovet əsgərləri tərəfindən 137 adam öldürülmüş, 641 adam yara almış və yüzlərlə adam isə itkin düşmüşdür. Həmin hadisə Azərbaycan tarixinə qanlı “20 yanvar faciəsi” kimi yazılmışdır. Hadisədən dərhal sonra Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirov (1930-....) xalqa xəbər vermədən (rəzillik və çarəsizlikdən) Moskvaya qaçıb, xalqı başkəsən cəlladlarla təkbətək qoyur.

“Nə vaxtacan tökəcəm, yoxsa ömrüm uzunu,
Həm xalqımın qanını, həm üzümün suyunu ?!”

(Nizami Gəncəvi)

“Sizdən əvvəl bir çox vaqiələr olub keçmişdir. İndi yer üzünü dolaşıb haqqı təkzib edənlərin aqibətinin necə olduğunu görün!”

(Quran, Ali-İmran 3/137)

Tarixin yaddaşına nəzər salaq: Həmin ilin (1990) 20 yanvar tarixində Ermənistan SSR-nın hərbi dəstələri Naxçıvanın Sədərək və Kərki kəndlərinə də silahlı basqınlar edirlər. Müasir hərbi texnika ilə silahlanmış Sovet rus əsgərləri ilə erməni könüllüləri, Kərki kəndi ilə Sədərək şəhəri ərazilərini “Alazan” raketləri ilə atəşə tuturlar. Kərki kəndini zəbt edən ermənilər bununla kifayətlənməyib, yüksək mövqelərdən atəş açaraq, Sədərəkdəki yaşayış evlərini, şərab zavodunu, məktəb və xəstəxana binasını da dağıdırlar. Bakı və Naxçıvandakı hadisələrə görə Azərbaycan xalqı üç gün matəm saxlayır.

1990-cı ilin birinci rübündə, Ermənistan hökumətinin hərbi silahlı dəstələri Naxçıvanın sərhədyanı Havuş, Çağazir, Yuxarı Yaycı, Şada, Gərməçataq, Kükü, Biçənək, Keçili, Ərəfsə, Bəyəhməd, Ləkətağ və başqa kəndlərə hücumlar edirlər. Naxçıvan hökuməti tərəfindən Ermənistanın Naxçıvan ərazilərinə basqınları haqqındakı məlumatlar, Bakı ilə Moskvaya bildirilsə də, əhəmiyyət verilmir. (“Azərbaycan” qəzeti, 8 fevral, 2001-ci il № 31).

Həmin hadisələri Moskva televiziyasının xəbərlər proqramında, Naxçıvan vətəndaşlarının ermənilərə basqını kimi bildirilir. Bütün bunlara görə də Naxçıvan xalqı hiddətlənərək, Sovet kütləvi təbliğat vasitələrini pisləyirlər. Bu cür hadisələr fonunda keçmiş Qars müqaviləsinin şərtləri kobudluqla pozulduğu üçün Naxçıvan MSSR Ali Soveti tərəfindən qərar qəbul edilir. Naxçıvan MSSR Ali Soveti sədri Səkinə Əliyeva (1925-2010) və katib Həsən Xəlilov (1921-1999) tərəfindən həmin sənəd imzalanır. Qərarın mətni aşağıdakı kimi olmuşdur;

“SSRİ Əsas Qanununun 81-ci maddəsinə əsasən Azərbaycan SSR, o cümlədən də onun tərkib hissəsi olan Naxçıvan MSSR-nin suverenliyi və ərazi bütövlüyü müdafiə edilmədiyindən, Azərbaycan SSR və Naxçıvan MSSR Ali qanun verici orqanlarının ittifaq orqanlarına dəfələrlə edilən müraciəti nəticəsiz qaldığından. Ermənistan SSR tərəfindən edilən təcavüz nəticəsində Muxtar Respublika ərazisi bütövlüyünü vətəndaşların həyatı təhlükə qarşısında qaldığından, Türkiyə və Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR arasında RSFSR-nin iştirakı ilə bağlanmış “Qars müqaviləsi”nin şərtləri kobud surətdə pozulduğundan, Naxçıvan MSSR Ali Sovetinin Fövqəladə sessiyası qərara alır:

Naxçıvan MSSR, SSRİ tərkibindən çıxaraq özünü müstəqil Respublika elan edir.

Qars müqaviləsinin şərtlərinə uyğun olaraq, Naxçıvan Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınının qarşısını almaq məqsədi ilə Türkiyə Respublikasına müraciət edilsin.

Yaranmış vəziyyətlə əlaqədar olaraq Birləşmiş Millətlər Təşkilatına, İran İslam Respublikasına və dünyanın bütün ölkələrinə kömək məqsədi ilə müraciət olunsun.

Naxçıvan Respublikası ərazisində olan Sovet qoşun hissələri respublikadan çıxarılsın.

SSRİ Ali Sovetindən tələb edilsin ki, Naxçıvan Respublikasına edilən təcavüzə son qoyulsun.

Qərar Azərbaycan SSR və SSRİ dövlətlərinin nəzərinə çatdırılsın.” (”Şərq qapısı” qəzeti, 20 yanvar 1990-cı il, № 1).

Naxçıvan vətəndaşlarının BMT üzvü olan dövlətlərə, islam ölkələrinə, demokratik qruplara və təşkilatlara müraciəti olmuşdur. Həmin müraciət aşağıdakı kimi deyilmişdir;

“Biz Naxçıvan respublikasının vətəndaşları dünya ictimaiyyətinin diqqətini Azərbaycanda baş verən hadisələrə cəlb edərək bildiririk: SSRİ hökuməti, rəsmi dairələr, mətbuat, radio və televiziya tərəfindən Azərbaycanda, o cümlədən Naxçıvan respublikasında baş verən hadisələr barədə məlumatlar qəsdən təhrif olunur və heç bir yerli faktlara əsaslanmır. Azərbaycanda baş verən hadisələr SSRİ-nin daxili işləri çərçivəsindən kənara çıxaraq sürətlə beynəlxalq münaqişəyə doğru gedir.

Azərbaycanda baş verən hadisələr bu gün dünya ictimaiyyətinə qeyri-obyektiv şəkildə çatdırılır. Bununla Azərbaycanda gedən prosesləri anti xristian, antidemokratik, anti humanist hərəkat kimi təqdim etmək, bütün dünyanın xristianlarını, demokratik qüvvələrini Azərbaycana qarşı yönəltmək məqsədi güdmüşdür. Bu gün SSRİ-nin Azərbaycana qarşı yeritdiyi siyasət Moskvanın Əfqanıstan məsələsi barədə şərəfsiz siyasəti ilə səsləşir və anti islam, antidemokratik xarakter kəsb edir.

Əslində isə Azərbaycanda SSRİ-nin yeritdiyi milli və dini ayrı-seçkilik siyasətinə, Moskvanın birtərəfli, ermənipərəst mövqeyinə qarşı etiraz hərəkatı gedir. Bu hərəkat başlandığı vaxtdan milli müstəqillik xətti götürmüşdür. Bu gün biz BMT üzvü olan dövlətlərin, o cümlədən dünya ictimaiyyətinin, xristian, islam təşkilatlarının, demokratik qüvvələrin diqqətini Azərbaycanda baş verə biləcək beynəlxalq münaqişənin qarşısını vaxtında almaq üçün bu məsələyə ciddi diqqət yetirilməsini xahiş edirik.

Bundan başqa Ermənistanın antiazərbaycan siyasəti Moskvanın Azərbaycanda gedən milli azadlıq hərəkatını qərəzlə təhrif etmək cəhdi ilə bağlıdır. DQMV Azərbaycan SSR-nin etnik, inzibati, tarixi ərazisi olub və olacaqdır. Dağlıq Qarabağı Azərbaycandan ayırmaq cəhdləri beynəlxalq prinsiplərə zidd olan ekspansionist siyasətin və separatçı hərəkətlərin nəticəsidir. Səsimizə səs verin ! Bu gün Azərbaycanda bütün dünyanın taleyi sizin köməyinizdən asılıdır !" ("Şərq qapısı" qəzeti, 20 yanvar 1990-cı il, № 1).

> *"İçərinizdə yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar, həqiqətən nicat tapmış şəxslərdir."*
>
> **(Quran, Ali İmran 3/104)**

Həmin tarixi qərara görə müqavilə şərtləri pozulduğundan Naxçıvan MSSR, SSRİ hökuməti tərkibindən çıxdığını Bakı və Moskvaya bildirir. Naxçıvan MSSR Ali Sovetinin qərarı, Naxçıvan radio-televiziyasında elan edilir, yerli qəzetlərdə dərc olunur. Bundan sonra Naxçıvan hökuməti dünya dövlətlərinə ermənilərin çirkin əməlləri haqqında bəyanatla müraciət edir. Həmin bəyanatda qonşu İran və Türküyə dövlətlərindən kömək və yardım istənilir.

Naxçıvan hökumətinin bu tarixi sənədi SSRİ-nin müttəfiq respublikalarına da çatdırıldı. Həmin tarixdən də gücdən və gözdən düşmüş, korrupsiya burulğanında dəfn olunmaqda olan Sovet dövlətinin tərkibindən çıxan Naxçıvan Muxtar Respublikası, sərbəst surətdə Azərbaycanın tərkibində qaldı. Bakıdakı 20 yanvar qırğınından sonra həyatını təhlükəyə qoyan H.Əliyev, Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək orada Qorbaçov siyasətinə qarşı bəyanatlarla çıxış edir. Daha sonra o, Moskvadan Bakıya gəlib, bir gecədə yarpaq kimi tökülmüş şəhidlərin məzarlarını ziyarət edir.

H.Əliyev Bakıda onun əleyhinə aparılan güclü təbliğatla və o zamankı Azərbaycan prezidentinin və onun əlaltılarının ona qarşı düşmən münasibəti ilə üzləşdiyindən orada qalamağın təhlükəli olduğunu görüb tezliklə təyyarə ilə Naxçıvana uçur. Naxçıvan xalqı Azərbaycanın və SSRİ-nin keçmiş rəhbəri H.Ə.Əliyevi səmimi qarşılayır.

Nuh yurdunun mübariz xalqı H.Əliyevi Naxçıvan hökumətinə rəhbər vəzifəyə seçir. H.Ə.Əliyev Naxçıvanda gərginlik şəraitində bir çox mühüm, həyati vacib işlər gördü. Belə ki, İran və Türkiyə ilə Naxçıvan hökuməti arasında ərzaq və elektrik enerjisi müqavilələri bağlayaraq xalqı u dövrün qlobal böhranından və həyati çətinliklərindən qurtarmışdır.

1990-cı ilin yanvarın 24-də Bakı-Sumqayıt şose yolunun 26-cı kilometrliyində Bakıya tərəf cərgə ilə yeriyən 17 tankın sırasında üçüncü gedən 615 nömrəli tank öz yolundan 7 metr sola çıxaraq və yolun kənarında dayanmış "Jiquli" markalı minik maşınını əzib keçir. Maşındakı 5 nəfər sərnişindən ikisi, kimya elmləri doktoru İbrahim İbrahimov və Svetlana Məmmədova yerindəcə ölmüş və qalan üç nəfər isə ağır yaralanırlar. Yaralılardan biri kimya elmləri doktoru İsmayıl Mürsəlov xəstəxanada dünyadan köçməli olur.

1990-cı ilin aprelin 24-də Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin (sədr Səkinə Əliyeva, katib Həsən Xəlilov idi) Fərmanı ilə Naxçıvan şəhərinin Lenin meydanında kütləvi tədbirlərin keçirilməsini tənzimlənməsi və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1988-ci il 24 mart tarixli fərmanına əsasən yığıncaqların keçirilməsi qanunla qadağan olunur.

1990-cı ilin 19 mayında E.M.Qafarovanın sədrliyi ilə keçirilən Azərbaycan SSR Ali Sovetinin sessiyasında, Azərbaycan Sovet Sosialist Respublikasının prezidenti vəzifəsinin təsis edilməsinə qərar verilir. Həmin il Azərbaycan KP MK-nin birinci katibi vəzifəsinə Ayaz Niyazi oğlu Mütəllibov (1938-....) seçilir. Bundan sonra Azərbaycan Nazirlər Sovetinin sədri vəzifəsinə Həsən Əziz oğlu Həsənov (1940-....) keçir.

1990-cı il 21 may tarixində Azərbaycan Sovet Sosialist Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Demokratik Respublikasının elan olunduğu 28 may günü Azərbaycan dövlət quruluşunun Respublika günü kimi elan olunur. Həmin qərar iclasdakılar tərəfindən yekdilliklə qəbul olunmuşdur. Sovet ordusunun 366-cı moto-atıcı diviziyası, Qarabağdakı erməni silahlılarına himayədarlıq göstərir. Həmin ərəfədə Moskvada Rusiya Federasiyasına Prezident seçkiləri keçirilir ki, yeganə namizəd B.N.Yeltsin (1931-2007), Rusiya Federasiyasının Prezidenti olur.

1990-cı ilin 28 iyul tarixində Respublikada demokratik qüvvələrin forumu keçirilərək, 20-dən çox ictimai-siyasi təşkilat tərəfindən "demblok" adlı qurum yaradılır. Həmin ilin payızında Naxçıvan hərbi qarnizonunun SSRİ-nin əsgər və zabit heyəti hərbi sursatla texniki avadanlıqları Naxçıvanda qoyaraq, Azərbaycanı tərk edib Rusiyaya köçür. Bütün hərbi texnika ilə sursatlar Naxçıvandakı Xalq Cəbhəsinin könüllü Müdafiə dəstəsinin əlinə keçir. Naxçıvan hərbi qarnizonunun Qərargahı H.Əliyevin iştirakı ilə yeni yaradılmış Azərbaycan Milli Ordusunun hərbiçilərinə təhvil verilir. (Həmin təhvil-təslimdə Bakıdan gəlmiş Azərbaycan Müdafiə Naziri Rəhim Qazıyevlə bərabər Daxili İşlər Naziri İsgəndər Həmidov da iştirak etmişlər-F.B.).

1990-91-ci dərs ilinin əvvəlindən Naxçıvan Muxtar Respublika Təhsil Nazirliyinin (nazir Hidayət Hüseynov idi) tabeliyində yeni məktəbdənkənar təlim-tərbiyə müəssisəsi "Naxçıvan Estetik Tərbiyə Mərkəzi" (direktoru Səməd Məmmədov idi) yaradılır. Mərkəzdə "Təsviri incəsənət", "Dekorativ-tətbiqi sənət", "Musiqi və ifaçılıq sənəti" və "Kütləvi səhnə sənəti" kabinələri fəaliyyət göstərirdi. Uşaq müəssisəsində 200-ə yaxın şagird 50-dən artıq müəllim tərəfindən müxtəlif studiyalarda bədii sənətkarlıq fənlərindən təlim-tərbiyə alırdılar. Mərkəzin kollektivi tez-tez Muxtar respublika məktəblilərinə yaradıcılıq sərgilərini açaraq və bədii proqramda çıxış edirdi.

1990 cı ilin 29 avqust tarixli Azərbaycan SSR Ali Sovetinin qərarı ilə (sədr Elmira Qafarova idi) Sədərək kənd Soveti ləğv edilərək Sədərək qəsəbə Sovetinin yaradılması və şəhər tipli Sədərək qəsəbəsi mərkəz olmaqla Sədərək rayonunun Yaradılması haqqında, İliç rayonunun Sədərək qəsəbə, Kərki, Dəmirçi və Maxta kənd Sovetləri yeni rayonun tərkibinə keçirilir.

1990 cı ilin 27 sentyabr tarixli Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə (sədr Afiyəddin Cəlilov və katib Həsən Xəlilov idi) mərkəzi Şərur şəhəri olmaqla İliç rayonu Şərur adlandırılaraq və Azərbaycan Dəmiryolu İdarəsinin Noraşen stansiyası isə Şərur stansiyası adlandırılmışdır.

1990-cı ilin 17 noyabrında Naxçıvan MR Ali Məclisinin 1-ci sessiyası çağırılır. H.Ə.Əliyevin sədrliyi ilə keçirilən iclasda Vilayətin adı dəyişilərək, Vilayət Partiya Komitəsi- Ali Məclis, Naxçıvan MSSR- Naxçıvan Muxtar Respublikası və Naxçıvan MSSR Nazirlər Soveti isə Naxçıvan MR Nazirlər Kabineti adlanır. (Sonrakı illərdə həmin gün tarixin yaddaşına Azərbaycanın Dirçəliş günü kimi düşür). Sessiyada hələ 70 il əvvəl M.Rəsulzadə tərəfindən qaldırılan üçrəngli müstəqillik bayrağı, həmişəlik olaraq qaldırılır. Əfsuslar ki, məhz həmin ərəfədə Laçın və Qarabağın Şuşa şəhəri ermənilər tərəfindən zəbt edilir.

1990-cı ilin 31 dekabrında Mixail Qorbaçov Moskvada Mərkəzi radio və televiziya ilə çıxış edərək, Sovet dövlətinin ləğv olunması və özünün də istefasını elan edir. Və sonra əlindəki Leninin şəkli olan Kommunist partiyası biletini riyakarlıqla yandırır. (Kommunist partiyası M.Qorbaçovu yüksək vəzifəyə gətirib çıxartsa da, Lenin ideyalarına sadiq qalmadı. Bir vaxtlar A.Hitler öz kommunist müəllimini tapança atəşi ilə öldürdüyü kimi, M.Qorbaçov da bolşevizmin nankor övladlarından birinə çevrildi).

“İblis!... O böyük ad nə qədər calibi-heyrət!
Hər ölkədə, hər dildə anılmaqda o şöhrət.”

(Hüseyn Cavid)

1991-ci ilin 5 fevralında Respublika Ali Sovetinin sessiyasında yeni dövlətin adının Azərbaycan Respublikası adlandırılması haqqında qərar qəbul edilir. Bundan sonra Azərbaycan Respublikasının dövlət bayrağı 1918-20-ci illərdəki AXC-nın üçrəngli və ay-ulduzlu bayrağı ilə əvəz olunur. Həmin ilin 30 avqustunda Respublika Ali Sovetinin növbədənkənar sessiyasında “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyanat” qəbul olunur.

2001-ci il iyun ayının 22-də qəbul edilmiş “Ahıllara sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, 70 yaşına çatmış hər bir vətəndaş ahıl sayılır. Naxçıvan MR Ali Məclisi sədrinin 2006-cı il 30 may tarixli sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı” həyata keçirilir. Əmək və Əhalinin sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Tibbi-Sosial Ekspert Komissiyasının həkimləri ildə 4 dəfə Şahbuz şəhərindəki Ahıllar evində yaşayanları tibbi müayinədən keçirirlər. Naxçıvan MR-in ən uzun ömürlü sakini, 110 yaşlı Qönçə Hümbətovadır. Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1992-ci ildə qəbul etdiyi Qətnaməyə uyğun olaraq, hər il Oktyabr ayının 1- Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur.

1991-ci ilin 3 sentyabrında Naxçıvan MR Ali Məclisində fövqəladə sessiya çağırılır. Sessiyanın iclasında Afiyəddin Cəlilovun Azərbaycan Ali Sovetinə sədr müavini təyin edilməsi və H.Ə.Əliyev Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsinə keçməsi barədə qərar qəbul olunur.

1991-93-cü illərdə Naxçıvan MR Ali Məclisinin sədri Həydər Əlirza oğlu Əliyev (1923-2003) olmuşdur.

1991-ci ilin 8 sentyabr tarixində Azərbaycanda (Naxçıvan MR-dən başqa) Prezident seçkiləri keçirilir və yeganə namizəd kimi Ayaz Niyazi oğlu Mütəllibov (1938-) Azərbaycan Respublikasının Prezidenti olur. Həmin ilin 14 sentyabrında Bakıda Azərbaycan Kommunist partiyasının XXXIII fövqəladə Qurultayı çağırılır. İclasda SSRİ hökumətinin M.Qorbaşov tərəfindən dağıdılması ilə əlaqədar Azərbaycan Kommunist partiyasının fəaliyyəti, müvəqqəti olaraq dayandırılır. (Həmin ərəfədə Azərbaycan KP Naxçıvan şəhər Komitəsi katibi Orucəli Məmmədovun evinə basqınçılıq edilərək, kommunistlərin qeydiyyat-arxiv sənədləri aparılmışdır. Sonra "basqınçılar", Vilayət Komsomol Komitəsindəki qeydiyyat-arxiv sənədlərini də götürüb aparırlar).

1991-ci ilin sentyabrın 7-dən Azərbaycan Ali Soveti tərəfindən "Azərbaycan milli müdafiə qüvvələri haqqında" qərar verilir. Həmin qərara əsasən Naxçıvan MR Ali Məclisinin 20 sentyabr fərmanı ilə Naxçıvan MR Milli Müdafiə Komitəsi (sədri Elman Abbasov, qərargah rəisi Səhləb Məmmədov idi) yaradılır. Kərki və Sədərək uğrunda ermənilərlə döyüşlərdə 100 nəfərədək əsgərimiz ağır yaralanır. Vətən yolunda vuruşub həlak olan əsgərlərimiz isə şəhidlik zirvəsinə çatırlar. (Təkcə Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında 1992-ci ilin döyüşlərində 17 igid döyüşçü dəfn olunmuşdur- F.B.). ("Azərbaycan" qəzeti, 8 fevral, 2001-ci il, № 31).

"Sizə tapşırıram "Cənnət dünyanı",
Cənnət dünyasının Adəm Sultanı."

(Səhləb)

1990-cı ildən 2001-ci ilədək cəbhədə igidcəsinə həlak olub Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"nda dəfn olunan şanlı zabit və əsgərlərimiz aşağıdakılardır;

Məmmədov İdris Ələsgər oğlu (1958-1990)

Zeynalov Vəli Məmməd oğlu (1956-1990)

Nəzərəliyev Abbasəli Qaragöz oğlu (1970-1990)

Tağıyev Azər Nemət oğlu (1970-1992)

Seyidov İlkin M. Nəzir oğlu (1969-1992)

Tarverdiyev Azər İsmət oğlu (1967-1992)

Mirzəyev Fərhad Səyyad oğlu (1972-1992)

Musayev Firudin Qulu oğlu (1957-1992)

Abbasov Bahadur Bayram oğlu (1960-1992)

Əliyev Səyyad Əhəd oğlu (1951-1992)

Ələkbərov Vahid Zahid oğlu (1973-1992)

İsmayılov Fərmayıl İsmayıl oğlu (1973-1992)

Orucov Rövşən Mehman oğlu (1973-1992))

Əliyev M.Malik M.Qabil oğlu (1973-1992)

Səmədov Əli Səməd oğlu (1969-1992)

Məmmədov Faiq Yaqub oğlu (1973-1992)

Əsgərov Canpolad Ağaverdi oğlu (1973-1992)

Məmmədov Nüsrət Hüseyn oğlu (1973-1992)

Mahmudov Vilayət Təvəkkül oğlu (1964-1992)

Seyidov Əsgər Abdulla oğlu (1970-1992)

Zeynalov Azər Xərrux oğlu (1964-1993)

Yusifov Məmmədəli Eldar oğlu (1973-1993)

Musayev Adəm Afiq oğlu (1971-1993)

İbrahimov Yalçın Səfər oğlu (1972-1993)

Hüseynov Afət İmran oğlu (1974-1993)

Mirzəyev Yusif Vəli oğlu (1958-1993)

Nəcəfov Rüstəm Hidayət oğlu (1974-1993)

Qasımov Vüqar Fərman oğlu (1974-1994)

Məmmədov Abbas Əbülfəz oğlu (1973-1994)

Məmmədov İbrahim İsmayıl oğlu (1958-1994) (Milli Qəhrəman)

Hacıyev Afət Əsgər oğlu (1958-1994)

Rüstəmov İntiqam Dilən oğlu (1972-1994)

Sadiqov Qoşdar Hidayət oğlu (1973-1994)

Əliyev Babək Əsəd oğlu (1974-1994)

Budaqov Ramiz Qərib oğlu (1973-1994)

Hacıyev Mehman Şəmil oğlu (1975-1994)

Hacıyev Nizami Davud oğlu (1973-1994)

Əliyev Əmiraslan Rza oğlu (1960-1995) (Milli Qəhrəman)

Mehdiyev Bəşir Yusif oğlu (1977-2001)

"Gəl qəbrim üstünə, vəfalı igid,
Günaydın!-deyibən, günaydın!-eşit.
Mən torpaqda yatan bir mirvariyəm,
Qaldırsan görərsən sən tək diriyəm."

(Nizami Gəncəvi)

"Allah yolunda öldürülənlərə (şəhidlərə) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz!"

(Quran, Bəqərə 2/154)

1991-ci ilin 19 sentyabr tarixində erməni quldurları Gorus rayonunun Üçtəpə ərazisində yerləşən teleradio ötürücüsündə Naxçıvan istiqamətindəki kanalları dayandırmış və Muxtar respublika əhalisi Azərbaycan televiziyasına baxa bilməmişdir. Ertəsi günü Sisyan tərəfdən erməni silahlıları, Şahbuz rayonundakı Biçənək kəndindəki tele radio ötürücü stansiyasını da partladaraq sıradan çıxarmışlar.

1991-ci ilin 18 oktyabr tarixində "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" qərar qəbul olunur. Həmin tarixdən də 18 oktyabr tarixi "Dövlət müstəqilliyi günü" elan olunur.

1991-ci ilin 26 oktyabr tarixində Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında Naxçıvan MR ərazisindəki Sovet qoşun hissələrinin statusu haqqında qərar qəbul olunur. Həmin sessiyada Naxçıvanda qulluq edən hərbiçilərin erməni quldurları ilə Azərbaycan əleyhinə faktlar müzakirə edilir. Məlum olmuşdur ki, Naxçıvandakı Sədərək və Ordubad zastavaları, gizli şəkildə Ermənistan sərhəd bölgəsinə tabe edilmiş.

1991-ci ilin 29 oktyabr tarixində Muxtar respublikanın Sədərək rayonunda Azərbaycan-Türkiyə arasında Araz çayı üzərində "Ümid körpüsü" açılmışdır. Həmin ilin 6 noyabr tarixində yuxarıdakı məsələ ilə əlaqədar SSRİ DTK-nin sədr müavini N.A.Şam və SSRİ BDSİ-nin şöbə rəisi A.A.Bessonov, habelə Zaqafqaziya hərbi dairəsindən zabitlər Naxçıvana gəlmişlər.

1991-ci ilin 9 noyabr tarixində Türkiyənin "Qızıl ay" cəmiyyəti tərəfindən Muxtar respublikaya 126 ton ərzaq gətirilmiş. Bundan sonra isə (18 noyabr) Konya şəhərindən ərzaq karvanı gəlmiş və (29 noyabr) İğdır əhalisi tərəfindən 19 yük maşını ərzaq göndərilmişdir. Həmin ilin 9 noyabr (1991) tarixində Türkiyənin 8-ci prezidenti cənab Turqut Özal (1927-1997) Orta Asiya Respublikalarından Bakıya gələrək Azərbaycan xalqına dəstək olduğunu bildirir.

1991-ci ilin noyabr ayından Naxçıvan MR Təhsil Nazirliyi (nazir Nazim Ələkbərov idi) tabeliyində Naxçıvan Türk (oğlanlar) Liseyi yaradılır. (Daha sonra isə Ordubadda Qızlar və Şərurda isə İqtisad Liseyi açılaraq fəaliyyətə başlamışdır). Həmin ildə uzun illər "Azərnəşr" in direktoru işləmiş H.Əliyevin yaxın dostu Əjdər Xanbabayev Azərbaycan Təhlükəsizlik Komitəsi casusları tərəfindən qətlə yetirilir.

1991-ci ildən Azərbaycanda Sovet Dövlət Təhlükəsizlik Komitəsi ləğv olundu. Sevindirici haldır ki, 1958-ci ildə N.Xruşşovun göstərişi ilə Moskvanın mərkəzi meydanında DTK-nın əsas binasının önündə Sovet çekisti F.E.Djerzinskiyə (1877-1926) qoyulmuş "dəmir heykəl" də yerindən götürülür.

Tarixin yaddaşına nəzər salaq: 1991-ci ilin noyabrın 20-i Azərbaycan xalqı üçün ən ağır günlərdən biri olmuşdur. Həmən gün Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Azərbaycana məxsus vertolyot ermənilər tərəfindən atəşə tutulmuş, onun içərisində olan ölkəmizin bir qrup tanınmış dövlət xadimi və jurnalistlər həlak olmuşdular. Mİ-8 tipli vertolyot Xankəndinə və Şuşaya sülh missiyası ilə göndərilmişdi.

Erməni terrorçularının Xocavənd rayonunun Qaradağlı kəndində dinc sakinləri kütləvi qətlə yetirməsi xəbərini alan sülh missiyası təcili hadisə yerinə getmişdi. Həmin rayonun Qarakənd kəndi üzərində vurularaq, yerə düşmüş vertolyotdakı yaralıları və sağ qalanları terrorçular vəhşicəsinə öldürmüş, cəsədlərini isə yandırmışlar. O zamanlar vertolyotun Moskvaya aparılmış "qara qutusu" (danışıq lentləri) isə müəmmalı şəkildə yoxa çıxmışdır.

Ölənlər arasında Azərbaycanın dövlət katibi, Texnika elmləri doktoru, Professor Tofiq İsmayılov, baş nazirin müavini, deputat Zülfü Hacıyev, daxili işlər naziri Məhəmməd Əsədov, dövlət katibinin köməkçisi Rafiq Məmmədov, baş prokuror İsmət Qayıbov, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, Meliorasiya və su təsərrüfatı nazirinin birinci müavini Qurban Namazəliyev, Azərbaycan Respublikası Dövlət Teleradio şirkətinin əməkdaşları və onların içərisində jurnalist Alı Mustafayev kimi xalqını sevən, onun yolunda canını fəda etməyə hazır olan şəxslər də var idi. Həmin ilin 26 noyabr tarixində Respublika Ali Sovetinin 50 deputatından ibarət Milli Şurası yaradılaraq və Ali Sovetin qərarı ilə DQMV-nin statusu ləğv edilir.

1991-ci lin dekabr ayından SSRİ hökumətinin dağılması nəticəsində Azərbaycan Ali Sovetinin "Azərbaycan Silahlı Qüvvələrinin yaradılması haqqında" (9 oktyabr 1991-ci il tarixli qərarı) və Azərbaycan hökumətinin 225 №-li sərəncamına görə, Naxçıvan MR Nazirlər Kabinetinə və yerli XDS İK-nə bildirilir ki, hərbi texnika və avadanlıqlar bölgələrdən kənara çıxarılmasın.

1991-ci ilin 9 dekabrında Azərbaycan Respublikası, "Ümumdünya İslam Təşkilatı"na üzv qəbul edilir. Dekabrın 16-da isə Naxçıvanda "Dünya Azərbaycanlılarının Həmrəyliyi günü" təntənəli qeyd edilir. Həmin ilin 25 dekabrında Azərbaycan Ali Sovetinin Milli Şurası tərəfindən hər ilin "31 dekabr- Azərbaycanın həmrəyliyi günü" elan olunur.

Şurada növbəti dərs ilində ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarının test üsulu ilə keçirilməsi haqqında qərar da verilir. Bununla, Azərbaycan ali və orta ixtisas təhsil ocaqlarında millətin ziyalı qismi sayılan akademik, professor, dosent və müəllimlər arasında illərlə tüğyan edən kütləvi rüşvətxorluğun, "pulla tapşırmanın", korrupsiyanın, qohumbazlığın müəyyən mənada qarşısı alınmış oldu. (Bu, Azərbaycan təhsil sistemi tarixində keçirilən ən mühüm, ən vacib reforma idi ki, bununla millətin mənəvi soyqırımına sürüklənməsinin qarşısı alındı).

1991-ci il dekabrın 27-də ABŞ-ın Moskvadakı səfirliyindən E.G.Breyt və O.A.Karlson Naxçıvana gələrək və Heydər Əliyevlə görüşmüşlər. H.Əliyev amerikalı diplomatlara Naxçıvandakı vəziyyət barədə məlumat vermişdir. (1992-ci ildə ABŞ-ın Azərbaycandakı səfiri Robert Fin və iyulun 17-də isə yeni səfir Riçard Mayls, İngilis səfiri H.Fomston, Fransa səfiri J.Perre və BMT-nin nümayəndəsi Mahmud Əl-Səid Naxçıvanda olmuşlar).

1992-ci il yanvarın 1-dən ölkə daxilindəki mövcud Rus yazı əlifbası Latın qrafikalı əlifba ilə dəyişdirilməsi barədə qərar qəbul edilir. (Qədim xalqın dəyişilməz bir yazı əlifbası olar. Təəssüf ki, 20-ci əsrdə dörd dəfə (fars, ingilis, rus və xalqı məlum olmayan latın yazı qrafikası) yazı əlifbamız dəyişdirilibdir. Qədim əlifbamızı arıyıb axtarmaq əvəzində, əcnəbilərin yazı əlifbalarını kimlərinsə xeyrinə siyasət meydanında dəyişdirirlər. Nəticədə minlərlə yazılmış bədii, elmi və dərslik kitablarımız kitabxana sistemindən dəyərsiz əşya kimi zibilxanaya atılır). 1991-ci ilin 29 dekabrında Azərbaycan Respublikasının müstəqilliyinə xalqın münasibətini təyin etməkdən ötrü referendum keçirilmiş və vətəndaşlar tərəfindən rəğbətlə qarşılanmışdır.

1992-ci ilin 25-26 fevralında vəhşi erməni silahlıları, Xankəndindəki 366-cı rus alayının yardımı ilə Qarabağın Xocalı şəhərini ələ keçirmiş və dinc əhalisini də qəddarlıqla öldürmüşlər. Həmin gün Rusiya, Ermənistan quldurları və xaricdən pulla gətirilmiş qara dərili qatillər günahsız adamları öldürərək, evləri də qarət edirlər. Qatillər Xocalı şəhərində 613 nəfər müsəlmanın başın kəsmiş, 1.725 nəfəri əsir tutmuş, 150 nəfəri diri-diri yandırmış və 187 nəfərin isə burun-qulaqlarını qəddarlıqla kəsərək öldürmüşlər.

1992-ci ilin 2 martında Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına (BMT)-yə üzv qəbul olunur. Xocalı əhalisini quduz yağıya təkbaşına, əliyalın buraxaraq 1992-ci ilin 26 fevralında əsrin faciəsinin törəməsinə bais olduqlarından qəzəblənən xalqın və Azərbaycan Xalq Cəbhəsi tərəfdarlarının təzyiqlərinə tab gətirə bilməyən Azərbaycan Prezidenti A.Mütəllibov və Ali Sovetinin sədri E.Qafarova martın 6-da istefa verərək gizli yolla Moskvaya qaçırlar. Bundan sonra Azərbaycan prezidenti səlahiyyətlərini müvəqqəti icra edən Ali Sovetin sədr müavini Yaqub Məmmədov olur. Həmin ilin 4 aprelində Azərbaycan Respublikası ilə Rusiya arasında diplomatik münasibətlər haqqında protokol imzalanır.

1992-ci ilin martın 8-də İran İslam Respublikasının Naxçıvanda konsulluğu açıldı. Bundan sonra İran ərazisinə də naxçıvanlıların gedib-gəlmək yolu sərbəst oldu. Təbrizli soydaşlarımız Naxçıvana 22 vaqon ərzaq yardımı göndərmiş, sonra isə İrandan Naxçıvana 42 meqavoltluq elektrik xətti çəkildi. Həmin ilin axırında isə Araz çayı üzərindən Şahtaxtı-Poldəşt keçid körpüsü də açılmışdır.

1992-ci ilin martın 10-da Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin Ermənistan Ali Sovetinin sədri Babken Arakçyanla görüşü olmuş. Görüşdə Ermənistanın Mehri rayonu ərazisindən keçən kommunikasiya xətlərinin normal işləməsinə razılıq olsa belə, Ermənistan rəhbərliyi etiraz etmişdir. Həmin ilin martın 22-25-də Heydər Əliyev Türkiyənin Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə dost ölkəyə səfər də olmuş. Ankarada Türkiyə prezidenti Turqut Özal və Baş nazir Süleyman Dəmirəl Heydər Əliyevi qəbul etmişlər.

1992-ci ilin 8 mayında Azərbaycan Respublikası Ali Sovetinin adı dəyişilərək, Milli Məclis adlanır. Həmin gün erməni silahlı dəstələri Azərbaycanın qədim Şuşa şəhərini tuturlar. Erməni silahlı dəstələri azğınlaşaraq, 19 may tarixində Qarabağın Laçın rayonu ərazilərini də ələ keçirirlər.

1992-ci il mayın 28-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl təyyarə ilə Naxçıvana gəlmiş. Həmin gün Heydər Əliyev və Süleyman Dəmirəlin iştirakı ilə Araz çayı üzərindəki "Ümid körpüsü" nün açılışı olmuşdur. Həmin ilin iyunun 1-5-də Naxçıvan MR Ali Məclisinin sədri H.Əliyevin başçılığı ilə naxçıvanlı nümayəndə heyəti Türkiyə hökumətinin dəvəti ilə Ankara və İzmirdə olmuşlar.

1992-ci ilin 7 iyun tarixində Azərbaycan Xalq Cəbhəsi partiyası sədri Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) (1938-2000), Azərbaycan Respublikasının Prezidenti seçilir. (Azərbaycanın yeni rəhbəri, ilk dəfə olaraq Azərbaycan parlamenti və xalqı qarşısında Allahın Müqəddəs Quran kitabına əl qoyaraq xalqını, vətənini və onların müstəqilliklərini göz bəbəyi kimi qoruyacağına söz vermişdir- F.B.).

"Eşitdim: qocalarkən dönüb mərcan olur daş,
Düşün bir az, hər daşdan mərcan yaranmır, qardaş."

(Nizami Gəncəvi)

Azərbaycan parlamenti, xalq elçiləri (deputatlar) tərəfindən təzə hüquqi qanunlar qəbul edirlər. Parlament üzvləri Azərbaycan millətinin adının – "Azəri türkü", dilinin isə həyati həqiqətlərə uyğun olaraq Türk dili adlandırılması barədə qərar qəbul edirlər. Bundan başqa, millətin yazı qrafikası üçün vaxtilə zorla tətbiq edilmiş rus Kiril əlifbasını ləğv edərək, Latın qrafikası ilə əvəz olunması haqda da qərar qəbul olunur. Azərbaycan dövlətinin bayrağı ilə gerbi də 1918-ci ildə qəbul olunmuş atributlarla əvəz olunur. Dövlətin çoxpartiyalıqdan, bir palatalı Parlamentdən, Prezidentdən, Milli Məclis, Nazirlər Kabineti və Ali Məhkəmədən ibarət idarəetmə qurumu yaradılır. Azərbaycanda yaşayan bütün vətəndaşların azadlıqlarının, milli və irqi hüquqlarının qorunması haqqında tərtib olunmuş yeni Əsas Qanun kodeksi – Dövlət Konstitusiyası təsdiq olunur.

1992-ci ilin 10 iyulundan Azərbaycan Respublikası, Helinskdə "Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi" nə (ATƏM) üzv qəbul olunur. Azərbaycan Milli Məclisinin qərarı ilə 1992-ci dərs ilindən ali və orta ixtisas məktəblərə tələbə qəbulu, yeni test üsulu ilə aparılır. Xalq Maarifi Nazirliyinin adı dəyişdirilərək Təhsil Nazirliyi adlanır. (Həmin ilin 23 aprel tarixindən Azərbaycan Nazirlər Kabinetinin 228 № - li qərarı ilə, təhsil işçilərinin ictimai nəqliyyatdan (taksidən başqa) pulsuz istifadəsinə imkan yaradılır).

1992-ci ilin iyulun 22-dən avqustun 15-dək Naxçıvanda Dövlət Müdafiə Komitəsi ləğv edilməklə və 75-ci hərbi diviziyanın əmlak və silah sursatı Azərbaycan Milli Ordusuna təhvil verilir. Hərbi əmlak təhvil verildikdən sonra Rusiya Ordusunun əsgər və zabit heyəti, Naxçıvan ərazilərini tərk etmişlər. Həmin ilin 15 avqust tarixindən Azərbaycanda milli pul vahidləri banklardan tədavülə buraxılaraq, SSRİ-in 1 rublu Azərbaycanın 10 qəpiyinə bərabər dəyərləndirilir. Banklardan yeni 1, 5, 10, 50, 100, 250, 500 və 1.000 manat saylı kağız pullar tədavülə buraxılır.

Prezident Ə.Q.Əliyevin daxili siyasətdə diqqətsizliyindən istifadə edən İqtisadi İnkişaf Nazirliyi, gündəlik tələbat malları qiymətlərini birdən-birə 10 dəfə qaldırır. Belə özbaşınalıqdan əhali təşviş keçirir, iqtisadi şoka düşür, aztəminatlı ailələr çox böyük çətinliklə üzləşir. (Həmin ərəfədə Qarabağ ərazilərindəki erməni quldurları, məhəlli döyüşlərini davam etdirərək yeni-yeni torpaq ərazilərimizi işğal edirlər).

Qarabağ döyüşlərindəki hərbi hissələrdəki səlahiyyətli komandirlər səhlənkarlıq edərək köhnə hərbi zabit heyətini təcrübəsizlərlə əvəz edirlər. Bütün bunların da nəticəsində yeni hərbi kadrlar, manevr taktikasına bələd olmadıqları üçün döyüşləri uduzurlar. Həmin illərdə Qarabağ döyüşlərindəki zabit heyəti texnikanı, hərbi manevrləri və nəhayət, adi topoqrafiyanı bilmədiyindən ən adi situasiyalarda belə, düşmən qarşısında acizlik göstərib geri çəkilməyə məcbur olur.

Acınacaqlı hallardan biri də bu idi ki, əvvəllər rüşvətxorluq və sosialist əmlakına zərər vurmaq üstündə tutulmuş şəxslər, məhkumluqdan azad edilərək "Vətən keşiyini çəkməyə" göndərilirlər. Belə komandirlər gənc əsgərlərə döyüş taktikasını öyrətmək əvəzində, onlara işgəncələr verib ərzaq ehtiyatlarını bazarlarda satdırırlar. (Hərbi hissələrdəki silah-sursat anbarları nəzarətsiz buraxıldığından çox vaxt təxribatçılıqla bilərəkdən partladılır).

Azərbaycan Prezidenti Ə.Q.Əliyev hakimiyyətə gəldikdən sonra, siyasi ambisiyaları ilə Azərbaycanı daima təhdid edən Rusiya və bir sıra keçmiş müttəfiq dövlətlərlə, o cümlədən qonşu İran İslam Respublikası ilə iqtisadi və mədəni əlaqələri pozur. Yalnız Türkiyə Cümhuriyyəti ilə əlaqə saxlanılsa da, ölkədə siyasi gərginlik gündən-günə artır. (Həmin illərdə yalnız Türkiyə və Pakistan Respublikası, Azərbaycan Respublikasının suverenliyini tanımışdı- F.B.). Lazımi ixtisas təhsili və bacarığı olmayanlar kütləvi surətdə Azərbaycanın dövlət idarəçiliyinə cəlb olunur, müxtəlif dövlət qulluğuna təyin edilirlər. Tezliklə keçmiş rəhbər kadrlar təqaüdə buraxılaraq vəzifədən uzaqlaşdırılır.

Bakı-Naxçıvan dəmir yolu ilə Rusiyadan gələn tranzit yük qatarları Ordubad, Culfa, Naxçıvan və Şərur stansiyalarında saxlanılaraq qarət olunur. Açılmış vaqonlardan "Volqa" (QAZ-31) minik avtomobilləri, mebel dəstləri, müxtəlif çeşidli sənaye və ərzaq malları imkanlı "işbazlar"ın əlinə keçir. Ermənilər Mehri rayonu ərazisindən keçən dəmir yolunu bağlayırlar. Daha sonra onlar Naxçıvana Mingəçevirdən gələn yüksək gərginlikli elektrik xəttini İrəvanda qapayır, Bakıdan gələn qaz kəmərini isə Gorus ərazisində kəsirlər. Tezliklə Naxçıvan xalqı iqtisadi mühasirə (blokada) vəziyyətinə düşür.

Naxçıvanda bir yandan siyasi gərginliklər, digər yandan də havaların kəskin soyuq keçməsi ucbatından əhali tərəfindən təbiətə böyük ziyan vurulur, belə ki, meyvə ağacları belə kütləvi surətdə kəsilib yandırılır. Bunun nəticəsində də Naxçıvan Muxtar Respublikasında ekoloji tarazlıq pozularaq təbiətə ciddi ziyan dəyir. (F.Bağırov, "Naxçıvanın təbii sərvətləri" Bakı- 2008).

1992-ci ilin 24 avqust tarixində İran İslam Respublikasının xarici işlər naziri Ə.Ə.Vilayəti ilə imzalanan protokola əsasən Naxçıvandan 30 nəfər gənc, İran dövlətinin vəsaiti hesabına təhsil almağa göndərilir. Naxçıvandan musiqi kollektivləri Təbrizə getmiş və Təbrizdən isə Əli Səlimin başçılığı ilə konsert briqadası Naxçıvanda çıxışları olmuşdur. İranlı xeyriyyəçilərin vəsaiti hesabına Naxçıvanda bir neçə məscid habelə Naxçıvan şəhərində iki mərtəbəli "Xanım Zəhra məscidi" inşa edilmişdir.

1992-ci ilin 15 oktyabr tarixində ABŞ konqresinin “Azadlığı müdafiə Aktı” siyasi sənədinə (erməni lobbisinin təzyiqi ilə) ədalətsiz surətdə 907-ci qətnaməsinə düzəliş etməklə, Azərbaycana buraxılan ABŞ-ın sosial maliyyə yardımı dayandırılır. Həmin ilin 16 oktyabrında Bakıdan Naxçıvana gəlmiş respublikanın 91 nəfər nüfuzlu ziyalılarının nümayəndəsi təkidlə H.Ə.Əliyevi ölkə rəhbərliyinə dəvət edirlər.

“Bir dəfəlik tullayıb zünar ilə xirqəni,
Zahidlər, rahibələr də gəlib tapdılar məni.”

(Nizami Gəncəvi)

Tarixin yaddaşına nəzər salaq: 1992-ci ilin noyabrın 21-də Naxçıvanda H.Ə.Əliyevin sədrliyi ilə ”Yeni Azərbaycan Partiyası” (YAP) adında siyasi təşkilatı yaradılır. Həmin ilin noyabr ayından Naxçıvan MR-də Müharibə, Əmək, Silahlı qüvvələr və Hüquq-mühafizə Veteranları Şurası da (sədri Qara Fərzəliyev idi) yaradılır. 510 nəfər üzvdən 16 veteran təşkilatı olan şura nəzdində 7 daimi komissiya fəaliyyətdədir. Şuranın qərarı ilə müharibə və silahlı qüvvələr veteranlarına dövlət qayğısı göstərilir.

Naxçıvan Muxtar Respublika hökumətinin xarici iqtisadi əlaqələri gündən günə inkişaf edir. Təkcə 1912-ci ildə Naxçıvan Gömrükxana məntəqəsindən xaricə 16,6 mln. manatlıq, xaricdən isə 4,3 mln. manatlıq mal keçirilmişdir. Muxtar respublikanın xarici iqtisadi əlaqələrində sənaye, tikinti məmulatı, kənd təsərrüfatı və ərzaq məhsulları olmuş və dünya bazarına daş duz, mərmər, xalça məmulatları, tikintidə işlənən travertin daşı, mineral mədən suları və s.-ni göstərmək olar.

1991-ci ildə Türkiyə və İran arasında 3 gömrük-nəzarət məntəqəsi yaradılmışdır. Bundan əvvəl isə 1830-cu ildən Culfa ilə Şahtaxtında gömrük-nəzarət məntəqələri olmuşdur. Hər iki məntəqələr 1930-cu ildə müvəqqəti olaraq öz fəaliyyətlərini dayandırmış. İkinci Dünya müharibəsi başlayanda həmin gömrük keçid məntəqələri işə salınmışdır. Müharibədən sonrakı illərdə (1949) həmin məntəqələr yenə də qapılarını çəkib bağlayır.

1992-ci il oktyabrın 24-də Naxçıvanda xalq cəbhəsinin silahlı dəstəsi Daxili İşlər Nazirliyi, Radio və Televiziya Komitəsi, Rabitə İdarəsi və şəhərdəki elektrik şəbəkəsi binalarını tutmaqla, yerli hakimiyyət əleyhinə bəyanat vermişdir. Bütün bu işlərə Naxçıvandan Azərbaycan Ali Sovetinə deputat seçilmiş Fərəməz Quliyev başçılıq edirdi. Çevrilişdə Naxçıvan cəbhəçilərindən A.Quliyev və S.Mustafayevin 300 nəfərə yaxın silahlı dəstəsi iştirak edirdi. Bundan ötrü H.Əliyev bir neçə dəfə Azərbaycan prezidenti Ə.Elçibəylə telefonla danışsa da, danışıqlar nəticəsiz qalmışdır. Həmin ilin 27 oktyabr ayında Azərbaycan Daxili İşlər naziri İsgəndər Həmidov, özünün 350 nəfərlik silahlı "Boz qurd" adlı dəstəsi ilə Naxçıvana gəlmək istəmişdir. Naxçıvandakı cəbhəçilər onları qarşılamaq üçün Naxçıvan aeroportunu ələ keçirsələr də, silahlı dəstənin gəlişinin qarşısı dayandırılmışdır.

1992-ci il noyabrın 21-də Naxçıvanda 500-dən artıq adamın iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmiş. Konfransda Heydər Əliyev YAP-ın sədri seçilmişdir. Yeni Azərbaycan Partiyası tarixində 1992-ci il noyabrın 21-dən 1993-cü il iyunun 15-dək olan dövr müxalifət partiyasından iqtidar partiyasına çevrilmişdir.

1992-ci ilin 3 dekabrında Culfa, Şahtaxtı və Nehrən gömrük-keçid məntəqələri fəaliyyətə başlamışdır. Sonrakı illərdə Nehrəm gömrük-keçid məntəqəsi, tələblərə cavab vermədiyindən fəaliyyətini dayandırmış. Muxtar Respublikada Dövlət Gömrük Komitəsinin (sədri gömrük xidməti general-leytenantı Asəf Məmmədov idi) inzibati binası və Şahtaxtı- Poldəşt arası müasir tələblərə cavab verən gömrükxana tikilmişdir. Naxçıvandan günün 24 saatında İran və Türkiyə ərazilərinə sərbəst surətdə hər üç tərəfin vətəndaşları bir-biri ilə mədəni-iqtisadi əlaqələr saxlayırlar.

1993-cü il fevralın 5-də Naxçıvanda Türkiyənin konsulluğu fəaliyyətə başlamaqla, Naxçıvan əhalisi Türkiyə ərazilərinə sərbəst gedib-gəlmək hüququ qazandı.

1993-cü ilin mart ayında ABŞ dövlətindən Naxçıvana 1 milyon dollar dəyərində humanitar yardım edilmişdir. Həmin ilin mayın 19-da ABŞ Dövlət Departamentinin nümayəndəsi Robert Puli və ABŞ-ın Azərbaycandakı səfirliyindən Robert Silverman Naxçıvana gələrək və Muxtar respublika əhalisinə humanitar yardım etməklərini demişlər.

1993-cü il aprelin 3-4-də erməni silahlıları tərəfindən Azərbaycanın Kəlbəcər rayonu əraziləri işğal olunur. Həmin ilin aprel ayının 7-də Naxçıvanda Naxçıvan MR Ali Məclisi, Mədəniyyət Nazirliyi, Yazıçılar Birliyi və İran İslam Respublikasının Naxçıvandakı konsulluğu tərəfindən yaradılmış "Şəhriyar poeziya günləri" ədəbi-bədii tədbiri keçirilmişdir. Tədbir Cənubi Azərbaycan şairi Məmmədhüseyn Şəhriyar Mirağa oğlunun (1906-1988) səsində lentə yazılmış "Heydərbabaya salam" poemasından parçalarla başlayır. Tədbirin bədii hissəsində Dövlət Filarmoniyası və Teatrın aktyorlarının ifasında Şəhriyarın şerlərinə bəstələnmiş mahnılar da səslənmişdir.

1993-cü ilin 30 aprel tarixində BMT Təhlükəsizlik Şurasının iclasında Azərbaycan ilə Ermənistan arasında münasibətlər məsələsinə dair 822-ci qətnamə qəbul edilərək, Azərbaycanın Kəlbəcər rayon ərazilərinin ermənilər tərəfindən işğalı pislənilir. Həmin ilin may ayında Bakıda Avropa Birliyinin Qafqaz və Mərkəzi Asiya ilə nəqliyyat sisteminin inkişafına dair "İpək yolu" (TRASEKA) proqramı qəbul olunur.

1993-cü ilin 14 may tarixində Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev, Ermənistan Ali Soveti sədrinin birinci müavini Ara Saakyanla Sədərəkdəki sərhəd keçidində görüşmüş və iki tərəf arasında (9-10 may) olmuş atışmanın sabitliyi razılaşdırılmışdır.

Naxçıvan Avtoyollar Şirkətinin (müdiri Əbülfəz Məmmədov idi) inşaatçıları Muxtar respublikanın çətin günlərində quruculuq-inşaat işləri aparmışlar. Şirkət Türkiyə inşaatçıları ilə birlikdə Araz çayı üzərində uzunluğu 7 km. (286 paqonometr) olan "Ümid körpüsü"nü (26 sentyabr 1992) tikib istifadəyə vermişlər. H.Ə.Əliyev körpünün açılışında demişdir ki; "Həsrət yolu olan bu körpü, həqiqətən, bizim ümid və arzularımızın körpüsüdür. Bu körpü türk dünyasına pəncərə açmağa imkan verəcəkdir." Hər gün Naxçıvan-İstanbul marşrutu ilə müasir avtobuslarla sərnişinlər hər iki tərəfə gedirlər. Şirkət inşaatçıların səyi ilə Araz çayı üzərindəki Culfa körpüsü də yenidən qurulmuşdur.

1993-cü ildən şirkət Naxçıvan Hava Limanında yenidənqurma işləri apararaq, ərazilər genişləndirmiş və lazımi xidmət binaları tikmişdir. Hava Limanından sərnişinlər 3 istiqamətdə Bakı-Naxçıvan-Bakı, Naxçıvan-Gəncə-Moskva-Naxçıvan və Naxçıvan-Samara-Moskva-Naxçıvan reysləri ilə (hava şəraitindən asılı olmayaraq) rahat və sürətli reaktiv təyyarələrlə uça bilirlər. Son illərdə Naxçıvan Hava Limanından 3.000-dən artıq sərnişin və 5.000 tona yaxın yük daşınmışdır. Bundan başqa inşaatçılar sərhəd kəndlərindəki çayların üzərindəki körpüləri də təmir-bərpa etmişlər.

1993-cü ilin 4 iyun tarixində Milli Qəhrəman Sürət Hüseynovun başçılıq etdiyi silahlı dəstə Azərbaycan hökuməti əleyhinə hərbi çevriliş yürüşünə başlayır.

1993-cü il 9 iyun tarixində Heydər Əliyev təyyarə ilə Naxçıvandan Bakıya gəlir. Həmin ilin 15 iyun tarixində Bakıda Milli Məclisin fövqəladə sessiyası keçirilir və Heydər Əliyev sədr seçilir. Həmin gün Azərbaycan tarixində "Milli Qurtuluş Günü" kimi qeyd olunur.

1993-cü ilin 15 iyun tarixindən Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsinə Naxçıvan MR Daxili İşlər Nazirliyi siyasi şöbəsinin rəisi Namiq Həsənov (1947-....) təyin olunur. Həmin ilin iyunun 17-dən 18-nə keçən gecə Azərbaycan Prezidenti Ə.Q.Əliyev (Elçibəy), xalqa xəbər vermədən Bakını gizlicə tərk edərək və Ordubadın Kələki kəndindəki evlərinə gedir. Həmin qeyri normal hadisələri Naxçıvandan izləyən Ali Məclisin sədri H.Ə.Əliyev əvvəl Gəncəyə (qiyamçıların yanına), sonra isə oradan da Bakıya gedərək tezliklə yaranmış fəlakətin qarşısını alır və müharibə vəziyyətində buraxılmış ölkəni idarə edir.

"Pis-yaxşı nəyin var, demək malındır,
Lakin sənə vacib öz kamalındır."

(Nizami Gəncəvi)

23 iyul 1993-cü ildə Azərbaycanın Ağdam rayon əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən tutulur. Həmin ilin avqust ayında Naxçıvandakı müxalif qüvvələr silahlanaraq şəhərdəki mühüm yerlərə basqınlar edirlər. Daha sonra hərbi komandir Əlikram Hümbətovun başçılığı ilə əsgərlər, Füzuli və Cəbrayıl rayonlarındakı cəbhə xəttini buraxaraq əraziləri ermənilərə verirlər. Ermənilər avqustun 18-də Azərbaycanın Cəbrayıl, avqustun 23-də Füzuli, avqustun 31-də isə Qubadlı rayon ərazilərini işğal edirlər. (Həmin ilin 21-23 avqust tarixində hərbiçi komandir Ə.Hümbətovun başçılıq etdiyi silahlı dəstə Lənkəran şəhərində dövlət çevrilişi zamanı tutularaq ifşa olunur).

1993-cü il iyunun 24-də Azərbaycan Respublikasının Ali Soveti ölkə Prezidentinin səlahiyyətlərinin Ali Sovetin sədri Heydər Əliyevə verilməsi haqqında qərar qəbul edilir. Bakıda H.Ə.Əliyev radio-televiziya kanalları ilə Respublikada yaranmış fövqəladə hadisəni açıqlayaraq xalqı səbirli olmağa çağırmış.

1993-cü ilin 24 avqustdan H.Ə.Əliyevin xarici siyasəti nəticəsində Azərbaycan Respublikası (keçmiş SSRİ) Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olur. H.Əliyev dərhal Rusiya və keçmiş müttəfiq dövlətlərlə qırılmış əlaqələri bərpa edərək, İran İslam Respublikası ilə yaranmış münaqişələri də aradan götürür. Daha sonra isə Azərbaycanla qonşu olan ölkələrlə də mədəni-iqtisadi əlaqələr bərpa olunur. H.Əliyev Türkiyə və İranla qarşılıqlı mədəni-iqtisadi əlaqələri möhkəmlətmək üçün müqavilələr bağlayır. Ölkə başçısı dünya dövlətlərindən ABŞ, Fransa, İngiltərə, Danimarka, Belçika, Çin, Səudiyyə Ərəbistanı və İsrail ilə də dostluq əlaqələri yaradır. (H.Əliyev Ermənistan dövlət başçısı ilə təkbətək sülh danışıqları aparmış, ölkədəki qaçqın və köçkün ailələrə maddi köməkliklər göstərilməsinə lazımi sərəncam vermiş, onların gündəlik güzəranlarını daim nəzarətdə saxlamışdır).

1993-cü ilin 3 oktyabr tarixində Heydər Əlirza oğlu Əliyev (1923-2003), seçkilərdə qalib çıxaraq Azərbaycan Respublikasının Prezidenti seçilir. Bakıda Prezidentə qarşı ayrı-ayrı qruplaşmalar tərəfindən sui-qəsdlər hazırlanır. (Həmin ilin 30 oktyabrında Azərbaycanın Zəngilan rayon əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunur).

1994-cü ilin 20 sentyabr tarixində Bakıda "Əsrin müqaviləsi" adlı neft kontraktı imzalanmış, Gülüstan sarayında Qərbi Avropa dövlətlərinin neft şirkətləri ilə, Azərbaycan Dövlət Neft Şirkəti arasında uzunmüddətli neft ixracatı müqaviləsi bağlanmışdır. Həmin ilin 29 sentyabrında əvvəllər Naxçıvanda Vilayət Partiya Komitəsinin birinci katibi işləmiş, Azərbaycan Milli Məclisin müavini və Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının vitse-prezidenti Afiyəddin Cəlil oğlu Cəlilov (1946-1994) xain D.Kərimov tərəfindən sui-qəsd nəticəsində öldürülür. (Mərhumun cənazəsi ilə vidalaşan naxçıvanlılar, onu Bakıdakı Fəxri Xiyabanda dəfn etmişlər).

Tarixin yaddaşına nəzər salaq: Afiyəddin Cəlil oğlu Cəlilov 1946-cı ilin avqustun 1-də Naxçıvan şəhərində ziyalı ailəsində doğulmuşdur. Şəhərdəki 3 №-li orta məktəbi bitirdikdən sonra, Leninqraddakı Dağ Mədən Mühəndisləri İnstitutunu (1969) bitirmişdir. Əmək fəaliyyətinə Naxçıvandakı Gümüşlü filiz və Duzdağ mədənlərində mühəndis kimi başlamışdır. 1971-ci ildə Kommunist partiyasına üzv olmuş və əvvəl Naxçıvanda (1973) sonra isə Bakıda Respublika Komsomol Komitəsində (1977) katib işləmişdir. 1981-ci ildə Moskvada İctimai Elmlər Akademiyasını bitirdikdən sonra, Bakı şəhər Nizami rayon katibi (1981-89) olmuşdur. Bundan sonra o, Naxçıvan Muxtar Respublika Nazirlər Soveti sədri və Vilayət Partiya Komitəsinin katibi vəzifələrində işləmişdir.

1988-91-ci illərdə erməni təcavüzünə qarşı vətənpərvər Naxçıvan xalqı ilə birlikdə mübariz olmuşdur. H.Ə.Əliyev Naxçıvana rəhbər vəzifəyə gələnədək, A.Cəlilovun misilsiz xidmətləri olmuşdur. 1991-ci ildən Azərbaycan hökuməti tərəfindən onu Bakıya yüksək vəzifəyə aparmaqla Naxçıvandakı qazandığı nüfuza son qoymaq niyyəti güdülürdü.

1992-ci ildən Azərbaycan Respublikası Milli Məclisinə sədr keçdikdən sonra, ölkənin dövlət müstəqilliyi möhkəmlənir və xalqın güzəranı qismən yaxşılaşır. 1994-cü ildə A.Cəlilov Qara dəniz İqtisadi Əməkdaşlıq Assambleyasının Vitse-prezidenti seçilir. İşlədiyi müddətdə Naxçıvan və Azərbaycan milli məclisinin deputatı olmuş, dövlət tərəfindən orden və medallarla mükafatlanmışdır. A.C.Cəlilov evinin qarşısında, Azərbaycan dövlətçiliyinin düşmənlərindən biri olan qatil Dəyanət Kərimov tərəfindən qəddarlıqla öldürülür. (İ.Hacıyev, "Naxçıvan və Naxçıvanlılar" Bakı- 2001).

"Həqiqət gizlənər şeytan aranı çox qatan yerdə,
Açar göz gündə min bir fitnə, vicdanlar yatan yerdə.
Kimə bel bağlayırsan, ey könül, Allahdan qeyri?
Bu bazar riyadə, xalq imanın satan yerdə."

(Mustafa Quluzadə)

Bu dünyada cəmisi 48 il ömür sürmüş Afiyəddin Cəlil oğlu Cəlilov, Naxçıvan xalqının qəlbində əbədi xatirəyə çevrilmişdir. Həmin il Bakıda Təhlükəsizlik üzrə Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov da naməlum adamlar tərəfindən qətlə yetirilmişdir. 1994-cü ilin oktyabr ayında Bakıda ayrı-ayrı qruplaşmalar tərəfindən Heydər Əliyevə qarşı törədiləcək qəsdin qarşısı alınır və cinayətkarlar ifşa olunurlar. Həmin ilin yayında Azərbaycan Maliyyə Nazirliyi tərəfindən 10.000 manatlıq kağız pullar banklardan tədavülə buraxılır.

1995-ci ilin mart ayında Bakıda Daxili İşlər Nazirliyinin müavini (xüsusi təyinatlı polis dəstəsinin rəisi) Rövşən Cavadov və Bakı şəhər Xətai rayon prokuroru Mahir Cavadov qardaşları tərəfindən silahlı üsyan edilərək Heydər Əliyevə qarşı çıxırlar. Hadisə ilə əlaqədar Prezident H.Əliyev Respublika əhalisinə radio-televiziya ilə müraciət edir. Prezident terrorçu qruplaşmanı pisləyərək xalqı səbirli olmağa çağırır.

“Hər kim nicat versə, o nicat görər,
Hər kim tikan əkşə, tikan da dərər.”

(Nizami Gəncəvi)

1995-ci ilin may ayında Ermənistan-Azərbaycan dövlətləri arasında danışıqlar aparılaraq, müvəqqəti atəşkəs yaradılır. Həmin ilin 5 iyun tarixində H.Əliyevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiyası layihəsini hazırlayan komissiyanın ilk iclası keçirilir. İyul ayında Ərəbistan kralının dəvəti ilə H.Əliyevin başçılığı ilə Azərbaycanlı zəvvarlar müqəddəs Məkkə və Mədinəyə səfər edərək, Həcc ziyarətini yerinə yetirirlər.

1995-ci il noyabrın 12-də Azərbaycan Milli Məclisi tərəfindən ümumxalq səsverməsi (referendum) keçirilərək, yeni Dövlət Konstitusiyası (Əsas Qanun) qəbul olunur. Noyabr ayının 24-dən Azərbaycan Respublikasının Milli Məclisi öz işinə başlayaraq və Milli Məclis tərəfindən hər ilin 12 noyabr tarixi “Konstitusiya günü” elan edilir.

Tarixin yaddaşına nəzər salaq: 1995-ci ilin 5 dekabrda axşam saat 1830-da Naxçıvandan Bakıya uçan “Tu-154” tipli sərnişin təyyarəsi havada uçarkən mühərrikinin biri dayanır. Pilotlar təyyarədəki yanacağı havaya buraxaraq istiqaməti şimal-şərq səmtinə çevirirlər. Havadakı təyyarənin tarazlığı pozulduğundan qanadı yerdəki elektrik dirəyinə dəyərək sınır və yerlə sürünür. Qəza nəticəsində sərnişinlərin əksəriyyəti həlak olur. Təyyarə qəzasında vaxtsız həlak olub Naxçıvan şəhər qəbiristanlığında torpağa tapşırılan mərhum həmyerlilərimiz aşağıdakılardır;

Qasımov Məhərrəm Zaman oğlu.

Qasımova Lətifə Rəhim qızı.

Zalov Eldar Əkbər oğlu.

Zalova Elmira Əlibala qızı.

Zalova Nahidə Vaqif qızı.

Zalova Günel Nazim qızı.

Məmmədova Güşvər Rəhim qızı.

Əliyeva Raya Qafar qızı.

Əliyeva Leyla Səməd qızı.

Əliyeva Hüsniyyə Lətif qızı.

Mirzəyeva Xumar Əli qızı.

Dünyalarını vaxtsız dəyişmiş soydaşlarımızın ruhları şad olsun, Allah rəhmət eləsin! Amin!

1995-ci il dekabrın 16-da Naxçıvan MR Ali Məclisinin sədri Namiq Həsənov işindəki nöqsanlarına görə vəzifəsindən azad olaraq və həmin vəzifəyə Muxtar respublika Baş nazirinin xarici iqtisadi əlaqələr üzrə birinci müavini Vasif Yusif oğlu Talıbov (1960-....) seçilir. Həmin ilin dekabr ayından Azərbaycan Maliyyə Nazirliyi tərəfindən 50.000 manatlıq dəyərində kağız pulları banklardan tədavülə buraxılır. Alış-verişdəki satılan malların pərakəndə qiymətləri artdığından, milli pul vahidlərindən 1, 5, 10, 50 və 100 manatlıq dəyərində kağız pullar dövriyyədən götürülür.

1996-cı ildən Azərbaycan Prezidenti H.Ə.Əliyevin gərgin əməyi və böyük səyi ilə ölkədə dinamik inkişaf başlanır. Həmin ilin əvvəlindən Naxçıvan MR qadınlarının müstəqil qeyri hökumət təşkilatı olan Qadınlar məclisi (sədri Mətanət Hacıyeva idi) yaradılır. (Əvvəlki illərdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi nəzdində ictimai əsaslarla fəaliyyət göstərmiş Muxtar respublika Qadınlar Şurası sədri Respublikanın Xalq artisti, Zəroş Həmzəyeva (1925-2003) olmuşdur). Qadınlar məclisinin 7.000 nəfərdən çox üzvü olmaqla 39 nəfər idarə heyəti ilə təftiş komissiyası vardır. Məclisin köməkliyi ilə işsiz qadınlar ixtisas üzrə işlərə cəlb olunaraq və qadın problemləri isə vaxtında həll edilir.

"Yazıldı tarixə ölüm, talanlar,
Yıxdı bu milləti fitnə, talanlar.
Nə çoxdur çörəyi dizdə olanlar,
Hiyləli əmanət istəmirəm mən."

(Mətanət Hüseynxan qızı)

1996-cı ilin 22 apreldə Azərbaycan Respublikası ilə Avropa birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalanmışdır. Həmin ilin 3 iyununda Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiya dövlət başçılarının Kislovodsk şəhərində "Qafqazda millətlərarası barışıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda" bəyannaməsi imzalanır. Noyabr ayında Azərbaycanın klassik şairi Məhəmməd Füzulinin (1494-1556) anadan olmasının 500 illiyinin yubiley tədbirləri keçirilir.

1996-cı ilin 1-3 dekabr tarixində Portuqaliyanın Lissabon şəhərində dünyanın 54 dövlətinin Avropa Təhlükəsizliyi Əlaqələri Təşkilatı (ATƏT)-nın "Zirvə toplantısı" keçirilir. Toplantıda 53 dövlətin nümayəndələri bir səslə Azərbaycan Prezidenti H.Ə.Əliyevin haqq səsinə qoşularaq, Azərbaycan Respublikası coğrafi ərazilərinin toxunulmazlığı və dövlətin suverenliyini dəstəkləyirlər.

"O kəslər ki, sözü dinləyib onun ən gözəlinə uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!"

(Quran, Zumər 39/18)

1997-ci ilin aprelin 10-da Azərbaycan Respublikasının prezidenti yanında Təhlükəsizlik Şurası yaradılmışdır.

Tarixin yaddaşına nəzər salaq: Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin "Kitabi-Dəqə Qorqud" dastanının 1.300 illiyi haqqında" 20 aprel 1997-ci il tarixli fərmanına əsasən ölkəmizdə beynəlxalq miqyaslı yubiley tədbirləri keçirilir. Naxçıvan şəhərindəki "Təbriz mehmanxanası"nın çoxmərtəbəli binası qarşısında hündürlüyü 5,3 m. olan Dədə Qorqudun heykəli (heykəltəraş Elman Cəlilov idi) ucaldılmışdır.

Elmə XIX əsrdən məlum olan "Kitabi-Qədə Qorqud" dastanının ilk əlyazma nüsxəsi Almaniyanın Drezden və İtaliyanın Vatikan kitabxanalarında saxlanılır. Drezdendəki variantında sonradan üzərində farsca yazılmış "Kitabi Dədəm Qorqud alə lisani taifeyi oğuzan" yəni "Oğuz tayfaları dilində Dədəm Qorqud kitabı"dır. Həmin kitab müqəddimə ilə 12 boydan, Vatikandakı isə eyni müqəddimə ilə 6 boydan ibarətdir. Məlumdur ki, hər iki əlyazma naməlum kitabdan üzü köçürülmüş variantlardır. Bakıda MEA-sı Əlyazmalar İnstitutunda "Kitabi-Dədə Qorqud"un yeni əlyazması hazırlanmışdır.

Bu qədim kitab haqqında 1815-ci ildə alman filoloqu F.K.Dits (1794-1876) məlumat vermiş və dastandakı "Təpəgöz" boyunu tərcümə edərək, qədim yunan şairi Homerin (e.ə. 12-7) "Odisseya" dastanındakı nəhəng təpəgözlə müqayisə etmişdir. Sonrakı illərdə Drezden nüsxəsini alman şərqşünası T.Nöldeke (1836-1930) almanca tərcüməsini nəşr etdirmək istəmişdir. Rus şərqşünası V.Bartold (1869-1930) isə, 1894-1904-cü illərdə kitabın 4 boyunu almancadan ruscaya tərcümə etmişdir. Rus alimi kitabın üzərində yenidən işləmiş və 1922-ci ildə Peterburqda tam şəkildə nəşr etdirmişdir. "Kitabi-Dədə Qorqud" dastanı 1916-cı ildə ilk dəfə Türkiyədə Kilisli müəllim Rüfət əfəndi tərəfindən tərcümə olaraq nəşr olunmuşdur. 1936-cı ildə isə həmin kitab, akademik Həmidbəy Araslının tərcüməsində Azərbaycanda nəşr edilmişdir. ("ASE-sı", 10 cilddə (5-ci cild), Bakı- 1981).

“Kitabi-Dədə Qorqud” əlyazmaları VI-VII əsrlərdə və daha əvvəllər Azərbaycanda (Qafqazda) baş verən hadisələri bildirir. Dastandakı hadisələrin əksəriyyəti Dəmirqapı Dərbənd, Bərdə, Gəncə, Dərəşam, Nuxçuvan, Əlincə, Qaradağ, Göyçə, Qaraçuq və başqa yerləri bildirir. Kitabı yazan şəxs (təəssüf ki müəllif özü haqında heç bir məlumat yazmamış) çox güman ki, dastandakı hadisələrin bilavasitə iştirakçısı olmuşdur. Bayat elindən çıxmış müəllif, oğuzların müşkül işlərini həll etməklə, gələcəkdən də xəbər vermiş. Bəzi məlumatlara görə el ozanı Qorqudun məzarı (ehtimal ki dastanı qələmə alan) Dərbənddədir. Qorqudşünaslar XIX əsr səyahətçilərinin yazılarında çox güman ki, deyilənlərə rast gələ bilərlər.

Dastanın boylarında (bölmələrində) el ağsaqqalı Qorqud dədə, şücaət göstərən igidlərə ad qoyur, xalqın çətin günlərində müdrik məsləhətləri ilə köməyinə gələrək onlara yol göstərir. Dastandakı yaşlı nəsil olan Qazan xan, Dirsə xan, Qazılıqoca, Bəkil, Baybecan, Aruz, Qaragünə ilə yanaşı, Beyrək, Uruz, Basat, Yeynək, Səgrək, Qarabudaq, Əmran və başqa cavan igidlərdən də söz salınmışdır. Dastandakı qadına münasibət müsbət xarakter almışdır. Qadın-ana rəmzləri dastanın əsasını yaradaraq, tez-tez “ana haqqı-Tanrı haqqı” kimi ifadələrlə bildirilir.

Azərbaycan xalq bədii təfəkküründün abidəsi sayılan “Kitabi-Dədə Qorqud” dastanı poetik ifadələrlə zəngindir. Dastanda mifik ibarələr, atalar sözləri, məsəl və idiomatik ifadələr bol-bol işlədilmişdir. “Kitabi-Dədə Qorqud” qədim oğuz ellərinin mərkəzində yerləşmiş Naxçıvan diyarında haliyyədə 50-dən çox yer adları (toponimlər) aşkar olunmuşdur ki, onlar, Ağqaya, Altunqala, Qaradərə, Qaraçuq, Qaraquşdağı, Əlincədağı, Dərəşam, Şərur və s. Dastandakı oğuz tayfalarının adları; Böyükdüz, Qaraçoban, Sədərək, Şərurdüzü, Daşarx, Daşqışlaq, Əyrək, Oğuzdaşı, Buğaçeşməsi və s. Naxçıvandakı qəbirüstü nekropollar, onlar Keçəldağ, Batabat və Ordubad dağüstü yaylaqlarındakı qaya üstü yazılı təsvirlərdir. (S.Babayev, “Naxçıvanda “Kitabi-Dədə Qorqud” toponimləri” Bakı- 1999).

1997-ci ilin mayın 16-dan Azərbaycan Respublikası, Avropadakı adi silahlı qüvvələr haqqındakı müqaviləyə qoşulmuş. 15 iyun tarixində isə Azərbaycan Milli Məclisinin qərarı ilə, Azərbaycanda “Qurtuluş günü” elan olunmuşdur. Həmin ilin 19 iyun tarixindən Azərbaycan Respublikası Orta Asiyada (Daşkənddə) ilk səfirlik açır. Həmin ilin oktyabr ayının 25-dən Azərbaycan nefti Bakı-Novorossiysk istiqamətində axıdılır...

1997 ci ilin oktyabr ayında (1995-ci ildə yaradılmış) Naxçıvandakı “Sevil” Qadınlar Məclisinin “Azərbaycan qadını XXI əsrin astanasında” adı ilə beynəlxalq konfrans keçirilmişdir. Həmin konfransda qonşu ölkələrdən də nümayəndələr iştirak etmişlər.

1997-ci ilin 12 noyabrında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında bağlanmış “Əsrin müqaviləsi” əsasında qazılan ilk neft quyusu istismara verilir. Həmin ilin dekabr ayının 18-də Azərbaycan Prezidenti H.Ə.Əliyev tərəfindən “1948-1953-cü illərdə azəri türklərinin Ermənistan ərazilərindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” fərman imzalanmışdır.

“Etdikləri əməllərə görə sevinən və görmədikləri işlərə görə tərif olunmağı sevən kimsələrin əzabdan xilas olacaqlarını güman etmə. Onları şiddətli bir əzab gözləyir!”

(Quran, Ali İmran 3/188)

BÖLMƏ

Naxçıvan yeni əsrdə

1998-ci il yanvarın 30-da Azərbaycan Prezidenti H.Ə.Əliyev tərəfindən, 1918-ci ildə AXC yaradılmasının 80 illiyinin keçirilməsi haqqında sərəncam verilmişdir. Həmin ilin 10 fevral tarixində Milli Məclis tərəfindən Azərbaycanda ölüm hökmünün ləğv olunması haqqında qərar qəbul olunur. Həmin ilin martın 13-də Azərbaycan Prezidenti H.Ə.Əliyevin "Naxçıvan Muxtar Respublikasında Cəmşid Naxçıvanski adına Hərbi Litseyin filialının yaradılması haqqında" sərəncam imzalanmışdır. 3 il pulsuz təhsil müddəti olan Hərbi Litseydə tədris və yataqxanası, təlim və idman meydançası, yeməkxana ilə kitabxanası da vardır.

Prezident H.Ə.Əliyev 1999-cu ilin 13 oktyabrında Naxçıvanda olarkən Hərbi Litseyin kursantları ilə görüşmüşdür. 26 mart tarixində Azərbaycan Respublikası prezidenti tərəfindən "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalanmış və hər ilin 31 mart tarixi Azərbaycanda Milli soyqırımı günü kimi elan olunur.

1998-ci ilin 10 aprelində "Tarixi-dini-mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olur. Həmin ilin 28 aprel tarixdən Naxçıvan MR Ali Məclisi tərəfindən, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası (Əsas qanunu) qəbul olmuşdur.

Tarixin yaddaşına nəzər salaq: Nuh yurdu Naxçıvanın Əsas dövlət Qanunu (Konstitusiyası) vardır. Həmin Qanunlar ilk dəfə olaraq Naxçıvan muxtariyyətinin əsası 1921-ci ilin 16 mart tarixindən (Moskvada və həmin ilin 13 oktyabr tarixindən Qars şəhərlərindəki) beynəlxalq müqavilələr nəticəsində yaradılmışdır.

Naxçıvan MSSR-in birinci Konstitusiyası 1926-cı ilin aprelin 18-də 5-ci Ümumnaxçıvan Fövqəladə Sovetlər Qurultayında təsdiq olunmuşdur. Həmin ildə İranın Təbriz, Maku və Xoy şəhərlərində Naxçıvanın konsulluq idarələri və Bakı, Tiflis və İrəvan şəhərlərində isə nümayəndəlikləri fəaliyyətə başlamışdır. Bundan başqa Türkiyə Respublikasının Qars şəhərində Rusiyanın konsulluq idarəsi yanında Naxçıvan nümayəndəliyi də olmuşdur. Bütün bunlarla əlaqədar 1938-ci ilədək Naxçıvanda Türkiyə Respublikasının hərbi nümayəndəliyi ilə İran şahlığının da konsulluq idarəsi fəaliyyət göstərmişdir.

Naxçıvan MSSR-in ikinci Konstitusiyası 1937-ci ilin sentyabrın 18-də 10-cu Ümumnaxçıvan Fövqəladə Sovetlər Qurultayında qəbul olunmuşdur. Həmin Qanun Azərbaycan hökuməti tərəfindən 1941-ci ilin aprelin 7-də təsdiq olunur. Maraqlıdır ki, Moskvadakı ermənipərəst rəhbərlərin dəstəyi ilə, Konstitusiyanın 15-ci maddəsində Azərbaycan hökuməti tərəfindən dəyişiklik edilmiş və Muxtar respublikanın 1929-cu ildəki 5.988 km.2. ərazisi azaldılaraq (Ermənistana pay verilərək) 5.365 km.2 olmuşdur.

Naxçıvan MSSR-in üçüncü Konstitusiyası 1978-ci ilin mayın 30-da Muxtar Respublika Ali Sovetinin (9-cu çağırış) 8-ci sessiyasında qəbul olunmuşdur. Həmin Əsas Qanun 10 bölmə, 16 fəsil və 163 maddədən ibarət olsa da 1985-ci ildən isə əlavə və dəyişikliklər edilmişdir. Bundan başqa Konstitusiyada Naxçıvan Ali Sovetinin qərarı ilə 1990-cı ilin 17 noyabrında "Sovet Sosialist" sözləri çıxarılmışdır. 1992-ci ilin 31 yanvarında Azərbaycan Ali Məclisi tərəfindən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqındakı Konstitusiya Aktı ilə əlaqədar Naxçıvan MR-ın Konstitusiya Qanunu"nu qəbul olunur. Həmin Qanunla 1978-ci ildəki Konstitusiyadakı 103-cü maddədə dəyişiklik edilərək, Ali Məclisin icraedici və nəzarətedici funksiyası gücləndirilmiş və Ali Məclisin Rəyasət Heyəti daimi işçi orqanına çevrilmişdir.

Naxçıvan MR-in dördüncü Konstitusiyası 1998-ci ilin aprelin 28-də birinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 5-ci sessiyasında qəbul olmuşdur. Həmin Konstitusiyada Naxçıvan MR-in Ali vəzifəli şəxsi, Naxçıvan MR Ali Məclisinin sədri qanunverici və icra hakimiyyəti səlahiyyətinə malik olmuşdur. Sonuncu (dördüncü) Konstitusiya Muxtar respublikanın normativ-hüquqi aktları arasındakı ən yüksək hüquqi qüvvəyə malikdir. ("Naxçıvan Muxtar Respublikasının Konstitusiyası", Bakı-1999).

1998-ci ilin aprel ayından Naxçıvanda "Azərbaycan xalçası" Dövlət Muzeyi (direktoru Zəminə Baxşəliyeva idi), "Xan evi"ndə yaradılaraq, orada 359 eksponat toplanılır. Sonrakı illərdə muzey eksponatlarının sayı artaraq 1.800-ə çatdırılmışdır ki, onlardan da 241-i nadir xalçalar idi. Muzeydə XVIII- XIX əsrə aid Gəncə-Qazax, Quba-Şirvan, Qarabağ, Təbriz xalça məmulatları saxlanılır. Bundan başqa muzeydə süjetli xalçalar da vardır ki, onlardan biri də xalq rəssamı Kamil Əliyevin işlədiyi "Heydər Əliyev xalçası" dır.

1998-ci ilin 18 iyununda Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsinə dair dövlət proqramı təsdiq olunmuşdur. Həmin ilin 8 avqust tarixində "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında", Azərbaycan Respublikası prezidentinin fərmanı imzalanır. Bununla da Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirrini mühafizə edən baş idarə- "Qlavlit" ləğv edilir.

1998-ci ilin sentyabrın 8-də Bakıda tarixi "İpək yolunun bərpası" üzrə beynəlxalq konfrans keçirilir. Konfransda "Avropa-Qafqaz-Asiya dəhlizi"nin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş və Bakı bəyannaməsi imzalanmış. Həmin ilin 25 sentyabr tarixində Bakıda Azərbaycan qadınlarının və 25 sentyabr tarixində isə Azərbaycan müəllimlərinin qurultayları keçirilmişdir.

1998-ci ilin oktyabrın 11-də Azərbaycan Respublikası Prezident seçkilərində H.Ə.Əliyev ikinci dəfə ölkə başçısı seçilir. Həmin ilin 29 oktyabr tarixində Ankara şəhərində Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan və Türkiyə dövlət başçılarının görüşü keçirilir. Toplantıda "Xəzər-Aralıq dənizi (Bakı-Tbilisi-Ceyhan) neft kəmərinin əsas ixrac layihəsi haqqında"kı sənəd təsdiq edilir.

1998-ci ilin 29 dekabr tarixində Naxçıvan MR-ın yeni Konstitusiyası (Əsas Qanunu) təsdiq edilərək və 1999-cu ilin 8 yanvar tarixindən qüvvəyə minmişdir.

1998-ci ilin dekabrın 31-də Naxçıvan şəhərində Azərbaycanın yazıçı və dramaturqu "Molla Nəsrəddin" jurnalının redaktoru Cəlil Məmmədquluzadənin (1869-1932) Naxçıvandakı yaşadığı evində Ev-Muzey (direktoru Yaqut Abdullayeva idi) yaradılır. Muzeyin ekspozisiyasında böyük ədibin yaradıcılığına aid sənədlər, kitab və xatirə əşyaları o cümlədən də dövrünün klassiklərinin ədəbi əsərləri nümayiş olunur. Muzeydə tez-tez məktəbli gənclərlə yazıçıların xatirə görüşləri keçirilir.

Naxçıvan MR Ali Məclisinin 18 fevral 1999-cu il tarixli sərəncamı ilə Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi (direktoru Lütfiyyə Əsgərzadə idi) yaradılır. Muzey 10 may tarixindən fəaliyyətə başlayaraq H.Ə.Əliyevin həyat və fəaliyyəti geniş təbliğ olunur. Muzeydə "Xalqımla həmrəyəm", "Qayıdış", "Naxçıvan yaşayır və döyüşür" adlı bölmələr yaradılmış və H.Ə.Əliyevin şəxsi sənəd və materialları, o cümlədən də Türkiyə və İran dövlətləri ilə əməkdaşlıq müqavilələrinin surətləri nümayiş olunur.

3.738 eksponatı olan Muzey binasının ümumi sahəsi 1.000 m.2-ə yaxın və ekspozisiyası isə 564 m.2-dir. Muzeydəki kitabxanada H.Ə.Əliyevin həyat və fəaliyyətini əks etdirən kitab, jurnal və qəzetlər də saxlanılır. Bayram günlərində muzeyə gələnlərin sayı adi günlərdən daha çox olur. Muzeyin tarixi eksponatları ilə məktəbli gənclər tanış olmaq məqsədi ilə tətil günlərində ekskursiyaya gəlirlər. Son illərdə muzeydə əsaslı təmir-bərpa işləri aparılmış və binanın qarşısındakı xiyabanda isə H.Əliyevin 10 metrlik ayaqüstü heykəli (heykəltəraş Ömər Eldarov idi) ucaldılmışdır.

1999-cu ilin 9 fevralında Naxçıvan Dövlət Universitetində, İran İslam Respublikasının Naxçıvandakı Konsulluğu Mədəniyyət şöbəsi ilə, Universitetin Xarici Əlaqələr fakültəsi arasında "İranda İslam inqilabı və müasirlik" mövzusunda elmi konfrans keçirilir. Konfransda giriş sözü ilə Universitetin rektoru, professor İsa Həbibbəyli məruzə ilə çıxış etmişdir. Sonra İranın Naxçıvandakı Baş konsulu Məhəmməd Sadiq Turi, konsulluğun mədəniyyət işləri üzrə müdiri Seyid Riza Mirməhəmmədi, mədrəsə müdiri Məhəmməd İsmaili və Universitetin Xarici əlaqələr fakültəsinin dekanı Filologiya elmləri namizədi Xanəli Kərimov çıxış etmişlər. Elmi konfransın sonunda xarici ölkə tələbələrinin iştirakı ilə bədii proqramla geniş konsert verilmişdir.

1999-cu ilin aprel ayından Bakı-Supsa beynəlxalq neft kəməri işə salınmışdır. Həmin ilin 22 iyun tarixindən Azərbaycan Respublikasında "Milli Arxiv Fondu haqqında" qanun verilərək, arxivlərdə dünya standartlarına uyğun bir sıra struktur dəyişiklikləri edilmişdir.

1999-cu ilin 10-oktyabr tarixində Azərbaycan Prezidenti H.Ə.Əliyev Naxçıvan MR-ın 75-ci ildönümü münasibəti ilə Naxçıvana gələrək, yubiley tədbirlərində iştirak etmiş, Naxçıvanda "Həzrəti Zəhra məscidi" ilə "Kazım Qarabəkir məscidi"nin açılışında möminlərə Quran kitabları hədiyyə verilmişdir.

Ermənistan tərəfindən Naxçıvan neçə illər elektrik enerji blokadasında qalır. Yalnız Araz SES-ın və Türkiyədən gələn enerji ilə Muxtar respublikanın ərazilərinə fasilələrlə elektrik enerjisi verilmişdir. Tikintisinə 1992-ci ildən başlanılan yanacaq çəninin tutumu 1.000 m.3 olan İstilik Elektrik Stansiyası, yanacaq çatışmazlığından öz işini dayandırmalı olmuşdur.

Azərbaycan Prezidenti və Naxçıvan Ali Məclisinin sədri V.Talıbovun səyi ilə, İran ərazilərindən Naxçıvana qaz kəməri çəkilməklə Muxtar respublikanın iri sənaye müəssisələri və habelə Naxçıvan MR Dövlət Energetika Agentliyinin (Baş direktoru Yasin Səfərov idi) tabeliyindəki "Duzdağ" və "Pircüvar" modul İstilik Elektrik Stansiyaları işə salınmışdır. 87 mq. vatt olan "Pircüvar" İES-də (direktoru Namiq Paşayev idi) yeni mexanizmlər quraşdırılaraq, Muxtar Respublikanı elektrik enerji iflasından qurtarmışdır.

1999-cu ilin 30 sentyabrında Bakıdakı Binə beynəlxalq Hava Limanında yeni tikilmiş Aeroport binasının açılışı olmuşdur. Həmin ilin 18 noyabrında Ankarada Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsi ilə nəql edilməsinə dair Azərbaycan, Gürcüstan və Türküyə dövlətləri arasında saziş imzalanmışdır. 12 dekabrda isə Azərbaycanda ilk dəfə olaraq bələdiyyə seçkiləri keçirilmişdir.

1999-cu ilin oktyabrın 12-dən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vəsaiti ilə, Naxçıvan şəhərində üçmərtəbəli Tədris-Ticarət Mərkəzi (müdiri Əsgər Hüseynov idi) tikilib istifadəyə verilmişdir. Binanın 1-2 mərtəbələrində ticarət-xidmət şöbələri və 3-cü mərtəbədə isə tədris şöbəsi yerləşir. Burada kompüter mərkəzi, internet sistemi və idarəetmə otaqları da vardır. Mərkəzdəki ticarət və digər xidmət sahələrindəki əldə olan gəlirin bir hissəsi Sosial Müdafiə Fondunun hesabına keçirilməklə aztəminatlı ailələrə sosial yardımların ödənilməsində köməklik edilir. Muxtar Respublikanın 75 illiyində Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyev Mərkəzin işi ilə tanış olanda öz təkliflərini də bildirmişdir.

Əsası Ü.Hacıbəyov tərəfindən Bakıda yaradılmış (1934-cü ildə) Azərbaycan bəstəkarları və musiqişünaslarının ictimai yaradıcılıq təşkilatının əsas vəzifələri bəstəkar və musiqişünasların yaradıcılığına istiqamət verməkdən ibarət idi. Həmin təşkilatın 1956, 1962, 1968, 1973, 1978 və sairə Qurultayları olmuşdur. 1978-ci ildə Respublika Bəstəkarlar İttifaqının qərarı ilə Naxçıvan MSSR-də Bəstəkarlar təşkilatının (sədri Ramiz Mirişli idi) şöbəsi və daha sonra isə 1998-ci ildən isə müstəqil təşkilatı (sədri Nazim Quliyev idi) yaradılır.

2000-ci ildən Muxtar respublika Bəstəkarlar Təşkilatının (sədri Şəmsəddin Qasımov idi) 7 nəfər üzvləri, yerli şairlərin şerlərinə musiqi notları bəstələyərək, mədəniyyətimizi inkişaf etdirirlər.

2000-ci ilin aprel ayında Azərbaycan xalqının milli-mənəvi yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanının 1.300 illik yubileyi ilə əlaqədar böyük bayram tədbirləri keçirilmişdir. Bakıda keçirilən tədbirə dünyanın türkdilli xalqlarının nümayəndələri də dəvət olunmuşlar. Həmin ilin (2000) may ayında Azərbaycan respublikasının Milli Məclisi, Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri ilə Azərbaycan neftinin nəqlinə dair müqaviləni ratifikasiya etmişdir. (Həmin ilin payızında Şəkidə Azərbaycan dövlətçiliyinə müxalif qüvvələrlə iqtidar arasında ciddi qarşıdurmalar yaranır).

2000-ci ilin 5 noyabrında Azərbaycan Respublikası Milli Məclisinə seçkilər keçirilir Həmin ay Bakı şəhərində 3,5 bal gücündə zəlzələ baş versə də, dağıntı və tələfat olmamışdır. Bundan sonra Azərbaycan Parlamentin deputatları vəzifə məvaciblərini 10 dəfə qaldıraraq, nazirlik, komitə və baş idarə işçilərinə isə "Dövlət qulluqçusu" statusu verilməsinə qərar qəbul etmişlər. (Bununla da bilərəkdən dövlət işlərində çalışan məmurları aldıqları aylıq məvacib və təqaüdə görə iki yerə ayırırlar. Bu isə az məvacibli ali təhsilli işçi və elm adamlarını dövlətə qarşı durmağa qəsd siyasəti kimi qiymətləndirilir. Əhsən belə "xalq deputatları" na ki, bütün qanunları öz xeyirləri üçün edirlər).

"İnsan öz Rəbbinə qarşı çox nankordur. Və özü də buna şahiddir. Həqiqətən, insan var-dövlətə çox hərisdir". (Quran, Adiyat 100/6-8)

Naxçıvan MR Ali Məclisinin 15 fevral 2001-ci il tarixli sərəncamı ilə "Naxçıvanda B.Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" qərar qəbul olunur. Bu münasibətlə Bəhruz Kəngərlinin məzarı önündə heykəl ucaldılmış (heykəltəraş Hüseynqulu Əliyev idi) və 2002-ci ilin iyun ayında isə muzey (direktoru Azər Nəsirov idi) yaradılır. Muzeydəki eksponatlarla tanış olan Azərbaycan prezidenti Heydər Əliyev, "Bəhruz Kəngərlinin əsərləri Azərbaycan dövlətinin milli sərvətidir" sözlərini demişdir. Haliyyədə Bəhruz Kəngərli muzeyində 370 adda eksponat, rəsm əsərləri ilə bərabər şəxsi məişət əşyaları da nümayiş etdirilir. (F.Bağırov, "Əzablı günlər" Naxçıvan- 2006).

Tarixin yaddaşına nəzər salaq: Naxçıvan diyarında Azərbaycan professional rəssamı, qıssa yaradıcılıq yolu keçmiş , portret və mənzərə əsərləri ilə incəsənət tarixinə qiymətli töhfələr vermiş Bəhruz Kəngərlinin (1892-1922) adını şərəflə çəkirlər. 30 illik qıssa ömür sürmüş rəssamın yaradıcılıq tarixində rəngkarlığın portret, lirik və mənzərə janrlarına üz tutaraq kiçik ölçülü tarixi boyakarlıq əsərlərini yaratmışdır. ("Mədəni Maarif" jurnalı, 2009- cu il № 8-9).

Akademik M.C.Cəfərov 1919-cu ildə Bəhruzun Naxçıvanda açdığı yaradıcılıq sərgisini belə xatırlayır; "Bəhruz bir-bir əsərlərini göstərib həvəslə uşaqlara izahat verirdi və arabir gülümsəyib deyirdi: "Əl vurmaq olmaz, olmaz əl vurmaq." Mən həmişə üzü tutqun, qaşları çatmış olan rəssamı birinci dəfə gülümsəyən gördüm." ("Ədəbiyyat və incəsənət" qəzeti, 5 mart- 1960-cı il № 10).

Təvözəkar rəssam Bəhruz Şirəlibəy oğlu qıssa həyat səhnəsində həmişə nikbin olaraq özü və sənəti barəsində yalnız bu sözləri demişdir: "Mən gördüyüm bu qəribə aləmi rənglərlə təsvir edirəm. Ancaq yenə də o çəkdiyim şeyin eyni ola bilmir. Mən çalışıram elə rəsm çəkim ki, o həmin şeyin eyni ola bilsin." ("İqbal" qəzeti, 16 iyun 1914-cü il № 22). (2016-cı il iyun ayında Naxçıvandakı B.Kəngərli Muzeyinin qarşısında realist rəssama ayaqüstü xatirə heykəli ucaldılmışdır- F.B.).

2001-ci ilin 9 avqustunda Azərbaycan prezidentinin fərmanı ilə, ölkənin bütün informasiya vasitələri, kargüzarlıq və çap işləri kütləvi şəkildə Latın qrafikalı əlifbaya keçirilərək, hər ilin 1 avqustun tarixi Azərbaycanda "Əlifba günü" elan edilir.

2002-ci il yanvarın 28-dən Naxçıvanda Kompyuter Mərkəzi yaradılması haqqında Ali Məclis Sədri sərəncam imzalamışdır. Martın 25-dən Naxçıvan şəhərində təsərrüfat hesablı Kompyuter Təlim-Tədris Mərkəzi (direktoru Rahib Bağırov idi) fəaliyyətə başlamışdır. Kurslarda gənc oğlan və qızlar tədris proqramı əsasında kompüterçi peşələrinə yiyələnirlər. Sonrakı illərdə Mərkəzin bazası əsasında Kompyuter Təlim-Tədris və İnternet Mərkəzi kimi, Şərur və Culfa şəhərlərində də filialları açılır. Mərkəzdə tədris təlimləri qrup və fərdi yolla keçirilir. Burada öyrənilən MS Word, MS Excel, MS Access, MS Power point və MS Publisher kurslarında 9 nəfərlik qrup tərkibində 8 ay və fərdi yolla isə 2, 3, 4 və 6 ay müddətinə başa çatdırılır. Kursu bitirənlərə bütün dövlət müəssisələrində işləmək üçün Şəhadətnamə verilir.

2002-ci ilin may ayından Naxçıvan MR Nazirlər Kabineti yanında Dini qurumlarla iş üzrə İdarə (müdiri İdris Abbasov idi) yaradılır. Şərur rayonun mərkəzində dindarların cəm namazı qılmasına Muxtar respublika rəhbərliyi tərəfindən qayğı göstərilərək, ikinci Came məscidi möminlərin ixtiyarına verilmişlər.

"Ey Rəbbim, dünyaya sənsən padişah,
Biz kiçik bəndəyik, sən böyük Allah."

(Nizami Gəncəvi)

Tarixin yaddaşına nəzər salaq: Naxçıvan MR-da təbii sərvətlərin qorunub saxlanması üçün əvvəlki illərdə "Cənub su hövzələri Müfəttişliyi", "Ovçular və Balıqçılar Cəmiyyəti", "Təbiəti mühafizə Cəmiyyəti" və digər qurumlar da fəaliyyət göstərmişdir. 1969-cu ildən məktəblilərə təbiətin qorunması məqsədi ilə Xalq Maarif Nazirliyinin tabeliyindəki məktəbdən kənar tərbiyə müəssisəsi olan "Gənc Təbiətçilər Stansiyası" (direktoru Fəti Qasımov idi) yaradılır. Məktəblilər burada Muxtar respublikadakı nadir bitki və heyvan nümunələrini, iqlimi, torpaq örtüyü və təbiətin qorunmasını öyrənirlər. Həmin ildə (1969) Xalq Maarif Nazirliyi tabeliyində yeni bir uşaq müəssisəsi- "Gənc Turist-Ölkəşünaslıq Stansiyası" (direktoru Kərim Bayramov idi) da yaradılır. Uşaq müəssisəsinin avtobusu ilə məktəblilər ekskursiyalara gedərək xalqımızın tarixini öyrənirlər. (Hər iki uşaq tərbiyə müəssisəsi 2002-ci ildən yeni binaya köçürülmüşdür).

Azərbaycanda 1957-ci ildən SSRİ Coğrafiya Cəmiyyətinin filialı yaradılmışdır. Sonrakı illərdə (1970) filial sərbəst olaraq Azərbaycan Təbiəti Mühafizə Cəmiyyəti (sədri H.Ə.Əliyev (1907-1993) idi) olur. Cəmiyyətə ayrı-ayrı illərdə H.B.Əliyev, M.S.Qaşqay, Q.K.Gül, və başqaları tərəfindən rəhbərlik edilmişdir. Naxçıvan Muxtar respublikası üzrə cəmiyyətin şöbəsi ilə ayrıca "Təbiət mağazası" da açılır.

Sonrakı illərdə Naxçıvanda "Azərbaycan Ovçular və Balıqçılar Cəmiyyəti" tabeliyində olan "Ovçular və Balıqçılar Cəmiyyəti" (sədri İbadulla Əkbərov idi) yaradılır. Cəmiyyətin Naxçıvan şəhərində açılmış "Ovçular mağazası"ndan üzvlərə lazım olan silah-sursatlar satılaraq, ov mövsümündəki ovlanmış heyvan dəriləri üçün fəxri ovçu mükafatları verilirdi. Cəmiyyətin xətti ilə ov mövsümü qadağan vaxtlardakı brakonyer ovçulara qarşı ciddi tədbirlər görülərək, silahı müsadirə olunub və Cəmiyyətin üzvlüyündən isə çıxarılırdı. (Haliyyədə Naxçıvan "Ovçular və Balıqçılar Cəmiyyəti"nin ictimai əsaslarla sədri Məhərrəm Eyvazovdur).

Muxtar respublikanın Şahbuz rayonundakı Biçənək meşəsində 3.139 hektar sahədə Dövlət Təbiət Qoruğu fəaliyyət göstərir. Daha sonra, Ordubad rayonunda da Dövlət Qoruğu yaradılmışdır. Naxçıvandakı Araz dəryaçası sahillərində 9.118 hektar sahədə Arazboyu Dövlət Təbiət Yasaqlığı salınmışdır. (F.Bağırov, "Naxçıvanın təbii sərvətləri" Bakı- 2008).

Muxtar respublikada meşə təsərrüfatı sahəsi olduqca azlıq təşkil edir. Belə ki, ümumi torpaq ərazisinin 0,5 %-i meşə və meşə-kolluqlarından ibarətdir. Həmin təbii sərvətlər, yalnız Biçənək, Ərəfsə, Xurs və Nəsirvaz kənd ərazilərindədir. Əvvəlki illərdə təkcə Şahbuz rayonundakı Biçənək meşəsi 2.550 hektar sahəni tuturdu.

1959-70-ci illərdə Naxçıvan Meşə Təsərrüfatı İdarəsinin (müdiri Səftər Heydərov idi) təşəbbüsü ilə, Muxtar respublikada 327 hektar yeni meşə sahələri salınmışdır. 1946-cı ildən təşkil edilmiş Meşə Təsərrüfatı İdarəsi, Naxçıvan Muxtar Respublikasında meşəçiliyin bazası əsasında rayonlarda da yeni təsərrüfat sahələri yaradır. Həmin idarənin işgüzar meşəçiləri, Muxtar respublikada meşələrin mühafizəsi, bərpası və yeni meşəliklərin salınmasına yaxından kömək etmişlər.

Uzun müddət rayonlardakı meşə və kolluq sahələrdə çoxillik bitkilərlə yanaşı, təbiətdəki vəhşi heyvanlar da çoxalmışdır. İdarənin işgüzar meşəçilərindən Şahbuz rayonundakı "Biçənək meşəsi"nin mühafizəçisi (meşəbəyi) Cəlil Orucov, Naxçıvan (Babək) rayonundakı "Güznüt-sonqar" meşə-kolluq sahəsinin mühafizəçisi Əbdüləli Məmmədov, Əbrəqunus (Culfa) rayonundakı "Ləkətağ-gəvik" meşə-kolluq sahəsinin mühafizəçisi Məmməd Həsənov, Ordubad rayonundakı "Tillək" meşə-kolluq sahəsinin mühafizəçisi Fariz Səfərov, Noraşen (Şərur) rayonundakı "Qaraquş-xanbulaq" meşə-kolluq sahəsinin mühafizəçisi Vilayət Tənənəmli və başqalarını göstərmək olar. Azərbaycan Respublikası Meşə Təsərrüfatı Nazirliyi (nazir Həbib Həsənov idi) bir neçə dəfə Naxçıvan Meşə Təsərrüfatı İdarəsinin kollektivini, "Sosializm yarışı Qalibi" kimi mükafatlandırmış.

2002-ci ildən Naxçıvan Meşə Təsərrüfatı İdarəsi və Naxçıvan respublika təbiəti mühafizə Komitəsi bazası əsasında, Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyi (nazir Dilarə Ələkbərova idi) yaradılır. Bütün görülən işlərlə yanaşı, qeyd etmək lazımdır ki, bu sahədə görüləcək işlər daha çoxdur. Naxçıvanda son illər ərzində süni yaradılan bir çox göl və su bəndlərinin varlığı, bu diyarda yeni meşə zolağı, massiv və örtüklərinin yaradılmasına münbit şərait yaradan amillərdir.

Böyük öndər Heydər Əliyevin "Hərəyə bir ağac əkək!" şüarına əməl edərək və Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin 2010-cu ili ölkədə "Ekologiya ili" elan etməsini əldə rəhbər tutaraq, Muxtar Respublikanın susuz yerlərinə su qaldırmaqla, ərazilərdə meşəçiliyin inkişafına xüsusi diqqətin yetirilməsi bizim hamımızın müqəddəs övladlıq borcumuzdur.

Mənfur düşmənlərimizin daim göz tikdiyi bu əvəzsiz diyarı yaşıl dona geyindirərək, onu dünyaya kontinental iqlimli quru diyar kimi deyil, insanlarının qayğı bəslədiyi bir tarixi Vətən kimi təqdim etməyi bacarmalıyıq. İndi tikilib qurulmaqda olan bu diyarı gələcək nəsillərimizə həm də yaşıl bağlar və ucsuz-bucaqsız ormanlar ölkəsi kimi ərməğan qoymalıyıq. Başdan-ayağa yaşıllığa bürüyəcəyimiz Vətən öz yeni libası ilə həm də dünyanın bütün ölkələrindən çox sayda xarici turistləri cəlb etmək imkanı qazanmış olur. Turist isə büdcəyə əlavə zəhmətsiz gətirilən gəlirdir.

Naxçıvan MR Ali Məclisi Sədrinin 11 iyun 2002-ci il tarixli sərəncamı ilə Naxçıvan şəhərində yeni bir mədəniyyət müəssisəsi-Açıq səma altında Muzey (direktoru Müseyib Axundov (1960-2009) idi) yaradılır. Ümumi sahəsi 2.058 m2 olan muzeydə 3007 sayda daşdan yonulmuş qədim qəbirüstü qoç-qoyun heykəlləri və mədəniyyət eksponatları mühafizə olaraq ziyarətçilərə nümayiş olunur.

XV əsrdən Azərbaycanda Qaraqoyunlu və Ağqoyunlu tayfalarının hökmdarlığı dövründə qəbirlərin üzərinə qoç və qoyun heykəlləri qoyulması adəti yenidən dirçəlməyə başlamışdır. Artıq bu dövrdən qəbirlərin üstünə qoç və qoyun heykəllərinin üzərində dini xarakterli kitabələrə də rast gəlinir. (F.Səfərov, "Qəbirüstü daş-qoç və qoyun heykəlləri haqqında" Bakı- 1998).

Təkcə qədim daşdan yonulmuş və ardıcıllıqla qoyulmuş eksponatların ekspozisiya sahəsi 1.500 m2-dir. Son illərdə muzeyin öhdəsindəki "Köhnə qala"da təmir-bərpa edilmiş Nuhun qəbirüstü türbəsinə 37 sayda eksponat qoyulmuşdur. Açıq səma altındakı muzeyin inzibati sahəsində XII əsrin yadigarı olan əzəmətli tikili- Mömünə Xatın türbəsi ilə "Mir Yaqub piri" də vardır. (Son illərdə Muxtar respublikanın inkişafı ilə əlaqədar Açıq səma altındakı Muzeyə xarici turist və ziyarətçilər də gəlirlər). (F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı- 2008).

İran İslam Respublikasının prezident müşaviri, mədəniyyət və İslam əlaqələri təşkilatının sədri Mühdi Müstəvi, İranın şərqi Azərbaycan vilayətinin ustandarı Əhməd Əlirza Behqinin başçılıq etdiyi nümayəndə heyəti muzeydə olmuşlar. Daha sonra ATƏT-in Bakı ofisinin yeni təyin olunmuş rəhbəri, səfir Bikge Çankorll, Fransa Respublikasının Azərbaycandakı səfiri Qabriel Koller, Belorusiya Respublikasının Azərbaycandakı səfiri Nikolay Patskeviç, və başqaları da muzeyin eksponatları ilə tanış olmuşlar. Naxçıvanda (2009 2-3 oktyabr) Türkdilli ölkə başçılarının Zirvə toplantısı keçirilmişdir. Bundan əvvəlki görüşlər Ankarada (1992), İstanbulda (1994), Bişkekdə (1995), Daşkənddə (1996), Astanada (1998), Bakıda (2000), İstanbulda (2001) və Antalyada (2006) keçirilmişdir.

Naxçıvanda keçirilmiş növbəti toplantıya Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev və Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyev gəlmişlər. Naxçıvandakı "Duzdağ" mehmanxanasının konfrans salonunda Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov da iştirak etmişdir. Fəxri qonaqlar Naxçıvan mədəniyyəti ilə tanış olaraq, muzeyin işindən razı qalmışlar. ("Şərq qapısı" qəzeti, 4 oktyabr 2009-cu il, № 186).

2002-ci il oktyabrın 1-də inşasına başlanan Naxçıvan hava limanında tikinti quraşdırma işləri aparılaraq və uzunluğu 3300 metr olan uçuş-enmə zolağı istifadəyə verilmişdir.

Azərbaycan kino sənətinin 100 illiyi münasibəti ilə 2002-ci ilin 2 avqustunda qəbul edilmiş qərara əsasən həmin gün kino işçilərinin peşə bayramı günü elan olunur. Naxçıvandakı Zona Kinoprokat İdarəsi (müdiri Əsgər Əsgərov idi) kimi fəaliyyət göstərmiş müəssisə, 2005-ci ilin 26 dekabrından Muxtar respublika Mədəniyyət və Turizm Nazirliyinin Dövlət Film Fondunun Arxiv İdarəsinə (müdiri Əbülfəz Məmmədov idi) çevrilir. Haliyyədə arxivdə 4.018 adda müxtəlif ölçülü kinolentlər saxlanılır. Arxivdə Azərbaycanfilmin istehsalı olan 61 adda ekran əsərləri də vardır. Burada Azərbaycanfilmin müxtəlif illərdə lentə çəkdiyi 265 adda elmi-kütləvi və sənədli-xronikal filmləri mühafizə olunur. Bundan başqa arxivdə 42 adda da cizgi film surətləri saxlanılır.

Film Fondda 1.465 adda (367 sayda dublyaj olunmuş) xarici ölkə film surətləri də saxlanılır. Bundan başqa 83 sayda qısametrajlı bədii, 288 sayda sənədli-xronikal, 410 sayda elmi-kütləvi və tədris, habelə 1.050 sayda isə müxtəlif cizgi filmlərinin surətləri mühafizə olunur. Əvvəllər Film Fondda dar lentli (16 mm-lik) 100-dən artıq bədii filmlər (600 metrlik metal bobinlərdə) saxlanırdı. Doxsanıncı illərdə Azərbaycan Müdafiə Nazirliyinin sərəncamı ilə (?) həmin kinofilmlər, Naxçıvan Hərbi Qarnizonunun "Zabitlər Evi"nə verilmişdir. (Sonrakı illərdə həmin kino əsərləri, Bakıdakı Respublika Zabitlər Evinə göndərmişlər). Haliyyədə Naxçıvan Film Fondun arxivində 60 sayda dar lentli sənədli, 406 sayda elmi-kütləvi və bir neçə də tədris filmlərinin surətləri saxlanılır. Naxçıvandakı "Gənclik Mərkəzi" kinoteatrda (müdiri Cahangir Seyidov idi) Film Fondla əlaqə saxlanaraq, kinosevərlərə milli və xarici ölkə ekran əsərləri təbliğ edilir. ("Mədəni-maarif" jurnalı, 2007-ci il №1-2 səh. 53).

1928-ci ildən Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin filialı kimi yaradılmış (sədri Nağı Nağıyev (1910-1981) idi) Naxçıvan Yazıçılar Birliyinin (sədri Asim Yadigar idi) tərkibində 70-dən artıq üzv vardır. Naxçıvanlı yazıçı-dramaturqların 30-a yaxın dram əsərləri Naxçıvan Teatrında səhnələşdirilmişdir. Son illərdə Yazıçılar birliyinin və İran İslam Respublikası Naxçıvandakı Baş konsulluq idarəsinin birlikdə həyata keçirdikləri mədəni-kütləvi tədbirlərdə 137-yə kimi Naxçıvan və İrandakı Azərbaycanlı şairlərin şerləri, "Qızıl Dağ" nəşriyyatı tərəfindən işıq üzü görmüşdür. Bu isə iki qonşu ölkələr arasındakı mədəni dostluq körpüsünün tarixi simvoludur. (A.Yadigar, D.Nasiri, "Dostlar töhfəsi" Naxçıvan- 2008).

“Həqqi buldum- həqq söylərəm, mən də haqqın aşiqiyəm,
Həqiqətin carçısıyam, haqqı öyən mərd kişiyəm.”

(Asim Yadigar)

2003-cü ilin 28 avqust tarixində Günəş sistemindəki 9 səyyarədən (planetdən) biri, Mərrix (Mars) Yer planetinə yaxınlaşır. Belə hadisə Dünya Tarixində Həzrət Nuh (ə)-ın yaşadığı dövrdə də olmuş və daha sonra isə 60.000 il bundan əvvəl baş vermişdir. Həmin ilin 15 oktyabr tarixində, Azərbaycanda növbəti Prezident seçkiləri keçirilir. “Yeni Azərbaycan Partiyası”ndan namizədliyini vermiş İlham Heydər oğlu Əliyev (1961-....) səsvermədə qalib gəlir.

2003-cü ilin 12 dekabr uzun sürən xəstəlikdən sonra, H.Ə.Əliyev (1923-2003) Amerikanın Klivlend xəstəxanasında 81 yaşında vəfat etdi. Mərhumun cənazəsi Bakıya gətirilərək “Fəxri xiyabanda” həyat yoldaşı Z.Ə.Əliyevanın (1923-1985) məzarı yanında dəfn olundu.

Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyev (1961-....) atasının siyasi kursunu tutub Azərbaycan xalqının firavan yaşamasına, itirilmiş torpaqların geri alınmasına və ölkənin mədəni-iqtisadi inkişafına çalışır. Naxçıvanlı yazıçı-dramaturqların 30-a yaxın dram əsərləri Naxçıvan Teatrında səhnələşdirilmişdir. Son illərdə Yazıçılar birliyinin və İran İslam Respublikası Naxçıvandakı Baş konsulluq idarəsinin birlikdə həyata keçirdikləri mədəni-kütləvi tədbirlərdə 137-yə kimi Naxçıvan və İrandakı Azərbaycanlı şairlərin şerləri, “Qızıl Dağ” nəşriyyatı tərəfindən işıq üzü görmüşdür. Bu isə iki qonşu ölkələr arasındakı mədəni dostluq körpüsünün tarixi simvoludur. (A.Yadigar, D.Nasiri, ”Dostlar töhfəsi” Naxçıvan- 2008).

Tarixin yaddaşına nəzər salaq: Naxçıvan MR Ali Məclisinin sədri Vasif Yusif oğlu Talıbov (1960-....), görkəmli siyasətçi və dövlət xadimidir. O, H.Əliyev siyasi məktəbinin davamçısı kimi əvvəllər Naxçıvan MR Ali Məclisi sədrinin Baş köməkçisi, Naxçıvan MR Baş nazirin xarici iqtisadi əlaqələr üzrə birinci müşaviri vəzifələrində işləmiş, Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş və 2000-ci il 9 noyabr tarixindən Naxçıvan MR Ali Məclisinin sədri seçilmişdir.

V.Y.Talıbov Muxtar respublikanın iqtisadiyyatı və mədəniyyətinin tərəqqisi, xalqın rifahının yaxşılaşması tədbirlərini ləyaqətlə həyata keçirir. Son illərdə Muxtar respublikadakı mədəni quruculuq işləri geniş vüsət almış, şəhər, rayon və qəsəbə mərkəzləri abadlaşdırılmışdır. Muxtar respublikada sahibkarlığa diqqət artırılaraq böyük aqrar islahatlar aparılır. Naxçıvanda mənəvi ziyarətgahlar, tarixi-arxeoloji abidələr yenidən bərpa edilərək, xalqın xidmətinə verilir.

Naxçıvan diyarı neçə illərdir ki, mənfur qonşu Ermənistan tərəfindən iqtisadi mühasirədə olsa da, mübariz xalqımız, Azərbaycan Prezidenti İ.H.Əliyevin və Naxçıvan MR Ali Məclisi sədri V.Y.Talıbovun daxili və xarici siyasətləri sayəsində sabaha inamla baxır və ölkənin inkişafında fəal iştirak edir. H.Ə.Əliyev bir vaxtlar Naxçıvan diyarının tarixini öyrənib təbliğ olunmasının vacibliyini belə ifadə etmişdir: "...Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyac olan səhifələri açılmalı, bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı və erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir."

Son illərdə Naxçıvan Muxtar Respublikasında elmin inkişafı ilə H.Ə.Əliyevin siyasətinin Naxçıvan Muxtar Respublikasında Ali Məclisin sədri V.Y.Talıbov tərəfindən uğurla davam etdirilir. Əvvəlki illərdə Naxçıvanın tarixi ilə bağlı 30-a qədər elmi yazı olduğu halda, indi isə məqsədyönlü tədqiqatlara görə onların sayı 700-ü keçib. Naxçıvandakı "Əshabi-kəhf" ziyarətgahı və keçən əsrin əllinci illərində dağıdılmış Nuh Peyğəmbərin qəbirüstü məqbərəsi son vaxtlar yenidən yüksək sənətkarlıqla bərpa edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin tarixçi etnoqrafları tərəfindən tarixi-elmi ədəbiyyatlar yazılaraq "Naxçıvan Abidələri Ensiklopediyası"nı hazırlamışlar. Naxçıvandakı tarixi arxeoloji abidələr öyrənilərək pasportlaşdırılmış, qeydiyyata alınmış 1.162 abidədən 788-i yenidən işlənərək, 600 abidə dünya əhəmiyyətli abidələr siyahısına saldırılmışdır. Tezliklə Nuh yurdu-Naxçıvan diyarı dünya turizm mərkəzinə çevriləcəkdir.

Akademik Y.Mahmudovun sözləri ilə desək; "Dünya mədəniyyətinin başlandığı dövrdən bu günümüzədək Naxçıvanda yaşayış davam edir. Naxçıvanda Əcəmi Əbubəkr oğlu, Nəsirəddin Tusi, Fəzlullah Nəimi, Yusif Məmmədəliyev, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmmədsəid Ordubadi, dünya şöhrətli siyasətçi Heydər Əliyev kimi görkəmli şəxsiyyətlər yetişib". ("Şərq qapısı" qəzeti, 28 aprel 2009-cu il № 77).

2004-cü ildə Muxtar respublikada Rabitə və informasiya Nazirliyinin (nazir Rövşən Məmmədov idi) tabeliyində 9 rabitə müəssisəsi və 79 poçt şöbəsi yaradılmışdır. Əhaliyə mobil telefon və internet rabitə xidməti artırılaraq, 40 mindən artıq olmuşdur. Bundan başqa Kompüter Təlim-Tədris və İnternet Mərkəzləri yaradılaraq əhalinin xidmətinə verilmişdir. (“Naxçıvan Ensiklopediyası”, Bakı- 2005).

“Dedi ki: “Yer üzündə neçə il qaldınız?” Onlar: “Bir gün, bir gündən də az, hər halda, sayanlardan soruş!”- deyə cavab verəcəklər. Allah buyuracaq: “Əgər bilirsinizsə, siz çox az qaldınız!”

(Quran, Muminun 23/112-114)

BÖLMƏ

Naxçıvan Muxtar Respublikası barədə

Naxçıvan Muxtar Respublikası, Azərbaycan Respublikasının tərkibində Muxtar dövlətdir. Paytaxt şəhəri Nuh yurdu Naxçıvandır. Ərazisi 5.365 km2, əhalisi 400.429 nəfərdir (2009-cu ilin 01 oktyabr st. məlumatı), dövlət dili- Azərbaycan türk dilidir.

Muxtar Respublikanın qanunverici hakimiyyəti 45 deputatdan ibarət Naxçıvan M.R. Ali Məclisi, Nazirlər Kabineti və Ali Məhkəmədən ibarətdir. Naxçıvan MR-in ali vəzifəli şəxsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir.

Muxtar Respublika 7 inzibati rayondan- Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərəkdən ibarətdir. İnzibati ərazidə Naxçıvan, Ordubad, Culfa, Şərur və Şahbuz şəhərləri ilə bərabər, 8 qəsəbə və 160 kənd də vardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2005-ci il 6 dekabr tarixli sərəncamından sonra, respublika ərazisində mövcud olan 788 yeni tarixi abidə tədqiq edilərək təsdiq olunmuş və bütövlükdə 1165 abidə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən pasportlaşdırılaraq qorunub bərpa olunmasına zəmin yaradılmışdır. Bu işdə Naxçıvan MR Tarixi Abidələri Mühafizə Cəmiyyətinin tədqiqatçılara lazımi məsləhətləri də olmuşdur. (“Naxçıvan MR Tarixi və Arxeoloji Abidələr haqqında məlumat kitabı” (“Qızıldağ” nəşriyyatı) Naxçıvan- 2009).

Azərbaycan tarixinin öyrənilməsi üçün Naxçıvan tarixinin də öyrənilməsinə diqqət verən Heydər Əliyev tarixin yaddaşına bu sözləri də əlavə edərək qürurla demişdir: “Naxçıvanın qədim tarixi var. Ancaq Azərbaycanın, millətimizin, Azərbaycan xalqının qədimliyini dərin köklərini, zəngin mədəniyyətini və ulu babalarımızdan bizə gəlib çatmış irsi daha dərindən dərk etməyin, daha yaxşı bilməyin, şübhəsiz ki, bugünkü və gələcək nəsillər üçün çox əhəmiyyəti vardır. Bütün Azərbaycanda, o cümlədən Naxçıvanda bu tədqiqatlar aparılmalıdır, bu işlər görülməlidir. Biz tədqiqatçılarımızdan bu istiqamətdə yeni-yeni işlər gözləyirik.” (“Şərq qapısı” qəzeti, 2009-cu il № 197).

BÖLMƏ

Naxçıvan şəhəri

Naxçıvan şəhəri, qədim tarixi və adət-ənənələri olan əzəli bir yaşayış məskənidir. Şəhər iri sənaye, elm və mədəniyyət mərkəzidir.

Naxçıvan Muxtar Respublikanın paytaxtıdır. Araz çayının sol sahilində yerləşir, ərazisi 35,5 km2, əhalisi 82.941 nəfərdir (2009-cu ilin 01 oktyabr st. məlumatı). Mühüm dəmir yolu və hava nəqliyyatı qovşağıdır. Şəhərdə Azərbaycan Dəmir yolu İdarəsinin Naxçıvan şöbəsi yerləşir. Əvvəlki illərdə "Naxçıvan" dəmir yolu stansiyasından "Araz" və "Dostluq" qatarları habelə "Naxçıvan-Moskva" tranzit Super Vaqonları da yola düşürdü. Haliyyədə Muxtar respublika ərazisində hər gün Naxçıvan-Təbriz və Ordubad-Sədərək istiqamətindəki qatarlar sərnişinlərin xidmətindədir. Tarixi "İpək yolu" da bu şəhərdən keçir. Naxçıvan Azərbaycanın və dünyanın ən qədim şəhərlərindən biridir.

Bir çox qədim və orta əsr tarixçi-coğrafiyaşünasları Naxçıvan şəhərinin e.ə. 1539-cu ildə salındığını qeyd edirlər. Müasir Naxçıvan Azərbaycanın inkişaf etmiş elm və mədəniyyət mərkəzindən biridir. Naxçıvan şəhərində 66 tarixi mədəniyyət abidəsi qeydiyyata alınmış ki, onların 7-si dünya şöhrətli, 42-si ölkə və 17-si isə yerli əhəmiyyətlidir.

Naxçıvan şəhərində 3 ali məktəb, 3 kollec və 1 lisey, Azərbaycan MEA-nın Naxçıvan Bölməsi, 4 Klub və Mədəniyyət Sarayı, 8 Kitabxana, 6 Uşaq musiqi məktəbi, 5 Məktəbdənkənar Uşaq Mərkəzləri, 3 Dövlət və 1 Xalq teatrı, Filarmoniya, 10 Muzey, Dövlət Şəkil Qalereyası ilə Sərgi Salonu və Turizm Mərkəzi fəaliyyət göstərir. İdman obyektlərindən Stadion, son illərdə inşa edilmiş "Olimpiya" İdman Kompleksi, Üzgüçülük Mərkəzi, Şahmat Mərkəzi və sairələr, şəhərin sağlamlıq obyektləri kimi əhalinin qürur mənbələridir.

Naxçıvan şəhərində "Şərq qapısı" və "Nuh yurdu" qəzetləri nəşr olunur. "NTV" və "Kanal-35" radio-televiziya kanalları efirə buraxılır. Şəhərdə Beynəlxalq Hava Limanı, Dəmir yolu və Avto vağzalları fəaliyyət göstərir. Bundan başqa səhiyyə-sağlamlıq müəssisələrindən Respublika Xəstəxanası, Uşaq Xəstəxanası, Respublika Diaqnostika və Doğum Mərkəzi, Təcili-tibbi yardım Stansiyası, Poliklinika, Vərəm əleyhinə, Dəri-zöhrəvi, Nevroloji və Eepidemoloji Dispanserlər, "Duzdağ" Fizioterapiya Xəstəxanası və s. tibb müəssisələri insanların sağlamlığına xidmət göstərir.

Naxçıvan qədim və orta əsrlərdə müdafiə məqsədli qalaları və memarlıq abidələri ilə zəngin olan şəhərdir. Memar Əcəmi Əbubəkr oğlunun Naxçıvanda yaratdığı əzəmətli memarlıq inciləri, digər şəhərlərin memarlıq abidələrindən fərqlidir. Belə ki, Naxçıvandakı tarixi memarlıq abidələrindən Mömінə Xatın türbəsi. Yusif Kuseyir oğlu türbəsi daha sonrakı dövrlərdə tikilmiş, İmamzadə kompleksi, Buzxana, İsmayılxan hamamı, Came məscidi və s. dövrümüzədək qalmışdır. Sovet dövründə məhv edilmiş Naxçıvandakı "Nuhun qəbri" üstündəki Türbə Naxçıvan MR Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində son illərdə yenidən bərpa edilərək yerli əhalinin və dünya turistlərinin ziyarət obyektinə çevrilmişdir.

1992-ci ildən Naxçıvanda Türkiyə Respublikası ilə İran İslam Respublikasının Baş Konsulluqları fəaliyyət göstərir.

BÖLMƏ 0

Babək rayonu

Tarixin yaddaşına nəzər salaq: Babək, Naxçıvan Muxtar Respublikanın inzibati rayonudur. 1930-cu ildə Naxçıvan rayonu ərazisində yaradılmış, sonradan 1979-cu ildə Babək adı ilə müstəqil rayon kimi Culfa rayonundakı Haçaparaq kənd əraziləri ilə Əshabi-kəhf dağı (1.665 m.) da inzibati əraziyə birləşdirilmişdir. Rayon şimal-şərqdə Ermənistan respublikası, cənubda Güney Azərbaycanı (İran), qərbdə Culfa və Şahbuz, şərqdə isə Kəngərli rayonu ilə həmsərhəddir.

Babək rayonunun sahəsi 0,9 min km2, əhalisi 63.339 nəfərdir (2009-cu ilin 01 oktyabr st. məlumatı). Rayonda Babək qəsəbəsi ilə birgə 39 sayda inzibati yaşayış məntəqəsi vardır. Rayon mərkəzində Babəkin şərəfinə heykəl qoyulmuşdur. İnzibati ərazidə müasir tələbata uyğunlaşdırılmış Klub və Mədəniyyət evləri, Kitabxana və istirahət parkı, Uşaq musiqi məktəbi, Tarix-diyarşünaslıq muzeyi, Nehrəm kəndində C.Məmmədquluzadənin Xatirə-muzeyi və s. vardır. Rayonda "Şərqin səhəri" adlı qəzet redaksiyası da fəaliyyət göstərir.

Naxçıvan şəhərindən Babək rayon mərkəzinə 8 km məsafədə asfalt yol gəlir. Muxtar Respublikanın paytaxtı Naxçıvan şəhəri Babək rayon ərazisinin mərkəzində yerləşdiyindən rayonun ən ucqar kəndlərinə rahat asfalt yol ilə getmək mümkündür. Belə ki, təmiz havası, saf suyu və füsunkar təbii mənzərəsi olan Yuxarı və Aşağı Buzqov, Gərməçataq, Payız, Gülşənabad, Xalxal, Sirab, Vayxır, Məzrə və s. kəndlərdə istirahət etmək üçün çox gözəl əlverişli mühit vardır. Rayon ərazisindəki çay və göllərin kənarları turistlər üçün istirahət məskəni sayıla bilər.

Babək rayon mərkəzindən 14 km. şimalda okean səviyyəsindən 1.100 m. yüksəklikdə Sirab kəndində Sarı dağın ətəyindən çıxan karbonatlarla zəngin təbii soyuq mineral "Sirab" suyu 1966-ci ildən sənaye əsasları ilə qablaşdırılır. El arasında "sirli su" adlanan 23-dən artıq mineral sulu bulaqlar e.ə. III-I minilliklərin yadigarıdır.

Babək rayon ərazilərində lap qədim dövrlərdən əkinçi və maldarlar məskunlaşaraq kənd təsərrüfatının bu vacib sahələri ilə məşğul olmuşlar. Rayon ərazisində mövcud olan və dünya əhəmiyyətli sayılan arxeoloji tarixi abidələrdən qədim insan məskənləri olmuş I və II Kültəpə qazıntı obyektlərini misal çəkmək olar. İndiyədək bu yerlərə məxsus 133 abidə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin Muxtar respublika TAMC tərəfindən öyrənilərək qeydə alınmışdır. Onlardan 5-i dünya, 43-ü ölkə və 85-i isə yerli əhəmiyyətlidir.

Dünya dəyərli tarixi abidələrdən olan “Əshabi-kəhf” ziyarətgahı, son illərdə Muxtar respublika Ali Məclisi sədrinin şəxsən qayğısı ilə yenidən bərpa edilərək, dünyanın hər yerindən respublikaya gələn turistlərin ixtiyarına verilmişdir.

Babək rayon ərazisində Naxçıvan şəhərindən 14 km məsafədə Duzdağın cənub yamacında qədim insanların məskunlaşdığı duz mağarası vardır. Həmin təbii mağara, artıq qeyd edildiyi kimi, son illərdə müasir tələblər əsasında əlavə binalar tikilməklə, ölkə əhəmiyyətli Duzdağ Fizoterepiya Xəstəxanası yaradılmışdır. Asma xəstəliyinə yoluxmuş xəstələr həmin mağara-xəstəxanada yatıb istirahət etməklə, təbii surətdə tsiklik yaranan zəngin natrium və xlor ionları mühitində müalicə olunurlar.

Dünyada analoqu olmayan təbii yolla bu cür müalicə metodunun şöhrəti genişləndiyindən, və Azərbaycan prezidentinin qayğısı ilə dünya standartlarına uyğun şərait yaradıldığından son illərdə bura xarici ölkələrdən də müalicəyə gələnlərin sayı, artmadadır.

BÖLMƏ 1

Culfa rayonu

Tarixin yaddaşına nəzər salaq: Culfa, Naxçıvan Muxtar Respublikasının inzibati rayonudur. 1930-cu ildə yaradılmışdır. 1948-ci ildə Əbrəqunus adlı rayon ləğv edilərək ona aid olmuş inzibati ərazilər Culfa rayonunda birləşdirilmişdir. Rayonun ərazisi şimal-şərqdə Ermənistan, cənubda İran, qərbdə Babək rayonu, şimal-qərbdə Şahbuz rayonu və şərqdə Ordubad rayonu ilə həmsərhəddir. Sahəsi 1,0 min km2, əhalisi 39.600 nəfərdir (2009-cu ilin 01 oktyabr st. məlumatı).

Rayonun mərkəzi Culfa şəhəri olmaqla 24 inzibati yaşayış məntəqəsindən ibarətdir. Naxçıvandan 40 km. məsafədə yerləşən Culfa şəhərinin içindən Naxçıvan-Ordubad magistral şose və dəmir yolları keçir. Ərazidə heyvandarlıqla üzümçülük daha çox inkişaf etdirildiyindən, Culfa əsasən kənd təsərrüfatı üzrə ixtisaslaşmış rayon sayılır.

Culfa rayon əraziləri faydalı qazıntı yataqları və mineral (termal və soyuq) sularla zəngindir. Termal bulaqlar Culfadan 8 km. şimal-şərqdəki Darıdağın ətəyindədir. Soyuq sulu mineral bulaqlar isə rayonun Qazançı, Xoşkeşin, Ərəfsə, Gülüstan, Nəhəcir və başqa kəndlərindədir. Rayonun zəngin bitki və heyvanlar aləmi vardır ki, onlardan enli yarpaqlı çoxillik ağaclardan palıd, fıstıq, vələs, heyvanlardan isə dağ qoyunu, dağ keçisi, canavar, tülkü, dovşan, oxlu kirpi və s.-ni göstərmək olar.

Əzəmət simvoluna çevrilmiş İlan dağ (2.415 m.) rayon ərazisindən axıb keçən Əlincə çayının sol sahilindədir. İlandağda aşkar olunmuş e. ə 820-810-cu illərə aid qədim Mixi yazılı daş kitabə aşkar olmuş və yazının surəti 1989-cu ildə İtaliyadakı elmi jurnalda dərc olunmuş. (“Naxçıvan Ensiklopediyası”, Bakı- 2002 səh. 210).

Amerikada yaşayan və orada nəşr etdirdiyi ingilisdilli “Babylon-Azərbaycan” jurnalı ilə tanınan həmyerlimiz Tariyel Əliyevin elmi yazısına görə, 1988-ci ildə ermənilər tərəfindən Culfa rayonundakı İlandağın ətəklərində qayaüstü mixi yazılarının foto şəklini çəkmişlər. Onlar həmin yazını deşifrə etmiş və İtaliyada nəşr etdirdikləri “Studi Micenei ed Eqeo-Anatolici” jurnalında “qədim Urartu yazısı” kimi bildirmişlər.

Ermənilərin yalanını göstərən T.Əliyev, həmin yazıları deşifrəyə saldırıb və sübut etmişdir ki, İlandağ qayaüstü mixi yazısı qədim Azərbaycan türkcəsindədir. Və o, indi Türkiyədə "Kef Qələsi" kimi tanınan qədim Haldini qala-şəhərin zadəganı olan və tarixin yaddaşına düşmüş Qarun ilə Naxçıvan (Nəşəvi) hakimi Sərdar (b.e.ə. 825-810) (ermənilər onu tarixdə olmayan Urartunun çarı kimi də bildirirlər) arasında baş tutmayan sövdələşməni bildirir.

T.Əliyev tərəfindən oxunan yazının birinci sətri aşağıdakı kimi səslənir:

Deşifrəsi: "Hal-di-ni-ni us-ma-si-ni. Is-pu-u-i-ni-se, msarx-duri (bad)-hi-ni-se.

Mənası: Haldininin uzması (uzlaşması) nə işpu oynusa, Sərduri bəd (pis) hinişə (qəzəblənə)! İlandağdan tapılan mixi yazının tam mətnində deyilir ki; "Qarun, Haldini ərazilərini Sərdara satmaq istəmiş. Pulunu girov qoymuş Sərdar, Haldinə gəlib və pulunu istəmişdir. Qarun isə pulu verməyərək, Sərdarı da tanımaq istəməmişdir".

1792-ci ildə Azərbaycanın İrəvan xanlarına məxsus olmuş tarixi Sərdar sarayındakı son bərpa işləri, 1850-ci ildə orta əsrlərin memarlıq kompleksində aparılmışdır. Saraydakı süjetli bədii panno və monumental (Fətəli şah, Abbas Mirzə və başqalarının) portretləri, nəqqaş M.Q.İrəvani 1825-1875) tərəfindən bərpa olunsa da İrəvandakı tarixi Sərdar sarayı, 20-ci əsrin ortalarında Rusiyadakı məxfi masson təşkilatının fəallarından olan müsəlmanların qənimi, Qafqaz canişini Yevgeni Aleksandroviç Qolovin (1782-1858) tərəfindən uçurdularaq və sonrakı illərdə isə həmin yerdə başqa bina tikilmişdir. ("ASE", 10 cilddə VIII cild səh. 392; "İskusstvo Azerbaydjana" (rusca) 4 cild Bakı- 1954).

T.Əliyev elmi məqaləsində yazır ki; "Naxçıvanın simvolu İlandağın qaya səthinə 4-5 min il bundan öncə Azərbaycanca qazılmış bu yazı, Dəclə-Fərat çayqovşağı (Mesopotamiya) mədəniyyəti ilə eyni səviyyədə tutulan və haqqında çox deyilən "Kür-Araz mədəniyyətinin" yaradıcılarının məhz bizim ulu xalqın olmasına qəti şəkildə sübutdur. Bu yazı və İrəvandan tapılmış Gil yazıların da Azəricə olmaları sübut edir ki, ərazilərin ilkin sahibləri bizim türkdilli əcdadlarımızdır"...-"Ancestors" və ya "Predok" əlyazmaları, müvafiq olaraq ingilis və rus dillərində "əcdad" sözü deməkdir". (Tariyel Əliyev, "Babylon Azerbaijan" (ingiliscə) jurnalı (ABŞ) Sietl- 2008 № 1).

Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyev Culfada olarkən belə demişdir: "Naxçıvan Muxtar Respublikasında, o cümlədən Culfa rayonu ərazisində həddindən çox dünya miqyaslı qədim tarixi daş abidələr vardır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini bildirən yazılı abidələrdir. Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər yazılı daş-qaya parçası tarixin yaddaşındadır."

Culfa rayon əraziləri əsası eramızdan əvvəl 3-cü minillikdən başlayaraq qoyulmuş tarixi arxeoloji abidələrlə zəngindir. Memarlıq abidələrindən Gülüstan türbəsini, Karvansara (XIII əsr), Araz çayı üzərindəki asmatağlı körpü (XIII əsr), Əlincə qalası, Xanəgah, Qazançı körpüsü, Hamam (XVII əsr), Məscidi (XIX əsr) və s. göstərmək olar. Culfa rayonu üzrə dövlət tərəfindən mühafizə olunan 201 abidədən 7-si dünya, 76-sı ölkə, 118-i isə yerli əhəmiyyətlidir. Rayon ərazisində həmçinin "Gülüstan" tarix-mədəniyyət qoruğu da vardır.

Culfa şəhərindən Araz çayı üzərindəki körpü ilə Cənubi Azərbaycana maşın və dəmir yolu ilə aralarına sərhəd çəkilmiş hər iki qardaş ölkə vətəndaşları rahatlıqla hər iki tərəfə keçirlər.

Culfa şəhərində son illərdə Cümə məscidi tikilmiş, səhiyyə, təhsil və mədəniyyət sahələri inkişaf etdirilmişdir. Şəhərdə "Arazın səsi" adlı rayon qəzetinin redaksiyası, tarix-ölkəşünaslıq muzeyi fəaliyyət göstərir. Culfa rayonu əraziləri mineral bulaqlarla zəngindir. Darıdağ ərazisində "Darıdağ" mərgümüşlü termal müalicə və Gülüstan (Cuğa) kəndi yaxınlığında isə soyuq sulu "Gülüstan" mineral süfrə suyu çıxır. Həmin su 2000-ci ildən sənaye əsasları ilə müxtəlif ölçülü qablarda istehsal olunur. (F.Bağırov, "Naxçıvanın təbii sərvətləri" Bakı- 2008).

Rayon mərkəzindən 37 km.-lik məsafədə Əlincə çayının sahilində Xanəgah kəndi vardır. Kənddəki "Şeyx Xorasan" xanəgahında Azərbaycan xalqının filosofu, hürufilik təriqətinin bilicisi Fəzlullah Nəiminin (1340-1394) məzarüstü türbəsi vardır. (F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı- 2008).

"Bayi Bismillahi Rəhmani Rəhim,
Adəmi-xakidir, ey divi-Rəcim,
Allah-təalanın canı həmin torpaqdadı,
Çox böyükdü Həqq üçün insan adı"

(F. Nəimi "Ərşnamə" dən)

BÖLMƏ 2

Ordubad rayonu

Tarixin yaddaşına nəzər salaq: Ordubad, Naxçıvan Muxtar Respublikasının inzibati rayonudur. 1930-cu ildə yaradılmışdır. Cənubda İranla (Güney Azərbaycanla), şimalda və şərqdə Ermənistanla, qərbdə Culfa rayonu ilə həmsərhəddir. Orta əsrlər dövründə Ordubad şəhərinin yerindəki yaşayış məskəni Qoqten adlanırdı. Rayonun ərazisi əsasən dağlıq sahələrdən ibarətdir. Muxtar Respublikada ən yüksək yer Qapıcıq (3.904 m.) zirvəsi Ordubad ərazisinin Zəngəzur silsiləsindədir. Rayondakı dağ sahələri faydalı qazıntılarla zəngindir.

Ordubad rayonunun sahəsi 0,97 min km2, əhalisi 45.241 nəfərdir (2009-cu ilin 01 oktyabr st. məlumatı). Naxçıvan şəhərindən sonra respublikada böyüklüyünə görə ikinci sayılan Ordubad şəhəri ilə bərabər, rayonda 44 inzibati yaşayış məntəqəsi vardır. Naxçıvandan Ordubad rayon mərkəzinə 75 km uzunluğunda asfalt yol gəlir. Ərazidəki "Ordubad" dəmir yolu stansiyasından əvvəllər tranzit Moskva-Bakı-Tehran və Moskva-Bakı-Yerevan qatarları keçirdi. Bundan başqa "Araz" və "Dostluq" qatarları da Ordubadda dayanırdı.

Ordubadçayın axarı boyu salınmış bu qədim şəhər özünün cənnətəbənzər meyvə bağları, çoxsaylı şirin-sərin və bol sulu axar-baxarlı dəhnə və kəhrizləri ilə lap qədimlərdən məşhurdur. Təsadüfi deyil ki, Akademik Həsən Əliyev (1907-1993) Ordubadı Azərbaycanın cənnəti adlandırmışdır. Ordubad rayonu aqrar-sənaye rayonudur. Belə ki, rayonda meyvəçilik, ipəkçilik və heyvandarlıq əsas sahələrdən biridir. Ordubadın sənaye sahələri əsasən filiz mədənləri, ipək kombinatı, konserv zavodu, qənnadı və tikinti materialları sexlərindən və s. ibarətdir. Ordubad ipəyi keçən əsrin ortalarında dünya sərgilərində 13 dəfə qızıl medalla təltif olunmuşdur.

Rayon ərazisi ta Daş dövründən qədim insanların məskəni olduğundan, bu yer xeyli miqdarda nekropollar, qaya rəsmləri, pir və memarlıq abidələri ilə zəngindir. Ərazidə ilkin və son orta əsrlərə aid istehkam qurğuları, qalalar, türbələr, ziyarətgahlar və s. vardır. Haliyyədə rayondakı 291 tarixi abidədən 4-ü dünya, 111-i ölkə və 176-sı yerli əhəmiyyətə malik olub, dövlət tərəfindən qorunur. Tarixi memarlıq abidələri ilə zəngin olan Ordubad şəhərinin özü, 1977-ci ildən qoruq-şəhər elan olunmuşdur. Rayon ərazisində Azərbaycan Milli parkları siyahısına daxil edilmiş Ordubad Milli Parkı özünün nadir bitki və heyvanat aləmi ilə məşhurdur.

Tivi və Nəsirvaz kəndləri yaxınlığındakı Qaranquş yaylasında aşkar edilmiş "Gəmiqaya" qaya rəsmləri Azərbaycan ərazisində Qobustandan sonra ikinci ən böyük yazılı petroqliflərin qazıldığı abidə sayılır. Onların yaranma tarixi 5-6 min ildən artıqdır. Həmin ərazilər də son illərdə dövlət qoruğu elan olunmuşdur.

Bundan başqa, Ordubad rayonundakı Xaraba Gilan qədim yaşayış yeri, Aza kəndindəki körpü, Dər kəndindəki türbələr, o cümlədən də Ordubad şəhərindəki yaşı iki yüz ildən artıq əzəmətli çinar ağacları, məscid, mədrəsə, zorxana, buzxana, kəhrizlər və s. yerlər xalqımızın qədim mədəni irsinin ulu nişanələridir. Ordubad xalqı əsrlər boyu torpağa bağlılığı ilə fərqlənmiş, onun sərvətlərini qoruyub saxlamış, xalq folkloruna, nağıl və dastanlarına, əsatirlərinə, zəngin adət-ənənələrinə, elin özünəməxsus mətbəxinə həmişə sadiq olmuşdur.

Tədqiqatçı Həmzə Vəli yazır ki; "Babək ərəb xilafət orduları ilə özünün son döyüşlərini Gilançay vadisindəki Biləv kəndi yaxınlığında ucalan Babək Qalası, döyüş üçün əlverişli istehkam olmuşdur. Ordubadın Hüştürüngə adlı qəbiristanlığında "Malik İbrahim piri"nin yanındakı məzar, ərəb sərkərdəsi İbrahim əl-Ləis ibn Əl-Fədlədir. O, Afşinin ümumi rəhbərliyi ilə Babəkə qarşı bu istiqamətdə vuruşmuş ordunun başında durmuşdur. 10-11-ci əsr ərəb müəllifləri yazırlar ki, İbrahim əl-Ləis 829-830-cu illərdəki ağır döyüşlərdə Babək tərəfindən Bəlkə dağının ətəyindəki Qoqtendə (Ordubadda) məğlub edilmişdir". (Həmzə Vəli, "Babək Xürrəminin son taleyi" Bakı-1998).

Qədim Ordubadın qəhrəmanlıq səhifələri ilə yanaşı, Azərbaycan təhsilinin inkişafındakı rolu da az deyil. Əvvəllər Azərbaycanın Əməkdar müəllimi Əli Həsənəli oğlu Qənbərli (1907-1987), uzun müddət direktor olduğu Ordubad Pedaqoji Texnikumu, nəinki Muxtar Respublikada Azərbaycanda və həm də qonşu Ermənistan SSR-də təhsilin inkişafı üçün xüsusi əhəmiyyət kəsb etmişdir. Ordubad Pedaqoji Texnikumunun yüzlərlə məzunu sonralar Azərbaycanın ictimai həyatında fəaliyyət göstərmişdir.

Ordubad şəhərində maarifpərvər ziyalı Məmmədtağı Sidqinin, akademik Yusif Məmmədəliyevin, müharibə qəhrəmanı Nəcəfqulu Rəfiyevin Ev-muzeyləri, həmçinin Tarix-ölkəşünaslıq muzeyi, Mədəniyyət evi, Xalq teatrı, Uşaq musiqi məktəbi, Lisey və digər çoxsaylı orta məktəblər, "El həyatı" qəzeti və s. fəaliyyət göstərir.

Qarabağ uğrunda gedən döyüşlərdən sonra düşmən əlinə keçirə bildiyi Azərbaycan torpaqlarında vandalizmin ən qatı nümunəsini nümayiş etdirərək, Füzulidən Ordubadın Mehri ilə qonşu olan Salam Mələk stansiyasına kimi dəmir yol xəttini tamam sökərək, Muxtar Respublikanın Azərbaycanın Arazboyu və digər bölgələri və xüsusən də Bakı ilə dəmiryolu əlaqələrindən məhrum etmişdir.

BÖLMƏ 3

Şahbuz rayonu

Tarixin yaddaşına nəzər salaq: Şahbuz, Naxçıvan Muxtar Respublikasının inzibati rayonudur. 1930-cu ildə Naxçıvan rayonu inzibati ərazisində yaradılmış, sonradan 1964-cü ildə ayrılaraq, müstəqil rayon statusu qazanmışdır Şimalda və şərqdə Ermənistan Respublikası ilə, cənubda Culfa rayonu, qərbdə Babək (Naxçıvan) rayonu ilə həmsərhəddir.

Şahbuz rayonunun sahəsi 0,82 min km2, əhalisi 22.821 nəfərdir (2009-cu ilin 01 oktyabr st. məlumatı). Rayon ərazisində Şahbuz şəhəri ilə bərabər, 24 sayda inzibati yaşayış məntəqəsi vardır. Naxçıvandan Şahbuz rayon mərkəzinə 33 km məsafədə asfalt yol gəlir. Vaxtilə işlək olmuş və Muxtar Respublikanı Azərbaycanla birləşdirən yeganə Naxçıvan-Sisyan-Şuşa-Ağdam magistral şose yolu Şahbuz rayonu ərazisindən keçirdi.

Çəkilişinə 1980-ci illərin əvvəllərində başlanmış Bakı-Naxçıvan Arazboyu (onu "İpək yolu" da adlandırmaq olardı) magistral şose yolu təhlükəsizliyi və müasir standartlara cavab verəcək tələblər səviyyəsində tikilməsi ilə iki canbir respublikanı daha qısa məsafədə birləşdirmək məqsədini güdürdü. Lakin Ermənistanın Mehri rayonundan keçəcək hissəsində ermənilər adətləri üzrə qışqırıq salaraq, Azərbaycanı onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanla magistral "arteriya" ilə birləşdirməyə qoymadılar.

O zaman Sovet sistemi üçün hərbi-strateji əhəmiyyət kəsb etdiyindən çəkilən yola qarşı Ermənistan rəhbərliyində baş qaldıran antitürk etirazları Moskvadakı erməni lobbisinin təzyiqi ilə yarımçıq dayandırıldı. Şose yolu Ermənistan sərhədini kəsib, sonradan Ermənistana verilmiş tarixən azərbaycanlıların yaşadıqları Nüvədi qəsəbəsinin ayağında "başa çatdı". Mincivan-Vejnəli-Ağbənd-Nüvədi arasındakı kəskin sərt qayaları, hündür keçilməz dağ və dərin dərələri nisbətən düz xətt boyu kəsib keçən magistral asfalt yol, az keçmədən Azərbaycan torpaqlarının 20%-ni istila etmiş erməni quldurlarının əlinə keçdi...

Şahbuz rayonu əsasən dağlıq ərazidən ibarətdir. Rayon quzeydən Dərələyəz dağ silsiləsinin, cənubdan isə Zəngəzur dağ silsiləsinin qərb yamacındadır. Şahbuz rayonu əraziləri yeraltı faydalı qazıntı yataqları və mineral sularla zəngindir. Ərazinin yayı quraq, qışı soyuq keçən sərt iqlimi var. Suyu bol olan əsas çayları Naxçıvançayın qolları sayılan Salvartı, Kükü və Şahbuz çaylarıdır. Rayondakı Batabat, Salvartı, Qanlı göl təbii yaranmış, Vayxır dəryaçası isə süni su anbarlarıdır. (F.Bağırov, "Naxçıvanın təbii sərvətləri" Bakı-2008).

Şahbuz rayon ərazilərində nadir heyvan və bitki aləmi vardır. Fauna və floranın qorunması məqsədi ilə, 2003-cü ildə rayondakı Zəngəzur silsiləsinin 2.100-2.500 m sahələri və biçənək əraziləri, Dövlət Təbiət Qoruğu elan olunmuşdur. Rayondakı Batabat yaylası yaz-yay mövsümündə istirahət üçün əlverişli olduğundan, şahbuzlular ora dincəlməyə qalxır, xüsusən bal yetişdirmək üçün təbii imkanlarını nəzərə alan arıçılar o yaylaqlarda daha çox məskən salırlar.

Şahbuz rayonu, dediyimiz kimi, əsasən dağlıq yer olduğundan, kənd təsərrüfatının meyvəçilik və heyvandarlıq sahəsi üçün daha çox əlverişlidir. Ərazidə arıçılığı inkişaf etdirmək üçün çox yaxşı təbii-coğrafi iqlim şəraiti vardır. Rayondakı "Badamlı" mineral süfrə su emalı sənaye əsasları ilə hələ 1949-cu ildən istehsal olunur. Bundan başqa rayonda "Böyrək suyu" müalicəvi qazsız mineral bulaq suyu da müxtəlif ölçülü qablarda sənaye üsulu ilə istehsal olunur. Bu yaxınlarda Naxçıvan şəhərində istifadəyə verilmiş yüksək texnoloji dünya standartlar səviyyəsindəki "Badamlı" mineral su zavodu isə 35 km-lik məsafədən plastik çənlərdə gətirilən həmin qiymətli suyun daha yüksək keyfiyyətlə və yüksək miqdarda emalına imkanlar açır. (F.Bağırov, "Naxçıvanın təbii sərvətləri" Bakı-2008).

Şahbuz rayonunda üzümçülük sahəsi də geniş inkişaf etdiyindən, yüksək keyfiyyətli şərab emal edən müasir zavod da vardır. Şahbuzda Mədəniyyət evi, Kitabxana, Tarix-diyarşünaslıq Muzeyi, Azərbaycan MEA Naxçıvan bölməsinin Astrofizika Rəsədxanası və s. də fəaliyyət göstərir. Şahbuz şəhərində rayon əhəmiyyətli "Oğuz səsi" adlı qəzet nəşr olunur. Rayon ərazisində Eneolit, Tunc, Dəmir, Antik dövrlərinə və Orta əsrlərə aid yaşayış yerləri, kurqanlar, qəbirüstü simvolik abidələr aşkar edilmişdir. Ərazilərdə orta əsrlərə aid istehkam qala bürcləri, habelə karvansara, pir yerləri, körpü və məscidlər dövrümüzədək qalmış. Onlardan 137 abidə dövlət tərəfindən qorunur ki, onlardan 6-sı dünya, 37-si ölkə və 94-ü yerli əhəmiyyətli tarixi abidələrdir.

BÖLMƏ 4

Kəngərli rayonu

Tarixin yaddaşına nəzər salaq: Kəngərli, Naxçıvan Muxtar Respublikasının inzibati rayonudur. 2004-cü ildə Babək və Şərur rayonu torpaq ərazilərindən kəsilib verilməklə yeni inzibati ərazi yaradılıb. Rayonun ərazisi şimal-şərqdə Ermənistan Respublikası, cənub-qərbdə İran (Cənubi Azərbaycan) qərbdə Şərur rayonu və şərqdə Şərur rayonu ilə həmsərhəddir. Sahəsi 0,7 min km2, əhalisi 27.741 nəfərdir (2009-cu ilin 01 oktyabr st. məlumatı). Rayonun mərkəzi Qıvraq qəsəbəsidir. Rayon 10 sayda inzibati yaşayış məntəqəsindən ibarətdir.

Orta əsrlərdə Mərkəzi Asiyada yaşamış Kanqlı (Kəngərli) Türkdilli tayfalar ərazilərə gələrək, yerli Türk Oğuzları ilə qaynayıb qarışmışlar. Həmin kəndlərin torpaq əraziləri, keçən əsrin 20-ci illərinə kimi Kəngərli soykökündən olan xan və bəylərin ixtiyarında olmuşdur. Ərazilər əvvəllər Şərur rayonu tabeliyində olanda belə "kəngərli" adlanırdı. (İ.Hacıyev, "Naxçıvan və naxçıvanlılar" Bakı-2001).

Naxçıvandan Kəngərli rayon mərkəzi Qıvrağa 33 km. məsafədə (Naxçıvan-Sədərək) magistral asfalt yol gəlir. Rayon ərazisindəki "Şahtaxtı" dəmir yolu stansiyasından əvvəllər tranzit (Moskva-Bakı-Yerevan və Bakı-Yerevan) qatarları keçirdi. Bu yerin də yayı quraq və çox isti, qışı isə kəskin şaxtalı olub, kontinental iqlimi vardır. Ərazi nadir və endemik bitki və heyvanlar aləmi ilə də fərqlənir. Kəngərli rayonu əsasən kənd təsərrüfatı əkinləri üzrə yararlıdır.

Rayonun ərazisində qədim və orta əsr dövrlərdən qalma tarixi mədəniyyət abidələri vardır. Həmin abidələr qədim yaşayış yerləri, istehkam qalaları və kurqanlardan ibarətdir. Ərazidəki son tunc və ilk Dəmir dövrlərinə aid Qalaçıq yaşayış yeri, orta və son Tunc dövrünə aid I Qarabağlar qəbiristanlığı, Govurqala ilə Çalxanqala kurqanları, II Bəzəkli qalası, Yurdçu sərdabəsi, Qarabağlar memarlıq kompleksi, I və II Şahtaxtı nekropolları və s., buralarda qədim insanların yaşadığından xəbər verir. Rayonun Şahtaxtı kəndi ərazisindəki Araz çayı üstündə salınmış körpü vasitəsilə İran əhalisi- əsasən güneyli soydaşlarımız və Naxçıvan əhalisi hər iki tərəfə rahatlıqla keçirlər.

Kəngərli rayonundakı 87 tarixi mədəniyyət abidəsi dövlət tərəfindən qorunur. Onlardan 9-u dünya, 39-u ölkə və 39-u isə yerli əhəmiyyətli tarixi abidələrdir. Rayonda bir sıra təhsil, səhiyyə və mədəniyyət müəssisələri fəaliyyət göstərir, "Yeni həyat" adlı qəzet nəşr olunur. Rayondakı Qarabağlar, Xok və Şahtaxtı kəndlərində qədim dini ziyarətgahlar da mövcuddur. Qarabağlar kəndindəki "Asnı" bulaq-piri ilə 1187-ci ildə Azərbaycan Elxani hökmdarı Hülaki Xanın (1217-1265) arvadı Quti Xatunun məzarüstü məqbərəsi müasir turistləri özünə cəlb edir. Bundan başqa rayondakı Çalxanqala kəndinin əraziləri isə təbiət həvəskarları üçün mənalı istirahət yeridir.

BÖLMƏ 5

Şərur rayonu

Tarixin yaddaşına nəzər salaq: Şərur, Naxçıvan Muxtar Respublikasının inzibati rayonudur. 1930-cu ildə yaradılmışdır. Şimalda və şimal-şərqdə Ermənistan Respublikası, cənubda və cənub-şərqdə İranla həmsərhəddir. Şərur (keçmiş Noraşen) rayonunun sahəsi 0,81 min km2, əhalisi 102.837 nəfərdir (2009-cu ilin 01 oktyabr st. məlumatı). Rayonda mərkəz Şərur (1990-cı il 27 sentyabradək keçmiş İliç) şəhəri və 65 sayda inzibati yaşayış məntəqəsi vardır. Naxçıvandan Şərur rayon mərkəzinə 66 km məsafədə dünya standartları səviyyəsindəki yol bu yaxınlarda istifadəyə verilmişdir.

Rayondakı əsas çay sistemi Araz çayının hövzəsinə aiddir. Ərazinin bitki örtüyü yarımsəhra bitkilərindən və dağ kserofitlərindən ibarətdir. Heyvanat aləmi əsasən dağ keçisi, dağ qoyunu (muflon) canavar, tülkü, boz dovşan, vəhşi donuz, qaya dələsi, quşlardan- kəklik, ular, bağrıqara və s.- dən ibarətdir. Kənd təsərrüfatı rayonu kimi Şərurun əkinçilik sahələrində əsasən tütünçülük. Üzümçülük. Taxılçılıq və tərəvəzçiliyə geniş yer verilir. Heyvandarlıq da inkişaf etdirilmişdir. Rayondakı sənaye sahəsi əsasən kənd təsərrüfatı məhsullarının emalı və tikinti materiallarının istehsalı üzrə ixtisaslaşmışdır.

Şərur şəhərindəki “Noraşen” dəmir yolu stansiyasında əvvəllər “Araz” Bakı-Noraşen qatarı (1992-ci ildən Ermənistan tərəfindən yol bağlanmışdır), Moskva-Bakı-Yerevanla Bakı-Yerevan və əks istiqamətdə hərəkət edən qatarların dayanması və xırda təmirləri üçün təmir sexi var idi. Rayon ərazisindən Naxçıvan-Sədərək, Naxçıvan-Yerevan və Naxçıvan-İqdır avtomagistralları keçir. Şərur rayonu dağlıq və dağətəyi zonada yerləşən Gümüşlü, Şahbulaq, Aşağı Yaycı, Dizə, Həmzəli, Axura, Yuxarı Yaycı və başqa kəndlər füsunkar təbii gözəllikləri və tarixi mədəniyyət abidələri ilə zəngin olduğundan, turistləri özünə cəlb edir.

Şərur rayonundakı 219 sayda tarixi və mədəniyyət abidəsi dövlət tərəfindən qorunur. Onlardan 15-i dünya, 97-si ölkə və 107-si isə yerli əhəmiyyətli tarixi abidələrdir. Rayon ərazisində dünya əhəmiyyətli qədim yaşayış yerləri, nekropollar, qalalar, Arpaçay körpüsü, qala bürcləri, karvansara və s. kimi Orta əsr memarlıq abidələri və ziyarətgahlar dövlət tərəfindən mühafizə olunur. Tarixi abidələrlə zəngin Arpaçay hövzəsində 2006-cı ildə Tarix-Mədəniyyət Qoruğu yaradılmışdır.

Rayonda Tarix-diyarşünaslıq muzeyi, Cümə məscidi, Mədəniyyət sarayı, Xalq teatrı, Musiqi məktəbi, Kitabxana və C.Məmmədquluzadənin dərs dediyi məktəbdə onun Ev-muzeyi fəaliyyət göstərir. Şərur şəhərində "Şərurun səsi" adlı qəzet redaksiyası da vardır.

BÖLMƏ 6

Sədərək rayonu

Tarixin yaddaşına nəzər salaq: Sədərək, Naxçıvan Muxtar Respublikasının inzibati rayonudur. 1990-cı ildə Şərur rayon inzibati ərazisinin şimal-qərb hissəsində yaradılmışdır. Rayonun ərazisi cənub-qərbdən Türkiyə, şimal-qərbdən Ermənistan, şərqdən və cənub-şərqdən isə Şərur rayonu ilə həmsərhəddir. Sahəsi 0,15 min km2, əhalisi 14.077 nəfərdir (2009-cu ilin 01 oktyabr statistik məlumatı).

Rayon mərkəzi Heydərabad qəsəbəsi ilə 3 sayda inzibati yaşayış məntəqəsindən ibarətdir. Naxçıvandan Sədərək rayon mərkəzinə 88 km. məsafədə asfalt yol gəlir. Rayon ərazisindəki Bakı-İrəvan magistral dəmir yolunda "Qaraburun" stansiyası vardır. Əvvəllər həmin stansiyadan tranzit Moskva-Bakı-Yerevan və Bakı-Yerevan qatarları keçərdi.

Sədərək rayonunun iqlimi quru kontinentaldır. Ərazisində Qaraçay, Çapan çayı və Türkiyə sərhədi boyu ilə Araz çayı vardır. Kənd təsərrüfatı məhsullarından üzümçülük və taxılçılıq Sədərək rayon iqtisadiyyatının əsas gəlir mənbəyi sayılır. Sədərək rayon ərazisi hələlik sənaye üsulu ilə istehsal olunmayan (?) soyuqsulu mineral bulaqlarla zəngindir. Onlardan "Dəhnə", "Qaraburun", "Bahadur" mineral bulaqlarını misal göstərmək olar.

Sədərək rayon ərazisində arxeoloji tarixi abidələr də vardır. Tədqiqatçılara görə, ərazidə, eradan əvvəl VI minillikdən başlayaraq insanlar məskunlaşmışlar. Ərazidə tarixi memarlıq abidələrindən 3 məscid, orta əsr qala divarları, karvansara, "Ağoğlan" piri, XIX əsrlərə aid hamam tikilisi və s. vardır. (F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı-2008).

Sədərək rayonu üzrə dövlət tərəfindən mühafizə olunan 31 abidədən 3-ü dünya və 14-ü ölkə və 14-ü isə yerli əhəmiyyətlidir. Rayon ərazisində təhsil, mədəniyyət və səhiyyə sahələri inkişaf etmişdir. Ölkəşünaslıq muzeyi fəaliyyət göstərir. Redaksiya səviyyəsində "Oğuz yurdu" adlı qəzet nəşr olunur. 1992-ci ilin sentyabr ayında Araz çayı üzərində Türkiyə ilə Naxçıvan arasında tikilən "Ümid körpüsü" hər iki tərəfin iqtisadi inkişafına təsir göstərmişdir. Körpüdən hər gün İqdır-Naxçıvan və İstanbul-Naxçıvan sərnişin və yük avtomobilləri keçir.

BÖLMƏ 7

Tarixi Qars müqaviləsi

Azərbaycan Sovet Sosialist Respublikası- Qars müqaviləsi (1921-ci il 13 oktyabr).

Bir tərəfdə Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR hökumətləri və o biri tərəfdə Türkiyə Böyük Millət Məclisinin hökuməti millətlərin qardaşlığına və xalqların öz müqəddəratını təyin etmək hüquqi prinsiplərinə şərik çıxan, hər iki tərəfin qarşılıqlı maraqlarına əsaslanan daimi səmimi qarşılıqlı münasibətlərdən və fasiləsiz səmimi dostluq qurmaq istəyindən ruhlanaraq RSFSR-ın iştirakı ilə dostluq haqqında müqavilə bağlamaq qərarına gəlmiş və bunun üçün öz Müvəkkillərini təyin etmişlər:

Ermənistan SSR-in hökuməti; Askanaz Mravyan- Xarici İşlər Komissarı, Poqos Makinzyan- Xalq Daxili İşlər Komissarı.

Azərbaycan SSR-ın hökuməti; Behbud Şahtaxtinski- Xalq Dövlət Nəzarəti Komissarı.

Gürcüstan SSR-ın hökuməti; Şalva Eliva- Xalq hərbi-dəniz İşləri Komissarı, Aleksandr Svanidze- Xalq Xarici İşlər Komissarı və Xalq Maliyyə İşləri Komissarı.

Türkiyə BMM Hökuməti; Kazım Qarabəkir Paşa- Böyük Millət Məclisində Ədirnədən millət vəkili, Şərq Cəbhəsi komandanı, Vəlibəy- Böyük Millət Məclisində Burdurdan millət vəkili, Muxtarbəy- İctimai İşlər Stats-Sekretarının keçmiş müavini, Məmduh Şövkətbəy- Türkiyənin Azərbaycanda səlahiyyətli nümayəndəsi.

RSFSR-ın hökuməti; Yakov Qanetski- Latviyada səlahiyyətli nümayəndə. Onlar lazımi və qanuni formada tərtib edilmiş səlahiyyətlərin mübadiləsindən sonra aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1.

Türküyə BMM hökuməti və Ermənistan, Azərbaycan və Gürcüstan SSR hazırda razılığa gələn tərəflərin ərazilərinin tərkibinə daxil olan ərazilərdə öz suveren hüquqlarını əvvəllər həyata keçirmiş dövlətlər arasında bağlanan yuxarıda xatırlanan ərazilərə aid olan müqavilələri, eyni dərəcədə üçüncü dövlətlər tərəfindən Zaqafqaziya Respublikalarına dair bağlanmış müqavilələri ləğv edilmiş və öz qüvvəsini itirmiş hesab edirlər. Müəyyən edilmiş hesab olunur ki, bu maddə 16 mart 1921-ci ildə Moskvada bağlanmış Türkiyə-Rusiya müqaviləsinə tətbiq edilmir.

Maddə 2.

Razılığa gələn tərəflər, onlardan birinin zorla qəbula məcbur edildiyi hər hansı sülh müqaviləsini və sair beynəlxalq akt tanımamaq barədə razılaşırlar. Bunun qüvvəsində Türkiyəyə dair və hazırda onun BMM ilə təmsil olunan Türkiyə Milli hökumətinin tanımadığı heç bir beynəlxalq aktı Ermənistan, Azərbaycan və Gürcüstan Respublikalarının da tanımayacaqları barədə razılaşırlar.

Bu müqavilədə Türkiyə anlayışı altında Konistantinopolda Osmanlı deputatlar palatası tərəfindən işlənib hazırlanmış və elan edilmiş, mətbuat vasitəsilə bütün dövlətlərə çatdırılmış 8 yanvar 1920-ci il (hicri 1336) tarixli Türkiyə Misaqi-Milli sərhədlərinə daxil edilmiş ərazilər nəzərdə tutulur. Öz tərəfindən Türkiyə BMM hökuməti bu ölkələrin hazırda Ermənistan, Azərbaycan və Gürcüstan sovetləri ilə təmsil olunan müvafiq hökumətlərinin tanımadığı hər hansı beynəlxalq aktı tanımamaq barədə razılaşır.

Maddə 3.

Ermənistan, Azərbaycan və Gürcüstan SSR hökumətləri təslimçilik rejimini hər hansı ölkənin azad milli istəkləri ilə, eləcə də onun suveren hüquqlarının tam həyata keçirilməsi ilə bir araya sığmadığını hesab edərək, bu cür rejimə hər hansı hərəkət və hüquqları pozulmaqla öz qüvvəsini itirmiş və ləğv edilmiş sayılır.

Maddə 4.

Türkiyənin şimal-şərq sərhədləri (1:21.000 miqyaslı- (1 düyümdə 5 verst) xəritəsinə əsasən) Qara dənizdə yerləşən Sarp kəndindən başlayan Xedis-Mta dağından, Şavşet dağındakı Kannı dağ ayrıcından keçən, daha sonra Ərdəhan və Qars sancaqlarının köhnə şimal inzibati sərhədləri ilə Aşağı Qars çayın mənsəbindəki Arpaçay və Araz çaylarının kəsişdiyi xətlə müəyyən edilir. (Sərhədlərin müfəssəl təsviri və ona aid məsələlər razılığa gələn hər iki tərəfin imzaladığı 1-ci və 2-ci əlavədə və ona qoşulan xəritədə müəyyən edilmişdir).

Müqavilənin mətni və xəritə arasında fərq ortaya çıxdığı təqdirdə mətnə həlledici əhəmiyyət verilir. Dövlət sərhədlərinin naturada müffəsəl müəyyən edilməsi və çəkilişi, eləcə də sərhəd işarələrinin qoyulması razılığa gələn tərəflərin bərabər sayda üzvlərdən ibarət qarışıq sərhəd komissiyası tərəfindən və RSFSR nümayəndələrinin iştirakı ilə icra olunur. (4 ədəd xəritə əlavə olunur).

Maddə 5.

Türkiyə hökuməti Ermənistan və Azərbaycan hökumətləri ilə razılığa gəlirlər ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilən sərhədlərdə Azərbaycanın himayəsi altında Muxtar ərazi olur.

Maddə 6.

Türkiyə, Batum şəhəri ilə dəniz limanı və müqavilənin 4-cü maddəsində göstərilən sərhədlərdən şimalda yerləşən Batum ərazisinin bir hissəsini təşkil edəcəkdir. Bu maddənin həyata keçirilməsi üçün müqavilə imzalandıqdan dərhal sonra, razılığa gələn tərəflərin nümayəndələrindən ibarət komissiya yaradılacaq.

Maddə 7.

Gürcüstan SSR hökuməti və Türkiyə Böyük Millət Məclisi hökuməti buna dair qarışıq komissiyasının müəyyənləşdirəcəyi gömrük, polis və sanitar qaydalarına əməl etmək şərti ilə, sərhəd zonası sakinlərinin sərhədi keçmələrini asanlaşdırmaq üçün razılığa gəlirlər.

Maddə 8.

Gürcüstan SSR və Türkiyə BMM hökuməti sərhəd əraziləri üzərində hər iki tərəfin suverenliyini bu şərtlə Gürcüstana güzəştə getməyə razılıq verir ki;

1) bu maddədə göstərilən yerlərin əhalisi və hər hansı icma onların mədəni və dini hüquqlarını təmin edəcək inzibati baxımdan geniş yerli muxtariyyətdən faydalanacaq və əhaliyə göstəriləcək yerlərdə onun istəyinə uyğun torpaq qanununu müəyyənləşdirmək imkanı veriləcək.

2) Batum dəniz limanı vasitəsilə Türkiyəyə göndərilən və ya həmin limanla Türkiyənin göndərdiyi bütün mallara rüsum qoyulmayacaq, onların daşınması və qəbulunda hər hansı ləngitmə olmayacaq və onlara hər hansı gömrük yığımı qoyulmadan sərbəst tranzit ediləcəkdir.

Türkiyəyə Batum limanından buna görə ondan xüsusi rüsumlar tutmadan istifadə hüququ yerlərinin sakinləri üçün sərhədin o biri tərəfində yerləşən yaylaq və qışlaq otlaqlarından istifadə etmələri üçün zərurəti nəzərə alaraq, bu sakinlərə onların sürüləri ilə birlikdə sərhədi keçmək və ənənəvi otlaqlardan istifadə etmək hüququ barədə razılığa gəlirlər. Gömrük qaydaları, eləcə də sərhədin keçilməsi üçün polis, sanitar və digər tədbirlər qarışıq komissiya tərəfindən müəyyənləşdiriləcək.

Maddə 9.

Boğazların açılması və bütün xalqların ticarət münasibətləri üçün onlardan sərbəst keçidin təmin edilməsindən ötrü Türkiyə və Gürcüstan Qara dənizin və boğazların beynəlxalq statusunun qəti olaraq müəyyənləşdirilməsini sahil ölkələrin nümayəndələrindən ibarət xüsusi konfransa bu şərtlə verməyə razılaşırlar ki, onun çıxardığı qərarlar Türkiyənin tam suverenliyinə eyni dərəcədə Türkiyənin və onun paytaxtı Konstantinopolun təhlükəsizliyinə xələl gətirməyəcək.

Maddə 10.

Razılığa gələn tərəflər öz ərazilərində digər ölkənin hökuməti roluna iddia edən təşkilatların və qrupların yaradılmasına və ya yerləşdirilməsinə, eləcə də digər dövlətlə mübarizə məqsədi olan qrupların yerləşməsinə yol verməmək barədə razılığa gəlirlər. Müəyyən edilmiş sayılır ki, bu müqavilədə xatırlanan Türkiyə ərazisi dedikdə, Türkiyə BMM hökumətin bilavasitə hərbi və mülki idarəsi altında olan ərazilər nəzərdə tutulur.

Maddə 11.

Hər iki razılığa gələn tərəfin digər tərəfin ərazisində olan vətəndaşlarına milli müdafiə üzrə mükəlləfiyyətlər istisna olunmaqla, onların olduğu ölkənin qanunlarından irəli gələn bütün hüquqlar və vəzifələr şamil olunacaq, onlar bundan azad ediləcəklər. Hər iki tərəfin ailə hüququna, hər iki tərəfin vətəndaşlarının miras hüququna və iş qabiliyyətlərinə dair məsələlər də bu müqavilənin qərarlarından istisna təşkil edilər. Onlar xüsusi sazişlə həll ediləcəklər.

Maddə 12.

Hər iki razılığa gələn tərəf digər tərəfin ərazisində olan, razılığa gələn tərəflərin hər birinin vətəndaşlarına ən əlverişli şərait prinsip tətbiq etməyə razıdırlar. Bu maddə Sovet respublikalarının öz ərazilərində müttəfiq Sovet respublikalarının vətəndaşlarına verdiyi hüquqlara tətbiq olunmur.

Maddə 13.

1918-ci ilə qədər Rusiyanın bir hissəsini təşkil etmiş və indi Türkiyənin suverenliyi altında olduğu tanınan ərazilərin hər hansı sakini arzu etdiyi halda sərbəst şəkildə Türkiyəni tərk etmək, özü ilə əşyalarını, öz əmlakını götürmək və ya bu mümkün olmadıqda, onların dəyərini almaq hüququna malikdir. Eyni şəkildə üzərindəki suverenliyin Türküyə tərəfindən Gürcüstana güzəşt edilmiş ərazilərin bütün sakinləri əgər arzu edərlərsə, Gürcüstan vətəndaşlığından çıxmaq, Gürcüstan ərazisini sərbəst şəkildə tərk etmək və özü ilə öz əşyalarını, və əmlakını və ya onların dəyərini götürmək hüququna malikdir. Yuxarıda göstərilən maddədə xatırlanan sakinlər xatırlanan əraziləri tərk etmək arzularını bildirdikdən sonrakı bir ay müddətində hərbi mükəlləfiyyətdən möhlət hüququndan faydalanacaqlar.

Maddə 14.

Razılığa gələn tərəflər bu müqavilənin imzalandığı gündən sonrakı altı ay ərzində 1918-20-ci il müharibələrinin qaçqınlarına dair xüsusi saziş bağlamağı öhdələrinə götürürlər.

Maddə 15.

Razılığa gələn hər bir tərəf bu müqavilə imzalandıqdan dərhal sonra Qafqaz cəbhəsində hərbi hərəkətlərdən irəli gələn cinayətlərə və əməllərə görə digər tərəfin vətəndaşlarına tam amnistiya elan etməyi öhdəsinə götürür.

Maddə 16.

Razılığa gələn tərəflər bu müqavilə imzalandıqdan sonrakı iki ay ərzində razılığa gələn tərəflərdən birinin ərazisində olan köhnə hərbi əsirləri və mülki əsirləri qaytarmağa razıdırlar.

Maddə 17.

Öz ölkələri arasındakı münasibətlərin fasiləsizliyini təmin etmək məqsədi ilə razılığa gələn tərəflər müştərək razılaşma yolu ilə dəmiryol, teleqraf və s. rabitə vasitələrinin saxlanması və mümkün surətdə inkişafı, eyni dərəcədə hər iki ölkə arasında insanların və malların hər hansı ləngidilmə olmadan sərbəst yerdəyişməsini təmin etmək məqsədi ilə bütün zəruri tədbirləri görməyi öhdələrinə götürürlər. Lakin etiraf edilir ki, həm səyahət edənlərin, həm də malların yerdəyişməsinə, girişinə və çıxışına münasibətdə hər ölkədə buna dair müəyyən edilmiş qaydalar tam tətbiq ediləcəkdir.

Maddə 18.

Razılığa gələn tərəflər arasında dostluq münasibətlərini möhkəmləndirmək üçün ticarət münasibətləri qurmaq, bütün iqtisadi, maliyyə və digər məsələləri tənzimləmək məqsədi ilə bu müqavilə imzalandıqdan dərhal sonra Tiflisdə maraqlı tərəflərin təmsilçilərindən ibarət komissiya yaradılacaq.

Maddə 19.

Razılığa gələn tərəflər bu müqavilə imzalandıqdan sonrakı üç ay ərzində Konsul Konvensiyasını başa çatdırmağı öhdələrinə götürürlər.

Maddə 20.

Türkiyə, Ermənistan, Azərbaycan və Gürcüstan hökumətləri arasında bağlanmış bu müqavilə ratifikasiya edilməlidir. Ratifikasiyalarla mübadilə ən qısa müddətdə İrəvanda olacaq. Bu müqavilə ratifikasiya olunduğu andan qüvvəyə minir. 6, 14, 15, 16, 18, və 19-cu maddələr istisnadır, onlar müqavilə imzalandıqdan dərhal sonra qüvvəyə minirlər. Bu göstərilənləri təsdiq etmək üçün yuxarıda adları çəkilən müvəkkillər bu müqaviləni imzaladılar və ona öz möhürlərini vurdular. Müqavilə Qars şəhərində 1921-ci ilin 13 oktyabr (hicri, 1337) tarixində beş nüsxədən ibarət tərtib edilmişdir.

(M.Y.) imza Askanaz Mravyan. (M.Y.) imza Kazım Qarabəkir.

(M.Y.) imza Poqos Makinzyan. (M.Y.) imza Vəlibəy.

(M.Y.) imza Behbud Şahtaxtinski. (M.Y.) imza Muxtarbəy.

(M.Y.) imza Şalva Eliva. (M.Y.) imza Məmduh Şövkətbəy.

(M.Y.) imza. Aleksandr Svanidze. (M.Y.) imza Qanetski.

Əlavə 1.

Türkiyənin şimal-şərq sərhədi aşağıdakı şəkildə müəyyənləşdirilir; (1:21.000 miqyaslı- (1 düyümdə 5 verst) xəritəsinə əsasən).

Qara dənizdə Sarp kəndi- Qara Şalvar dağı (5.014 m.)- suayırıcı ilə V.Maradidi kəndindən şimalda "uçuq kilsə" istiqaməti ilə V.Maradidi kəndindən şimalda Çoroxu kəsməklə və sonra Sabir kəndinin şimalından keçir- Xedis Mta dağı (7.052 m.)- Kva-Kibe dağı- Kavtereti kəndi- Medzıdna dağının suayırıcı xətti- Qerat Kesun dağı (6.468 m.)- Korda dağının (7.910 m.) suayırıcı xəttindən keçir- Şavşet sıra dağlarının qərb hissəsinə keçmiş Artvin dairəsinin inzibati sərhədinə çıxır.

Şavşet dağlarının suayırıcı xəttindən keçərək, Sarı Çay (Kar-ishal) (8.478 m.) dağına çıxır- Kviral aşırımı- oradan Kankı dağda keçmiş Ərdəhan dairəsinin əvvəlki inzibati sərhədinə çıxır. Oradan şimala dönərək Tlil (Qrmali) dağınadək çatır- Ərdəhan dairəsinin həmin sərhəd ilə irəliləyib və Badela kəndinin şimal-şərqinə, Posxov çayına çıxır. Həmin çayla cənuba Çançaq kəndindəki dağa qədər gedir. Orada bu çayı geridə qoyaraq gədik xətti ilə irəliləyərək, Ayrılan-Baş dağına (8.512 m.) qalxır-Kəllə təpə (8.463 m.), Karman təpə (9.709 m.) dağlarından keçir və Kasris-Seri dağına (9.681 m.) çatır.

Karzamet çayı ilə Kür çayınadək gedir və oradan Kür çayının sahili ilə Kartanakev kəndinin şərqindəki məntəqəyə çıxır. Orada Qaraoğlu dağının (7.259 m.) gədiyindən keçməklə Kür çayından aralanır- oradan Xazapin gölünün ortasından keçib 7.582 m. yüksəkliyinə çatır və oradan da Göydağa (9.152 m.) çıxır- Üçtəpələr (9.783 m.), burada Gürcüstanla sərhəd bitir.

Böyük Ağdaba dağından (9.973 m.)-8.828-7.602 m. buradan düz xətlə 7.518 m. zirvəsinə- İbiş kəndinin şərqindən, sonra Qızıldaş dağından (7.439 m.), Yeni Qızıldaş kəndindən keçir- oradan Novıy Qızıldaş kəndindəki çayla onun Qaraməmmədlin şimal-qərbdə yerləşən döngəsinədək suayırıcı ilə gedir. Oradan Delaver, Baş Kmlı və Tikinis kəndlərindən şərqdə yerləşən Camuşsu çayına çıxır.

Vartanlı və Baş Şuragel kəndlərindən keçir-adı çəkilən çayla gedərək, Kəlala və ya Qalalıdan şimalda Arpa çayına çıxır. Orada Arpa çayın axını ilə gedərək Araz çayına çıxıb və Arazın sahili ilə gedib Urmiya kəndinə çıxılır. Burada Ermənistanla sərhəd bitir və Azərbaycanla sərhəd başlanır. Araz çayının sahili ilə Aşağı Qarasu çayının Araza töküldüyü yerədək gedilir və burada Azərbaycan sərhədi qurtarır. (Nomenklaturadan aydındır ki, sərhəd, göstərilən yüksəkliyin suayırıcından keçir).

(M.Y.) imza Askanaz Mravyan. (M.Y.) imza Kazım Qarabəkir.

(M.Y.) imza Poqos Makinzyan. (M.Y.) imza Vəlibəy.

(M.Y.) imza Behbud Şahtaxtinski. (M.Y.) imza Muxtarbəy.

(M.Y.) imza Şalva Eliva. (M.Y.) imza Məmduh Şövkətbəy.

(M.Y.) imza. Aleksandr Svanidze. (M.Y.) imza Qanetski.

Əlavə 2.

Sərhəd xəttinin Əlavə 1-də göstərdiyi kimi, Arpaçay və Araz çaylarının birləşdiyi yerdən keçdiyini diqqətə aldıqda, Türkiyə BMM hökuməti yalnız Arpaçay rayonunda sərhəd xəttini onun indiki cizgisində Aleksandropol- İrəvan dəmiryolundan 8 verst məsafəyə geri çəkməyi və Araz çayı rayonunda göstərilən dəmiryol xəttindən 4 verst geriyə çəkməyi öhdəsinə götürür. Yuxarıda göstərilən rayonları məhdudlaşdıran xətlər Araz çayı zonası üçün aşağıda A və B bəndlərində Arpaçay zonası üçün 1 və Araz zonası üçün 2 bəndində göstərilir.

1. Arpaçay zonası; A- Vartanlıdan cənub-şərqdə Uçuq kilsədən şərqdə, Bozyar (5.096 m.) dağından keçməklə- Karmir-Vəngdən şərqdə 5.082 və Üçtəpə (6.478 m.) dağları, Araz qolunun şərqi-Aninin şərqi və Yenikənddən qərbdə Arpa çayına qədər olan məsafə. B- Yenidən Arpaçaydan 5.019 m. yüksəkliyin şərqinə sarı aralanır və birbaşa 5.481 m. yüksəkliyə gedir. Qızılqulaq kəndindən şərqdə 4 ½ verstdən Borçalıdan şərqdə 2 verstdən sonra Diyərçay, bu çay boyunca Düzkeçid kəndinə qədər irəliləyir və düz xətlə Qarabağ xarabalıqlarından şimala irəliləməklə Arpa çaya çıxır.

2. Araz zonası; Xaraba Əlican və Süleymandizə kəndləri arasında düz xətt. Bir tərəfdən Aleksandropol (Gümrü)- İrəvan dəmiryolu xətti ilə və digər tərəfdən yuxarıda adı çəkilən dəmiryol xəttindən 8-4 verst məsafədə yerləşən xətlə məhdudlaşan zonada Türkiyə BMM hökuməti hər hansı ratifikasiya istehkamları qurmayacağını öhdəsinə götürür. Bu məsafə xətti göstərilən zonadan kənarda yerləşir və onlarda nizami qoşunlar saxlamayacaq. Lakin göstərilən zonalardakı asayişin, təhlükəsizliyin təmin olunması üçün və inzibati ehtiyaclar üçün qoşun saxlamaq hüququnu saxlayır.

(M.Y.) imza Askanaz Mravyan. (M.Y.) imza Kazım Qarabəkir.

(M.Y.) imza Poqos Makinzyan. (M.Y.) imza Vəlibəy.

(M.Y.) imza Behbud Şahtaxtinski. (M.Y.) imza Muxtarbəy.

(M.Y.) imza Şalva Eliva. (M.Y.) imza Məmduh Şövkətbəy.

(M.Y.) imza. Aleksandr Svanidze. (M.Y.) imza Qanetski.

Əlavə 3.

Naxçıvanın ərazisi Urmiya kəndi, oradan düz xətlə Arazdəyən stansiyasına (Onu Ermənistan SSR-də saxlamaqla)- sonra düz xətlə 3142 m. qərbdəki Daşburun dağına. Daşburun dağının şərq suayırıcı xətti (4.108 m.)- Cəhənnəmdərə çayından "bulaq" yazısının cənubu-Bağırsaq dağının gədik xətti ilə (6.607 m.) və oradan əvvəlki İrəvan dairəsinin və Şərur-Dərələyəz qəzasının inzibati sərhədi ilə gedir- 6.629 m. yüksəkliyi. Kömürlü dağ (6.839 m.)- oradan 3.080 m. yüksəklik- Sayat dağı (7.868 m.)- Qurdqulaq kəndinə Qamesur dağının (8.160 m.) yüksəkliyi- Kükü dağı (10.282 m.) və əvvəlki Naxçıvan dairəsinin inzibati sərhədinin şərqindən keçir.

(M.Y.) imza Askanaz Mravyan. (M.Y.) imza Kazım Qarabəkir.

(M.Y.) imza Poqos Makinzyan. (M.Y.) imza Vəlibəy.

(M.Y.) imza Behbud Şahtaxtinski. (M.Y.) imza Muxtarbəy.

(M.Y.) imza Şalva Eliva. (M.Y.) imza Məmduh Şövkətbəy.

(M.Y.) imza. Aleksandr Svanidze. (M.Y.) imza Qanetski.

Müqavilə Ümumittifaq Mərkəzi İcraiyyə Komissarlığı (MİK) tərəfindən 1922-ci ilin 16 mart tarixində təsdiq olunmuşdur.

BÖLMƏ 8

Qars müqaviləsinə erməni narazılıqları

Qars danışıqları nəticəsində bağlanmış müqavilə və onun ayrı-ayrı maddələri erməni daşnakları tərəfindən birmənalı qəbul olunmurdu. “Sovet Ermənistanı” qəzeti “Qars sülh konfransı” sərlövhəli məqaləsində həmin danışıqları Ermənistanın müstəqilliyini möhkəmləndirə biləcək bir sənəd kimi qiymətləndirsə də, əks mövqedə dayanmış daşnak diasporası və onların kütləvi təbliğat vasitələri məsələni başqa səmtə yönəldirdilər. (“Sovet Ermənistanı” qəzeti, 27 sentyabr 1921-ci il).

Tarixin yaddaşına nəzər salaq: İkinci Dünya müharibəsindəki ağır qələbədən sonra müstəmləkəçilik sərhədlərini Berlinə kimi genişləndirməsindən ruhlanan SSRİ, indi də Qars müqaviləsinin ləğv olunmasına və Türkiyəyə verilmiş ərazilərin geri qaytarılmasına cəhd göstərməyə başladı. 1945-ci ilin iyununda SSRİ-nin Xarici İşlər naziri V.Molotov Moskvadakı türk səfirinə Türkiyəyə verilmiş ərazilərin geri qaytarılması tələbi ilə müraciət etdi. Bu tələb Türkiyəni çıxılmaz vəziyyətə saldı. Türkiyə dövləti faşizm üzərində qələbədən sonra SSRİ ilə qonşuluq münasibətlərini pozmaq istəmirdi. Hələ 1939-cu ildə ingilis diplomatiyası, SSRİ-nin Qars müqaviləsinin ləğv olunmasını istəyirdi.

Türkiyə Sovet İttifaqı ilə yenidən savaşa girmək niyyətində deyildi. Lakin 1945-ci ilin axırlarında Qafqazdakı Sovet qoşunları, Türküyə ilə müharibə vəziyyətinə gətirilmişdi. Hətta bu işdə ermənipərəst Sovet rəhbərləri (başda A.Mikoyan olmaqla), İ.Stalinlə razılaşmışlar. Lakin İngiltərənin baş naziri U.Çörçil buna qarşı çıxaraq, İ.Stalinin xarici siyasətinə müdaxilə etmiş və müharibənin qarşısını almışdı.

ABŞ prezidenti H.Truman isə bu işdə siyasətə əl ataraq Türkiyə ilə SSRİ arasında birtərəfli mövqeyə üstünlük vermişdi. Uzun sürən II Dünya müharibəsində təcavüzkar Hitler Almaniyası və Yaponiya üzərində qələbə çalmış SSRİ hökuməti, Kremldəki yüksək mövqeli erməni araqızışdırıcılarının təkidlərinə əhəmiyyət verməyərək, Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməyi üstün tutur.

Azərbaycanın Respublikasının Prezidenti Heydər Əliyev bir vaxtlar Muxtar Respublikanın Muxtariyatı haqqında demişdir ki; “Naxçıvanın Muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın Muxtariyyəti əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq.”

“Haqqı inkar edənlərin nə malları, nə də övladları onları Allah yanında heç bir şeydən qurtara bilməz. Əlbəttə, onlar cəhənnəm odunun yanacağıdırlar!”

(Quran, Ali-İmran 3/10)

“...Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!”

(Quran, Əraf 7/179)

BÖLMƏ 9

Kitabın yazılmasına səbəb

“Tarixin yaddaşı” kitabını yazıb sona çatdırdım. Ümidvaram ki, Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası haqqında tarixi məlumatlar geniş oxucu marağına səbəb olsun. Çünki bəzi məlumatlar haqqında ilk dəfə bu kitabda rastlaşırsınız. Kitabın yazılmasına səbəb, otaylı bu taylı xalqıma vətənpərvər arzularımı bölüşdürmək istəyimdir. Çalışmışam ki, tarixi məqamlar şəxsiyyət və coğrafi adlarda söz qüsurlarına yol verməyəm. Uzun-uzadı və qəliz sözlərdən yaxa qurtarmaq məqsədi ilə oxucunu yormamaq üçün hadisələr haqındakı mövzu və cümlələri qısaltmışam.

Bu kitabın yazılmasında elmi kitablara üz tutub, qəzet və jurnallardakı (hətta sənədli filmlərdəki) tarixi reallıqlardan yerli-yerində istifadə etmiş və onlardan sitatlar da gətirmişəm. Bir neçə illərin zəhməti ilə yazıb başa gətirdiyim kitabdakı məqalələri öyrənib saf-çürük edilməsində, əvvəllər vəzifələrdə işləmiş ahıl şəxslərin məsləhətləri də az olmamışdır. Yeri gəlmişkən onlara minnətdarlıq edərək və qarşılarında baş əyməyi özümə borc bilirəm. Naxçıvan MR Dövlət Arxiv İdarəsinə, Azərbaycan MEA-nın Naxçıvan Bölməsinə (Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutuna), Nazirliklər, Komitə və müəssisə rəhbərlərinə, Naxçıvan MR Tarixi Abidələri Mühafizə Cəmiyyətinə və xüsusən də Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi tabeliyindəki mədəni-maarif təşkilatlarına təşəkkürümü bildirirəm.

Müasir dövr informasiya ilə zəngin olduğundan internet vasitəsi ilə tarixi sənədlərin surətləri və digər elmi kitablardakı məqalələrdən də faydalanmaq mümkündür. Kitabda yeri gəldikcə onlardan sitatlar göstərərək, oxucuların maraq dünyasına həvəs yaratmaq istəmişəm. Bunun üçün Rabitə və Yeni Texnologiyalar Nazirliyinə də minnətdarlıq edirəm. Kitaba əvvəllər yazdığım “Əzablı günlər” tarixi psixoloji mənzum pyes də əlavə edilmişdir. Məqsəd Naxçıvanlı realist rəssam Bəhruz Kəngərli dövrünün haqsızlıqları ilə ermənilərin Azərbaycan Türklərinə qarşı qəddarlıqları bir daha “tarixin yaddaşı”nda göstərməkdir.

Şadam ki, Müstəqil Azərbaycan xalqı H.Ə.Əliyevin yaratdığı “nicat gəmisi”ni, Azərbaycan Prezidenti İ.H.Əliyev müdrik siyasəti ilə dünya dövlətlərinin ənginliklərində idarə edir. Naxçıvan xalqı öz xoşbəxtliyini H.Əliyev siyasətinin davamçısı, Muxtar Respublika Ali Məclisi sədri V.Y.Talıbovun qayğısı nəticəsində tapmışdır.

“Sən ey fələklər qədər uca, dəyərli İnsan!
Nazını çəkməkdədir bu yer, bu göy, kəhkəşan.”

(Nizami Gəncəvi)

“Bir xalqın məhvinə çalışan qüvvələr, insanların mənəvi və tarixi dəyərlərini əllərindən alarlar. Bir xalqın ki qayğısını çəkən müdrik rəhbər varsa, o xalqa zaval yoxdur.” (Feyruz Abdullaoğlu, Naxçıvan şəhəri Araz üstə, 18 oktyabr 2009-cu il)

“Əgər bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa, siz də ona bənzər bir surə gətirin və əgər doğru deyirsinizsə, onda Allahdan savayı şahidlərinizi çağırın!”

(Quran, Bəqərə 2/23)

BÖLMƏ 20

Xəritə və şəkillər



Soldan sağa : Vasif Talıbov, Heydər Əliyev, İlham Əliyev
Naxçıvan şəhərindəki Dədə Qorqud heykəli önündə (1999-cu il).
(Heykəltəraş Nax. MR əməkdar incəsənət xadimi Elman Cəfərovdur).



Azərbaycan Respublikasının inzibati xəritəsi (2000-ci il).



Naxçıvan Muxtar Respublikasının inzibati xəritəsi (2000-ci il).



Naxçıvan şəhərinin planı (2000-ci il).



Azərbaycan Respublikasının İnzibati xəritəsi (1920-ci il).



Corrected Sketch-map of new Russo-Turkish Boundary.

Qars Müqaviləsinin xəritəsi (1921-ci il).



Hz. Nuh (ə) peyğəmbərin məqbərəsi (2008-ci il).



İ.Brodski "26 Bakı komissarlarının güllələnməsi" pannosundan fraqment.



AXC Parlamentinin açılışı (1918-ci il).



İlandağdan tapılan mixi yazı.



Gəmiqaya petroqliflərindən "keçilər "rəsmi.



Əcəminin portreti- 1976. (Rəssam E.Şahtaxtinskaya).



Culfa rayonundakı Gülüstan türbəsi (12-ci əsr).



Naxçıvan Cümə məscidi- XIX əsr.



Culfa rayonu Xanağa kəndində Nəiminin türbəsi (2000-ci il).



Naxçıvanda zərb olunmuş və pul dövriyyəsində işlədilmiş sikkələr: 1–2. Üzərində "Naxç." sözü yazılmış Sasani hökmdarı II Xosrov [591–628] və Boran [629–631] dövrlərinə aid gümüş dirhəmlər. 3–4. Atabəy Şəmsəddin Eldənizə [1136–1175] və Atabəy Qızıl Arslana [1186–1191] aid mis dirhəmlər. 5. Hülakülər. Məhəmməd Xudabəndə Öljaytu [1304–1316]. Naxçıvan, 704 (1305–1306), gümüş dirhəm. 6. Müzəffərilər. Şah Şüca [1359–1384], Naxçıvan, gümüş dirhəm. 7. Səfəvilər. Məhəmməd Xudabəndə [1578–1587], Ordubad, 892 (1486/87), gümüş məhəmmədi. 8. Səfəvilər. Sultan Hüseyn [1694–1722], Naxçıvan, 1130 (1717–1718), gümüş abbasi. 9. Naxçıvan xanlığı, anonim. Naxçıvan. 1190 (1776–1777), gümüş abbasi.

Naxçıvanda zərb olunmuş və pul dövriyyəsində işlədilmiş sikkələr.

(Naxçıvan MR Tarix Muzeyi).



Boyalı qablar mədəniyyəti tapıntıları: 1. Monoxrom boyalı küpə (Kültəpə II). 2. Monoxrom boyalı tək qulplu küpə (Kültəpə II). 3. Polixrom boyalı çıraq (Culfa). 4. Monoxrom boyalı küpə (Kültəpə II). 5. Çaydantipli polixrom boyalı qab (Naxçıvan). 6. Monoxrom boyalı küpə (Yaycı). 7. Polixrom boyalı kasa (Culfa). 8. Polixrom boyalı üçayaqlı vaza (Naxçıvan ş.). 9. Monoxrom boyalı küpə (Nəhəcir).

Boyalı qablar mədəniyyəti tapıntıları

(Naxçıvan MR Tarix Muzeyi).



Qızılburun tapıntıları.

(Naxçıvan MR Tarix Muzeyi).



Qoşa Minarəli Portal (1187-ci il).



Naxçıvanda Möminə Xatın türbəsi (1187-ci il memarəcəmi).



Araz çayı üzərindəki Xudafərin körpüsü (2000-ci il).



Bəhruz Kəngərli (1920-ci il).

(Naxçıvandakı B.Kəngərli Muzeyi).



B. Kəngərli, "Minarəsi dağıdılmış məscid" (1920-ci il).

(Naxçıvandakı B.Kəngərli Muzeyi).



B. Kəngərli, "Nuhun Türbəsi" (1919-cu il).

(Naxçıvandakı B.Kəngərli Muzeyi).



B.Kəngərli, "Mirzə Məhəmməd Zamanbəyovun portreti" (1917-ci il).

(Naxçıvandakı B.Kəngərli Muzeyi).

BÖLMƏ 21

20-ci əsr və 21-ci əsrin əvvəllərində Naxçıvan yetirmələri

Abbasquliyev Məhəmməd Abbasqulu oğlu (1965-....) hərbi xadim, General-mayor.

Abbasov Akim Əli oğlu (1911-1992) hərbi xadim, General-mayor.

Abbasov Arif Akim oğlu (1937-2005) tarixçi etnoqraf, tarix elmləri Doktoru.

Abbasov Cəfərxan Abbas oğlu (1903-1965) əmək qabaqcılı, sosialist əməyi Qəhrəmanı.

Abbasov Əli Məmməd oğlu (1953-....) texnika elmləri Doktoru.

Abbasov Ələddin Dəyhan oğlu (1952-....) kimya elmləri Doktoru.

Abbasov Əyyub Cəbrayıl oğlu (1905-1957) yazıçı, əməkdar incəsənət xadimi.

Abbasov Qurban Abbasqulu oğlu (1926-1994) neftçi-mühəndis, sosialist əməyi Qəhrəmanı.

Abbasov Namiq Rəşid oğlu (1940-....) hüquq üzrə General-polkovnik.

Abbasov Tofiq Ələkbər oğlu (1936-....) əmək qabaqcılı, Dövlət mükafatı laureatı.

Abbasov Tofiq Hüseyn oğlu (1938-....) baytarlıq elmləri Doktoru, professor.

Abbasova Banoş Cəfərqulu qızı (1918-1995) əmək qabaqcılı, sosialist əməyi Qəhrəmanı.

Abbasova Cəmilə Balakişi qızı (1916-2001) əməkdar həkim.

Abbaszadə Nəzmiyyə Müzəffər qızı (1945-....) sənətşünaslıq Doktoru, professor.

Abidinov Cavad Şahvələd oğlu (1940-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Abidinov Əhməd Şahvələd oğlu (1945-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Abdullayev Aydın Həsən oğlu (1951-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Abdullayev Faiq Məmmədəli oğlu (1936-....) texnika elmləri Doktoru, professor.

Abdullayev Həsən Məmmədbağır oğlu (1918-1993) fizika-riyaziyyat elmləri Doktoru.

Abdullayev Mehdi Abdulla oğlu (1907-1979) əməkdar həkim.

Abdullayev Tahir Abdulla oğlu (1915-1995) əməkdar memar.

Abdullayeva Sevda Həsən qızı (1949-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Abutalıbov Müzəffər Heydər oğlu (1908-1984) bitki fizioloqu elmləri Doktoru, professor.

Abutalıbov Şirzad Əsəd oğlu (1959-....) əməkdar artist.

Adil Qasım(Adil Qasım oğlu Qasımov) (1932-2015) şair, dövlət məmuru, əmək veteranı.

Ağayev Həsən Vəliqulu oğlu (1958-....) əməkdar artist.

Ağayeva Kəmalə Ağa qızı (1936-....) əməkdar mədəniyyət işçisi.

Axundlu İbrahimxəlil Hüseyn oğlu (1897-1958) əməkdar idman ustası.

Axundlu Yavuz İbrahimxəlil oğlu (1927-....) filoloji elmləri Doktoru, professor.

Axundov Abdulla Qasım oğlu (1913-1970) texnika elmləri Doktoru.

Axundov Bəhmən Yusif oğlu (1910-1980) iqtisad elmləri Doktoru, professor.

Axundov Qüdrət Əli oğlu (1932-1973) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Axundova Naimə Vəli qızı (1933-....) əməkdar memar.

Allahverdiyev Şamil İsmayıl oğlu (1930-1998) geologiya-mineralogiya elmləri Doktoru.

Allahyarov Kamil Hüseyn oğlu (1950-....) filoloji elmləri Doktoru.

Babayev Abdulla Murtuz oğlu (1924-2015) əməkdar artist, (xanəndə).

Babayev Adil Qafar oğlu (1925-1977) şair, dramaturq.

Babayev Adil Məmməd oğlu (1938-....) filoloji elmləri Doktoru, professor.

Babayev Əbülfəz İsmayıl oğlu (1947-....) kimya elmləri Doktoru.

Babayev Rafiq Təvəkkül oğlu (1953-....) yazıçı, publisist.

Babayev Səfəralı Yaqub oğlu (1923-2003) coğrafiya elmləri Doktoru, professor.

Babayev Vəli Allahverdi oğlu (1945-1989) əməkdar artist.

Bağırov Adil Nəsib oğlu (1947-2016) filologiya elmləri Doktoru.

Bağırov Akif Məmməd oğlu (1959-....) uroloq, tibb elmləri Doktoru.

Bağırov Akif Zeynal oğlu (1954-....) filologiya elmləri Doktoru.

Bağırov Azər Sadıq oğlu (1936-....) əməkdar jurnalist.

Bağırov İbrahim Nəsib oğlu (1928-19997) tarix elmləri Doktoru.

Bağırov Quşdan Əmikişi oğlu (1933-1994) filologiya elmləri Doktoru, professor.

Bağırov Mehdi Abbas oğlu (1915-2004) cərrah, əməkdar həkim.

Bağırov Mikayıl Kazım oğlu (1934-....) texnika elmləri Doktoru.

Bağırov Cəlal Bağır oğlu (1928-1997) baytarlıq elmləri namizədi.

Bağırov Mübariz Məmmədhüseyn oğlu (1961-....) iqtisad elmləri Doktoru.

Bağırov Nəriman Fərəc oğlu (1930-2001) əməkdar müəllim.

Bağırov Siyavuş Musa oğlu (1936-....) texnika elmləri Doktoru professor.

Bağırov Məhəmməd Bağır oğlu (1850-1933) Nehrəm kəndtası, xeyriyyəçi.

Bağırov Abdulla Məhəmməd oğlu (1898-1973) dövlət məmuru, əmək veteranı.

Bağırov Bağır Məhəmməd oğlu (1903-1986) "Şöhrət" ordenli müharibə veteranı.

Bağırov Firdovsi Abdulla oğlu (1923-1994) əməkdar poliqrafçı.

Bağırov Feyruz Abdulla oğlu (1946-....) publisist, əmək veteranı.

Bağırova Püstə Həsən qızı (1860-1954) qəhrəman döyüşçü, Nehrəm ətrafında erməni quldurlarına qarşı savaşlarda qadın dəstə rəhbəri.

Bağırova Nərgiz Əli qızı iki dəfə "Qəhrəman ana" ordenli əmək veteranı.

Bağırova Rəfiqə Kazım qızı (1929-....) əməkdar mədəniyyət işçisi.

Baxşəliyev Vəli Baxşəli oğlu (1955-....) tarix elmləri Doktoru.

Baxşəliyev Bahadır Ələkbər oğlu (1932-....) tibb elmləri Doktoru.

Bayramov Hüseyn Abbas oğlu (1916-1982) filologiya elmləri Doktoru, professor.

Bayramova Rüxsarə Əlipaşa qızı (1924-1992) əməkdar həkim.

Bəhramov Nadir Rəhim oğlu (1929-....) tarix elmləri Doktoru, professor.

Bəktaşi İnayət Heydər oğlu (1931-1989) filoloji elmləri Doktoru, professor.

Bəktaşi Məmməd Cabbar oğlu (1917-1993) əməkdar müəllim.

Bəktaşi Rauf Mirzəmməd oğlu (1910-1988) müharibə veteranı, əməkdar müəllim.

Bəktaşi Sübhi Əli oğlu (1929-....) geologiya-mineralogiya elmləri Doktoru, professor.

Bəktaşi Tofiq Heydər oğlu (1912-1995) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Budaqov Yaqub Qurban oğlu (1927-1993) əməkdar həkim, tibb elmləri namizədi.

Cabbarov Yunis Hüseyn oğlu (1917-1953) sosialist əməyi Qəhrəmanı.

Cavadlı Cavad Ələsgər oğlu (1926-....) şair, publisist.

Cavid (Hüseyn) Rasizadə Abdulla oğlu (1882-1941) şair, dramaturq.

Cəfər Bağır (Cəfər Bağırov Səfəralı oğlu (1942-1983) yazıçı, nasir və tərcüməçi.

Cəfərxanova Roza Heydər qızı (1927-2014) əməkdar aktrisa.

Cəfərli Məhərrəm Allahverdi oğlu (1946-....) filologiya elmləri Doktoru.

Cəfərli Adil Həsən oğlu (1920-1988) əməkdar mədəniyyət işçisi.

Cəfərov Fəxrəddin Adil oğlu ((1951-....) tarix elmləri Doktoru.

Cəfərov Cabbar Qulu oğlu (1924-2007) əməkdar həkim, tibb elmləri namizədi.

Cəfərov Cəfər İsmayıl oğlu (1938-1996) filologiya elmlər namizədi, dosent.

Cəfərov Çərkəz Məmiş oğlu (1942-....) tibb elmləri Doktoru, professor.

Cəfərov Həmzə Rza oğlu (1949-2013) tarix elmləri namizədi, dosent.

Cəfərov Məmməd Abdulla oğlu (1926-1997) sosialist əməyi Qəhrəmanı.

Cəfərov Məmməd Bəhmən oğlu (1935-1985) kənd təsərrüfatı üzrə əməkdar mühəndis.

Cəlilov Afiyəddin Cəlil oğlu (1946-1994) geoloq, dövlət xadimi.

Elçibəy (Əliyev Əbülfəz Qədirqulu oğlu) (1938-2000) şərqşünas, dövlət xadimi.

Elman Həbib (Hacıyev Elman Həbib oğlu) (1949-2006) əməkdar incəsənət xadimi.

Eminov Mirhəmzə Mirhəsən oğlu (1932-1980) sosialist əməyi Qəhrəmanı.

Əbilov İbrahim Məhərrəm oğlu (1882-1923) diplomat.

Əhməd Mahmud (Mahmudov Əhməd Məmməd oğlu (1928-2004) jurnalist, əməkdar mədəniyyət işçisi.

Əhmədov Əhməd Hüseyn oğlu (1969-....) daxili xidmət general-mayoru.

Əhmədov Qadir İbad oğlu (1940-....) kimya elmləri Doktoru, professor.

Əhmədov Şükür Əli oğlu (1926-1970) sosialist əməyi Qəhrəmanı.

Əhmədova Şəfiqə Sultan qızı (1956-....) əməkdar müəllimə.

Əkbər Məftun (Əkbərov Əkbər Qurban oğlu) (1912-1990) filologiya elmlər namizədi, dosent.

Əkbərov Əkbər Həzrətqulu oğlu (1920-1995) əməkdar müəllim.

Əkbərov Qəzənfər Qulam oğlu (1917-1944) Sovet İttifaqı Qəhrəmanı.

Əkbərova Şərəf Sultan qızı (1924-....) əməkdar müəllimə.

Əkbərov Məmməd Həsən oğlu (1925-1984) əməkdar incəsənət xadimi.

Əkbərova Əqidə Məmməd qızı (1956-2012) sənətşünas, əməkdar incəsənət xadimi.

Əli Səbri (Qasımov Əli Camal oğlu (1892-1983) jurnalist.

Əlixanova Firuzə Məmmədqulu qızı (1917-1994) xalq aktrisası.

Əliquluyev Ramazan İsmayıl oğlu (1936-2005) geologiya-mineralogiya elmləri namizədi, dosent.

Əliquluyev Ramiz Məmməd oğlu (1937-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Əlirzayev Əli Qənbər oğlu (1945-....) iqtisad elmləri Doktoru, professor.

Əliverdiyev Elman İbnyəmin oğlu (1943-....) dövlət mükafatı laureatı.

Əliyarova Zərifə Abbasqulu qızı (1935-1999) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Əliyev Aqil Əlirza oğlu (1926-....) iqtisad elmləri Doktoru, professor.

Əliyev Arif Əli oğlu (1936-....) filologiya elmlər namizədi, dosent.

Əliyev Cəlal Əlirza oğlu (1928-2016) biologiya elmləri Doktoru.

Əliyev Əli Həsən oğlu (1938-....) biologiya elmləri Doktoru professor.

Əliyev Əli İbrahim oğlu (1904-1997) tarix elmləri namizədi, dosent.

Əliyev Əli Nağı oğlu (1932-1995) sosialist əməyi Qəhrəmanı.

Əliyev Əmiraslan Rza oğlu (1960-1995) milli Qəhrəman.

Əliyev Əsəd Cabbar oğlu (1918-1997) əməkdar müəllim.

Əliyev Gümrah Məmməd oğlu (1958-....) tibb elmləri Doktoru, professor.

Əliyev Heydər Əlirza oğlu (1923-2003) dövlət xadimi, təhlükəsizlik xidməti general-mayoru, sosialist əməyi Qəhrəmanı.

Əliyev Həsən Musa oğlu (1952-....) əmək qabaqcılı, dövlət mükafatı laureatı.

Əliyev Hüseynqulu Əli oğlu (1948-....) heykəltəraş, əməkdar rəssam.

Əliyev İsa Musa oğlu (1939-1997) sosialist əməyi Qəhrəmanı.

Əliyev İsmayıl İsrafil oğlu (1950-....) pedaqoji elmləri Doktoru, professor.

Əliyev Ramazan İmran oğlu (1953-....) filologiya elmləri Doktoru, professor.

Əliyev Qurbanəli Məmmədsadıq oğlu (1925-2014) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Əliyev Məhərrəm Abış oğlu (1951-....) polis xidməti general-leytenantı.

Əliyev Məmməd Əli oğlu (1919-2003) əməkdar idman xadimi.

Əliyev Nadir Abbasəli oğlu (1946-....) tibb elmləri Doktoru.

Əliyev Rasim Məmmədəli oğlu (1960-....) hərbi xidmət general-mayoru.

Əliyev Seyfəddin Vəli oğlu (1930-....) biologiya elmləri Doktoru, professor.

Əliyev Suliddin Abbas oğlu (1970-....) ədliyyə müşaviri.

Əliyev Tamerlan Əziz oğlu (1921-1997) tibb elmləri Doktoru, professor.

Əliyev Tələt Müseyib oğlu (1942-....) diplomat.

Əliyev Vasif İsmayıl oğlu (1929-1982) geologiya-mineralogiya elmləri Doktoru, professor.

Əliyeva Fəridə Mirzəbağır qızı (1933-....) əməkdar müəllimə.

Əliyeva Nüşabə Vəliyəddin qızı (1943-....) əməkdar həkim.

Əliyeva Rəfiqə Əlirza qızı (1932-....) kimya elmləri Doktoru, professor.

Əliyeva Saimə Baxşəli qızı (1926-....) əməkdar həkim.

Əliyeva Səkinə Abbas qızı (1925-2012) dövlət xadimi.

Əliyeva Tamam Əziz qızı (1903-1980) sosialist əməyi Qəhrəmanı.

Əliyeva Təyyubə Hüseyn qızı (1933-....) əmək qabaqcılı, dövlət mükafatı laureatı.

Əliyeva Zərifə Əziz qızı (1923-1985) tibb elmləri Doktoru, professor.

Əmirov Cəmşid Cabbar oğlu (1918-1982) yazıçı, nasir.

Əmirov Əli Cabbar oğlu (1915-1979) texnika elmləri Doktoru, professor.

Əsədullayev İsfəndiyar İsmayıl oğlu (1924-2002) əməkdar mədəniyyət işçisi.

Əsgərov Akif İzzətulla oğlu (1940-....) heykəltəraş, əməkdar incəsənət xadimi.

Əsgərov Kamal Əsgər oğlu (1951-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Əsgərov Məmməd Həsən oğlu (1918-1988) kənd təsərrüfatı elmləri namizədi, sosialist əməyi Qəhrəmanı.

Əsgərov Mirzə Qəhrəman oğlu (1956-....) jurnalist, "Qızıl qələm" mükafatı laureatı.

Əsgərov Vasif Fətulla oğlu (1929-....) tibb elmləri Doktoru, professor.

Əsgərov Ziyafət Abbas oğlu (1963-....) hüquq elmləri namizədi.

Əsgərova Münəvvər Mehbalı qızı (1914-2001) sosialist əməyi Qəhrəmanı.

Əsgərova Roza Qasım qızı (1929-....) biologiya elmləri Doktoru.

Əvəz Sadıq (Sadıqov Əbülfəz Əli oğlu) (1898-1956) yazıçı, nasir və publisist.

Əkrəm Əylisli (Naibov Əkrəm Nəcəf oğlu) (1937-....) xalq yazıçısı, əməkdar incəsənət xadimi.

Əziz Şərif (Şərifzadə Əbdüləziz Qurbanəli oğlu) (1895-1998) filologiya elmləri Doktoru, professor.

Əzimov Əyyub İsmayıl oğlu (1944-2013) əmək veteranı.

Fərəcov Əliqulu Səttar oğlu (1898-1981) iqtisad elmləri Doktoru, professor.

Fərəcov Fərəc Səttar oğlu (1912-1990) əməkdar memar.

Gülməmmədov Abbas Əli oğlu (1902-1969) əməkdar mədəniyyət işçisi.

Hacılı Raiq Əli oğlu (1940-....) kimya elmləri Doktoru.

Hacılı Ramiz Əli oğlu (1937-....) texnika elmləri Doktoru, professor.

Hacıyev Sahib Əsgər oğlu (1950-....) kənd təsərrüfatı elmləri namizədi, dosent.

Hacıyev Əsgər Bayraməli oğlu (1938-1998) sosialist əməyi Qəhrəmanı.

Hacıyev Hacı Məmmədbağır oğlu (1919-1988) baytarlıq elmləri Doktoru, professor.

Hacıyev Hümmət Ələkbər oğlu (1935-....) geologiya-mineralogiya elmləri namizədi.

Hacıyev İsmayıl Muxtar oğlu (1951-....) tarix elmləri Doktoru, professor.

Hacıyeva Nailə Bəhlul qızı (1956-....) əməkdar müəllimə.

Hacıyeva Ninal Zeynal qızı (1926-1996) filologiya elmləri Doktoru, professor.

Hacıyeva Sürəyya Xəlil qızı (1938-....) istehsalat qabaqcılı, dövlət mükafatı laureatı.

Haqverdiyev Əyyub Məmmədəli oğlu (1911-1996) xalq artisti.

Heydərov Kəmaləddin Fəttah oğlu (1961-....) gömrük xidməti general-polkovniki.

Həbibbəyli İsa Əkbər oğlu (1949-....) filologiya elmləri Doktoru, professor.

Həmid Arzulu (Əliyev Həmid Fərhad oğlu) (1937--....) filologiya elmləri namizədi, əməkdar müəllim.

Həmzəyeva Zəroş Mirzəbağır qızı (1925-2004) xalq aktrisası.

Həmzəyev Nizami İbrahim oğlu (1943-....) əməkdar incəsənət xadimi.

Həsən Elsevər (Fətullayev Həsən Mehdi oğlu) (1925-2003) əməkdar mədəniyyət işçisi.

Həsənli Sabir Hüseyn oğlu (1945-....) ilahiyyat elmləri namizədi.

Həsənov Sabir Qurban oğlu (1957-....) iqtisad elmləri namizədi.

Həsənov Əli Məmmədəli oğlu (1960-....) tarix elmləri Doktoru.

Həsənov Kərim Hüseyn oğlu (1935-1996) əməkdar mədəniyyət işçisi, filologiya elmləri Doktoru, professor.

Həsənov Nəriman Əllamə oğlu (1934-1993) tarix elmləri Doktoru, professor.

Həsənov Ağayar Cahangir oğlu (1929-2004) əməkdar müəllim.

Həsənov Rəşid Həsən oğlu (1935-....) kimya elmləri Doktoru.

Həsənov Səyavuş Həsən oğlu (1964-1992) Azərbaycanın milli Qəhrəmanı.

Həsənov Şəmsi Rəhim oğlu (1930-1988) tibb elmləri namizədi, dosent.

Həsənova Məhəbbət Həsən qızı (1959-....) əməkdar müəllimə.

Həsənova Südabə Cəmşid qızı (1947-....) ədliyyə müşaviri.

Həsənzadə Vahab Salman oğlu (1890-1960) maarif xadimi.

Həsənli Hüseyn Məmməd oğlu (1965-....) filologiya elmləri namizədi, dosent.

Həşimov Arif Məmməd oğlu (1948-....) texnika elmləri Doktoru.

Hümbətov Həsən Həşim oğlu (1937-....) texnika elmləri Doktoru.

Hümbətov Məmməd Tahar oğlu (1946-....) əməkdar mədəniyyət işçisi.

Hüseyn Əzim (Əzimov Hüseynqulu Qurban oğlu) (1913-1987) əməkdar mədəniyyət işçisi.

Hüseyn Razi (Rzayev Hüseyn Məmməd oğlu) (1924-1998) əməkdar incəsənət xadimi.

Hüseynov Bahadır Məmmədqulu oğlu (1921-2014) əməkdar hüquqşünas, general-mayor.

Hüseynov Əyyub Müseyib oğlu (1916-1998) əməkdar incəsənət xadimi.

Hüseynov Firudin Cəlal oğlu (1933-1986) filologiya elmləri Doktoru, professor.

Hüseynov Qasım Rəsul oğlu (1925-1958) sosialist əməyi Qəhrəmanı.

Hüseynov Qasım Zülfəli oğlu (1940-....) kimya elmləri Doktoru, professor.

Hüseynov Mustafa Məmməd oğlu (1928-1991) kimya elmləri Doktoru, professor.

Hüseynov Rövşən Maqsud oğlu (1954-....) əməkdar artist.

Hüseynov Vəli Allahverdi oğlu (1964-....) fizika-riyaziyyat elmləri Doktoru.

Hüseynzadə Lətif Talıb oğlu (1903-2007) filologiya elmləri namizədi, dosent.

Xanbabayev Əjdər Rza oğlu (1931-1990) əməkdar mədəniyyət işçisi.

Xanəliyev Sadıq Şahsuvar oğlu (1936-....) əməkdar maarif xadimi.

Xəlilov Müslim Heydər oğlu (1963-....) əməkdar müəllim.

Xəlilov Şirin Heydər oğlu (1955-....) hərbiçi general-mayor.

Xudiyev Nizami Manaf oğlu (1949-....) filologiya elmləri Doktoru, professor.

Xudiyeva Nəzakət Əli qızı (1955-....) əməkdar aktrisa.

İbadullayev Faiq Yunis oğlu (1955-....) texnika elmləri Doktoru.

İbadullayeva Səyyarə Cəmşid qızı (1957-....) biologiya elmləri Doktoru.

İbrahimli Fikriyə İbrahim qızı (1955-....) tibb elmləri Doktoru, professor.

İbrahimov Hüseyn Məmmədəli oğlu (1919-2008) xalq yazıçısı.

İbrahimov İbrahim İsmayıl oğlu (1928-1990) kimya elmləri Doktoru, professor.

İbrahimov İsmayıl Əli oğlu (1915-2001) texnika elmləri Doktoru, professor.

İbrahimov Malikəjdər Qasımxan oğlu (1938-....) tibb elmləri namizədi, əməkdar həkim.

İbrahimov Məmmədbağır Əli oğlu (1905-1979) tibb elmləri Doktoru, professor.

İbrahimov Namiq İbrahim oğlu (1932-....) fizika-riyaziyyat elmləri Doktoru.

İmanquliyeva Fatma Məhərrəm qızı (1923-2002) sosialist əməyi Qəhrəmanı.

İmanov Əhməd Cəfər oğlu (1948-....) əməkdar incəsənət xadimi.

İmanova Ətrabə Məmməd qızı (1960-....) əməkdar maarif işçisi.

İsayev Abasət İsa oğlu (1948-....) fizika-riyaziyyat elmləri Doktoru.

İsayev Heydər İsa oğlu (1936-1999) dövlət xadimi, texnika elmləri namizədi.

İsayeva Maniyə İsa qızı (1942-....) geologiya-mineralogiya elmləri Doktoru.

İsmayılov Cəbi Əziz oğlu (1949-....) cərrah, tibb elmləri namizədi.

İsmayılov Əjdər Tağı oğlu (1938-....) filologiya elmləri Doktoru, professor.

İsmayılov Əli Qurbanəli oğlu (1909-1969) sosialist əməyi Qəhrəmanı.

İsmayılov Fikrət İsmayıl oğlu (1935-....) ictimai xadim, fizika-riyaziyyat elmləri Doktoru.

İsmayılov Həbib Ələkbər oğlu (1906-1966) kinorejissor, əməkdar incəsənət xadimi.

İsmayılov İbrahim İsa oğlu (1921-2002) hüquq elmləri Doktoru, professor.

İsmayılov Rza Paşa oğlu (1905-1967) sosialist əməyi Qəhrəmanı.

İsmayılov Xanım Məmmədtağı qızı (1951-....) əməkdar mədəniyyət işçisi.

İsmayılov Yusif Abbas oğlu (1927-....) sosialist əməyi Qəhrəmanı.

Kalba Musa (Musayev Musa İsmayıl oğlu (1856-1924) xeyriyyəçi.

Kazım Ziya (Kazımzadə Kazım Cəfər oğlu) (1896-1956) xalq artisti, dövlət mükafatı laureatı.

Kazımov Əli İmran oğlu (1956-....) hərbiçi, general-mayor.

Kazımov İbrahim Kazım oğlu (1951-....) tarix elmləri namizədi.

Kazımzadə Aydın Həsən oğlu (1950-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Kəlbəliyev Faiq İsfəndiyar oğlu (1937-....) energetik, texnika elmləri Doktoru, professor.

Kəlbəliyev Qüdrət İsfəndiyar oğlu (1946-....) kimya elmləri Doktoru, professor.

Kəngərli Ayaz Mahmud oğlu (1930-....) texnika elmləri Doktoru, professor.

Kəngərli Sübhi Fərrux oğlu (1937-....) əməkdar mədəniyyət işçisi.

Kəngərli Bəhruz (Şamil) Şirəlibəy oğlu (1892-1922) ilk realist rəssam.

Kəngərli Əsgər Aslan oğlu (1911-1998) nevropatoloq, əməkdar həkim.

Kəngərli Nəsrulla Yaqub oğlu (1913-1991) memar, əməkdar inşaatçı, dövlət mükafatı laureatı.

Kərimli Xanəli Abbasəli oğlu (1951-....) filologiya elmləri namizədi.

Kərimli Teymur Həşim oğlu (1953-....) filologiya elmləri Doktoru.

Kərimov Nemət Kərim oğlu (1922-1966) müharibə veteranı, hərbi müşavir, polkovnik.

Kərimov Bəxtiyar Kərim oğlu (1909-1942) müharibə Qəhrəmanı.

Kərimov Kərim Cabbar oğlu (1921-1995) sənətşünaslıq Doktoru, professor.

Kərimov Kərim Məhəmməd oğlu (1971-1992) milli Qəhrəman.

Kərimov Mahmud Kərim oğlu (1948-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Kərimov Rəfail Musa oğlu (1949-....) xor dirijoru, əməkdar incəsənət xadimi.

Kərimov Sabit Qəhrəman oğlu (1940-....) texnika elmləri Doktoru, professor.

Kərimova Sənubər Ağa qızı (1935-....) jurnalist, əməkdar mədəniyyət işçisi.

Qacar Xurşid Rəhimxan qızı (1894-1963) müğənni, əməkdar incəsənət xadimi.

Qardaşbəyov Əkbər Hacı oğlu (1923-2001) xalq artisti.

Qasımbəyov Həmid Həbib oğlu (1923-2005) hərbi xadim, vitse-admiral.

Qasımov Abutalıb Ağa oğlu (1956-....) tarix elmləri namizədi, dosent.

Qasımov Cəlal Əbil oğlu (1959-....) filologiya elmləri Doktoru.

Qasımov Elxan Məmməd oğlu (1945-....) əməkdar artist.

Qasımov Əbülfəz Cəbrayıl oğlu (1931-....) iqtisad elmləri Doktoru, professor.

Qasımov Ələsgər Ramazan oğlu (1901-1985) iqtisad elmləri Doktoru, professor.

Qasımov Həsən Allahyar oğlu (1940-1994) iqtisad elmləri Doktoru, professor.

Qasımov Himalay Ənvər oğlu (1939-....) filologiya elmləri Doktoru, professor.

Qasımov Qasım Səfər oğlu (1925-1991) tarix elmləri namizədi.

Qasımov Mayıs Ələkbər oğlu (1939-....) biologiya elmləri Doktoru.

Qasımov Mehbalı Məhəmməd oğlu (1906-1962) fəlsəfə elmləri Doktoru, professor.

Qasımov Nemət Abbasəli oğlu (1940-....) biologiya elmləri Doktoru, professor.

Qasımova Elmira Məmməd qızı (1942-....) şairə, əməkdar müəllimə.

Qazıyev Adil Yusif oğlu (1906-1973) sənətşünaslıq elmləri Doktoru, professor.

Qazıyev Heydər Əhməd oğlu (1909-1988) baytarlıq elmləri namizədi, əməkdar baytar həkimi.

Qadirzadə Qadir İbrahim oğlu (1948-....) tarix elmləri Doktoru.

Qəhrəmanov Quşdan Mehbalı oğlu (1934-....) əməkdar müəllim.

Qəmküsar (Nəcəfov Əliqulu Ələkbər oğlu) (1880-1919) ictimai xadim, jurnalist.

Qənbərli Əli Həsənəli oğlu (1907-1987) əməkdar müəllim.

Qubadov Hüsnü Baba oğlu (1922-1991) müğənni, əməkdar artist.

Quliyev Abbas Şahbaz oğlu (1916-1998) Sovet İttifaqı Qəhrəmanı.

Quliyev Arif Cəmil oğlu (1949-2005) əməkdar incəsənət xadimi.

Quliyev Əbülfəz Aman oğlu (1950-....) filologiya elmləri Doktoru.

Quliyev Ələkbər Nuru oğlu (1948-2004) əməkdar müəllim.

Quliyev Əyyub Saleh oğlu (1954-....) astronom, fizika-riyaziyyat elmləri Doktoru.

Quliyev Hüseyn Səttar oğlu (1913-1942) ilk azəri təyyarəçisi.

Quliyev Musa Rəhim oğlu (1948-....) tarix elmləri Doktoru.

Quliyev Xudayar Abdulla oğlu (1910-1985) əməkdar müəllim.

Quliyev Kamran Məmmədqulu oğlu (1958-....) xalq artisti.

Quliyev Məmməd Allahverdi oğlu (1914-2001) xalq artisti.

Quliyeva Narı Əbülfəz qızı (1928-2005) sosialist əməyi Qəhrəmanı.

Quliyeva Növrəstə Bağır qızı (1906-1982) sosialist əməyi Qəhrəmanı.

Quliyeva Nübar Yusif qızı (1930-....) əməkdar müəllimə.

Qurbanov Həsənağa Əli oğlu (1955-....) əməkdar incəsənət xadimi.

Qurbanov Hikmət Tofiq oğlu (1954-....) əməkdar müəllim.

Qurbanov Maqsud Rüstəm oğlu (1941-....) filologiya elmləri Doktoru.

Qurbanov Namiq Qurban oğlu (1932-2015) dövlət mükafatı laureatı, geologiya-mineralogiya elmləri Doktoru.

Qurbanov Telman Xudan oğlu (1936-1990) kimya elmləri Doktoru, professor.

Mahmudbəyova Məryəm Fərəməz qızı (1921-2006) mikrobioloq, tibb elmləri Doktoru.

Mahmudbəyov Şamil Fərəməz oğlu (1924-1997) kinorejissor, əməkdar incəsənət xadimi.

Mahmudov Əhməd Əkbər oğlu (1928-1989) iqtisad elmləri Doktoru, professor.

Mahmudov Malik Rüstəm oğlu (1938-1991) filologiya elmləri Doktoru, professor.

Mahmudov Mehdi Abdulla oğlu (1911-1984) müharibə veteranı, polkovnik.

Mahmudov Fərəməz Qəzənfər oğlu (1930-2000) ictimai xadim, fizika-riyaziyyat elmləri Doktoru, professor.

Mehdiyev Əqil Səftər oğlu (1920-2006) terapevt, əməkdar həkim.

Mehdiyev Həsən Musa oğlu (1925-2001) yazıçı, nasir və publisist.

Mehdiyev İmran Əzim oğlu (1936-2000) iqtisad elmləri Doktoru, professor.

Mehdiyev Məmməd Əzim oğlu (1937-1987) fizika-riyaziyyat elmləri Doktoru.

Mehdiyeva Məhəbbət İsa qızı (1945-....) filologiya elmləri namizədi, əməkdar mədəniyyət işçisi.

Mehdiyev Abbas Mehdi oğlu (1931-2015) biologiya elmləri namizədi, dosent.

Mehdiyeva Səlimə İbrahim qızı (1941-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Mədətli Eynulla Yədulla oğlu (1954-....) fəlsəfə elmləri namizədi, dosent.

Mədətov Qaraş Əli oğlu (1928-1993) tarix elmləri Doktoru, professor.

Mədətova Çimnaz Yaqub qızı (1948-....) əməkdar mədəniyyət işçisi.

Məmməd Araz (İbrahimov Məmməd İnfil oğlu (1933-2004) xalq şairi, əməkdar mədəniyyət işçisi.

Məmməd Cəfər (Cəfərov Məmməd Zeynalabdin oğlu (1909-1992) filologiya elmləri Doktoru, professor.

Məmməd Əkbər (Əkbərov Məmməd Həmzə oğlu) (1909-1974) yazıçı, publisist.

Məmməd Şirzad (Şirzadov Məmməd Firudin oğlu) (1946-....) rəssam, boyakar.

Məmmədova Tahirə Qəşəm qızı (1960-....) filologiya elmləri Doktoru.

Məmmədəliyev Həbib Mehdi oğlu (1912-1975) texnika elmləri Doktoru, professor.

Məmmədəliyev Yusif Heydər oğlu (1905-1961) kimya elmləri Doktoru, professor.

Məmmədquluzadə Cəlil Məmmədqulu oğlu (1869-1932) jurnalist, ictimai xadim.

Məmmədov Abdulla Məhəmməd oğlu (1905-2001) sosialist əməyi Qəhrəmanı.

Məmmədov Asəf Səttar oğlu (1959-....) gömrük xidməti general-mayoru.

Məmmədov Əli Cəlil oğlu (1898-1968) sosialist əməyi Qəhrəmanı.

Məmmədov Əli Əhməd oğlu (1931-....) texnika elmləri Doktoru, professor.

Məmmədov Əli Hüseyn oğlu (1955-1992) milli Qəhrəman.

Məmmədov Fəxrəddin Sadiq oğlu (1947-....) biologiya elmləri namizədi, professor.

Məmmədov Firudin İbrahim oğlu (1936-....) texnika elmləri Doktoru, professor.

Məmmədov Həmid Cəfər oğlu (1923-1997) sosialist əməyi Qəhrəmanı.

Məmmədov Həsən Məmmədhüseyn oğlu (1912-1985) sosialist əməyi Qəhrəmanı.

Məmmədov Hüseyn Abdulla oğlu (1906-1972) sosialist əməyi Qəhrəmanı.

Məmmədov Hüseyn Qurban oğlu (1906-1970) sosialist əməyi Qəhrəmanı.

Məmmədov İbrahim Əhməd oğlu (1934-2006) xalq artisti.

Məmmədov İbrahim Xəlil oğlu (1930-2006) əməkdar iqtisadçı.

Məmmədov İbrahim İsmayıl oğlu (1958-1994) milli Qəhrəman.

Məmmədov İsa Əli oğlu (1925-2006) əməkdar müəllim, sosialist əməyi Qəhrəmanı.

Məmmədov Adil Nifti oğlu (1931-....) əməkdar həkim, tibb elmləri namizədi.

Məmmədov İsmayıl Məmməd oğlu (1919-2006) həkim cərrah, tibb elmləri Doktoru, professor.

Məmmədov İsmayıl Məmmədrəhim oğlu (1909-1981) hərbiçi, polkovnik.

Məmmədov İsrafil Allahverdi oğlu (1927-1995) kimya elmləri Doktoru, professor.

Məmmədov Qulam Kərim oğlu (1904-1985) pedaqoji elmlər namizədi, dosent.

Məmmədov Mehrab Məmməd oğlu (1957-....) əməkdar müəllim.

Məmmədov Məmməd Qəzənfər oğlu (1920-1987) bəstəkar, əməkdar incəsənət xadimi.

Məmmədov Mənsum Həsən oğlu (1954-....) əməkdar müəllim.

Məmmədov Mütəllim Əhməd oğlu (1938-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Məmmədov Nəriman Həbib oğlu (1928-2006) bəstəkar, əməkdar incəsənət xadimi.

Məmmədov Nəsir Nəsirzadə oğlu (1907-1982) əməkdar müəllim, filologiya elmləri Doktoru, professor.

Məmmədov Nizami İmaməli oğlu (1940-2004) əməkdar idman ustası.

Məmmədov Novruz İsmayıl oğlu (1947-....) dövlət müşaviri, filologiya elmləri namizədi.

Məmmədov Rauf Hüseyn oğlu (1933-....) coğrafiya elmləri namizədi, dosent.

Məmmədov Rəşid Rza oğlu (1936-2005) bəstəkar, əməkdar mədəniyyət işçisi.

Məmmədov Şirəli Nəsirzadə oğlu (1904-1984) texnika elmləri Doktoru, professor.

Məmmədov Tofiq Məhəmməd oğlu (1935-2006) tarix elmləri Doktoru.

Məmmədov Tofiq Sadıq oğlu (1957-....) biologiya elmləri Doktoru.

Məmmədov Firudin Məmməd oğlu (1921-1998) müharibə veteranı, əlaçı kino mexanik.

Məmmədov Əbülfəz Firudin oğlu (1949-2012) kino mexanik, əməkdar mədəniyyət işçisi.

Məmmədov Vasif Cəfər oğlu (1948-2016) əməkdar mədəniyyət işçisi, tarix elmləri namizədi.

Məmmədov Ənvər oğlu (1942-....) əməkdar idman ustası, respublika dərəcəli hakim.

Məmmədov Yəhya Cəfər oğlu (1980-2000) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Məmmədov Yuran Əli oğlu (1934-1984) boyakar rəssam.

Məmmədov Yusif Şıxməmməd oğlu (1896-1983) sosialist əməyi Qəhrəmanı.

Məmmədov Zəkəriyyə Məhərrəm oğlu (1937-....) zooloq-entomoloq, biologiya elmləri Doktoru.

Məmmədova Məsumə Hüseyn qızı (1951-....) kibernetik, texnika elmləri Doktoru.

Məmmədova Səidə Müslim qızı (1942-....) əməkdar mədəniyyət və incəsənət xadimi.

Məmmədova Siddiqə Rza qızı (1925-2006) əməkdar elm xadimi, biologiya elmləri Doktoru.

Məmmədova Svetlana Həmid qızı (1939-1990) kimya elmləri Doktoru, professor.

Məmmədova Venera Vasif qızı (1954-....) maarif əlaçısı, əməkdar müəllimə.

Məmmədov Məhərrəm Əli oğlu (1924-2006) kimya elmləri Doktoru, professor.

Mərdanov Əmir Əkbər oğlu (1928-1995) biologiya elmləri Doktoru.

Mirheydərzadə Mirbağır Mirheydər oğlu (1877-1956) diyarşünas-etnoqraf.

Mirişli Adil Mircəfər oğlu (1938-2016) əməkdar həkim, tibb elmləri namizədi.

Mirişli Adilə Yusif qızı (1913-1987) əməkdar müəllimə.

Mirişli Ramiz Aqil oğlu (1934-2014) bəstəkar, xalq artisti.

Mirzəyev Yusif Vəli oğlu (1958-1993) milli Qəhrəman.

Mollayev İbrahim Abbas oğlu (1930-1997) pedaqoji elmlər Doktoru.

Mehbalıyev Səttar Suliddin oğlu (1955-....) iqtisad elmləri Doktoru.

Mövləvi Tofiq Səməd oğlu (1938-2006) əməkdar artist.

Mövsümov Zeynalabdin Rəsul oğlu (1925-2006) aqrokimyaçı, kənd təsərrüfatı elmləri Doktoru, professor.

Muradov Babaxan Sultan oğlu (1927-2006) əməkdar müəllim.

Muradova Xalidə Məmmədəli qızı (1925-2010) əməkdar müəllimə.

Musayev Camaləddin Haşım oğlu (1956-....) kimya elmləri Doktoru, professor.

Musayev İsa Həsən oğlu (1912-1976) xalq artisti.

Musayev İsmayıl Məhərrəm oğlu (1954-....) tarix elmləri Doktoru, professor.

Mustafayev Kərəm Nəriman oğlu (1962-....) hərbiçi, general-leytenant.

Mustafayev Şəmil Murtuz oğlu (1929-2009) əməkdar rəssam.

Müfiszadə Cəmil Miryusif oğlu (1934-2004) əməkdar rəssam.

Mütəllimov Təhsin Mütəllim oğlu (1932-2006) tənqidçi, filologiya elmləri Doktoru, professor.

Mütəllimov Tofiq Mütəllim oğlu (1929-1992) şair, əməkdar incəsənət xadimi.

Nadirov Abbasqulu Allahverdi oğlu (1904-1981) “Qırmızı tabor”çu.

Nadirov Asəf Abbasqulu oğlu (1930-2006) iqtisad elmləri Doktoru, professor.

Nağıyev Möhsün Zeynalabdin oğlu (1946-....) filologiya elmləri Doktoru.

Nağıyev Əli Teymur oğlu (1954-....) texnika elmləri Doktoru, professor.

Nağıyev Qəzənfər Piri oğlu (1915-1991) sosialist əməyi Qəhrəmanı.

Nağıyev Nağı Kərim oğlu (1910-1981) nasir, yazıçı-dramaturq.

Nağıyev Telan Talıb qızı (1924-1008) əməkdar aktrisa.

Naxçıvanski Cəmşid Cəfərqulu oğlu (1895-1938) hərbiçi, briqada komandiri.

Nəbiyev Vəli Nəbi oğlu (1955-1998) filologiya elmləri Doktoru, professor.

Nəbiyev Yusif Mustafa oğlu (1926-1980) dövlət maliyyə işçisi.

Nəbiyev Adil Yusif oğlu (1925-1989) əməkdar elm xadimi, fəlsəfə elmləri Doktoru, professor.

Nəcəfov Rzaqulu Ələkbər oğlu (1884-1938) mətbuat xadimi və publisist.

Nəcəfova Zərifə Nəcəf qızı (1935-2015) kimya elmləri namizədi, dosent.

Nəcəfova Nazlı Məmməd qızı (1890-1977) əməkdar müəllimə.

Nəsirli Məmməd Nəsir oğlu (1911-1979) tarix elmləri namizədi.

Nəsirli Müzəffər Qasım oğlu (1911-1980) şair, müharibə veteranı.

Nəsirov Vəli Hüseynqulu oğlu (1925-1987) fəlsəfə elmləri Doktoru, professor.

Novruzlu Əziz İsa oğlu (1956-....) tarix elmləri Doktoru.

Novruzlu Manaf Əbdürrəhim oğlu (1926-....) tibb elmləri Doktoru, professor.

Novruzov Rafiq Manaf oğlu (1952-....) filologiya elmləri Doktoru, professor.

Novruzov Sabir Abbasqulu oğlu (1940-....) cərrah, səhiyyə əlaçısı, əməkdar həkim.

Novruzova Cəmilə Həsən qızı (1930-2006) sənətşünaslıq Doktoru, professor.

Nuriyev Əli Nəcəfqulu oğlu (1928-2008) kimya elmləri Doktoru, professor.

Ordubadi Məmmədsəid Hacıağa oğlu (1872-1950) yazıçı, dövlət mükafatı laureatı.

Orucəliyev Nəriman Bilal oğlu (1930-2003) pedaqoji elmlər namizədi, dosent.

Paşayev Ataxan Əvəz oğlu (1938-....) tarix elmləri namizədi, əməkdar mədəniyyət işçisi.

Ramazanov Fərrux Fətulla oğlu (1922-2008) fəlsəfə elmləri Doktoru, professor.

Ramazanova Yasəmən Allahverdi qızı (1958-....) əməkdar aktrisa.

Ramiq Muxtar (Nağıyev Ramiq Muxtar oğlu) (1942-2008) şair, dramaturq.

Rəcəbov Aydın Cəfər oğlu (1956-....) əməkdar rəssam.

Rəfiyev Nəcəfqulu Rəcəbəli oğlu (1912-1970) Sovet İttifaqı Qəhrəmanı.

Rəhimov Arzu Yusif oğlu (1964-....) hərbiçi, general-mayor.

Rəhimov Ədalət Vilayət oğlu (137-2003) kimya elmləri Doktoru, professor.

Rəhimov Kamran Nəbi oğlu (1928-2015) tarix elmləri Doktoru, əməkdar elm xadimi.

Rəhimov Mikayıl İsmayıl oğlu (1930-2010) kənd təsərrüfatı elmləri Doktoru, professor.

Rəhimov Rəhim Cəfər oğlu (1920-2005) müharibə veteranı, "Şöhrət" medalının üç dərəcəli mükafatçısı.

Rəhimov Rəhim Kərəm oğlu (1920-2010) iqtisad elmləri Doktoru, professor.

Rəhimov Rəhim Mirməhəmməd oğlu (1923-2006) rentgenoloq, tibb elmləri Doktoru, professor.

Rəhimov Sadıq Rəsul oğlu (1943-....) ticarət əlaçısı, əmək veteranı.

Rzayev Kərim Novruz oğlu (1912-1995) metallurq, sosialist əməyi Qəhrəmanı.

Rzayev Novruz Kərim oğlu (1883-1941) dövlət Təhlükəsizlik Komitəsinin fəxri əməkdaşı.

Rzayev Ramiz Həsənqulu oğlu (1939-....) kimya elmləri Doktoru, professor.

Rüstəmov Behrudi (Alməmmədov Rüstəm Hidayət oğlu) (1957-....) şair, publisist.

Rüstəmov Ağarza Ağahəsən oğlu (1952-....) iqtisad elmləri Doktoru.

Rüstəmov Məmməd İbrahim oğlu (1930-2008) texnika elmləri Doktoru, professor.

Rüstəmov Muxtar İbrahim oğlu (1931-2010) geologiya-mineralogiya elmləri namizədi.

Rüstəmov Musa İsmayıl oğlu (1930-....) texnika elmləri Doktoru, professor, əməkdar elm xadimi, dövlət mükafatı laureatı.

Rüstəmov Yavuz İsmayıl oğlu (1933-....) texnika elmləri Doktoru, professor.

Rüstəmova Raziyə Əli qızı (1936-2014) sosialist əməyi Qəhrəmanı.

Rzayev Abbas Heydər oğlu (1945-....) texnika elmləri Doktoru.

Rzayev Bayram Zülfüqar oğlu (1941-....) kimya elmləri Doktoru.

Rzayev Həbib Allahverdi oğlu (1923-1997) ədliyyə general-mayoru.

Rzayev Məmməd Hüseyn oğlu (1952-....) filologiya elmləri namizədi.

Rzayev Ramiz Yaqub oğlu (1953-....) 2-ci dərəcəli ədliyyə müşaviri, general-mayor.

Rzayev Tofiq Heydər oğlu (1935-2014) texnika elmləri Doktoru, professor.

Rzayeva Səkinə Məmməd qızı (1912-1991) ictimai xadim, qabaqcıl maarif işçisi.

Rzayeva Sürəyya Məmməd qızı (1968-....) əməkdar müəllimə.

Sadıqov Fuad Mikayıl oğlu (1950-....) kimya elmləri Doktoru, professor.

Sadıqov İsmayıl Rza oğlu (1941-....) texnika elmləri Doktoru.

Sadıqov Muxtar Zeynal oğlu (1929-1977) filologiya elmləri Doktoru, professor, "Qızıl qələm" mükafatı laureatı.

Sadıqov Nurəddin Sadıq oğlu (1935-....) hərbiçi, general-mayor, hərbi elmlər namizədi.

Sadıqov Şükür Əli oğlu (1924-1994) tarix elmləri Doktoru, professor, maarif əlaçısı.

Sadıqov İsmayıl Sadıq oğlu (1937-....) biologiya elmləri namizədi, dosent.

Sadıqzadə Sadıq İsmayıl oğlu (1917-1988) kimya elmləri Doktoru, professor.

Salehov Akif Əyyub oğlu (1951-....) tibb elmləri Doktoru.

Səlmanov Arif Hənifə oğlu (1942-....) coğrafiya elmləri Doktoru.

Seyidli Həmzə Səməd oğlu (1953-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Seyidli Abbas Qadir oğlu (1957-....) arxeoloq, tarix elmləri Doktoru, professor, "Qızıl qələm" mükafatı laureatı.

Seyidov Məhərrəm Mirəziz oğlu (1952-1990) milli Qəhrəman.

Seyidov Mirəsgər Mirabdulla oğlu (1970-1992) milli Qəhrəman.

Seyidov Mirheydər Mirabbas oğlu (1894-1953) sosialist əməyi Qəhrəmanı.

Seyidov Mirhidayət Miradil oğlu (1887-1919) AXC parlament üzvü.

Seyidov Nadir Miribrahim oğlu (1932-2008) kimya elmləri Doktoru, professor.

Seyidov Yəhya Qasım oğlu (1920-1980) tənqidçi, filologiya elmləri Doktoru.

Seyidov Yusif Mirəhməd oğlu (1929-2006) filologiya elmləri Doktoru, professor.

Seyidov Yühənnas Mirhəsən oğlu (1927-1996) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Səfərli Əliyar Qurbanəli oğlu (1937-....) maarif xadimi, filologiya elmləri Doktoru, professor.

Səfərli Fəxrəddin Yəhya oğlu (1949-....) tarixçi-epiqrafçı, tarix elmləri Doktoru.

Səfərli İslam Əhməd oğlu (1923-1974) şair, əməkdar incəsənət xadimi.

Səfərov Şahin Tağı oğlu (1928-1995) tənqidçi, filologiya elmləri Doktoru, professor.

Səfərov Yaşar Abutalıb oğlu (1940-2012) müğənni, əməkdar artist.

Səfərov Yunis Baxşəli oğlu (1926-1994) baytarlıq elmləri Doktoru, professor.

Sidqi (Səfərov Məmmədtağı Səfər oğlu) (1854-1903) maarifçi, publisist.

Sultanlı Əli Abdulla oğlu (1906-1960) filologiya elmləri Doktoru, professor.

Sultanov Eynəlibəy Çölübəy oğlu (1866-1935) Naxçıvanda teatr təməlçisi.

Sultanov Qeys Cəmşid oğlu (1930-....) fizika-riyaziyyat elmləri Doktoru.

Sultanov Mehdi Nəcəf oğlu (1924-2006) terapevt-herontoloq, əməkdar həkim, tibb elmləri Doktoru, professor.

Sultanov Rüstəm Möhsün oğlu (1910-1990) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Sultanov Sultan Əsgər oğlu (1927-2008) kimya elmləri Doktoru, professor.

Sultanzadə Nazim Müzəffər oğlu (1938-....) texnika elmləri Doktoru, professor.

Sultanzadə Zahid Müzəffər oğlu (1941-....) texnika elmləri Doktoru, professor.

Süleymanov Ayxan Firudin oğlu (1974-....) diplomant, 1-ci dərəcəli fövqəladə və səlahiyyətli elçi.

Süleymanov Mirzə Ələkbər oğlu (1862-1921) maarif və teatr xadimi.

Şahmərdanova Fatma Şahbaz qızı (1934-....) maarif qabaqcılı, əməkdar müəllimə.

Şahsuvarov Aydın Ağa oğlu (1931-1986) aktyor, xalq artisti.

Şahtaxtinski Behbud Əliağa oğlu 91881-1924) diplomant.

Şahtaxtinski Əbülfəz Nəcəfqulu oğlu (1858-1913) hərbiçi, polkovnik.

Şahtaxtinski Həbibulla Baxşəli oğlu (1900-1986) kimya elmləri Doktoru, professor.

Şahtaxtinski Həmid Xəlil oğlu (1880-1944) maarifçi, AXC dövlət xadimi.

Şahtaxtılı Məhəmməd Sultan oğlu (1846-1931) publisist və ictimai xadim.

Şahverdiyev Səbuhi Zəhmət oğlu (1972-....) 3-cü dərəcəli ədliyyə müşaviri, prokuror.

Şeyxov Nəsrulla Əsəd oğlu (1863-1921) maarif və teatr xadimi.

Şirəliyev Həsən İsmayıl oğlu (1929-1997) fəlsəfə elmləri Doktoru, professor.

Şirəliyev Şulan İsmayıl oğlu (1935-2004) filologiya elmləri Doktoru, professor.

Şirəliyev Asif İsmayıl oğlu (1939-2006) iqtisad elmləri Doktoru, professor.

Şirəliyev Vasif Müseyib oğlu (1936-....) iqtisad elmləri Doktoru, professor.

Tağıyev Adil Cəlil oğlu (1928-1988) sosialist əməyi Qəhrəmanı.

Tağızadə Allahverdi Abbas oğlu (1932-2000) pedaqoji elmlər namizədi, dosent.

Talıbov Abbas Allahverdi oğlu (1936-1997) əməkdar mühəndis və inşaatçı.

Talıbov Vasif Yusif oğlu (1960-....) dövlət xadimi.

Talıbov Əli Abdulla oğlu (1916-2006) fəlsəfə elmləri namizədi, dosent.

Talıbov Tariyel Hüseynəli oğlu (1949-....) biologiya elmləri Doktoru.

Talıbova Bahar Məhərrəm qızı (1927-2003) sosialist əməyi Qəhrəmanı.

Tamayev Nəbi Koroğlu oğlu (1887-1957) sosialist əməyi Qəhrəmanı.

Teymurov Kamil Heydər oğlu (1914-1998) meliator, kənd təsərrüfatı elmləri Doktoru.

Təhmasib Rza Abbasqulu oğlu (1894-1980) xalq artisti, əməkdar incəsənət xadimi.

Təhmasib Məmmədhüseyn Abbasqulu oğlu (1907-1982) filologiya elmləri Doktoru, professor.

Təhmasib Cəmilə Abbasqulu qızı (1925-2006) psixologiya elmləri namizədi, dosent.

Tofiq Mahmud (Mehdiyev Tofiq Mahmud oğlu) (1931-1997) şair, nasir və jurnalist.

Vəkilov İlyas Sultan oğlu (1905-1987) dövlət xadimi, iqtisad elmləri namizədi, dosent.

Vəliyev Balakişi Əhməd oğlu (1927-2001) terapevt, tibb elmləri Doktoru, professor.

Vəliyev Məmməd Hüseynəli oğlu (1943-....) kimya elmləri Doktoru, professor.

Vəliyev Saleh Cəbrayıl oğlu (1938-....) statistika əlaçısı, əməkdar iqtisadçı.

Vəliyev Sevindik İslam oğlu (1945-....) türkoloq, filologiya elmləri Doktoru.

Vəliyev Zöhrab Əhməd oğlu (1953-2003) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Vəliyev Zöhrab Hüseynəli oğlu (1932-2006) qabaqcıl maarif işçisi, əməkdar müəllim.

Vəliyeva Xasa Cahangir qızı (1909-1984) sosialist əməyi Qəhrəmanı.

Vəzirov Cəlil Həbib oğlu (1944-2008) əməkdar mədəniyyət işçisi.

Vəzirov Heydər Sadıq oğlu (1893-1937) dövlət xadimi, komissar.

Yusifli Əliyar Yusif oğlu (1929-1993) şair, dramaturq.

Yusifov İbrahim Yusif oğlu (1954-....) xalq maarifi əlaçısı.

Yusifzadə Əşrəf Əmrah oğlu (1906-1963) aktyor, xalq artisti.

Zalov Oruc İbrahim oğlu (1952-....) polis general-leytenantı.

Zamanov Abbas Fəttah oğlu (1911-1993) tənqidçi, filologiya elmləri Doktoru, professor.

Zamanov Asəf Dağbəyi oğlu (1957-....) fizika-riyaziyyat elmləri Doktoru, professor.

Zamanov Paşa Bayram oğlu (1927-2006) aqrokimyaçı, kənd təsərrüfatı elmləri Doktoru, professor.

Zeynalov Azər Zeynalabdin oğlu (1964-....) müğənni, xalq artisti.

Zeynalov Zeynalabdin İsmayıl oğlu (1938-....) şair, publisist.

Zeynalov Fərhad Ramazan oğlu (1929-1984) türkoloq, filologiya elmləri Doktoru, professor.

Zeynalov Həsən Sultan oğlu (1951-....) diplomat.

Zeynalov Vüqar Səfəralı oğlu (1977-....) beynəlxalq dərəcəli idmançı.

Zülfüqarlı Cümşüd İsmayıl oğlu (1905-1982) əməkdar və qabaqcıl elm xadimi, kimya elmləri Doktoru, professor.

BÖLMƏ 12

Tarixi abidələrin mühafizəsi üçün telefon əlaqəsi

Qaynar xətt: 209

1. Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi:

Ümumi şöbə:..... 545 02 52

Nazir müavini:..... 545 02 51

Tarixi abidələr şöbəsi:..... 545 02 54

Turizm şöbəsi:..... 545 52 10

Elmi-Metodik Mərkəz:..... 545 02 57

2. Naxçıvan şəhərindəki müəssisələr:

Naxçıvan MR TAMC..... 060 540 27 16

Dövlət tarix muzeyi: 545 01 39

Ədəbiyyat muzeyi: 545 16 86

Xalça muzeyi: 544 77 20

Xatirə muzeyi: 544 50 07

C.Naxçıvanski ev-muzeyi: 545 21 16

H.Cavid ev-muzeyi: 545 27 16

C.Məmmədquluzadə ev-muzeyi: . 545 67 86

B.Kəngərli ev-muzeyi: 545 71 11

H.Əliyev muzeyi: 545 92 98

Xan Evi muzeyi:..... 40 02 18

3. Şəhər (rayon) Mədəniyyət və Turizm Şöbələri:

Naxçıvan şəhəri: 545 03 51

Babək rayonu: 541 30 60

Culfa rayonu:..... 546 04 23

Ordubad rayonu:..... 547 11 86

Şahbuz rayonu: 543 03 86

Kəngərli rayonu: 48 17 07

Şərur rayonu: 542 23 15

Sədərək rayonu: 549 04 49

4. Naxçıvan MR Ali Məclisi: 544 01 24

5. Naxçıvan MR Nazirlər Kabineti: . 545 02 27

6. MEA-ın Naxçıvan Bölməsi: 545 05 01

BÖLMƏ 13

Tarixi ölçü və çəki vahidləri

Məsafə (uzunluq) ölçüsü üçün:

1 Arşın = 16 gireh = 28 düyüm = 71,12 sm = 0,45 m (metr).

1 Qulac = 40-64 sm (50-70 sm) (Rusiyada 4,55- 4,75 sm).

1 Verst = 1,0668 km = 500 sajen.

1 Hektar = 0,9153 desyata.

1 Desyat = 1,0925 hektar.

1 Yard = 3 fut = 36 düyüm = 91,44 sm.

1 Lyö (Fransız su ölçüsü ilə) = 4,5 km.

1 Düyüm (İngilis ölçüsü ilə) 1 düyüm = 1/12 fut = 0,254 m (metr).

(Rus ölçüsü ilə) 1 düyüm = 1/12 fut = 10 xətt = 10,54 sm.

1 Sajın = 1,85 m (metr) = 3 arşın = 7 fut.

1 Mil = 1478 m (metr).

1 Stadi = 185 m (metr).

1 Fut (ingiliscə, foot-(pillə) deməkdir) = 12 düyüm = 0,3048 m (metr).

(Rus ölçüsü ilə) 1 fut = 1/7 sajen = 12 düyüm = 0,3048 m (metr).

Çəki ölçüsü üçün:

1 Misqal = 4,266 qr (qram) = 1,96 girvənkə.

1 Talant = 41 kq (kiloqram).

1 Girvənkə = 409,5 qr (qram).

1 Sitra = 327,45 qr (qram).

1 Batman = 20 funt = 8,19 kq (kiloqram).

1 Xalvar = 20 pud = 800 funt = 1.338 kq (kiloqram).

1 Pud = 40 funt = 16,38 kq (kiloqram).

1 Sentner = 100 kq (kiloqram) = 6,1 pud = 244,2 funt.

1 Funt = 0,40951241 kq (kiloqram) = 1/40 pud.

BÖLMƏ 24

Ədəbiyyat

"Ədəbiyyat və incəsənət" qəzeti 1960-cı il 5 mart № 10, 1969-cu il 13 sentyabr № 37, 1988-ci il № 24.

"İqbal" qəzeti 1914-cü il 16 iyun № 22.

"ASE-10 cilddə" Bakı- 1976-1989.

"Aşıq Ələsgər" (2 kitab) Bakı- 1972.

"Azərbaycan Elmlər Akademiyasının 50 illiyi" Bakı- 1995.

"Azərbaycan Tarixi" (7 cilddə) Bakı- 1998.

"Azərbaycan" jurnalı 1966- cı il № 3.

"Azərbaycan" qəzeti 8 fevral 2001- ci il № 31.

"Bəhruz Kəngərli" "Çaşıoğlu" nəşriyyatı Bakı- 2005.

"Dostlar tövhəsi" (Naxçıvan və İranlı şairlərin şerləri) Naxçıvan- 2008.

"İskusstvo Azerbaydjana" (rusca) (4 cilddə) Bakı- 1954.

"Qobustan" jurnalı 1999-cu il № 2.

"Quran" (Z.Bünyadov və V.Məmmədəliyevin tərcüməsi) Bakı- 2005.

"Mədəni-maatif" jurnalı 2007-ci il № 1-2, 2009-cu il № 8-9.

"Naxçıvan Abidələri Ensiklopediyası" Bakı- 2008.

"Naxçıvan Ensiklopediyası" (2 cilddə) Naxçıvan- 2005.

"Naxçıvan tarixi" (3 cilddə) Naxçıvan- 2013-2015.

"Naxçıvan MR Tarixi və Arxeoloji Abidələr haqqında məlumat kitabı" ("Qızıldağ" nəşriyyatı) Naxçıvan- 2009.

"Naxçıvan Muxtar Respublikasının Konstitusiyası" (Əsas Qanun) Bakı- 1999.

"Readers Digest" jurnalı (ingiliscə) ABŞ, dekabr 1977.

"Sovet Ermənistanı" qəzeti 1921-ci il 27 sentyabr.

"Şərq qapısı" qəzeti 1941-ci il 22 oktyabr, 1947-ci il 21 fevral, 4 oktyabr 1949-cu il, 28 may 1986-cı il, 30 yanvar 1990-cı il, 20 yanvar 2001-ci il № 20, 2002-ci il № 160, 163, 2009-cu il 23-28 aprel, 2009-cu il, № 186, № 199.

A.Babayev, "Yarımçıq şəkil" (pyes) Bakı- 965.

A.Qasımov, "XX əsrdə Naxçıvanda erməni-Azərbaycan ziddiyyətləri" Bakı- 1996.

A.Qasımov, "Naxçıvanın ərazi taleyi və müasir dövr" Bakı- 1996.

A.Məmmədov, "Naxçıvan MSSR-də səhiyyənin tarixi və mərhələli inkişafı" Bakı- 2006.

AMEA-60 "Azərbaycanda elmin inkişafı və regional problemlər" Bakı- 2005.

C.Heyyət, Azəri Türkləri haqqında həqiqətlər" "Varlıq" jurnalı I-V- 2008.

Ə.Eyvazlı, "Naxçıvan qədim türk torpağıdır" Bakı- 2006.

Ə.Əliyev, "Biz əzablı ömür yaşadıq" Bakı- 1994.

Ə.Əliyev, "Qırmızı tabor" Bakı- 1990.

Ə.Xəlilov, "Naxçıvan teatrının tarixi" Bakı- 1964.

Ə.Quliyev, "Naxçıvan kəhrizləri" Bakı- 2008.

Ə.M.Əhmədov, "A.Bakıxanov ;dövrü, həyatı və fəaliyyəti" (rusca) Bakı- 1966.

Ə.Salamzadə, "Arazboyu abidələr" Bakı- 979.

F.Bağırov, "Əzablı günlər" Naxçıvan- 2006.

F.Bağırov, "Naxçıvanın təbii sərvətləri" Bakı- 2008.

F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı- 2008.

F.Bağırov, "Nuh yurdu- Naxçıvan" Bursa- 1999.

F.Bağırov, "Ziyarətnamə" Bursa- 1996.

F.Bağırov, "Yamanlığa yaxşılıq" Naxçıvan- 2016.

F.Cəfərov, "Naxçıvan polisinin inkişaf yolu" Bakı- 2008.

F.Əliyev, "Naxçıvan xanlığı" Bakı- 1996.

F.Xəlilov, M.Əliyev, "Naxçıvanı öyrənən elmi cəmiyyət" Bakı- 2005.

F.Kərimzadə, "Xudafərin" "Çaldıran döyüşü" (sənədli-tarixi romanlar) Bakı- 1982-1987.

F.Səfərov, "Qəbirüstü daş-qoç və qoyun heykəlləri haqqında Bakı- 1998.

H.Araslı, “Kitabi-Dədə Qorqud” Bakı- 1978.

H.Arzulu, “Qaçaq Quşdan” (sənədli-tarixi roman) Bakı- 2000.

Harun Yəhya, “Zamansızlıq və tale həqiqəti” İstanbul- 2008.

Herodot, ”İstoriya” (9 kitab, rusca) Leninqrad- 1972.

Həmzə Vəli, “Babəkin son taleyi” Bakı-1 998.

X.Əhmədov, “Azərbaycanda sovetlərin yaradılması və möhkəmləndirilməsi” Bakı- 1966.

İ.Balazuri, “Kniqa zavoevaniya stran” (russca) Bakı- 1927.

İ.Dyakonov, “Oçerki istorii drevnoqo İrana” (rusca) Moskva- 1961.

İ.Hacıyev, “Gümrü, Moskva, Qars müqaviləsi və Naxçıvanın taleyi” Bakı- 1999.

İ.Hacıyev, “Naxçıvan və naxçıvanlılar” Bakı- 2001.

İ.Həbibbəyli, C.Məmmədquluzadə mühiti və müasirləri” Bakı- 1997.

İ.Həbibbəyli, C.Məmmədquluzadənin həyat və yaradıcılığının əsas tarixləri” Bakı- 1986.

İ.Kazımov, “Naxçıvan; əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair” Bakı- 2007.

İ.Kərimov, “Naxçıvan musiqi mədəniyyəti tarixindən...” Bakı- 2006.

İ.Qiyasi, “Nizami dövrü memarlıq abidələri” Bakı- 1991.

İ.Musayev, “Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrindəki siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921)” Bakı- 1996.

“İslam” (ASE-nın qısa məlumat kitabı) Bakı- 989.

K.Allahyarov, “Naxçıvan sözünün mənşəyi və mənası” Naxçıvan- 2002.

K.Kərimov, “Bəhruz Kəngərli” Bakı- 1963.

K.Nikitin, “Narodnıye predaniya v Nax. uezde” (rusca) Tiflis- 1882.

“Gənc Rəssamların Yaradıcılıq Sərgisi” (məlumat kataloqu) Naxçıvan-1974.

Q.Bakıxanova, “Qüdsi haqqındakı etüdlər” (rusca), Bakı- 1984.

Q.Qədirzadə, ”Nuh peyqəmbər,Dünya tufanı və Naxçıvan” Naxçıvan- 2008.

Q.Mədətov, “Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi...” Bakı- 1958.

Qerodot, “İstoriya” (rusca) Leninqrad- 1972.

L.Hüseynzadə, Naxçıvan teatrının tarixindən" Bakı- 2002.

M.Əliyev, "Naxçıvan MR-da bədən tərbiyəsi və idman hərəkatı" Bakı- 1999.

M.Xorenski və başqaları, "Qilqameş..." (rusca) Moskva- 1979.

M.İsmayılov, "Qara Yusif" (sənədli-tarixi roman) Bakı- 1991.

M.Quliyev, "I Ehsan xan Naxçıvanskinin Varşava və Sankt-Peterburqa səfəri" (AMEA Naxçıvan bölməsinin elmi məqalələri) Naxçıvan- 2009.

M.Qurbanov, Sovet Azərbaycanının kinosu" Bakı- 1989.

M.Nəcəfov, "Bəhruz Kəngərli" Bakı- 1957.

M.Təhmasib, "Koroğlu" Bakı- 1977.

N.Əsədova, "Naxçıvan qəzasının iqtisadi-mədəni həyatında Kəngərlilərin rolu" (AMEA Naxçıvan bölməsinin elmi məqalələri) Naxçıvan- 2005.

Nizami Gəncəvi" (Lirika, "Sirlər xəzinəsi", "Şərəfnamə") Bakı- 1988.

Plutarx, "İskəndər Zülqərneyn" Bakı- 1992.

Ptolomey, "Coğrafi təlimnamə" (rusca 5 kitab) Moskva- 1979.

R.N.İvanov, "Bəyazidin müdafiəsi: Həqiqət və yalan" (rusca),Moskva- 2007.

R.N.İvanov, "Naşestviye" (Basqın) (rusca) Moskva- 2009.

S.Babayev, "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" Bakı- 1999.

S.Rəhmanov, "Azərbaycan tacirləri" ("Səda" nəşriyyatı) Bakı- 2002.

"Sankt-Peterburqskiye vedomosti" qəzeti 2 mart 1828-ci il, № 18.

"Sovet Naxçıvanı" qəzeti 1987-ci il № 137.

Ş.Nəzirli, "Arxivlərin sirri açılır" Bakı- 1999.

T.Əliyev, "Babylon Azerbaijan" jurnalı (ingiliscə) ABŞ, Sietl- 2008-ci il № 1.

V.A.Potton, "Qafqaz müharibəsi..." (rusca 5 kitab) Tiflis- 1885-91.

V.Baxşəliyev, "Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti" Bakı- 2004.

V.Baxşəliyev, A.Seyidov, "Naxçıvanın qədim tarixi" Bakı- 1995.

V.Borisova, L.Maxnaç, "Pautina" sənədli-xronikal film (rusca) Moskva (MSFS)- 1969.

V.Mustafayev, "Təhlükəsizliyimizin tarixi" sənədli-xronikal film Bakı- 2008.

Y.Mahmudov, "Səyyahlar Azərbaycana gəlir" Bakı-1 977.

Z.Bünyadov, ”Naxçıvan sancağının müfəssəl dəftəri” Bakı- 1997.

TARİXİN YADDAŞI

Feyruz Abdulla oğlu Bağırov 1946-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, ibtidai təhsilini şəhərdəki 5№-li orta məktəbdən başlayaraq Ali Pedaqoji İnstitut bitirmişdir. Əmək fəaliyyətinə erkən başlayan F. Bağırov mədəniyyət və xalq maarifi sahələrində çalışmışdır.



"Tarixin yaddaşı" adlı kitab, müəllifin uzun illər çəkdiyi zəhmətinin bəhrəsidir. Doğma yurdu Naxçıvan şəhərinin yarandığı dövrdən günümüzə kimi tarini mərhələlərlə göstərdiyi bu kitab müəllifin ən uğurlu əsəridir.

İctimai sosial-tarixi hadisələr xronoloji ardıcıllıqla yazılan kitab, müstəqil Azərbaycan və tərkibindəki Naxçıvan Muxtar Respublikası ərazi bütövlüyü qorunaraq saxlarsanmaması təbliğ edilməklə, oxucuya vətənpərvərlik ideyalarını da geniş təlqin edir.

Kitabda Cənubi Qafqazda yerləşmiş Naxçıvan diyarının sosial-tarixi məqamları ardıcıllıqla izlənmiş, son illərin ictimai siyasi hadisələri geniş şərh edilmiş və Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra onun dünya dövlətləri arasında artan nüfuz səbəbi göstərilmişdir.

Müəllif "Tarixin yaddaşı" kitabını təkmilləşmiş formada yenidən üzərində işləyərək və Naxçıvan Muxtar Respublikası yaradılmasının 85 illiyinə töhfə kimi qələmə almışdır.

Müəllifin Web saytı: www.nuhyurdu.com
E-mail ünvanı: info@nuhyurdu.com

ISBN 978-605-12345-6-7
9 786051 234567

Feyruz Bağırov

QƏDİM İRS
NƏŞRİYYATI